AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ




# İQTİSADİ İNKİŞAFIN NAXÇIVAN MODELİ VƏ MÜHASİBAT UÇOTUNUN AKTUAL PROBLEMLƏRİ

## MÖVZUSUNDA ELMİ KONFRANSIN MATERİALLARI

14 noyabr 2019-cu il

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**
**İQTİSADİYYAT VƏ İDARƏETMƏ FAKÜLTƏSİ**

# "İQTİSADİ İNKİŞAFIN NAXÇIVAN MODELİ VƏ MÜHASİBAT UÇOTUNUN AKTUAL PROBLEMLƏRİ"

## MÖVZUSUNDA ELMİ KONFRANSIN MATERİALLARI

***14 noyabr 2019-cu il***

Naxçıvan Dövlət Universitetinin
Elmi Şurasının 28 noyabr 2019-cu il
tarixli 3 saylı qərarı ilə nəşr edilib.

**Naxçıvan – 2020**

Naxçıvan Dövlət Universiteti. "İqtisadi inkişafın Naxçıvan modeli və mühasibat uçotunun aktual problemləri" mövzusunda elmi konfransın materialları, Naxçıvan, "Qeyrət" nəşriyyatı, 2020, 148 səh.

**BURAXILIŞA MƏSUL** **TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universitetinin "Mühasibat uçotu və maliyyə" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor*

**ELMİ REDAKTOR:** **AĞARZA RÜSTƏMOV**
*Naxçıvan Dövlət Universitetinin "İqtisadiyyat" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor*

© NDU, "Qeyrət" nəşriyyatı, 2020

# I BÖLMƏ. MÜHASİBAT UÇOTU, MALİYYƏ VƏ İQTİSADİ TƏHLİL

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
*teymurabbasov56@mail.ru*

## İQTİSADİ İNKİŞAFIN NAXÇIVAN MODELİ VƏ MÜHASİBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTLARA KEÇMƏSİNİN ZƏRURİLİYİ

*Elmi məqalədə ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu Naxçıvanın iqtisadi inkişaf modelində yerli təbii sərvətləri istifadə etməklə həm daxili tələbatın ödənilməsi, həm də dünya bazarına çıxışı təmin etmək üçün ixrac potensialının artması, investisiyanın təşkili, Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi və dünya iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi araşdırılmışdır. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının Beynəlxalq iqtisadiyyata inteqrasiya olunması üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlara keçməsi tədqiq edilmişdir.*

***Açar sözlər:*** *iqtisadi inkişaf, inkişaf dinamikası, iqtisadi model, inkişaf konsepsiyası, azad iqtisadi zona, inteqrasiya, mühasibat uçotu, Beynəlxalq Standartlar*

Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf strategiyasının əsas məqsədi və reallaşma mexanizmi minimum və maksimum kimi iki əsas hissədən ibarətdir. Minimum proqramın yerinə yetirilməsində nəzarət və dövlətin tənzimləyici rolunun gücləndirilməsi, iqtisadi tənzimlənmə mexanizmlərindən istifadə olunması əsas götürülmüşdür. Yeri gəldikdə, inzibati idarəetmənin iqtisadi yollarından daha geniş istifadə olunmalıdır. İkinci, maksimum mərhələ isə iqtisadi islahatların aparılması və bazar iqtisadiyyatının fəaliyyətinin əsas prinsiplərinin reallaşdırılmasıdır.

Bu prinsiplər Azərbaycan iqtisadiyyatının uzunmüddətli inkişaf dinamikası, qanunauyğunluqları və Naxçıvan Muxtar Respublikasının bazar iqtisadi təcrübəsində nəzəri və əməli cəhətdən reallaşan Heydər Əliyev iqtisadi idarəetmə və təşkilati mexanizmlərinin perspektivləri əsasında formalaşır.

Naxçıvanın iqtisadi və sosial inkişaf proqramının əsasını Heydər Əliyevin iqtisadi və sosial inkişaf konsepsiyası təşkil edir. Həmin konsepsiyanın işlənmə metodologiyası, reallaşma mexanizmi bir-birinə zidd olan iki iqtisadi sistemin təşkili və idarə olunmasında aparıcı şəxsiyyət olan Heydər Əliyevin nəzəri, elmi və praktik görüşlərinin dahi uzaq görənliklə məcmu şəkildə formalaşmasına və inkişaf etdirilməsinə əsaslanır.

Heydər Əliyevin Naxçıvan iqtisadi modelində aqrar sahə öncül mövqedə durur. Naxçıvan kənd təsərrüfatı quruluşunda struktur dəyişikliyi zərurətini o, təxirəsalınmaz vəzifə kimi qarşıya qoymuşdu. Heydər Əliyev tövsiyə edirdi ki, struktur siyasəti əhalinin tələbatına uyğun olaraq aparılmalıdır. Hər şeydən əvvəl, üzüm istehsalı sabitləşməli, taxıl, meyvə, kartof, şəkər çuğunduru, qarğıdalı, vələmir, çovdar, qarabaşaq istehsalı intensiv artmalıdır.

Naxçıvanda heyvandarlığın inkişafı üçün növbəti əkin sistemini artırmaq lazımdır.

Heydər Əliyevin Naxçıvan iqtisadi islahatlar modelinin real nəticəsidir ki, ilk dəfə Naxçıvan Muxtar Respublikasında mal və xidmət təklifi ilə əhalinin alıcılıq qabiliyyəti uzlaşdı, çörək və çörək məhsulları respublika səviyyəsi ilə müqayisədə 30 faiz, xalq istehlakı mallarının pərakəndə satış qiyməti 20 faiz ucuzlaşdı.

Heydər Əliyevin Naxçıvan iqtisadi inkişaf modelinin mühüm tərkib hissələrindən biri də azad iqtisadi zona yaradılması problemidir. Onun rəhbərliyi altında bu istiqamətdə bir sıra konkret təkliflər işlənib hazırlanmışdır və onların həyata keçirilməsi muxtar respublikanın təbii, sənaye və əmək resurslarından istifadə səviyyəsini yüksəltmişdir.

Azad iqtisadi zonaların mahiyyəti, vəzifələri, yaradılması prinsipləri müəyyənləşdirilmişdir. Belə zonaların dünya təcrübəsi ümumiləşdirilib Naxçıvan iqtisadiyyatında öz əksini tapmışdır.

Azad iqtisadi zonaların yaradılmasının iqtisadi-təşkilati problemləri, onların təsərrüfat mexanizmi, səmərəlilik göstəriciləri yüksəltməyin mənbəyi və mexanizmləri Heydər Əliyevin region iqtisadi idarəetmə modelidir.

Azad iqtisadi zonaların təşkilinin iqtisadi problemləri və konseptual inkişaf istiqamətləri Heydər Əliyevin Ali Məclisin sessiyalarındakı çıxışlarında geniş şərh olunmuşdur.

Azad iqtisadi zona şəraitində iqtisadi və sosial inkişaf problemlərinə aid bu nəzəri və əməli tövsiyələr belə zonaların Azərbaycanın digər bölgələrində də təşkilinə zəmin yaratdı.

Dünya iqtisadiyyatına inteqrasiya və Azərbaycanın digər ölkələrlə əməkdaşlığı Heydər Əliyevin iqtisadi strategiyasının əsas istiqamətlərindəndir. Bu mənada onun belə bir fikri inkarolunmazdır ki, ölkələrin iqtisadi sahədə bir-birilə düzgün qurulmuş ikitərəfli əməkdaşlığı, bir tərəfdən bu əlaqələrdə iştirak edən hər bir dövlət üçün mənfəətlidirsə, digər tərəfdən iqtisadi inteqrasiya bütövlükdə dünya iqtisadiyyatının inkişafının yeganə yoludur.

Bu baxımdan mühasibat uçotunun Beynəlxalq Standartlara keçməsi zərurəti yaranmışdır.

Uçot və hesabat sahəsində beynəlxalq standartların işlənib-hazırlanmasına və tətbiq edilməsinə tələbat aşağıdakı əsas səbəblərlə şərtlənmişdir:

1) Dünya təsərrüfat əlaqələrinin inkişafında transmilli şirkətlərin rolu;
2) Kapital bazarlarının inkişafına mühasibat uçotunun təsiri;
3) Mühasibat uçotunun regional sistemləri.

Məhz transmilli şirkətlərin xarici iqtisadi fəaliyyətindən əksər inkişaf etmiş ölkələrin ixracatının həcmləri və istiqaməti asılıdır. Etiraf etmək lazımdır ki, transmilli şirkətlər bütün dünyada iqtisadi inkişafın hərəkətvericisi kimi çıxış edir. Transmilli şirkətlər üçün müxtəlif ölkələrin şirkətlərinin birləşməsi və udulması prosesi səciyyəvidir, məsələn, yapon investorları ABŞ milli şirkətlərinin səhmlərini fəal surətdə alırlar, müxtəlif Avropa ölkələrinin şirkətlərinin birləşməsi prosesi gedir, onlar, öz növbələrində, Asiya regionu şirkətləri ilə səhmlərini mübadilə edirlər və s. Transmilli şirkətlər xammal, işçi qüvvəsi, kapital bazarlarının daim dəyişən şərtlərinə yüksək uyğunlaşma dərəcəsi ilə fərqlənir, onların ehtiyat qüvvələri olduqca çevikdir. Həmçinin transmilli şirkətlərinin fəaliyyətində firmadaxili ticarətin və transfert qiymət əmələ gəlməsinin rolunu da qeyd etmək lazımdır.

Transmilli şirkətlər öz kapitallarını investisiya etdikləri müəssisələrin maliyyə vəziyyəti barədə kifayət qədər tam və etibarlı informasiyaya malik olmadan öz iqtisadi və maliyyə siyasətlərini uğurla həyata keçirə bilməzlər. Dürüst maliyyə informasiyası olmadan transmilli şirkətlərin resurslarının yerləşdirilməsi üzrə müxtəlif ölkələrin bazarlarının təklif etdiyi alternativlərin təhlili mümkün deyil. Müxtəsər desək, transmilli şirkətlərin menecerləri bütün səviyyələrdə qərarlar qəbul edilməsi prosesini təmin edən inkişaf etmiş daxili informasiya və hesabat sisteminə ehtiyac duyurlar. Ancaq bu cür sistem yaradılarkən, məsələn, yerli uçot sisteminin qavranılmamasını, eləcə də kifayət qədər olmayan peşə hazırlığını və müəyyən anlayışlara, metodlara və formalara uyğunlaşa bilməməsini təyin edən mədəni və sosioloji amilləri nəzərə almaq zəruridir.

Mühasibat uçotunun firmadaxili aspektlərindən savayı, qəbul edən ölkələrin uçot və hesabat formaları və metodlarını bilmək böyük əhəmiyyət kəsb edir. Hər şeydən öncə, transmilli şirkətlərin törəmə şirkətləri milli normalara və standartlara əməl etməyə borcludurlar. Daha sonra, transmilli şirkətlərinin filialları və törəmə şirkətləri olduqları ölkənin iqtisadi infrastrukturu banklarla, maliyyə orqanları ilə qarşılıqlı fəaliyyətdə olurlar və yerli istifadəçilər üçün məqbul formada hesabat təqdim etməlidirlər. Eyni zamanda baş şirkətin xarici firmalarının hesabatı təqdim edilərkən hesabatların tərcüməsi və miodifikasiyası zərurəti yaranır. Ümumi (cəmləşdirilmiş) hesabat tərtib olunarkən böyük mühasibat uçotunun və hesabatının hesabat məlumatlarının qarşılıqlı uzlaşdırılması zəruridir. Bu zaman fərqlər həm formal xarakterə (balansın təqdim olunmasının, nəticələrin hesabının müxtəlif modelləri), həm

də əslində, zahirən eyni anlayışların şərhində fikir ayrılıqlarına malikdir.

Transmilli şirkətlərin xarici iqtisadi fəaliyyəti, digər şirkətlərin xarici ticarət əməliyyatları, beynəlxalq investisiya prosesi, dünya fond birjalarındakı əqdlər xarici valyutada onu milli valyutaya çevirməklə hesablaşmalar aparmaq zərurəti yaradır. Bu cür çevirmələr transmilli şirkətlərinin ümumi (cəmləşdirilmiş) hesabatı tərtib olunarkən də zəruridir. Prinsipcə bu, texniki uçot problemləridir, lakin onlar da mühasibat uçotunun beynəlxalq standartlaşdırılması vasitəsi ilə həll edilməməlidir.

Burada bir nəticə çıxır ki, transmilli şirkətlər obyektiv olaraq uçotun beynəlmiləlləşməsinə təşəbbüs edir və onun beynəlxalq standartlaşdırılmasına fəal yardım göstərir.

Beynəlxalq kapital bazarları milli bazarlardan əmələ gəlmişdir.Yaxın keçmişdə müəssisələrin borc kapitalına olan tələbatları milli kapital bazarları vasitəsi ilə ödənilirdi. Nümunə kimi müəssisələrin onlara lazım olan kapitalları ölkə daxilində ilkin və təkrar kapital bazarları vasitəsi ilə toplamaq imkanları olan ABŞ göstərilə bilər. ABŞ-ın qiymətli kağızların təkrar bazarı – dünyada ən böyük bazardır.

İkinci Dünya müharibəsindən sonra maliyyə bazarında vəziyyət köklü surətdə dəyişdi. Xüsusilə Amerika yardımı proqramı və öz iqtisadiyyatını bərpa edən müharibədən sonrakı Avropada dollar «aclığı» amerikan müəssisələrinin xarici investisiyalarının artımına səbəb oldu.

Hal-hazırda bir sıra amillər üzündən beynəlxalq kapital bazarlarının sürətli inkişafı və onların mövqelərinin möhkəmlənməsi müşahidə olunur. Bu cür amillərə aşağıdakılar aiddir: inkişaf planlarını və milli gəlirlərin dəstəklənməsi üzrə proqramlar həyata keçirən ölkələrin xarici maliyyə mənbələrinə artan tələbatı, maliyyə bazarlarında rəqabət, ölkələrin artıq maliyyə resurslarına malik olan və xarici investisiyalara ehtiyac duyan ölkələrə bölünməsi.

Digər tərəfdən, beynəlxalq standartlar bir çox birja əməliyyatlarını sadələşdirir və bununla da onların inkişafına təkan verirlər.

Qeyd etmək mühümdür ki, mühasibat uçotu heç vaxt onun tətbiqi dairəsini hər hansı bir sahə və ya ayrıca ölkə ilə məhdudlaşdırılmamışdır. «İtalyan mühasibatı» çox sürətlə Almaniyanı, Fransanı, Niderlandı, sonra isə Böyük Britaniyanı fəth etdi. Böyük Britaniyanın 17-18-ci əsrlərdə hökmran üstün mövqeyi mühasibat uçotunu nəinki Şimali Amerikada, həm də Britaniya Birliyi ölkələrində yaymağa kömək etdi. Holland təsiri uçotun İndoneziya və Cənubi Afrikada «mənimsənilməsinə» imkan yaratdı. Fransız uçot sistemi Polineziyada və Afrikada fransız təsir zonasında yayılmışdır, Almaniya vəYaponiyada, İsveçdə və keçmiş çar Rusiyasında uçotun inkişafına təsir göstərdi.

Birləşmiş ştatların iqtisadi qüdrətinin bizim yüzilliyin birinci yarısında artması amerikan modelinin nəzəri mövqelərinin və təcrübənin təkcə Almaniyada və Yaponiyada yox, həm də inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Braziliyada, İsraildə, Meksikada və Filippində təsirinin artması ilə nəticələndi. Bu təsir hal-hazırda da xeyli hiss olunan dərəcədə qalır. Birləşmiş Ştatlar mühasibat uçotu sahəsində elmi işləmələrə maliyyə ayırmaları və nəşrlərin sayına görə öndə gedirlər., onlar həmin profilyönümlü universitet təhsilinin yüksək inkişaf etmiş sisteminə malikdirlər. Eyni zamanda heç də bütün ölkələr uçotun amerikan standartlarını və prinsiplərini həvəslə qəbul etmirlər.

Mühasibat uçotu mahiyyətcə universaldır, onun dili – «beynəlxalq ünsiyyət dilidir», «balans», «debet», «kredit», «konto»(hesab) kimi kateqoriyalar bütün dünyada başa düşülür və tətbiq olunur.

Artıq deyilmişdir ki, dünya təcrübəsində aktivlər qiymətləndirilərkən daha çox ilkin maya dəyərindən istifadə edirlər, baxmayaraq ki, bu metod modifikasiya edilmiş şəkildə tətbiq edilir. Belə bir nöqteyi-nəzər mövcuddur ki, balansda aparılan qiymətləndirmə əmlakın o zaman real dəyərinə maksimum yaxın olmalıdır, buna görə də cari dəyəri tətbiq etmək, yaxud gələcək əməliyyatlardan ehtimal olunan itkiləri və gəlirləri nəzərə almaq, qiymətlərin dəyişməsini əks etdirmək və s. vacibdir.

İnflyasiya ümumdünya hadisəsi olduğundan, onun nəticələri isə həm mikro, həm də makro səviyyələrdə duyulduğundan bu məsələ üzrə uçot problemlərinin həlli üçün maksimum səy göstərilməlidir. Aydındır ki, bu, Azərbaycanda müasir iqtisadi vəziyyət üçün də xeyli aktualdır.

Eləcə də balansa hansı vəsait və resurs növlərinin daxil edilməsi barədə məsələnin birmənalı olmayan həllini qeyd etmək lazımdır, xüsusilə də bu «firmanın qiyməti» və ETTKİ-nə xərclər kimi aktivlər barəsində səciyyəvidir. Buradan bu kateqoriyalı vəsaitlərin silinməsinə müxtəlif baxışlar ortaya çıxır:bir qisim ölkələrdə onların faydalı istifadə müddəti ərzində amortizasiyasına, yaxud da öz kapitalının azaldılması hesabına dərhal silinməsinə icazə verilir. Bir sıra ölkələrdə alternativ seçimə yol verilmir (məsələn, ABŞ-da, Kanadada və Yaponiyada «firmanın qiymətinin» dərhal silinməsinə icazə verilmir, onun aktivdə məcburi «kapitallaşması» tələb olunur). Amortizasiya müddətlərinin təyin edilməsi təcrübəsi də fərqlənir. Ayrı-ayrı ölkələrdə «firmanın qiymətinin» silinməsinin maksimum müddətin məhdudlaşdırılması müəyyən edilir, məsələn, ABŞ-da 40 il, Avstraliyada – 20 il, Hollandiya və İsveçdə – 10 il, Almaniya və Yaponiyada – 5 il. Ticarət markaları, ticarət nişanları, EHM üçün proqram təminatı və sair kimi duyulmayan aktivlərin uçotu və amortizasiyası zamanı da fərqlər mövcuddur.

Eynilə və öhdəliklərin uçot təcrübəsi də fərqlənir. Məsələn, Argentinada vergilər üzrə öhdəliklər hesablanmırlar, onlar yalnız kassa metodu üzrə hesaba alınırlar və əks olunurlar. Hollandiyada təxirə salınmış gəlir vergisinin məbləği (faktiki vergi ilə maliyyə uçotda müəyyən edilmiş mənfəətə uyğun hesablanmış vergi arasındakı fərq) diskontlaşır.

«Öhdəliklər» anlayışının müxtəlif təfsir edilməsi ona gətirib çıxarır ki, ayrı-ayrı Avropa ölkələrində və Cənubi Afrikada, məsələn, qiymətləndirmə ehtiyatları yaradılmır (hətta pensiya öhdəlikləri üçün də), əksinə, Almaniya və İsveçrə «öhdəlik» termininin «gizli» ehtiyatlara tətbiq edilməsinin nümunəsidirlər, bununla da onlar həmin ehtiyatların yaradılmasına bəraət qazandırırlar. Bu ölkələrdə ehtiyatlılıq prinsipi ifrat ifadəsini tapır və bir sıra hallarda gələcəkdə mümkün itkilərin yenidən qiymətləndirilməsi mövcuddur.

Əməliyyatların xarici valyutada yenidən hesablanma zamanı da beynəlxalq uçotda ziddiyyətli problemlər yaranır: hesablama zamanı hansı mübadilə məzənnəsi və hansı ana istinadən tətbiq edilməlidir, bunun nəticəsində yaranmış fərqləri necə şərh etməli və s. Beləliklə, aydındır ki, beynəlxalq uçot sisteminin yaradılması üzrə iş aparılması üçün obyektiv tələbat və ilkin şərtlər mövcuddur. Bu iş müxtəlif ölkələrdə mövcud olan uçot sistemlərinin tədqiqindən, müqayisəsindən və təsnifatından, uçotun, hesabatın və auditin unifikasiyası üzrə işləmələrdən və tövsiyələrdən ibarətdir.

## ƏDƏBİYYAT

1. Milli mühasibat uçotu standartları. Qanun, 2008
2. Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1998, 384 s.
3. Abbasov Q.Ə. Mühasibat uçotunun nəzəriyyəsi (dərslik), Bakı, 2009
4. Abbasov T.A., Bağırov M.S. Mühasibat (maliyyə) hesabatları və audit işinin təşkili. Bakı, ADPU, 2005, 221 s.
5. Abbasov T.A., Bağırov M.S. Mühasibat (idarəetmə) uçotu (d. vəsaiti). Bakı, ADPU, 2007, 523 s.
6. Rzayev Q.R. Beynəlxalq mühasibat uçotu və audit. Bakı, Təhsil, 2001, 171 səh.

**РЕЗЮМЕ**

**Теймур Аббасов**

**НАХЧЫВАНСКАЯ МОДЕЛЬ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ НЕОБХОДИМОСТЬ И УСЛОВИЯ ПЕРЕХОДА БУХГАЛТЕРСКОГО УЧЁТА НА МЕЖДУНАРОДНЫЕ СТАНДАРТЫ**

В научной статье исследована модель экономического развития Нахчыванской Автономной Республики Гейдара Алиева, удовлетворение внутренних потребностей за счет использования местных природных богатств, в то же время, для обеспечения выхода республики на мировой рынок, исследованы повышение экспортного потенциала организация инвестиций, превращение Нахчывана в свободную экономическую зону и обеспечение интеграции в мировую экономику. В то же время, для интеграции Нахчыванской Автономной Республики в Международную экономику исследован переход Бухгалтерского Учёта на Международные Стандарты.

**Ключевые слова:** экономическое развитие, динамика развития, экономическая модель, концепция развития, свободная экономическая зона, интеграция, бухгалтерский учёт, Международные Стандарты.

**SUMMARY**

**Teymur Abbasov**

**NAKHCHIVAN MODEL OF ECONOMIC DEVELOPMENT AND THE NEED TO TRANSFER ACCOUNTING TO INTERNATIONAL STANDARDS**

Scientific article on Heydar Aliyev's model of economic development in Nakhchivan using local natural resources and the promotion of export potential, the creation of a global investment climate, the promotion of investment, and the promotion of global markets. At the same time, the integration of the Accounting Office to the International Standards for integrating the Nakhchivan Autonomous Republic into the international economy was investigated.

**Key words**: economic development, development dynamics, economic model, development concept, free economic zone, integration, accounting, International standards

**MÜBARİZ BAĞIROV**
**NİGAR TAĞIYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

# BANK SİSTEMİNİN SABİTLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ ANTİBÖHRAN TƏDBİRLƏRİN ROLU

*Müəllif əvvəlcə məqalədə baş vermiş böhranların yaranma səbəblərini, onların müxtəlifliyini və iqtisadiyyatın vəziyyətinə təsirini izah etmişdir. Bank sistemini baş verən böhranların əsas elementi kimi xarakterizə etmişdir. Beynəlxalq Valyuta Fondunun məlumatları əsasında baş vermiş böhranların iqtisadi inkişafa mənfi təsirini əks etdirmişdir.*

*Dünyanın çoxsaylı ölkələrində baş vermiş böhranların yaranmasının müxtəlif səbəbləri sadalanmış, bu məsələyə məşhur, klassik iqtisadçıların münasibəti bildirilmişdir.*

*Bizim ölkəmizdə baş vermiş sonuncu böhranın xarakteristikası və bu böhranın bank sistemində yaratdığı mənfi meyllər izah olunmuşdur. Böhranın yaratmış olduğu nəticələrin aradan qaldırılması üçün mümkün antiböhran tədbirləri müəyyən edilmişdir.*

***Açar sözlər:*** *böhran, maliyyə böhranı, iqtisadi böhran, antiböhran tədbirləri, bank sistemi, bank sisteminin sabitliyi*

Dünya ölkələrinin inkişaf tarixi göstərir ki, ötən əsrin sonlarından başlayaraq çoxsaylı ölkələr böhranlarla üzləşmişlər. Həmin böhranların hansı səbəblərdən başlamasından, maliyyə və ya iqtisadi böhran olmasından, hansı miqyaslarda baş verməsindən, monetar və qeyri-monetar amillərdən törəməsindən, hansı müddətləri əhatə etməsindən və s. asılı olmayaraq, onların mərkəzində həmişə bank sektoru dayanmışdır. Təhlillər göstərir ki, bank sektorunun böhranların hər birinin mərkəzində dayanması bu sektorun vəzifə və məqsədləri ilə, onun fəaliyyət xarakteri ilə bağlıdır.

İstisnasız olaraq bank böhranları bütün ölkələrin tarixində baş vermiş və özünün mənfi nəticələrini üzə çıxarmışdır. Böhranlar həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında müxtəlif dövrlərdə baş vermiş, bir çoxlarında təkrar olunmuş və iqtisadiyyata dağıdıcı təsirlər göstərmişdir. Beynəlxalq Valyuta Fondunun məlumatlarına əsaslansaq, demək olar ki, ötən əsrin 80-cı illərindən başlayaraq bu günə kimi dünya ölkələrinin 70%-dən çoxunda bank, maliyyə böhranları baş vermiş və qloballaşmanın səviyyəsindən asılı olaraq, iqtisadi əlaqədə olan ölkələrin iqtisadiyyatlarına öz güclü mənfi təsirini göstərmişdir (1, səh.3).

Ötən əsr ərzində ABŞ-da, Orta və Yaxın Şərq ölkələrində, Yunanıstan, Rusiya, Avropa İttifaqının bir sıra ölkələrində, Argentina, Tailand, Türkiyə, Yaponiya, Malayziya və bir sıra digər ölkələrdə baş vermiş böhranların ayrı-ayrı törənmə səbəbləri olmuşdur. Bu ölkələrin bəzilərində böhranlar neft qiymətlərinin kəskin dəyişməsi, azalması, bəzilərində tədavüldə pul kütləsinin həddindən artıq çoxalması, bəzilərində qiymətli kağızların katirovkasının süni şəkildə artırılması, bəzilərində daxili bazarın idxaldan asılı olması ilə əlaqədar xarici amillərin mənfi təsirlərinin çoxalması və s. nəticəsində baş vermişdir. Məşhur iqtisadçı Con Meynard Keyns böhranlara münasibətdə bir amillə bağlı olaraq yazırdı: "Cəmiyyətin mövcud bazasını məhv etmək üçün pulun hədsiz dərəcədə çap olunması qədər zərif və etibarlı vasitə yoxdur. Bu vasitə iqtisadi qanunları, hətta milyonların hiss edə bilməyəcəyi şəkildə iqtisadiyyatın dağılması istiqamətində çevirir (2, səh.158).

Baş verən böhranların səbəblərini araşdırarkən aydın olur ki, XVIII əsrdən başlamış Birinci Dünya müharibəsinə qədər Amerika Birləşmiş Ştatlarında və həmçinin Avropanın digər ölkələrində qiymət səviyyəsi praktiki olaraq demək olar ki, dəyişməmişdir. Mənbələr sübut edir ki, 1870-ci ildən 1913-cü ilə qədər ABŞ-da həyat səviyyəsi 0,2% yüksəlmişdir (3, səh 454).

Cari əsrin əvvəllərində, yəni 2008-ci ildə baş vermiş böhranın səbəbləri ABŞ-ın fond bazarındakı vəziyyətlə əlaqədar olmuş və dünyanı bürümüşdür. Dünya maliyyə böhranının 2014-cü ildən başlayan yeni fazası dünya neft bazarında qiymətlərin 3 dəfəyədək aşağı düşməsi ilə əlaqədar olmuş və bu günədək onun törətmiş olduğu fəsadlar, yaratmış olduğu mənfi nəticələr aradan qaldırılmamışdır. Azərbaycanda

da son böhran məhz neft qiymətlərinin enməsi nəticəsində baş vermiş və ciddi iqtisadi fəsadlar yaratmışdır. Baş vermiş böhran nəticəsində, yəni 2014-cü ilin ikinci yarısından başlayaraq neft qiymətlərinin kəskin ucuzlaşması ölkəyə daxil olan neft gəlirlərinin kəskin azalmasına səbəb olmuş, nəticədə xarici valyutaya olan tələb təklifi üstələyərək manatın məzənnəsinə təzyiqi yüksəltmişdir. Vəziyyətin gərginliyini nəzərə alaraq hökumət valyuta bazarında vəziyyəti tarazlaşdırmaq, tədiyyə balansının və ölkənin beynəlxalq ödəmə qabiliyyətinin strateji dayanıqlığını təmin etmək məqsədi ilə 2015-ci il ərzində iki dəfə devalvasiya keçirmişdir. Hər iki devalvasiya nəticəsində müxtəlif parametrli mənfi meyllər meydana gəlmişdir. Belə ki, birinci devalvasiya nəticəsində depozit və kredit portfelinin dollarlaşması, ikinci devalvasiya nəticəsində isə maliyyə vəsaitlərinin bank sektorundan kənarlaşması müşahidə olunmuşdur. Qeyd edilənlərin nəticəsində uzun müddət bank sektorunda müşahidə edilən fəallıq azalmışdır (4, səh. 9). Yaranmış mənfi meyllərin törətmiş olduğu fəsadlar bank sisteminə güclü zərbə vurmuşdur. Çünki 2015-ci ilin sonunda əvvəlki il ilə müqayisədə kreditlərdə dollarlaşma 27 faizdən 50 faizə, depozitlərdə isə 50 faizdən 80 faizə qədər yüksəlmişdir (4, səh.17).

Böhranın təsiri nəticəsində real sektorda baş vermiş geriləmələr borcalanların ödəmə qabiliyyətinin aşağı düşməsinə səbəb olmuşdur ki, bu da öz növbəsində kredit risklərinin səviyyəsini yüksəltmişdir. Bank sistemində bankların kredit riski üzrə ehtiyatlanma xərcləri xeyli yüksəlmişdir. Bunun nəticəsində ölkə iqtisadiyyatının artımı dövründə yaradılmış olan kapital ehtiyatlarının bir hissəsi itirilmiş, məcmu kapitalın adekvatlıq əmsalı müəyyən olunmuş minimum normativlərə yaxınlaşaraq 2015-ci ilin sonunda əvvəlki il ilə müqayisədə 4,2 faiz bəndi azalaraq 14,7 faiz təşkil etmişdir (4, səh 9). Böhran nəticəsində yaranmış olan mənfi meyllərin və fəsadların aradan qaldırılması üçün ölkəmizdə antiböhran tədbirləri həyata keçirilməkdədir. Bu siyasətin və bu tədbirlərin reallaşdırılmasının məqsəd və vəzifələri çoxsaylı məsələləri və parametrləri əhatə edir. Onlardan ən zəruri və vacib olanlardan biri də bank sisteminin sabitliyinin təmin edilməsidir.

Sabit fəaliyyətə malik bank sistemi yaratmadan iqtisadiyyatın dayanıqlığını və davamlığını təmin etmək mümkün deyildir. Elə bu məqsədlə də çoxşaxəli məsələləri əhatə edən antiböhran tədbirləri mərhələ-mərhələ həyata keçirilir. Bank sistemində sabitliyin təmin edilməsi maliyyə bazarında aparılan antiböhran tədbirləri ilə sıx əlaqədardır. Ölkəmizdə maliyyə bazarları infrastrukturunun daha da inkişaf etdirilməsi məqsədilə "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramı qəbul edilmişdir. Onun əhatə etdiyi ilkin mərhələ dövründə, yəni 2011-2014-cü illər ərzində bazarın infrastrukturunun müasir səviyyəyə çatdırılması, bu istiqamətdə normativ hüquqi bazanın təkmilləşdirilməsi, bazarın maddi-texniki bazasının möhkəmləndirilməsi, həmin bazarda insan kapitalının inkişafının sürətləndirilməsi kimi vacib məsələlər öz həllini tapmışdı (4, səh 10). Lakin bu qeyd edilənlərə baxmayaraq, kapitalın qiymətli kağızlar vasitəsilə cəlb edilməsi məhdud vəziyyətdə olmuşdur. Bunun əsas səbəbləri ölkədə fəaliyyət göstərən açıq səhmdar cəmiyyətlərinin korporativ idarəetmə standartlarının zəif inkişaf etməsindən və bu bazarda şəffaflığın aşağı səviyyədə olmasından ibarətdir. Qeyd edilən səbəblər aradan qaldırılmaqla bank sektoruna qiymətli kağızların emissiyası vasitəsilə külli miqdarda kapital cəlb etmək mümkündür.

Bank sisteminin sabitliyinin təmin edilməsi məqsədilə aparılan antiböhran tədbirləri içərisində ən mühüm istiqamətlərdən biri də depozit və kredit bazarındakı siyasətdən və onun istiqamətlərindən asılıdır. Bu sahədə aparılan sağlamlaşdırma tədbirləri nəticəsində bank bazarında kapitalın kifayətliliyini qoruya bilməyən banklar ləğv edilmiş, eyni zamanda bir sıra bank olmayan kredit təşkilatları və kredit ittifaqları da bank bazarını tərk etmişlər. Nəticədə 2017-ci ilin sonuna ölkənin bank bazarında 31 bank, 47 bank olmayan kredit təşkilatı, 76 kredit ittifaqı qalmışdır (5).

Ölkədə bank sisteminin sabitliyinin qorunub təmin edilməsi üçün aşağıdakı antiböhran tədbirlərinin həyata keçirilməsi vacib şərtlərdəndir: bank sisteminin kapital mövqeyinin möhkəmləndirilməsi, banklarda bazar risklərinin idarə edilməsi üçün hedcinq alətlərinin geniş tətbiq edilməsi, bankların kredit risklərinin minimumlaşdırılması, banklarda qeyri-işlək aktivlərin tənzimlənməsi və satış üzrə hüquqi mexanizmlərin işlənərək tətbiq edilməsi, bankların sağlamlaşdırılması və restrukturizasiyası üzrə səmərəli alətlərin tətbiq edilməsi, maliyyə xidmətləri sektorunda korporativ idarəetmənin gücləndirilməsi, kreditorların hüquqlarının işlək müdafiəsi

mexanizmlərinin tətbiq edilməsi, girov münasibətlərinin təşkilati hüquqi mexanizmlərindəki çatışmazlıqların aradan qaldırılması, maliyyə əlçatanlığının yüksək səviyyəyə qaldırılması, qeyri-bank maliyyə seqmentinin inkişaf etdirilməsi, maliyyə savadlılığının artırılması və s. (4, səh 11).

Ölkə iqtisadiyyatının vəziyyətinin və baş vermiş böhran nəticəsində yaranan mənfi meyllərin təhlili onu göstərir ki, əgər bank sistemində yuxarıda sadalanan antiböhran tədbirləri həyata keçirilməzsə, bu halda aşağıdakı təhlükələr baş verə bilər: Neft qiymətlərindəki volotillik azalmaya meyl istiqamətində davam edərsə, bu bank sisteminə dağıdıcı təsir edə bilər, iqtisadiyyatda işgüzar aktivlik daha da aşağı düşə bilər ki, bu da bank sisteminə öz mənfi təsirini göstərər, eyni zamanda banklarda aktivlərin keyfiyyəti aşağı düşə bilər, bankların restrukturizasiyası tamamlanmaya bilər, banklarda meydana çıxan risklər güclənər və bu faktor maliyyə bazarlarında yenidən mənfi meyllər yarada bilər və s. Qeyd edilən mənfi meyllərin bank sektorunda və ümumiyyətlə, iqtisadiyyatda meydana çıxmaması üçün yuxarıda qeyd edilən istiqamətləri özündə əks etdirən sistemli antiböhran tədbirləri həyata keçirilməlidir.

## ƏDƏBİYYAT


1. Beynəlxalq Valyuta Fondunun illik məcmuəsi. 2018-ci il, http||www.ecuters.com|asbikle economy
2. Стариков Н. "Кризис. Как это делается. - СПБ.: Лидер, 2010.- 304 с.
3. Гринспен А. Эпоха потрясений. М.: Альпина Бизнес Букс, 2008, 494 с.
4. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi, Bakı, 2016, 60 səh.
5. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası. 2018


## РЕЗЮМЕ

**Мубариз Багиров, Нигар Тагиева**

### РОЛЬ АНТИКРИЗИСНЫХ МЕРОПРИЯТИЙ В ОБЕСПЕЧЕНИИ СТАБИЛЬНОСТИ БАНКОВСКОЙ СИСТЕМЫ

В первую очередь автор раскрыл в статье причины возникновения кризисов, их особенность и воздействие на экономическую ситуацию. Банковская система охарактеризована как основной элемент происходящих кризисов. На основе данных Международного Валютного Фонда в статье отражено отрицательное значение экономических кризисов. Перечислены разные причины возникновения кризисов в большинстве стран мира, выражено отношение к данному вопросу известных классических экономистов. Рассмотрена характеристика последних кризисов в нашей стране, раскрыты отрицательные тенденции возникших кризисов в банковской системе.

**Ключевые слова:** кризис, финансовый кризис, экономический кризис, антикризисные мероприятие, банковская система, стабильность банковской системы.

## SUMMARY

**Mubariz Bagirov, Nigar Tagiyeva**

### THE ROLE OF ANTI-CRISIS MEASURES IN ENSURING THE STABILITY OF THE BANKING SYSTEM

On the article the author first explained the the reasons of the emergence of the crises, their diversity and the impact on the state of the economy. The banking system has been described as a key element of the crises. Based on data from the International Monetary Fund reflected the negative impact of the crises on economic growth. The various reasons of the emergence of crises in many countries around the world has been listed, the attitude of classical economists to this issue has been reported. The characteristic of the recent crisis in our country and the negative trends created by this crisis in the banking system are explained. Possible anti-crisis measures have been identified to address the consequences of the crisis.

**Key words**: crisis, financial crisis, economic crisis, anti-crisis measures, banking system, stability of the banking system.

**MÜBARİZ BAĞIROV**
**ORXAN BAĞIROV**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

# AZƏRBAYCANDA İQTİSADİ DİVERSİFİKASİYANIN MALİYYƏ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə ölkəmizdə aparılan iqtisadi diversifikasiyanın zəruriliyi vurğulanmış, onun iqtisadi inkişafda mütərəqqi üsul kimi qəbul edilməsi əsaslandırılmışdır. Bu vasitə ilə inkişaf edən sektor və sahələrin sayının çoxalması, onların dinamik inkişafının təmin edilməsi sübut olunmuşdir.*

*2012-2017-ci illər ərzində ölkə iqtisadiyyatında ümumi daxili məhsulun strukturu, ixracın strukturu, ixracat sektorlar üzrə strukturu və s. nəzərdən keçirilmişdir. Müəllif diversifikasiyanın həyata keçirilməsinin hüquqi bazasını əsaslandırmaq üçün iki dövlət sənədinin tələblərini şərh etmişdir. Həmin ölkələr əsasında reallaşdırılan diversifikasiya səviyyəsi təhlil olunmuşdur.*

***Açar sözlər:*** *diversifikasiya, inkişaf konsepsiyası, iqtisadiyyatın sektorları, səmərəlilik.*

Azərbaycanda iqtisadi inkişafın dinamikası göstərir ki, bu sahədə prioritet kimi seçilmiş olan diversifikasiya öz müsbət nəticələrini verməkdədir. İqtisadi diversifikasiya vasitəsilə ölkədə ümumi daxili məhsulun artımına, məşğulluq səviyyəsinin yüksəlməsinə, yoxsulluq səviyyəsinin aşağı düşməsinə, iqtisadiyyatda dayanıqlığın gücləndirilməsinə və s. müsbət meyllərə nail olunur. Dünya təcrübəsində olduğu kimi diversifikasiya iqtisadi inkişafda mütərəqqi üsul kimi qəbul və tətbiq edilir, onun vasitəsilə çoxşaxəli məqsədlər yerinə yetirilir.

Respublikamızın inkişafında diversifikasiyanın tətbiq olunması ilə əlaqədar olaraq, dinamik inkişaf edən sahə və sektorların sayı çoxalmış, həmin sahə və sektorlarda istehsal edilən məhsul çeşidi və həcmi artmışdır. Bu mütərəqqi üsulun tətbiqi vasitəsilə sahələrdə etibarlı idarəçilik və yeni texnologiyaların tətbiqi qayda və mexanizmləri işə düşmüşdür.

Ölkəmizdə diversifikasiyanın tətbiq edilməsi zərurətini özündə əks etdirən, onun gələcək perspektivlərini müəyyən edən, mühüm inkişaf parametrlərini göstərən ilk dövlət sənədi "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası olmuşdur. Bu sənəd 2012-ci ildə qəbul olunmuşdur. Həmin dövrdən başlayaraq bu müəyyən edilmiş istiqamətlərdə məqsədyönlü, çoxşaxəli tədbirlər həyata keçirilməyə başlamışdır. Konsepsiyada 2020-ci ilə qədər olan dövr üçün strateji baxış və əsas inkişaf prioritetləri bir neçə istiqamət üzrə müəyyən edilmişdir. Həmin istiqamətlərin hamısı diversifikasiya siyasəti ilə birbaşa olmasa da, bilavasitə əlaqəlidir və onları həyata keçirmədən uğurlu diversifikasiya nəticələrinə nail olmaq olmaz. Bu konsepsiyada nəzərdə tutulan ən mühüm istiqamətlərdən biri yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşmasını nəzərdə tutur. Çünki belə bir model olmadan, onu tətbiq etmədən iqtisadiyyatın səmərəli diversifikasiyası üçün zəruri, uyğun iqtisadi atmosfer yaratmaq qeyri-mümkündür. Bu konsepsiyanın ən mühüm cəhəti ondan ibarətdir ki, onun vasitəsilə həyata keçiriləcək tədbirlərin köməyi ilə yüksək, səmərəli nəticələr əldə edə bilən, həm daxili, həm də xarici bazarlarda rəqabətə qadir iqtisadi sistemin formalaşmasını nəzərdə tuturdu. Bu istiqamətdə mövcud olan beynəlxalq təcrübə göstərir ki, qeyd edilən iqtisadi sistemin yaradılması yalnız və yalnız inhisarçılığın olmadığı və yüksək səviyyədə liberal, işgüzar sahibkarlığa zəruri şərait yaradıldığı halda mümkündür (1, səh13).

Ölkəmizdə həyata keçirilən divversifikasiyanın digər, əsas və mühüm parametrlərini özündə əks etdirən dövlət sənədi 2016-cı ilin dekabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı olmuşdur. Bu sənədlə ölkəmizin iqtisadiyyatının yaxın, orta və uzunmüddətli dövr üçün hərtərəfli inkişafın hədəf və prioritetləri müəyyən edilmişdir. Bu sənədlə nəzərdə tutulan ən əsas məqsəd müəyyən edilmiş hədəf və prioritetlərə nail olmaqla ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq və perspektivdə bu asılılığı ləğv etməkdən ibarətdir (2, səh 21).

Aparılan diversifikasiyanın ən mühüm əhəmiyyətindən biri iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsindən ibarətdir. Diversifikasiya sürətli iqtisadi inkişafa, strateji yol xəritələrində nəzərdə tutulan hədəf və prioritetlərə nail olunmasında mühüm vasitə kimi dəyərləndirilir. Diversifikasiya vasitəsilə ölkə iqtisadiyyatında zəif inkişaf edən sahə və sektorların təbii və iqtisadi resursları təsərrüfat dövriyyəsinə cəlb edilir, həmin sahə və sektorların fəaliyyəti genişlənir, nəticədə isə onların fəaliyyətinin səmərəliliyi yüksəlir.

Ölkəmizdə iqtisadiyyatın diversifikasiyasının müasir vəziyyətini təhlil etsək, görərik ki, ümumi daxili məhsulun strukturunda neft-qaz sektorunun, qeyri-neft sektorunun və həmçinin məhsula və idxala xalis vergilərin xüsusi çəkisində müsbət dəyişikliklər baş vermişdir. Belə ki, bu strukturda neft-qaz sektorunun xüsusi çəkisi son 5 il ərzində 7-12% aşağı düşmüş, qeyri-neft sektorunun məhsula və idxala xalis vergilərin xüsusi çəkisi isə artmışdır. (3)

2012-2017-ci illər ərzində qeyri-neft sektorunun aparıcı sahəsi olan tikinti sektorunda artım baş vermiş, bu sektorun ÜDM-də payı 9,2%-dən 12,5%-ə qədər yüksəlmişdir. Həmin illərdə diversifikasiyanın sürətlə inkişaf etməsi nəticəsində xidmət sektorunun ÜDM-də payı 20%-dək yüksəlmişdir. Digər bir sahədə, yəni qeyri-neft ticarətinin artırılması və nəqliyyat sektorunun sürətli inkişafı nəticəsində bu sektorun ÜDM-də payı təhlil edilən dövr ərzində 4%-ə qədər yüksələrək 2017-ci ildə 10,4% səviyyəsinə qalxmışdır.

2012-ci ildən başlanan diversifikasiya prosesləri nəticəsində ölkə iqtisadiyyatında ÜDM-un strukturunda əsaslı keyfiyyət dəyişiklikləri baş vermiş, neft-qaz sektorunun xüsusi çəkisi 2012-ci ildəki 45,4%-dən 2017-ci ildəki 35,6%-ə enmişdir. Buna adekvat olaraq qeyri-neft sektorunun təhlil edilən dövr ərzində 48,5%-dən 57,1%-ə dək yüksəlmişdir. Həmin dövr ərzində məhsula və idxala xalis vergilər 6,1%-dən 7,3%-ə qədər yüksəlmişdir.

2012-2017-ci illər ərzində qeyri-neft sektorunun struktur elementləri üzrə də keyfiyyət dəyişikliyi baş vermiş və bu nəticə aşağıdakı kimi olmuşdur: kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın xüsusi çəkisi 5,2%-dən 5,6%-ə; tikinti üzrə 9,2%-dən 12,5%-ə, nəqliyyat və anbar təsərrüfatı üzrə 5,4%-dən 6,8%-ə, ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə 6,7%-dən 10,4%-ə, turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə 1,7%-dən 2,3%-ə, sosial və digər xidmətlər üzrə 13,8%-dən 16,4%-ə yüksəlmişdir.

Təhlil aparılan illər ərzində bir neçə sahə üzrə artım qeydə alınmamışdır. Bu sahələr qeyri-neft qaz sənayesi, informasiya və rabitə sahələridir. Bu sahələr üzrə uyğun olaraq, 2012-2017-ci illər ərzində ÜDM-də pay çəkisi birincidə 4,6% -dən 4,4%-ə, ikincidə isə 1,7%-dən 1,6-ə enmişdir. (4)

Qeyd edilənlərdən görünür ki, ölkəmizin iqtisadiyyatında qeyri-neft sektorunda reallaşdırılan ümumi daxili məhsulun tərkibində təmərgüzləşmə yüksək deyil və ÜDM-in formalaşmasında ayrı-ayrı sektorların payı heç də həlledici olmamışdır.

Ölkə iqtisadiyyatında yaradılan dəyərdəki xüsusi çəkisinə görə əsas sahələrdən biri sənaye sahəsidir. Bu sahənin çoxşaxəli struktura malik olması ən əhəmiyyətli faktorlardan biri kimi çıxış edir. Bu strukturda əsas yeri mədənçıxarma sənayesi tutur, onun xüsusi çəkisi təhlil edilən 2012-2017-ci illər ərzində 80%-dən yuxarı olmuşdur.

Emal sənayesinin payı 10-11%, elektrik enerjisi, qaz və buxar sənayesinin payı 4-4,5%, su təchizatı, tullantıların işlənməsi sanayesinin payı isə 0,2-0,5% səviyyəsində formalaşmışdır.

İqtisadi diversifikasiyanın nəticələrinin qiymətləndirilməsi məsələsində mühüm parametrlərdən biri ixracın diversifikasiyasının təhlil edilməsidir. Aparılan təhlillər göstərir ki, 2012-2017-ci illər ərzində ixracda mineral məhsulların və digər məhsulların nisbətində dəyişikliklər baş vermişdir. Mineral məhsulların digər məhsullara nisbəti 2012-ci ildə 93%-in 7%-ə, 2013-cü ildə 92%-in 8%-ə, 2014-cü ildə 92,5%-in 7,5%-ə, 2015-ci ildə 88%-in 12%-ə, 2016-cı ildə 87%-in -13%-ə, 2017-ci ildə isə 89,8%-in 10,2% səviyyəsində olmuşdur. Göründüyü kimi, mineral məhsullar üzrə illik orta azalma tempi 5% səviyyəsində, digər məhsullar üzrə isə 1,6% olmuşdur. Bu isə neft sektoru üzrə ixracın həcminin qeyri-neft sektorunun ixracı üzərində təsirinin çox olmadığını göstərir.

İxracda diversifikasiyanın əhəmiyyətli nəticələr verdiyini görmək üçün ixracın strukturunun daha geniş şəkildə təhlil edilməsinə ehtiyac vardır. Həmin strukturu geniş şəkildə nəzərdən keçirərək

görürük ki, 2017-ci ilin nəticələrinə görə mineral məhsullar 89,8%, bitki mənşəli məhsullar 3,8%, az qiymətli metallar və onlardan hazırlanan məmulatlar 1,8%, hazır ərzaq məhsulları, içkilər, sirkə tütün məmulatları 0,8%, plastik kütlələr, kauçuk, rezin, onlardan hazırlanan məmulatlar 0,7%, mirvari, qiymətli daşlar və metallar, onlardan hazırlanan məmulatların, heyvan və bitki mənşəli piylər və yağlar 0,4%, kimya sənayesi məhsulları 0,6%, quru nəqliyyat vasitələri, uçan aparatlar, üzən nəqliyyat vasitələri 0,1%, toxuculuq materialları və məmulatları 0,6%, gön, dəri, təbii xəz, onlardan hazırlanan məmulatlar 0,4% təşkil etmişdir (3).

Ölkəmizdə iqtisadiyyatın diversifikasiyasının qiymətləndirilməsində mühüm parametrlərdən biri də ölkələr üzrə ixracın səviyyəsidir. Təhlil edilən illər üzrə ixracda ilk yeri İtaliya tutmuşdur. Onun payı 2013-cü ildə 25%, 2014-cü ildə 22%, 2015-ci ildə 18%, 2016-cı ildə 17%, 2017-ci ildə isə 31,9% olmuşdur. Sonrakı yerləri İndoneziya, Türkiyə, Almaniya, Tailand, Tayvan, İsrail, Fransa, Rusiya və s. tutmuşdur. Məhsul çeşidindən və növündən asılı olaraq, ayrı-ayrı illərdə bu ölkələr sıralamada bir-birini əvəz etmişlər.

Ölkədə aparılan diversifikasiyanın maliyyə nəticələrinin qiymətləndirilməsinin mühüm elementlərindən biri də əmək bazarının iqtisadi fəaliyyət növləri üzrə bölgüsü, iqtisadiyyata yönəldilmiş investisiyaların sektorlar, növ və iqtisadi sahələr baxımından bölgüsü və s. Qeyd edilən sahələr üzrə də təhlillər apararaq belə bir nəticəyə gəlmək olar ki, diversifikasiya özünün tam, mükəmməl nəticələrini hələ də yüksək səviyyədə verə bilməsə də, onun ilkin, uğurlu və sürətli başlanğıcı var. Qısa müddət ərzində iqtisadiyyatda əldə edilən nəticələr diversifikasiyasının uğurlu, səmərəli alət olduğunu göstərir və onun vasitəsilə yüksək nəticələrin əldə olunacağı gözlənilir.

## ƏDƏBİYYAT

1. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası (Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir).
2. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir).
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları 2018-ci il
4. Azərbaycan Respublikasının Mərkəzi Bankının hesabatları 2018

## РЕЗЮМЕ

**Мубариз Багиров, Орхан Багиров**

## ОЦЕНКА ФИНАНСОВОЙ ЭФФЕКТИВНОСТИ ЭКОНОМИЧЕСКОЙ ДИВЕРСИФИКАЦИИ В АЗЕРБАЙДЖАНЕ

В статье подчеркивается необходимость диверсификации экономики в нашей стране и обосновывается ее принятие в качестве прогрессивного метода экономического развития. Доказано, что это увеличивает число развивающихся секторов и участков экономики и обеспечивает их динамичное развитие.

Были рассмотрены структура валового внутреннего продукта, структура экспорта, структура секторов экспорта, структура экспорта по странам за 2012-2017 гг. Автор прокомментировал требования двух государственных документов для обоснования правовых основ диверсификации. Был проведен анализ уровня диверсификации, проведенной на основе этих документов.

**Ключевые слова:** диверсификация, концепция развития, секторы экономики, эффективность.

**SUMMARY**

**Mubariz Bagirov, Orhan Bagirov**

**ASSESSMENT OF FINANCIAL EFFICIENCY OF ECONOMIC DIVERSIFICATION IN AZERBAIJAN**

The article has been emphasized the need to diversify the economy in our country and substantiates its adoption as a progressive method of economic development. It is proved that this increases the number of developing sectors and sectors of the economy and ensures their dynamic development.

For 2012-2017 have been considered the structure of gross domestic product, the structure of exports, the structure of export sectors, the structure of exports by country. The author commented on the requirements of two government documents to justify the legal basis for diversification. An analysis was made of the level of diversification based on these documents.

**Key words:** diversification, development concept, sectors of the economy, efficiency

**MEHDİ BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*

# MÜASİR MƏRHƏLƏDƏ "REGİONAL YENİLƏNMƏLƏR–MÜHASİBAT UÇOTUNUN UYĞUNLAŞDIRILMASI" TANDEMİNİN PROBLEMLƏRİ VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

*Məqalədə müasir iqtisadi şəraitdə Naxçıvan regionunun sosial-iqtisadi inkişafı araşdırmanın əsas təməl nöqtəsi kimi seçilmişdir. Tələbat həcmində baş verən artımlar nəzərə alınmaqla istehsal potensiallarının günü-gündən güclənməsi, fəaliyyət yönlərinin genişlənməsi muxtar respublikada həyata keçirilən strateji kursun əsas istiqamətlərindən hesab olunmaqdadır.*

*İşin quruluşunun müəyyənləşdirilməsində qarşılıqlı təsirə malik iki "nüvənin" mövcudluğuna diqqət çəkilir. Fəaliyyətin "regional yenilənmələr – mühasibat uçotunun uyğunlaşdırılması" tandeminin tədqiqatı əsasında təşkili mövcud mərhələdə regionun təkcə daxildə olan təkamülünü deyil, həmçinin beynəlxalq iqtisadi əlaqələrdə iştirakının aktivləşməsini göstərməkdədir.*

*Mühasibat uçotu formasının seçilməsi regiondaxili istehsal (fəaliyyət) quruluşlarının forma və məzmundan, istehsal obyektlərindən və maliyyə dövriyyələrinin həcmindən, fəaliyyət tərəflərinin iştirakçılarından və digər şərtlərdən asılıdır. Bu baxımdan uçotun müxtəlif formalarının tətbiqi məqbul hesab edilməkdədir.*

***Açar sözlər:*** *muxtar respublika, regional inkişaf, regional yenilənmələr, mühasibat uçotu, uçotun uyğunlaşdırılması problemləri*

Müasir iqtisadi şərait ümumilikdə Azərbaycan Respublikasının, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sürətli inkişafı ilə müşayiət edilməkdədir. Regional nizamlanma, istehsal və ümumilikdə təsərrüfatçılıq təməllərinin güclənməsi, "üfüqi-şaquli" müstəvidə genişlənmə meyarlarının müşahidə olunması kimi amillər əsasında düzgün qiymətləndirmələrin aparılması muxtar respublikanın bir çox iqtisadi problemlər üzrə irəliləməsinə səbəb olmaqdadır.

Muxtar respublikanın makroiqtisadi müstəvidə göstəricilərinin öyrənilməsi və təhlili idxal istisna olmaqla bütün göstəricilərin vəziyyətində yüksəlişin mövcudluğunu təsdiqləyir (məsələn, ÜDM istehsalı il-ildən məqsədyönlü şəkildə ilkin mərhələdə 5 milyard manata doğru yüksəlir). Bu baxımdan aparıcı sahə kimi ənənəvi olaraq, sənaye çıxış edir. İstər məhsul istehsalı, istər məşğul əhali sayı, istər gəlirlilik kimi göstəricilərin artımı regionda digər istehsal və xidmət sahələrinə müsbət təsirlə yanaşı, əhalinin maddi-rifah halının yaxşılaşdırılmasına səbəb olur. Bir faktı qeyd etmək yerinə düşər ki, 2014-2018-ci illərin göstəricilərinə əsasən sənayenin vəziyyətində 24,6%-dən 31,1%-dək olan artım müşahidə olunmuşdur. İllər üzrə istehsal olunan məhsulların vəziyyətindəki artım, əsasən, idxal olunan əmtəələrin regionda hasilatının təşkili hesabına baş vermişdir.

Hər bir ölkənin (regionun) iqtisadi təməllərində lokomotiv rolunda çıxış edən sənaye eyni zamanda yerli tələbatın daxili istehsal hesabına ödənilməsində xüsusi çəkinin regionun üstələməsi hesab dəyişməsinə çalışmaqdadır. Orta hesabla 400 adda məhsula olan tələbatın daxili istehsal hesabına ödənilməsi muxtar respublikada yaradılmış, formalaşdırılmış sənaye potensialından xəbər verməkdədir.

Regionda əhalinin demoqrafik vəziyyətinə ("daimi əhali" kateqoriyası üzrə regiondan axın proseslərinə) müsbət təsirin ardıcıllığının və məqsədyönlülüyünün təmin edilməsi məqsədilə onun inzibati vahidlərində sahibkarlığın inkişafı, məşğulluq səviyyəsinin yüksəlməsi sahəsində orta fəaliyyət səviyyəli sənaye "vahidlərinin" yaradılması mühüm rol oynamaqdadır. Bu, ilk növbədə aşağıdakı amillərlə şərtlənməkdədir:

1. Regional sənaye istehsalı adətən kiçik subyektlər vasitəsilə təzahür edir ki, bu da daha az maliyyə vəsaitinə ehtiyacın olduğunu göstərməkdədir;

2. Region ehtiyaclarına bir sıra amilin təsiri (əhali sayının az olması, ixrac qabiliyyətinin zəifliyi, beynəlxalq tələblərə cavab verən məhsulların istehsalının məhdudluğu, mütərəqqi texnologiyalara yiyələnmənin nisbi çətinliyi, həmsərhəd ölkələrin sənaye cəhətdən inkişaf etmiş olması, bir sıra aparıcı sənaye sahələri üzrə zəruri mütərəqqi biliklərə malik personalın sayının azlığı, sahəvi maarifləndirmənin tələblərə qənaətbəxş şəkildə tam cavab verməməsi və s.) optimal istehsal ölçülərinin bərqərar olmasına təsir edir;

3. Sənaye daxilində mövcud olan sahə və istiqamətlərin ənənəvi və ya son dövrlərdə formalaşmış ehtiyaclarının ödənilməsinə hesablanan işlərin həyata keçirilməsi, ixrac potensialının formalaşması və sərhədyanı marketinq müşahidələrinin icrası və s.

Muxtar respublikanın uzun müddətlər çərçivəsində mənfur "qonşularımız" tərəfindən güclü blokadaya alınması (son dövrdə bəzi infrastruktur elemenetlərin vəziyyətin yumşalma və ya blokadanın tamamilə qaldırılması müşahidə olunsa da) obyektiv olaraq bu məkanın ümumi inkişaf səviyyəsinə təsir etmişdir. Bununla belə, geriləmənin aradan qaldırılmasına sürətli təsirin təmin edilməsi məqsədilə çoxsaylı yeniliklərdən (müasir quruluşların yaradılması, iqtisadi-təşkilati, inzibati və s. mexanizmlərin tətbiqi yolu ilə ) istifadə zərurəti ortaya çıxmaqdadır.

Regionda baş verən iqtisadi yenilənmələrdən birini də bu məkanda yeni, bir sıra hallarda daha təkmil formalı fəaliyyət quruluşlarının yaradılmasıdır. Bu baxımdan Azərbaycan Respublikası Prezidenti tərəfindən 13 sentyabr 2019-cu il tarixdə imzalanmış hüquqi-normativ akt özünün xüsusi əhəmiyyəti ilə fərqlənməkdədir. Tam adı "Şərur Sənaye Məhəlləsinin yaradılması və "Sənaye məhəllərinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 08 oktyabr 2014-cü il tarixli 288 saylı Fərmanında dəyişiklik edilməsi haqqında" kimi müəyyənləşdirilmiş ölkə başçısının yeni Fərmanı özündə bir çox məsələyə aydınlıq gətirmək vəzifəsini daşımaqdadır.

Müvafiq fərman bir çox təşkilati, iqtisadi, inzibati və digər mühüm yönlərə toxunan məsələlərə aydınlıq gətirmək məqsədini güdür ki, bu da həmin məhəllədə və digər analoji quruluşlarda mühasibat uçotunun spesifik təşkilatlanmasına təsirsiz ötüşməyəcəkdir. Bəhs olunan məqam Şərur Sənaye Məhəlləsi (ŞSM) iştirakçıları sırasında fəaliyyəti tamamilə xarici kapital əsaslanmaqda təşkil olunan, yaxud nizamnaməsində xarici kapitalın mövcudluğu təmin edilən subyektlərin (birgə (müştərək və s.) müəssisələr) iştirakı halında öz konturlarını daha qabardılmış şəkildə büruzə verir.

Müvafiq akt bir sıra xüsusi "obyekt" təyinatı ilə fərqlənməkdədir. Bu sırada ilk diqqət məqsədlərə yönəlməlidir:

1. Adətən daha çevik "fəaliyyət mexanizmləri" ilə silahlanmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin bərqərar olması üzrə dəstəklənmə fəaliyyətinin təmin olunması;

2. Respublikada həyata keçirilən məqsədyönlü fiskal siyasət hesabına istər mərkəzdə, istərsə də regionlarda yenilikçi quruluş və qurumların yaradılması və perspektiv fəaliyyətinin hazırlanması üzrə maliyyə təməllərinin formalaşdırılması;

3. Ölkənin perspektiv təkamülündə iqtisadi inkişafın qeyri-neft sektorunun payının üstələməsi hesabına işlərin icrası;

4. Əhalinin məşğulluğunun artırılması, onların maddi-rifah halının daha yüksək səviyyələrə çatdırılması və s.

Bəhs olunan müvafiq birinci dərəcəli məqsədlər öz növbəsində əlaqəli "törəmə (ikinci dərəcəli) məqsədlərin" meydana çıxamasına, onların konturlarının dəqiqləşdirilməsinə səbəb olur. Məsələn, sözügedən Fərmanın 2-ci maddəsinin 1-ci bəndinə müvafiq olaraq ŞSM tərkibində fəaliyyət göstərən subyektlər qeyri-neft sənayesi aidiyyatı ilə seçilməklə yanaşı, məhsul istehsalı ilə yanaşı, xidmətlərin göstərilməsi ilə də məşğul ola bilərlər. Bu isə müvafiq vahidlərin məşğulluq arealının təkcə istehsalla məhdudlaşmadığına dəlalət edir.

Digər tərəfdən, bu Fərmanla ölkə və muxtar respublika səviyyəsində tənzimləyici funksiyalar əsas götürülməklə konkret iş bölgüləri və icra fəaliyyətlərinə yol açır. Onun ayrı-ayrı maddələri üzrə son ünvan kimi Azərbaycan Republikası Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, ŞSM-nin idarəetmə orqanı, digər strukturlar (səlahiyyətləri və öhdəlikləri daxilində)

göstərilməkdədir. Normativ akta uyğun olaraq, tənzimləmədə əsas fəaliyyətin proqnozlaşdırılması, perspektiv dövrdə icraata nəzarət olunması və ölkə başçısının bu yöndə görülmüş və görüləcək işlərlə bağlı məlumatlandırılması Azərbaycan Republikası Nazirlər Kabinetinin öhdəsinə verilmişdir.

Fəaliyyətin maliyyələşdirilməsi mərkəzi büdcənin öhdəsinə verilmiş, onun tənzimlənməsi isə Azərbaycan Republikası Maliyyə Nazirliyi tərəfindən həyata keçirilməlidir. Görüləcək işlər sırasında istehsal ərazilərinin yaradılması, uyğun mühitin formalaşdırılması, zəruri infrastrukturun bərqərar olması kimi maddələr mühüm əhəmiyyət kəsb etməkdədir. Ölkənin ali maliyyələşdirmə orqanı tərəfindən fəaliyyətin tənzimlənməsində əsas sənəd kimi Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2019-cu il tarixli 890 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il Dövlət Büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) bölgüsü" çıxış etməkdədir. Həmin sənədin 1.42.2-ci yarımbəndinə müvafiq olaraq, smeta əsaslandırılması ilkin şəkildə müəyyənləşdirilmiş məbləğin Naxçıvan regionunun xüsusi bank müxbir hesabına köçürülməsi mümkün olacaqdır. Fərman regionun müvafiq idarəetmə orqanları ilə bağlı d mühüm vəzifələri də müəyyən etməkdədir.

Nəzərdən yayınmamalıdır ki, ŞSM daxilindəki subyektlərin fəaliyyəti təkcə "lokal" (məhəllədaxili) fəaliyyəti nəzərdə tutmur, həmçinin məhəllədən kənarda mövcud olan subyektlərlə kooperasiya təyinatı icraatı da mümkündür.

Göründüyü kimi, muxtar respublikada təkcə bir sənaye məhəlləsinin yaradılması ilə əlaqəli icrası nəzərdə tutulan işlər kifayət qədər tutumlu və rəngarəngdir. Onlar, həmçinin idarəetmə sahəsində də geniş arealı əhatə edəcək fəaliyyətin təməllərini də formalaşdıracaqdır. Bəhs olunan məsələlərdə mühasibat uçotuna ayrılan rol özünün mühümlüyü, aktuallığı ilə seçilməkdədir. Yaranmış vəziyyət bir çox məsələyə baxış bucaqlarının yenilənməsi, bu yöndə həqiqi transformativ və təkmilləşdirici çoxsaylı addımlara yol verilməsini məqsədəuyğun hesab etmək zəruridir. Bu sırada mühüm olanlarının sırasında aşağıdakı maddələri sadalamaq mümkündür:

- ✓ mühüm idarəetmə funksiyalarından biri hesab edilən mühasibat uçotu və hesabatlılığın mülki, inzibati və iqtisadi qanunvericiliyə müvafiq şəkildə təşkil olunması və həyata keçirilməsi;
- ✓ uçot maddələrinin yaranmış real iqtisadi situasiyalara uyğunluğunun təmin edilməsi;

Regional müstəvidə mühasibat uçotunun təşkilinin xüsusiyyətləri ölkə üzrə hüquqi-normativ sənədlərlə müəyyənləşdirilmiş vahid şərtlərlə yanaşı həmin ərazi vahidlərinin ixtisaslaşma yönləri, iqtisadi inkişaf, istehsalın təmərküzləşmə həcmləri və istiqamətləri, əldə etdikləri (edəcəkləri) illik gəlir səviyyəsi, hasilatın sahə quruluşu, istehsal dövlərinin müddətləri və digər amillərlə əlaqələndirilməkdədir.

Ölkə qanunvericiliyinə müvafiq olaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən istənilən təsərrüfat subyekti özündə mühasibat uçotunun bu və ya digər formasını təşkil və tətbiq etməyə borcludur. Bu baxımdan ilk növbədə aşağıdakı məqamlar diqqətdən yayınmamalıdır:

1. Hər bir istehsalçı subyekt mühasibat uçot və hesabatlılıq prinsipini əsas götürməli, ona riayət etməlidir;
2. Əmlak, maddi və maliyyə dövriyyəsi, təşkilatlanma və idarəetmə kimi parametrlər nəzərə alınmaqla mühasibat uçotunun uyğun forması seçilməlidir;
3. Subyektin nizamnaməsində olan vəsaitin mənbəyindən (daxili, xarici və ya müştərək) asılı olaraq, uçotun bir və ya bir neçə formasından istifadə oluna bilməsinin mümkünlüyü;
4. Sadələşdirilmiş uçot formasının, yaxud haliyədə hələ də paralel şəkildə işlənməkdə olan iki hesablar planından birinin xidmətlərindən istifadə olunması;
5. Oxşar fikir daxili ibtidai, qarşılıqlı hesablaşma sənəd formalarının tətbiqi ilə bağlı da söylənə bilər və s.

Təsnifatın birinci maddəsi "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunu və digər analoji hüquqi-normativ aktlarla tənzimlənməkdədir. Uçot hər bir təsərrüfatçılıq vahidinin həqiqi vəziyyətinə aydınlıq gətirmək, onun təşkilinin qaydalara müvafiqliyini təmin etmək, (əgər nəzərdə tutulubsa) vergidən yayınma hallarının qarşısını almaq kimi vəzifələrin icrasına mükəlləfdir.

Yuxarıda da qeyd olunduğu kimi, təsərrüfat subyektlərinin müxtəlifliyi əmlak, maddi və maliyyə dövriyyəsi, təşkilatlanma, idarəetmə və digər əlaqəli parametrlər vasitəsilə də təmin olunmaqdadır. Sadalanan meyarların hər biri özü-özlüyündə kifayət qədər tutumlu fərdi əhəmiyyətə malikdirlər. Digər tərəfdən, fəaliyyət şərtlərinin uyğun gəlməsi bir "obyektin" bir deyil, bir neçə amilin maraqlarının kəsişməsində olmasına da yol aça, bu yolla isə uçot formasının seçimini dəqiqləşdirməyə imkan verə bilər. Məsələn, fikrimizcə, aylıq əmtəə dövriyyəsi 25 min manatadək, xalis gəlir həcmi 5 min manatadək olan, nizamnaməsi ancaq daxili kapital hesabına formalaşan kiçik sahibkarlıq subyektləri üzrə uçotun sadələşdirilmiş formasının tətbiqi məqsədəuyğun olardı.

Subyektlər sırasında digər rəngarəngliyin nəzərə alınması da zəruridir. Bu sırada:

- ✓ yuxarıda göstərilən pul vəsaiti ölçüsündən yüksək olan, tamamilə daxili kapitala söykənən vahidlər;
- ✓ yuxarıda göstərilən pul vəsaiti ölçüsündən yüksək olan, tamamilə xarici kapitala söykənən vahidlər;
- ✓ yuxarıda göstərilən pul vəsaiti ölçüsündən yüksək olan, daxili və xarici kapitala payı bəlli formada söykənən vahidlər;
- ✓ regiondaxili, xüsusi kapitala malik subyekt olub, fəaliyyəti (həmçinin bütün digər əlaqələri) ancaq yerli ehtiyacların ödənilməsinə yönələn subyektlər;
- ✓ regiondaxili, xüsusi kapitala malik subyekt olub, beynəlxalq ticarət-iqtisadi əlaqələrin aktiv iştirakçısı olan subyektlər;
- ✓ nizamnaməsi xarici kapital hesabına formalaşan, lakin regiona aidiyyatı ilə seçilən subyektlər və s.

Təsnifləşdirmədə geniş arealın (seçimin) mövcudluğu özünü mühasibat uçotu və hesabatlılığın təşkili fərqliliyində də biruzə verməkdədir. Yaddan çıxarmaq olmaz ki, yaranmış vəziyyətdən çıxış yolu aşağıdakı əsas prinsiplərə əməl olunmaqla mümkündür:

1. İstehsal və ya ümumilikdə təsərrüfat fəaliyyətinə marağın mövcudluğu və daim artması;
2. İstehsalın təşkili, əmtəələrin vizual və digər göstəricilərin təkmilləşdirilməsi əsasında maliyyə imkanlarının genişləndirilməsi, fəaliyyət imkanlarının transformativ və təkmilləşdirici alət və vasitələrin təsirinə mütəmadi məruz qalması;
3. Maliyyə-uçot və tənzimləmə sahəsində qüvvədə olan qanunvericiliyin tələblərinə riayət olunması və s.

## ƏDƏBİYYAT

1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunu, 2004
2. M.S.Bağırov. Mühasibat uçotu nəzəriyyəsi. Mühasibat uçotu üzrə çoxcildlik, I və II hissələr. Naxçıvan, İdeya, 2012
3. M.S.Bağırov. Müəssisə vəsaitləri mühasibat uçotunda: torpaq, tikili və avadanlıqlar. Naxçıvan, İdeya, 2013
4. M.S.Bağırov. Mühasibat uçotu nəzəriyyəsinin beynəlxalq təcrübəsi. Naxçıvan, 2010
5. M.S.Bağırov. Mühasibat uçotu nəzəriyyəsi. Bakı, 2009
   T.A.Abbasov. Mühasibat uçotunun beynəlxalq və milli standartlarının əsasları. Bakı, 2010
6. T.A.Abbasov, M.S.Bağırov. Mühasibat (maliyyə) hesabatları və audit işinin təşkili. Bakı, ADPU, 2005
7. Ə.V.Salahov, V.M.Mehdiyev. Mühasibat uçotu. Bakı, "3 saylı Bakı Mətbəəsi", 2016
8. V.M.Mehdiyev. Milli Mühasibat Uçotu Standartları və kompyuter mühasibatı: mahiyyəti, formalaşması və tətbiq edilməsi problemləri. Bakı, Sabah, 2014
9. A.M.Cəfərov. Mühasibat uçotu. Bakı, Monitor Konsaltinq Servis MMC, 2011
10. E.Həsənov, E.Əlimərdanov. Mühasibat uçotu. Naxçıvan, Əcəmi, 2017
11. R.R.Fətullayev. Beynəlxalq mühasibatlığa giriş. (İFRS) Bakı, Nurlan, 2015
12. www.maliyye.gov.az

**РЕЗЮМЕ**

**Мехти Багиров**

**ПРОБЛЕМЫ ТАНДЕМА «РЕГИОНАЛЬНЫЕ ОБНОВЛЕНИЯ – СООТВЕТСТВИЕ БУХГАЛТЕРСКОГО УЧЕТА» НА СОВРЕМЕННОМ ЭТАПЕ И ПУТИ ИХ УСТРАНЕНИЯ**

В статье основной точкой опоры исследования выбрано социально-экономическое развитие Нахчыванского региона в современных экономических условиях. Усиление производственного потенциала изодня в день на основе роста объемов потребления, расширение сторон деятельности считаются основными направлениями проводимого в автономной республике стратегического курса.

Определение структуры работы направляет внимание на существование двух взаимовлияющих «ядер». Организация исследования деятельности на основе тандема «региональное обновления – соответствие бухгалтерского учета» показывают не только внутреннее усовершенствование региона на современном этапе, но и активизацию участия в международных экономических отношениях

Выбор формы бухгалтерского учета зависит от формы и сущности производственных (деятельных) организований внутри региона, производственных объектов и объемов финансовых оборотов, сторон-участников деятельности и других условий. С этой точки зрения считается удовлетворительным применение различных форм учета.

**Ключевые слова:** автономная республика, региональное развитие, региональное обновление, проблемы соответствия учета

**SUMMARY**

**Mekhti Bagırov**

**PROBLEMS OF THE TANDEM “REGIONAL UPDATES - ADAPTATION OF ACCOUNTING” AT THE MODERN STAGE AND WAYS OF THEIR ELIMINATION**

The article examines the socio-economic development of the Nakhchivan region in modern economic conditions has been selected as the main research point. Day-to-day reinforcement of production capacities, and expansion of activities, talking into account the increase in demand is one of the main directions of the strategic course in the autonomous republic.

Determining the structure of the case draws attention or the presence of two interrelated nucleus. The organization of the activity based of a regional tandem adaptation, tandem study shows not only the evolution of the region at the present stage but also its activation in international economic relations.

The chouice of accunting form is based on the form and content of regional production struktures depending on the financisl parties and other conditions at the production facilities and the volume of financial turnover. In this regard, the application of different forms of accounting is considered acceptable.

**Key words:** autnomous republic, regional development, regional updates, accounting, problems of accounting adaptation

**NURİYYƏ İBRAHİMOVA**
**BƏHRİYYƏ ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*
*nuriyyeibrahimova@mail.ru*

# GƏLİRLƏR VƏ XƏRCLƏR MÜƏSSİSƏNİN MALİYYƏ NƏTİCƏLƏRİNİN FORMALAŞMASININ İQTİSADİ BAZASI KİMİ

*Region iqtisadiyyatının inkişafının təkamülün cari balanslaşdırılmış strategiyası əsasında araşdırlması zəruridir.*

*Məqalədə həlledici məsələlərin hazırlanması və reallaşdırılması əsasında, regionun ərazisində yaradılmış potensialın istifadəsi və təkrar istehsalı üçün zəruri olan tədbirlərin həyata keçirilməsi əsasında mümkün olacaq regional kompleks inkişafından bəhs olunur.*

***Açar sözlər:*** *maliyyə, investisiya, sosial siyasət, potensial, sahibkarlıq, kompleks.*

Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirilir və bu islahatlar çərçivəsində iqtisadiyyatın divertisifikasiyası qeyri-neft sektorunun stimullaşdırılması, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət sahibkar münasibətlərinin inkişaf etdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində kompleks tədbirlər görülür.

Region iqtisadiyyatının inkişafı indiki tarazlı inkişaf strategiyasının reallaşması konteksində mühüm əhəmiyyət kəsb edir. Regionun kompleks inkişaf məqsədi onun ərazisində formalaşan potensialın istifadəsi və təkrar istehsalı üçün zəruri olan vəzifələrin əsas tədbirlərin hazırlanması və tətbiqi ilə mümkündür.

Yeni iqtisadi şəraitdə ölkəmizdə həyata keçirilən inkişaf strategiyası, ilk növbədə regionların sosial-iqtisadi inkişafının təmin edilməsi iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması və ixracyönümlü məhsul istehsalına keçməklə iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi nəticəsində qazanılmış uğurların miqyası və əhatə dairəsi xeyli genişləndirilmişdir. Ölkə prezidentinin “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında 24 noyabr 2003-cü il tarixdə imzaladığı fərmanla müəyyən edilmiş sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər bu sahədə əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirmişdir. Digər tərəfdən iqtisadiyyatın bütün sahələrində inkişafa istiqamətləndirilmiş tədbirlərin ayrı-ayrı dövlət proqramları çərçivəsində həyata keçirilməsi ümumi nəticədə səmərəliliyi xeyli artırmış, ümumiqtisadi inkişafın mərkəzlə yanaşı, regionlara doğru istiqamətlənməsində müstəsna əhəmiyyət kəsb etmişdir.

Qeyd olunan ümumi inkişaf fonunda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və sosial həyatı özünəməxsusluğu ilə fərqlənir. İşğalçı Ermənistan Respublikasının Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində ölkənin əsas hissəsindən ayrı düşərək iqtisadi və nəqliyyat əlaqələri baxımından blokada şəraitində yaşamağa məhkum olmuş muxtar respublika mövcud çətinliklərə baxmayaraq, ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq prosesində fəal iştirak edir.

Azərbaycan Respublikasınn iqtisadi-coğrafi rayonlaşdırılmasında Naxçıvan Muxtar Respublikasının ərazisi bütövlükdə ölkədaxili iqtisadi rayonlardan biri kimi qeyd olunmuşdur, lakin o, özünün çoxsahəli strukturu ilə fərqlənir. Bu, muxtar respublikanın Azərbaycan Respublikasının əsas ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah olunur. Naxçıvan Muxtar Respublikası inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye regionudur. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur, elektronika, metal emalı,

tikinti materialları və yüngül sənayesi var. Kənd təsəffüfatı əsasən taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və bağçılıq sahəsində ixtisaslaşmışdır. Muxtar respublikada iqtisadi islahatlar ardıcıl həyata keçirilmiş, torpaq islahatı başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır.

Muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə məqsədli proqramlar hazırlanmışdır. Naxçıvan Muxtar Respublikasında təbii sərvətlərdən və yerli şəraitdən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək, əhalinin güzəranını daha da yaxşılaşdırmaq, əhalinin etibarlı ərzaq məhsulları ilə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının regional inkişaf proqramları, “Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, “Naxçıvan Muxtar Respublikasında kartofçuluq inkişafı üzrə Dövlət Proqramı”, “Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında”, “2017-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” təsdiq olunmuş və icrası uğurla reallaşdırılmaqdadır.

Belə ki, muxtar respublikada 2019-cu ilin yanvar-avqust aylarında 1 milyard 803 milyon 670 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Bu, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 3945 manat olmuşdur.

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə yüz milyon 932 min 800 manat dəyərində məhsul istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

Vəsait qoyuluşları çərçivəsində 2019-cu ilin yanvar-avqust aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 654 milyon 443 min 600 manat vəsait yönəldilmişdir. Bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 631 milyon 634 min 500 manatı və ya 96,5 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

Bəhs olunan dövrdə 309 milyon 144 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz daha çoxdur.Bu dövr ərzində diri çəkidə ət istehsalı 14518,9 ton, süd istehsalı 68143,1 ton olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,9 faiz, süd istehaslı isə 1,5 faiz artmışdır.

2019-cu ilin yanvar-avqust aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 35 milyon 522 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 3,2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 28 milyon 898 min 100 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 2,1 faiz artmışdır.

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2019-cu ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 77 milyon 641 min 400 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,2 dəfə çoxdur. Verilmiş kreditlərin 9 milyon 781 min 800 manatı və yaxud 12, 6 faizi qısamüddətli, 67 milyon 859 min 600 manatı və yaxud 87,4 faizi uzunmüddətli kreditlər olmuşdur.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2019-cu ilin yanvar-avqust aylarında 325 milyon 495 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 285 milyon 764 min 900 ABŞ dolları təşkil etmiş, 246 milyon 34 min 800 min ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

2019-cu ilin yanvar-iyul aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 454,5 manat təşkil etmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,7 faiz çoxdur.

Maliyyə nəticələrinin formalaşmasının iqtisadi əsası onların gəlirlərindən və xərclərindən ibarətdir. Onların mahiyyəti və tərkibi mühasibat uçotu üzrə normativ sənədlərlə müəyyən edilir.

İstehsalat, təsərrüfat və maliyyə fəaliyyətinin nəticəsi kimi mənfəət alınmasını nəzərdə tutur.

Mənfəət - təşkilatın işinin səmərəliliyinin ən mühüm iqtisadi göstəricisidir. Onun məbləğinin dəyişməsində təşkilatın fəaliyyətinin bütün tərəfləri:

1) malların, məhsulların, işlərin, xidmətlərin istehsal və satışı həcmlərinin azalması və ya artması;

2) təşkilatın malik olduğu ehtiyatlardan (maddi, əmək ehtiyatlarından, əsas fondlardan və s.) səmərəli, yaxud səmərəsiz istifadə edilməsi;

3) rəqabətlə əlaqədar satış bazarlarında qiymət siyasəti;

4) maliyyə əməliyyatlarının( pul vəsaitlərilə, qiymətli kağızlarda) səmərəliliyi;

5) əmlak üzrə əqdlərin (sazişlərin) səmərəliliyi;

6) digər təşkilatların fəaliyyətində iştirakın səmərəliliyi;

7) debitor borclarının idarə edilməsinin səmərəliliyi;

8) təsərrüfatsızlıq sayəsində zərərlərin( kontangentlərlə müqavilə şərtlərinin pozulmasına görə cərimələrin, penyaların, dəbbələmə pullarının, digər təşkilatlara vurulmuş zərərlərin əvəzinin ödənilməsinin və.s) olması və ya olmaması aydınlaşdırılır.

İdarəetmənin icraçı orqanı (baş direktor, direktorlar şurası) əsas fəaliyyət üzrə zərərli əməliyyatların, daşınmaz əmlak, valyuta və digər əmlak üzrə zərərli sazişlərin yaranması səbəblərini təşkilatın mülkiyyətçilərinə ( səhmdarlarına) izah edilməlidir.

Mənfəət ilin əvvəlindən başlayaraq artan yekunla nəzərə alınır:

- ✓ Kredit üzrə - *mənfəətlər, gəlirlər*;
- ✓ Debetlər üzrə - *zərərlər, xərclər*

**Balans mənfəətinin amili (faktorlu) təhlili**

| Sıra sayı | Balans mənfəətinin toplananları (dəyişmə amilləri) | Əvvəlki analoji dövrdə | | Hesabat dövründə | | Balans mənfəətinə təsiri (+;-) | |
|---|---|---|---|---|---|---|---|
| | | Məbləği min man, | Xüsusi çəkisi % | Məbləği min man, | Xüsusi çəkisi % | Məbləği min man, | Faizlər |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** |
| 1 | Satışdan alınan mənfəət | 36500 | 91,25 | 49100 | 87,68 | + 12600 | +31,5 |
| 2 | Alınmalı faizlər | 5400 | 13,50 | 7000 | 12,50 | +1600 | +4,0 |
| 3 | Ödənilməli faizlər | -2700 | -6,75 | -3500 | -6,25 | -800 | -2,0 |
| 4 | Digər təşkilatlarda iştirak etməkdən alınan gəlirlər | - | - | - | - | - | - |
| 5 | Digər əməliyyat gəlirləri | 4400 | 11,00 | 6400 | 11,43 | +2000 | +5,0 |
| 6 | Digər əməliyyat xərcləri | -3700 | -9,25 | -3300 | -5,89 | +400 | +1,0 |
| 7 | Satışdan kənar gəlirlər | 900 | 2,25 | 1000 | 1,78 | +100 | +0,25 |
| 8 | Satışdan kənar xərclər | -800 | -2,00 | -700 | -1,25 | +100 | +0,25 |
| 9 | Balans mənfəəti | 40000 | 100,0 | 56000 | 100,0 | +16000 | +40,0 |

Mənfəətin göstəriciləri mühasibat hesabında "Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat" üzrə 2 saylı formada təqdim edilir. Mənfəət - kommersiya təşkilatlarında investisiyaların, habelə şəxsi heyətin maddi həvəsləndirilməsinin və sosial ödəmələrin ən mühüm mənbəyidir. Hesabat ilinin və keçmiş illərin bölüşdürülməmiş mənfəəti təçkilatın öz dövriyyə kapitalının artırılması üçün istifadə edilir, yəni onun bazarda davamlılığının və ödəmə qabiliyyətinin yüksəldilməsinə şərait yaradır.

"Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat" üzrə 2 saylı formada *balans mənfəəti* ( vergi hesablanana qədər) iki analoji ( oxşar) vaxt dövrü ərzində toplananları baxımından tərkibi barədə məlumatlar verilir. Təhlil zamanı bu məlumatlar tutuşdurulur və hər toplananın balans mənfəəti məbləğinin və faizinin dəyişilməsinə necə təsir etməsini hesablamaq olaq. Beləliklə, vergi hesablanana qədər mənfəətin amillər üzrə(faktorlu) təhlili 2 saylı formanın məlumatları əsasında aparılır.Vergi hesablanana qədər mənfəətin dəyişdirilməsi amilləri ( faktorları) onun toplananlarından ibarətdir.

Hesabat dövründə balans mənfəətinin məbləği 56000 manat təşkil etmişdir. O, əvvəlki dövrlə müqayisədə 16000 manat və ya 40% artmışdır.

Balans mənfəətinin artmasına səbəb olan əsas amil - əsas fəaliyyətdən alınan mənfəətin artımıdır. Sonuncunun hesabına mühasibat üzrə mənfəət 12600 manat və ya 31,5% artmışdır.

Əhəmiyyətinə görə ikinci amil - əmlakla aparılan əqdlər (sazişlər) hesabına mənfəətin artmasıdır: digər əməliyyat gəlirləri mühasibat üzrə mənfəətin 2000 manat və ya 5% artımını təmin etmişdir və eyni zamanda digər əməliyyat xərcləri 400 manat azalmışdır, bu isə müvafiq olaraq, balans mənfəətini 1% artırmışdır.

Əhəmiyyətinə görə növbəti amil – maliyyə əməliyyatları üzrə gəlirlərin yülsəlməsidir: alınmalı faizlər balans mənfəətinin 1600 manat və ya 4% artmasını təmin etmişdir.

Analoji sürətdə balans mənfəətinin dəyişilməsinin qalan amillərini şərh etmək olar. Sonrakı təhlil balans mənfəətinin hər bir tərkib elementinin ətraflı öyrənilməsinə yönəlməlidir. Bu məqsədlə mühasibat uçotu məlumatlarından "Mənfəət və zərər üzrə 80-ci hesabın debet və kredit əməliyyatlarının qeydləri) istifadə etmək lazımdır. Ətraflı təhlil zamanı maliyyə əməliyyatlarından məhz hansı faizlər alınmasını (hesablanmasını) müəyyən etmək olar. Digər əməliyyat gəlirləri və xərcləri üzrə əmlakla məhz hansı əməliyyatlar aparılmasını, zərərli əqidlərin olub-olmamasını aydınlaşdırmaq arzu edilmişdir. Əgər belələri olmuşdursa, onda onların təşəbbüskarının kim olmasını, zərərlərin hansı səbəbdən baş verməsini və onların təqsirkar şəxslərin hesabına ödənilməsinin mümkün olmasını aydınlaşdırmaq lazımdır.

Keçmiş illərin borclarının və zərərlərinin silinməsinə sərf olunmuş satışdan kənar xərclər, ödənilmiş cərimələr, pensiyalar, dəbbələmə pulları çox dəqiq sürətdə öyrənilməlidir. Satışdan kənar zərərlərin bütün növləri üzrə təqsirkar şəxsləri müəyyən etmək, habelə gələcəkdə belə zərərlərə yol verilməməsi üzrə təşkilati-texniki tədbirlər hazırlayıb həyata keçirmək məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. "Naxçıvan Muxtar Respublikasının 2017-2020 ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramı.
2. Əlirzayev Ə.Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri, Bakı, səh. 114
3. Əlirzayev Ə.Q. Əliyev K.Q. Sahibkarlığın inkişafının təsnifatı, İqtisadiyyat və audit Bakı, 2002
4. Əliyev K.Q. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişaf problemləri, İqtisadiyyat və audit jurnalı 2003 №10, səh. 24-25
5. N.Əhmədov. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf, Bakı, 2008
6. İbrahimov İ. Aqrar islahatlar və sahibkarlığın inkişafı, Bakı, 2005
7. Şərq qapısı, 25 sentyabr 2019-cu il

8. Rüstəmov A., Qasımov D. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi, Bakı, Avrora, 2013, 406 səh.
9. Abbasov T.A. Naxçıvan Muxtar Respublikasında aqrar bazarın formalaşması və xüsusiyyətləri, Bakı, 2005, səh. 301
10. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşdırılmasında rolu, Naxçıvan, 2014, səh. 129-134
11. N.İbrahimova. Regionda aqrar sahənin istehsal iqtisadi əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri. Naxçıvan, İdeya, 2011, səh. 214

## РЕЗЮМЕ

**Нурия Ибрагимова**
**Бахрия Аббасова**

### ПРИБЫЛЬ И РАСХОДЫ КАК БАЗА ЭКОНОМИЧЕСКОГО ФОРМИРОВАНИЯ ФИНАНСОВЫХ РЕЗУЛЬТАТОВ ПРЕДПРИЯТИЯ

Развитие экономики региона важно в контексте текущей сбалансированной стратегии развития. В статье рассказывается о комплексном развитии региона через разработку и реализацию ключевых задач, мероприятия, необходимые для использования и воспроизводства созданного на его территории потенциала.

**Ключевые слова:** финансы, инвестиция, социальная политика, потенциал, предпринимательство, комплекс.

## SUMMARY

**Nuriyya Ibrahimova**
**Bahriya Abbasova**

### PROFIT AND EXPENSES AS ECONOMICAL BASE FOR FORMATION OF FINANCIAL RESULTS

The development of the regions economy is important in the context of the current balanced development strategy. The article explains the complex development of the region an the feasibility of developing and implementing key actions that are necessary for the use and reproduction of its potential in the region.

**Key words:** finance, investment, social policy, potencial, ownership, complex.

**KƏMALƏ TƏHMƏZBƏYOVA**
*Naxçıvan Dövlət Universiteti*

# MİLLİ MÜHASİBAT UÇOTU STANDARTLARININ İQTİSADİ KONSEPSİYASI

*Maliyyə hesabatlarının Beynəlxalq Standartlarının tətbiqi zamanı ortaya çıxan bəzi boşluqların, qüsurların aradan qaldırılmasına dair səmərəli təkliflərin birləşdirilməsi, hesabatların keyfiyyət xüsusiyyətləri baxımından daha da yüksək səviyyədə tərtib olunmasına gətirib çıxaracaqdır. Lakin sözü gedən məsələnin həllində də əsaslı problemlər mövcuddur. Belə ki, mübahisəli yanaşmaların həlli baxımından ölkəmizdə MMUS-nın qəbulu üçün müəyyən mərkəzlərin olmaması onun keyfiyyətini yaxşılaşdırmaq məqsədi ilə verilən tövsiyələrin əsaslı şəkildə araşdırılmasına imkan yaratmır və bu problemlərin aradan qaldırılmasını ləngidir.*

***Açar sözlər:*** *standart, boşluq, prinsiplər, ehtiyatlar, hissələr*

Azərbaycan iqtisadiyyatının bugünkü sürətli inkişafı möhtərəm Heydər Əliyevin yaratdığı möhkəm iqtisadi təməl üzərində baş verir. Ümummilli lider Heydər Əliyevin uğurlu iqtisadi siyasəti əsasında Azərbaycan iqtisadiyyatının əsas prinsiplərinə uyğun olaraq, yenidən qurulmuş makroiqtisadi sabitlik möhkəmləndirilmiş, tarazlı inkişafa nail olunmuş, əsrin müqaviləsi imzalanmış bununla da ölkədə investisiya axınına nail olunmuşdur. 1994-cü ildə atəşkəsə nail olunması bu axın xeyli sürətləndirmişdir. Bu gün inkişaf strategiyası Cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilmiş, ölkədə siyasi sosial-iqtisadi sabitliyə nail olunmuşdur. Ölkədə ardıcıl aparılan iqtisadi siyasət nəticəsində Azərbaycan dünya dövlətləri arasında inkişaf sürətinə malik olan ölkələr siyahısına daxil olmuşdur. Respublikada müşahidə olunan iqtisadi artım təsərrüfat subyektlərində aparılan mühasibat uçotunun təkmilləşdirilməsini tələb edirdi.

Beləliklə, qloballaşma şəraitində mühasibat uçotunun BMUS-rı əsasında MMUS-hazırlanmasına tələbat yaratdı. Məhz bu baxımdan mühasibat uçotunun yeni prinsiplərinin müəyyən edilməsi məqsədi ilə 29 iyun 2004 – cü il tarixində “Mühasibat uçotu haqqında” qanun təsdiq edildi. Qanuni tələblərini icra etmək məqsədi ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən maliyyə hesabatlarının beynəlxalq standartlarının Azərbaycan dilinə tərcümə edilməsi təşkil edilmişdir.

Beləliklə, 37 adda kommersiya təşkilatları üçün 24 adda büdcə təşkilatları üçün bir adda, qeyri-hökumət təşkilatları üçün MMUS–nı, həmçinin zəruri hesab edilən 27 adda kommersiya təşkilatları üçün MMUS-nın tətbiqi üzrə şərhlər və tövsiyyələr hesablanaraq 2009-cu ildə təsdiq edilmişdir.

Kommersiya təşkilatları üçün hazırllanan MMUS-nun müvəffəqiyyətlə tətbiqinə baxmayaraq, biznes üçün nəzərdə tutulmuş və BMUS-u əsasında hazılanmış MMUS-da müəyyən boşluqlara, qüsurlara ziddiyyətlərə rast gəlmək olar. (MMUS-na mübahisəli yanaşmaların həlli baxımından müəyyən mərkəzlərin olmaması istifadəçi təşkilatlar tərəfindən verilən tövsiyələrin diqqətdən kənarda qalması sözü gedən problemlərin həll olunmmasına şərait yaradır). Məsələn: Milli muhasibat uçotu standartlarından istifadə zamanı yaranan ziddiyətləri aydınlaşdırmağa çalışaq. Aydınlaşdırılması nəzərdə tutulan 7№-li MMUS 64 maddədən ibarət olub, tələb olunan müddəaların sonunu tam əhatə edir. 111№-li torpaq titulu və avadanlıqların (əsas vəsaitlər) obyekti aktiv kimi tanınır ki, kommersiya təşkilatları üçün MMUS-u konseptual əsaslarına uyğun olaraq, aşağıdakı şərtləri təmin edir.

1. Həmin obyektlə bağlı gələcək iqtisadi səmərənin müəssisəyə axını ehtimal edildikdə;
2. Obyektin dəyəri etibarlı əsasla qiymətləndirilə bildikdə;

Araşdırmaq istədiyimiz və 7№-li MMUS ilə əlaqədar olan ehtiyatlar üzrə 8 №-li MMUS-dur.

8 №-li MMUS-a aid edilən ehtiyat hissələri və xidməti avadanlıqlar istifadə edildikdə “mənfəət və zərər” haqqında hesablarda xərc kimi tanınır. Lakin maraqlı məqam ondan ibarətdir ki, müəssisə tərəfindən bir hesabat dövründən artıq istifadə ediləcəyi ehtimal olunan ehtiyat hissələri və

ehtiyatda saxlanılan xidməti avadanlıqların böyük əksəriyyəti əsas vəsait ilə (torpaq tikili və avadanlıqlar) birlikdə istifadə olunduqda əsas vəsait kimi uçota alınır. Lakin əsas vəsait kimi tanınan obyektin və ya ehtiyat hissələrin tanınması üçün ölçü vahidi müəyyən edilmir. Burda nəzərə almaq lazımdır ki, həmin ehtiyat hissələr əsas vəsait kimi istifadə olunduqda əsas vəsaitlərin tanınma meyarlarına cavab verilməsi və əsas vəsaitlər kimi qiymətləndirilməlidirlər. Zənnimizcə, bu zaman sözü gedən ehtiyat hissələr və xidməti avadanlıqlar iki istiqamətdə qiymətləndirilməlidir və uçota alınmalıdır:

1. Ayrılıqda ehtiyatların təsnifat qrupuna daxil olan ehtiyat hissələr və xidməti avadanlıqlar (qəlib, kiçik lakin uzunmüddətli alətlər, şalbanlar) qruplaşdırılaraq köməkçi materiallar kimi qiymətləndirilərək əsas vəsaitin dəyərini əlavə edilməlidir;
2. İkinci halda əsas vəsaitlə birgə istifadə olunan ehtiyat hissələr və xidməti avadanlıqlar 7№-li MMUS-nun 9-cu maddəsinin nümunəvi təsnifatına uyğun əsas vəsait kimi qruplaşdırılmalı və 111№-li torpaq tikili və avadanlıqların hesabının sub hesabı kimi tanınmalı və vəsaitlər kimi yəni əsas vəsaitlə birlikdə onun tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Deməli, ehtiyat hissələri və xidməti avadanlıqlar müəssisə tərəfindən bir hesabat dövründən artıq istifadə ediləcəyi ehtimal olunan halda 8№-li MMUS-n təsnifat qrupundan çıxarılaraq 7№-li MMUS-un maddəsinə (təsnifatında) daxil edilməlidir. Sözü gedən ehtiyat hissələri və xidməti avadanlıqların uçotu əsas vəsaitlərin (torpaq, tikili avadanlıqlar) istismar olunduğu və saxlandığı yerlər üzrə ƏV-09№-li inventar siyahısında aparılmalıdır.

Hər bir müəssisə 8№-li MMUS-ya əsaslanan ehtiyatların uçotunu dəqiq aparılması üçün nomenklatura qiymət kitabçasından istifadə edir. Əslində nomenklatura da material qiymətlərinin hər birinin xüsusiyyətləri haqqında məlumat verilir. Nomenklaturada materialın hər bir növünün uçot qiyməti göstərilən hallarda nomenklatura qiyməti adlanır. Əslində bazar iqtisadi sistemində nomenklatura qiymətlərindən istifadəyə ehtiyac qalmır. Ona görə ki, nomenklatura qiymətlər, hər bir material üçün normativ qiymətlərə əsaslanır. Bazar iqtisadi sistemi işi azad istehsal, azad qiymət prinsipinə əsaslanır.

Hazırda nomenklatura qiymət kitabçasından istifadəyə ehtiyac qalmır. Materialların hər bir növünü xassə və xüsusiyyətlərini özündə əks etdirən nomenklatura kitabçası isə hər bir materiallar haqqında məlumat verdiyi üçün istifadəsinə ehtiyac vardır. Digər tərəfdən qeyd etmək yerinə düşər ki, 8№-li MMUS-ya əsaslanan ehtiyatlar dövr ərzində ayın əvvəlinə qalıq qalır:

-alışlar;
-alışların qaytarılması;
-satışlar;
-satışların qaytarılması və ay sonuna qalıqla ifadə olunur.

Hesabat ayının sonunda mal material qalıqlar müəssisənin zərərləri kimi tanınır. Lakin o bir aktiv kimi ilin əvvəlində gəlir gətirəcəyini ehtimal olunduğuna görə zərər kimi qeydə alınmalıdır.

## ƏDƏBİYYAT

1. T.Abbasov. Muhasibat uçotunun beynəlxalq və Milli Standartlarının əsasları. Bakı, 2010
2. Quliyev R., A.Kərimov. Beynəlxalq uçot və hesabata giriş. 2011
3. T.Abbasov., A.Bağirov. Muhasibat ucotu. Bakı, 2007
4. Seyfullayev S., M.Abbasov., Bazar iqtisadiyyatında iqtisadi təhlil Bakı, 1993
5. Şəkərəliyev.A.S. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı, 1999
6. K.Ə.Şahbazov. Müasir menecment. Bakı, 1999
7. Namazəliyev H.İ Sənaye müəssisələrinin təsərrüfat fəaliyyətinin təhlili. Bakı, 1995
8. Əliyev R. İqtisadi təhlil nəzəriyyəsi. Bakı, 2002
9. Q.Ə.Abbasov., E.O.Cəfərov., F.Ə.Abdullayeva. Kapitalda dəyişikliklər haqqında hesabat üzrə kommersiya təşkilatları üçün MMUS tətbiqi ilə bağlı bəzi nəzəri aspektlər. Bakı, 2011
10. Q.Ə.Abbasov İdarəetmə uçotu və onun necə tətbiq edilməsi. Bakı, 2011

## РЕЗЮМЕ

**Кемале Тахмазбейова**

**ЭКОНОМИЧЕСКАЯ КОНЦЕПЦИЯ НАЦИОНАЛЬНЫХ СТАНДАРТОВ УЧЕТА**

Объединение некоторых пробелов и недостатков, которые возникли при внедрении Международных стандартов финансовой отчетности, приведет к повышению качества отчетов, но также существуют серьезные проблемы с решением этой проблемы.

Отсутствие определенных центров по внедрению ГМК в нашей стране не позволяет в значительной степени изучить рекомендации, сделанные для улучшения качества НБК и отсрочить решение этих проблем.


**Ключевые слова:** стандарт, пространства, принципы, запчасти


## SUMMARY

**Kemala Tahmezbeyova**

**ECONOMIC CONCEPT OF NATIONAL ACCOUNTING STANDARDS**

Combining some of the gaps and deficiencies that have emerged in the implementation of International Financial Reporting Standards will lead to higher quality reports, but there are also significant problems with addressing the issue.

Lack of definite centers for the adoption of MMCs in our country does not allow to substantially investigate the recommendations made to improve the quality of NSC and delay the solution of these problems.


**Key words:** standard, spaces, principles, spare parts

**İLHAM HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

# MÜASİR ŞƏRAİTDƏ NAXÇIVAN REGİONUNUN İNKİŞAFINDA AQRAR TƏMAYÜLLÜ DÖVLƏT MALİYYƏLƏŞMƏLƏRİNİN ROLU

*Məqalədə müasir dövrdə Naxçıvan regionuna kənd təsərrüfat təyinatlı maliyyələşmənin mahiyyətindən, onun mövcud vəziyyətindən, diqqət yetirilən istiqamətdə istifadəsi mümkün olan maliyyələşmə fəaliyyətinin alət və mexanizmlərindən bəhs olunur. Bu sırada təkcə dövlət, yaxud da xüsusi maliyyə vəsaitlərinin istehsalata birbaşa yönəldilməsindən deyil, həmçinin dolayı istifadələrdən, yaxud qəbul olunan xüsusi proqramlar çərçivəsində müvafiq quruculuq, təşkilatlanma kimi işlərin icrasından danışılır.*

*Məqalədə muxtar respublikaya 2018-2019-cu illərdə aqrar sferaya yönəldilmiş maliyyə vəsaitlərinin həcmindən, onların əsaslandırılmasından, bu vəsaitlərin istehsala yönəldilən investisiya məzmunlu hissəsi tədqiq edilir. Hər il regionda təkcə birbaşa aqrar istehsal təyinatlı investisiyaların deyil, həm də onların infrastrukturu, xidmət proseslərinin mütərəqqiləşməsi kimi istiqamətlər üzrə qoyuluşların həcmində artımlar müşahidə olunur.*

***Açar sözlər:*** *aqrar istehsal, aqrar investisiyalar, aqrar-sənaye fəaliyyəti, sahələrarası istehsal əlaqələri, Naxçıvan regionu*

Müasir iqtisadi şərait ərzaq təminatının yaxşılaşdırılması və ərzaq təhlükəsizliyinin tələblərə uyğun formalaşdırılması yönündə görülən sistemli işlərlə müşayiət olunmaqdadır. Zaman və məkan ifadələri ilə, proqnozlaşdırılan icraat mərhələləri sərhədlənən situasiyalar bir çox amilin təsiri altında formalaşmaqdadır. Bəhs olunan məsələlər 2018-2019-cu illərdə xüsusilə də təzahür etməkdədir. Bu amillər kifayət qədər geniş əhatə, mənşə və digər aspektlərdə fərqlənsə də, onları vahid müstəvidə birləşdirən mühüm bəndlər sırasında aşağıdakılar göstərilə bilər:

- ✓ ölkənin, o cümlədən onun regionlarının sürətli yenilənməsi və inkişafı;
- ✓ artan tələbatın daha əhatəli ödənilməsi üzrə öhdəliklərin müəyyənləşdirilməsi və mərhələli şəkildə icrası;
- ✓ yaranmış real şərait əsasında istehsal, xidmət və digər təyinatlı xüsusi təkamül proqramlarının hazırlanması;
- ✓ idxal məhsullarının analoqlarının region daxildə istehsalının təşkili və s.

Verilmiş təsnifat maddələri öz növbəsində əlaqəli vəzifələr məcmusunu təzahür etdirməkdədir:

1. regionların istehsal və sosial ehtiyaclarının müəyyən edilməsi;
2. müvafiq tələbatın qarşılanması məqsədilə yerli fəaliyyət potensialının həqiqi vəziyyətinə aydınlıq gətirilməsi;
3. əhalinin demoqrafik vəziyyətinin ümumi və yaş intervalları üzrə müəyyənləşdirilməsi;
4. regional müstəvidə "istehsal vahidləri ↔ işçi qüvvəsi", "istehsal vahidləri ↔ istehlakçı insan", "mövcud istehsal vahidləri (sahələri) ↔ yeni istehsal vahidlərinin (sahələrinin) yaradılması" kimi qarşılıqlı əlaqələrdə vəziyyətin aydınlaşdırılması;
5. istehsal və sosial tələbatın ödənilməsində fasiləsizliyə nail olmaq məqsədilə təkrar istehsal üzrə həyata keçirilən fəaliyyətin ərazi, avadanlıqlar və ləvazimatlar üzrə maddələrin tələblərə uyğunluğunun daim nəzarətdə saxlanılması;
6. istehsal olunmuş əmtəələrin saxlanılması, aralıq və son istehlakçılara çatdırılması məqsədilə zəruri infrastrukturun formalaşdırılması və istifadəyə verilməsi;
7. istehsal edilmiş əmtəələrin reallaşdırılmasında müxtəlif üsullardan, o cümlədən elektron ticarət imkanlarından tammənalı istifadə olunması;
8. yaradılacaq yeni istehsal vahidləri və sahələri üzrə peşəkar kadrların hazırlanması;
9. sərhədyanı ticarətdə əmtəə mübadiləsi proqramlarının hazırlanması və s.

Sadalanan qrupların hər biri özündə inzibati, sosial, idarəetmə, hüquqi, təşkkilati və digər istiqamətləri təcəssüm etdirməkdədir. Bu sırada sahəvi təyinatla malik fəaliyyət maliyyələşmələri (investisiya həcmlərinin yönləndirilməsi) xüsusi əhəmiyyət kəsb etməkdədir. Fikrimizcə, Naxçıvan regionunun spesifikasını, məqalə mövzusunun əsas sahə və iqtisadi alət təyinatını nəzərə alaraq onların qarşılıqlı əlaqə və asılılıq şəraitində araşdırılması iş üzrə qarşıya qoyulan vəzifələrə daha əhatəli cavab verməkdədir.

Bəhs olunan istiqamətdə fikirlərimizi davam etdirməzdən əvvəl mövzunun mühüm mərkəzləri, onlar arasındakı qarşılıqlı əlaqə və asılılıqları ifadə edən aşağıdakı sxemə diqqət yetirmək məqsədəuyğun olardı.

Sxem 1.




Sxemdən də göründüyü kimi, Azərbaycan Respublikasında investisiyalaşma proseslərinin spesifik istiqamətlərinin məzmun etibarı ilə 2 "modul" üzrə araşdırılması məqsədəuyğundur. Aydındır ki, bu maddələrdən ən öndəkini emal olunmamış kənd təsərrüfatı məhsullarının istehsalına yönələn maliyyələşmə faəliyyəti təşkil etsə də, bununla belə təsnifatın hər bir maddəsi vahid məqsədin – ölkənin (onun regionlarının) aqrar məhsullara olan məcmu ehtiyaclarının ödənilməsinin və ərzaq təhlükəsizliyinin təmin olunmasının nail olunmasına yönəldilməkdədir. Eyni fikir aqrar fəaliyyətin prioritet hesab olunduğu Naxçıvan regionu üçün də xarakterikdir.

Təsnifatdakı əsas "paylanma mərkəz"lərindən biri kimi aqrar sahənin məqsədlərinə birbaşa xidmət edən sahə və istiqamətlərə yönəldilən investisiyalar çıxış etməkdədir. Onun tərkib elementlərinin ardıcıl nəzərdən keçirilməsi daha aydın səhnənin formalaşmasına şərait yaradacaqdır.

1. *Aqrar sahənin birbaşa istehsal imkanlarının artırılmasına yönələn investisiyalar*. Bu investisiyalar sırasında istifadə olunan torpaq sahələrinin keyfiyyət ifadələrinin yüksəldilməsinə yönəldilən investisiyalar, əkin sahələrinin hər hektarı hesabı ilə ödənilən investisiyalar, heyvanların alınması

ilə əlaqədar investisiyalar və digər, müvafiq aidiyyat ilə seçilən həmin maliyyə vəsaitləri aid edilir. Belə investisiyalar müstəqim qaydada kənd təsərrüfatı subyektlərinin fəaliyyətinə təsiri ilə seçilməkdədir. Onlar hər hansı dövlət yaxud xüsusi təyinatlı fond vasitəsilə sahibkara yönəldildiyi kimi, subyektin özünə aid də (şəxsi, yaxud borc vəsaiti halında) ola bilər.

2. *Sahənin təchizat (tədarük) imkanlarının artırılmasına yönələn investisiyalar*. İstənilən subyektin tammənalı fəaliyyətinin təmin edilməsi digər şərtlərlə yanaşı, təchizat (tədarük) sisteminin təşkilindən ibarətdir. Sirr deyil ki, aqrar istehsal prosesləri özünün iştirakçı maddələrinin tərkib genişliyi ilə seçilməkdədir. Bu baxımdan bir tərəfdən toxum, yem, şitil, ting, damazlıq malqara, digər tərəfdən isə gübrə, suvarma sistemləri, texniki vasitələr, arı ailələri üçün qutular üzrə ediləcək investisiyalar fərqlənməkdədir. Bu məqsədlə region miqyasında 2018-2019-cu illərdə on milyon manata yaxın investisiya vəsaitinin istifadəsi reallaşdırılmışdır.

3. *Sahənin satış imkanlarının artırılmasına yönələn investisiyalar*. Aqrar sahədə fəaliyyətin intensivliyini təmin etmək məqsədilə kənd təsərrüfatı məhsullarının satışı prosesləri üzrə təkmilləşdirmələrin həyata keçirilməsi bəhs olunan yönə investisiyaların yönəldilməsini tələb edir. Nəzərə almaq yerinə düşər ki, haliyədə bütün maddi-istehsal və xidmət sahələrində satışın müxtəlif formalarının tətbiqi üzrə sistemli işlərin icrasını həyata keçirməkdədir. Bu sırada elektron sistemlərin qurulması və elektron hesablama vasitələrindən istifadə bəlli maliyyə vəsaitlərinin mövcudluğunu tələb edir ki, burada da məqsədyönlü investisiyaların rolu danılmazdır.

4. *Sahə üzrə məşğul heyətin peşəkar imkanlarının artırılmasına yönələn investisiyalar*. Maddi yöndə olan təminatlar istehsal fəaliyyətinin bir tərəfini təşkil edir. Bununla belə aqrar fəaliyyətin mühüm komponentlərindən hesab olunan işçi qüvvəsi yaşam reallıqları çərçivəsində ümumi intellektual və peşəkar bilik və bacarıqlarını artırmalıdır. Hər il bu məqsəd milyonlarla manat vəsaitin xərclənməsi zərurəti otaya çıxır ki, onun bir hissəsi də kənd təsərrüfatının inkişafı məqsədilə onun tədris proseslərinə yönəldilən investisiyalar hesabına mümkündür.

5. *Sahə üzrə elmi-tədqiqat, sınaq-seleksiya və laborator təhlili imkanlarının artırılması və digər məqsədlərə yönələn investisiyalar*. Bu bənd bir neçə məqsədi əldə rəhbər tutaraq həyata keçirilməkdədir. Daha məhsuldar sortların əldə olunması, məhdud təbii resurslardan daha səmərəli istifadə olunması, "təbii resurslar – aqrar məhsullar" müstəvisində qarşılıqlı təsirlərin müəyyən edilməsi kimi məqamlar özündə bir tərəfdən bənd üzrə görüləcək işlərin maddi-texniki bazasını hazırlamaq, digər tərəfdən isə perspektiv dövr üçün qeyd olunan istiqamətlərdə irəliləmələrə nail olmaq məqsədini güdməkdədir. Haqqında fikir və mülahizələr bildirilən məsələlər isə özünün sistemliliyi ilə seçilir və investisiya qoyuluşlarını tələb edir.

Qeyd etmək yerinə düşər ki, mövcud vəziyyətdə istehsalın kombinələşməsi bir neçə sahənin birgə fəaliyyətini nəzərdə tutmaqdadır. Belə ki, aqrar sahədə tammənalı istehsal icraatını təşkil etmək məqsədilə sənaye sahəsi kənd təsərrüfatı texnikasından (məsələn, Gəncə Avtomobil Zavodunda traktorların istehsalı), texniki vasitələrdən gübrələrə qədər olan arealda müxtəlif növ və formalı əmtəələrin istehsalı həyata keçirilməkdədir. Buna Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 2019-cu ildə imzaladığı və Şərur rayonunda Sənaye Məhəlləsinin yaradılmasını nəzərdə tutan Fərman da aid edilməlidir. Belə ki, yeni sənaye məhəlləsinin məqsədlərindən biri – daxili istehsala yardım edəcək məhsul istehsalının təşkilidir. Əgər nəzərə alınsa ki, region qədim kənd təsərrüfatı fəaliyyəti ənənələrinə malikdir, düşünmək olar ki, müvafiq subyektin tərkibində bir sıra vahidlər məhz aqrar məqsədlər üçün əmtəə yaradılması ilə məşğul olacaqdır.

Digər tərəfdən¸ müvafiq məhəllənin yaradılması da dövlət maliyyələşmə mənbələrini ifadə etməkdədir. Belə ki, haqqında bəhs olunan təsərrüfat subyektinin tikintisinə mərkəzi büdcədən beş milyon manatın ayrılması regionun ilk növbədə sənaye potensialının gücləndirilməsidirsə, digər tərəfdən, bir çox məsələyə müsbət təsir müşahidə olunacaq ki, onların sırasında aşağıdakılar göstərilə bilər:

a) mövcud məhsul və xidmətlərin həcmində baş verəcək artımlar;
b) yeni məhsul və xidmətlərin istehsallarının mənimsənilməsi;
c) idxaldan asılılığın azaldılması;

d) məşğulluq kateqoriyası üzrə vəziyyətin müsbət mənada dəyişməsi;
e) mütərəqqi texnologiyaların regiona gətirilməsi;
f) xarici kapitalın regiona "ayaq açmasına" şərait yaratmaq və s.

Təsnifat bəndlərinin hər biri "lokal" şəkildə ifadə olunmasına baxmayaraq, qarşılıqlı əlaqə və asılılıq xarakterinə malikdirlər.

Aqrar məqsədlərə xidmət edən nəqliyyat, rabitə, ticarət, su təsərrüfatı və digər əlaqəli sahə və istiqamətləri obyekt və fəaliyyətlərin maliyyələşdirilməsi də araşdırılan mövzu ilə bağlı öz aktuallığını qoruyan məsələlərdəndir.

Kənd təsərrüfatı subyektlərinin fəaliyyəti üçün nəqliyyat sferası kifayət qədər mühüm komponentlərdən hesab olunmaqdadır. Bu sahə özünü ümumi və xüsusi təyinatlı vasitələrdən istifadə şəklində ifadə etməkdədir. Hazır aqrar məhsullarının istehlakçılara çatdırılması, müxtəlif formalarda təchiz olunan obyektlərin kənd təsərrüfatı vahidlərinə çatdırılması, sahələrdə (fermalarda) birbaşa istehsal fəaliyyətində istifadə olunan nəqliyyat vasitələri bir daha onlardan aqrar sektorda istifadənin əhəmiyyətinə diqqəti çəkməkdədir. Region üzrə statistik müşahidələr nəticəsində aydın olur ki, 2018-2019-cu illərdə zəmilərdə istifadə olunan xüsusi təyinatlı nəqliyyat vasitələri də hesaba alınmaqla 1,452 milyon manata yaxın investisiyanın edilməsinə səbəb olmuşdur.

Rabitə sahəsi müasir dövrdə istehsal (xidmət) reallaşdırmalarının mühüm istiqamətlərindən hesab olunmaqdadır. Bu problemin həlli üçün ənənəvi rabitə xidmətləri ilə yanaşı, ölkə və beynəlxalq mübadilə məkanlarına çıxışı olacaq regionu ümumilikdə əhatə edəcək ticari-informativ məkanın qurulması zəruridir. Bu məkanın hər bir regiondaxili inzibati vahiddə altsisteminin təşkili, kənd təsərrüfatı istehsalçılarına elektron ünvanların verilməsi, onların mümkün kommersiya məlumatlarının geniş istehlakçı kütləsi üçün əlçatan edilməsi bəhs olunan investisiyatutumlu müstəvidə mühüm addımlardan hesab olunmaqdadır.

Oxşar fikirlər ticarət, su təsərrüfatı, torpaq fondu kimi istiqamətlər üzrə bildirilə bilər. Bununla belə, fikirləri ümumiləşdirərək bildirmək mümkündür ki, Naxçıvan regionunun aqrar sahəsi 2018-ci il və 2019-cu ilin I yarısında ümumilikdə (yəni, dövlət və xüsusi vəsaitlər məcmu şəklində) on səkkiz milyon manatdan artıq vəsaitin investiyalaşma fəaliyyətinə yönəldilməsi mümkün olmuşdur. Bu isə bir tərəfdən perspektiv dövrdə sektor üzrə istehsal olunan məhsulların artımına səbəb olacağı halda, digər tərəfdən, gələcəkdə daha səmərəli investisiya xarakterli addımların atılmasına şərait yaradacaqdır.

## ƏDƏBİYYAT


1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, Asiya, 2003, 216 s.
2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı, ADİU-nun mətbəəsi, 2007, 792 s
3. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan, Qeyrət, 2014, 107s.
4. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında rolu. Naxçıvan, Qeyrət. 2013, 130 s**.**
5. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, Avrora, 2013, 406 s.
6. İbrahimova N.H. Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili. Naxçıvan, Əcəmi, 2015, 184 s.
7. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu. "İqtisadiyyat və həyat" jurnalı. 2002, № 10-12, s.22-31
8. Azərbaycan Respublikası DSK-nın rəsmi elektron ünvanı. www.stat.gov.az
9. İnvestisiyalar. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi http: //www.economy.gov.az/ index.php?lang=az

## РЕЗЮМЕ

**Ильхам Гусейнов**

**РОЛЬ ГОСУДАРСТВЕННОГО ФИНАНСИРОВАНИЯ АГРАРНОГО ПРОФИЛЯ В РАЗВИТИИ НАХЧЫВАНСКОГО РЕГИОНА В СОВРЕМЕННЫХ УСЛОВИЯХ**

В статье повествуется о сущности финансирования сельскохозяйственной ориентации в Нахчыванском регионе, о его существующем состоянии, об инструментах и механизмах финансовой деятельности, возможной в использовании в обращенном вниманием направлении. В этом ряду поясняются не только мысли о непосредственном направлении в производство как государственных, так и собственных финансовых средств, но и о выполнении соответствующих сооруditельных, организационных работ в рамках специальных программ или же об их косвенных использованиях.

В работе повествуется об объемах финансовых стедств, направленных в аграрную сферу автономной республики в 2018-2019-ом годах, их обосновании, о части этих инвестиционносущностных средств, направленных на производство. Надо отметить, что с каждым годом наблюдается рост в объемах не только непосредственных инвестиций агропроизводственной ориентации, но и инвестиций, направленных на улучшение инфраструктуры, усовершенствование процессов обслуживания.


**Ключевые слова:** аграрное производство,аграрные инвестиции, аграрно-промышленная деятельность, межотраслевые производственные отношения, Нахчыванский регион


## SUMMARY

**Ilham Huseynov**

**ROLE OF STATE FINANCING OF AGRICULTURAL PROFILE IN THE DEVELOPMENT OF THE NAKHCHIVAN REGION IN MODERN CONDITIONS**

The article describes the nature of financing agricultural orientation in the Nakhchivan region, its current state, the tools and mechanisms of financial activity that can be used in the direction drawn to attention. This series explains not only thoughts about the direct direction in the production of both state and own financial resources, but also about the implementation of the corresponding construction, organizational work in the framework of special programs or about their indirect uses.

The work tells about the volumes of financial funds sent to the agrarian sector of the autonomous republic in 2018-2019, their justification, about some of these investment and essential funds aimed at production. It should be noted that every year there is an increase in the volumes of not only direct investments in agricultural production orientation, but also investments aimed at improving infrastructure and improving service processes.


**Keywords**: agricultural production, agricultural investment, agricultural and industrial activity, intersectoral production relations, Nakhchivan region

**ABDULA ABDULLAYEV**
*Naxçıvan Dövlət Universiteti*

## MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ MÜHASİBAT UÇOTUNUN AKTUAL PROBLEMLƏRİ

*Elmi məqalədə, əsasən, mühasibat uçotunun beynəlxalq standartları və milli mühasibat uçotunun aktual problemləri geniş şərh edilmişdir. Müasir dövrdə mühasibat uçotunun aktual problemlərindən biri kimi məhsul istehsalı, satışı və onlara çəkilən məsrəflərin uçot-hesabat sənədlərinin MHBS-yə və yeni hesablar planına uyğun olaraq işlənməsi məsələsi tədqiq olunmuşdur.*

***Açar sözlər:*** *mühasibat uçotu, beynəlxalq standartlar, uçot texnologiyaları, uçot sistemi, mühasibat uçotunun tənzimlənməsi, maliyyə hesabatları, beynəlxalq sistemlər, uçot siyasəti, gəlir və xərclər*

Mühasibat uçotu, siyasət və ideologiya kimi milli sərhədlər tanımır. Uçot texnologiyaları həm idxal, həm də ixrac olunur. Bu da müxtəlif ölkələrdə mövcud uçot sistemlərinin oxşarlığını sübut edir. Mühasibat uçotunun inkişafı səviyyəsini müəyyənləşdirən amillər biri – birilə əlaqədardır. Mühasibat uçotunun milli sistemlərinin ümumi anlayışı uçot sistemlərinin mahiyyətindən irəli gəlir və bir sıra meyarlarla konkretləşdirilir:

- uçot sistemlərinin tarixi yeri;
- uçotun və istehsalat ehtiyatlarının qiymətləndirilməsi metodları;
- amortizasiya hesablanması metodları;
- hesabat formaları və göstəriciləri, onların tənzimlənməsi;
- müəssisə və təşkilatın fəaliyyətinə nəzarətin kənar forması.

Dünya səviyyəsində milli uçot sistemlərinin aktual inkişafında edilən yeniliklərə baxmayaraq, bütün hallarda, hətta iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin mühasibat uçotu sistemlərində də böyük fərqlər qalmaqdadır. Xarici ölkələrin əksəriyyətində tətbiq edilən mühasibat praktikası ehtiyatlılıq, balans dəyəri prinsipi və fiskal qanunlar barədə təlimatlardan istifadə etməklə fərqlənir. Mütləq mənada mühasibat uçotunun eyni sisteminə rast gəlmək qeyri–mümkündür. Belə ki, bir ölkənin mühasibat uçotu prinsipləri digər ölkənin uçot sistemindən xeyli fərqlənir. Bütün bu fərqlər təsərrüfat fəaliyyətinin təşkilinin mövcud formalarının rəngarəngliyindən, habelə kənar amillərin (siyasi, iqtisadi, sosial, coğrafi və s.) təsirindən irəli gəlir. Hər bir ölkənin uçot sistemi uçotun aparılmasına, istehsalat ehtiyatlarının qiymətləndirilməsinə, köhnəlmənin hesablanmasına və uçotda əks etdirilməsinə və s. məsələlərə öz metodu ilə yanaşır.

Milli uçot sistemlərindəki bəzi şərtlər və fərqlər praktik surətdə bütün əlamətlər üzrə özünü göstərir. Məs. ingilis – amerikan ölkələrində uçotun vəziyyətinə fiskal qanunlardan daha çox ehtiyatlılıq prinsipinin tətbiqi və balans dəyərinin qorunması təsir göstərir. ABŞ–da qeyri–maddi aktivlərin amortizasiyasını aktivlərə aid etmək qadağan olunmuşdur. Böyük Britaniyada isə qeyri–maddi aktivlərin amortizasiyası balansın aktivinə aid edilir.

Qeyd etmək lazımdır ki, mühasibat uçotunun aktuallığının əsasını sosial məkanın təsiri müəyyənləşdirir. Sosial məkan amillərinə daxildir: iqtisadi inkişaf mərhələsi, sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri, iqtisadi münasibətlərə dövlətin müdaxilə dərəcəsi, mühasibat hesabatlarını tərtib edənlər və onun istifadəçiləri qrupu, mühasibat peşəsinin xarakteri, mühasibat uçotunun tənzimlənməsinin spesifik xüsusiyyətlərinin mövcudluğu, inflyasiyanın səviyyəsi, mədəni münasibətlər, qanunvericilik və siyasi sistemlər, təhsil sistemi, beynəlxalq təsir, xarici investisiyaların səviyyəsi və i.a.

Tarixi təcrübəyə, əsasən, belə bir qənaətə gələ bilərik ki, hər bir ölkədə yaradılan uçot və hesabatın xüsusi standartları ilk növbədə həmin ölkənin maraqlarına uyğun gəlir.

MHBS-nin inkişafı, çoxmillətli şirkətlərin meydana gəlməsi və kapital bazarının qloballaşması ilə əlaqədar müxtəlif ölkələrin şirkətlərinin maliyyə hesabatlarının yeni hesablar planı ilə işlənməsinə müəyyən ehtiyac yaratdı. Nəticədə milli mənsubiyyətindən asılı olmayaraq, bütün şirkətlərin aşağıdakıları açıqlaması problemi ortaya çıxdı: cari maliyyə vəziyyəti (balans); maliyyə

nəticələri (mənfəət və zərər haqqında hesabat); maliyyə vəziyyətinin dinamikası (pul vəsaitləri və kapitalın hərəkəti haqqında hesabat).

Hər bir ölkənin özünün xüsusi milli uçot sistemi formalaşmışdır. Belə mili sistemlər müəyyən ümumi prinsiplərə istinad edir. Uçot və hesabatın ümumi prinsiplərinin hazırlanması hər şeydən əvvəl iqtisadi proseslərin və informasiya texnologiyalarının qloballaşması, həmçinin ümumdünya investisiya bazarlarının inkişafı ilə əlaqədardır. Nəhayət, biz görürük ki, son on ildə bir çox ölkələrdə mühasibat standartları və maliyyə hesabatlarının inkişafı istiqamətində müəyyən tədbirlər həyata keçirilmişdir. MHBS əsasında Milli Mühasibat Uçotu Standartlarının hazırlanması Azərbaycanda 2008–ci ildə başa çatmışdır və bu iş müvəffəqiyyətlə davam etdirilir.

Qeyd etmək lazımdır ki, MHBS göstərişləri tövsiyə xarakteri daşıyır və eyni zamanda bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmışdır. Bu standartlar, maliyyə hesabatlarının tərtib olunmasına ümumi şəkildə yanaşmanı müəyyənləşdirir və müxtəlif əməliyyatların uçotu üçün müxtəlif variantlar təklif edir. Standartlar müəssisəyə hansı hesabdan istifadə etməyi, hesabatın hansı formasını seçməyi, hansı ilk sənəddən və hansı formada istifadəni göstərmir. Belə qərarları müəssisə müstəqil şəkildə həll edir.

Uçot və hesabatın beynəlxalq standartları daima yeniləşdirilir və tamamlanmağa məruz qalır. Onun belə bir xüsusiyyəti var: eyni bir əməliyyatın seçilməsinə iki yanaşma mövcuddur. Onun biri **baza**, ikincisi isə **alternativ** qərar sayılır. MHBS dərk olunmasında onun konsentual əsasları çox mühüm rol oynayır. Konseptual əsaslar beynəlxalq standart deyildir, lakin onun müddəaları əsasında hazırlanılan standartlar, məcburi qaydada dərc olunan standartların tərkibinə daxil edilir. Qeyd olunan sənəd, beynəlxalq standartların hazırlanması və onda düzəlişlərin aparılması üçün çox mühümdür. Konseptual əsaslar aşağıdakıların həllində də müəyyən köməklik göstərilir: müxtəlif uçot yazılışlarının sayının azaldılması; müxtəlif ölkələrdə milli uçot standartlarının hazırlanması; hesabatların beynəlxalq standartlara uyğunlaşdırılması və i.a.

Mühasibat uçotunun aparılmasının effektivliyi müəssisənin və onda baş verən dəyişikliklərin vəziyyəti haqda tam, dəqiq, etibarlı və operativ informasiyaların alınması imkanları ilə xarakterizə olunur. Lakin hesabatda verilən rəqəmlər, onların hansı üsullarla alınmasını açıqlanmır. Belə məlumatların əldə olunması prinsipləri əksər ölkələrdə uçot siyasəti vasitəsilə izah olunur.

Bir çox dünya ölkələrinin maliyyə və idarəetmə uçotu praktikasında **«uçot siyasəti»** termini müəssisələrdə uçotun aparılması üsullarının məcmusu kimi istifadə edilir.

MHBS – da uçot siyasəti belə təfsir olunur: «Uçot siyasəti» - maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi zamanı şirkət tərəfindən tətbiq edilən konkret prinsiplər, əsaslar, şərhlər və qaydalar deməkdir. MHBSK uçot siyasətinin formalaşması prosesində əsas kimi şirkətin fəaliyyətinin fasiləsizliyi, hesablama, ardıcıllıq, əhəmiyyətlilik, daimilik kimi prinsiplərindən istifadə edir. Bu zaman aktivlər və öhdəliklər, gəlirlər və xərclər qarşılıqlı qaydada ödənilə bilməz.

Müəssisənin uçot siyasətini formalaşdıran bir çox amillər vardır. Xarici ölkələrdə müxtəlif idarəetmə sistemlərinin, hüquqi tənzimləmənin, milli iqtisadi təfəkkürün inkişaf səviyyəsi, mühasiblərin ixtisas səviyyəsi, və s. Bütövlükdə xarici ölkələrdə uçot siyasəti MHBS –in tələbləri əsasında formalaşır. Xarici ölkələrdə maliyyə uçotu üzrə uçot siyasəti formalaşdırıldığı kimiŞ idarəetmə uçotu səviyyəsində də uçot siyasəti işlənib hazırlanır. Avropa ölkələrinin təcrübəsində idarəetmə uçotunda uçot siyasəti haqda sənəd özündə, əsasən, aşağıdakıları birləşdirməlidir: sintetik və analitik uçotu aparmaq üçün zəruri sayılan və müəssisədə tətbiq edilən hesablar əsasında istifadə olunan mühasibat uçotunun hesablarının işçi planı; təsərrüfat əməliyyatlarını rəsmiyyətə salmaq üçün istifadə olunan ilk uçot sənədlərinin formaları;

- əmlakın və öhdəliklərin müxtəlif növlərinin qiymətləndirilməsi metodları;
- əmlakın və öhdəliklərin inventarlaşmasının aparılması qaydası;
- sənəd dövriyyəsinin və uçot informasiyalarının texnologiyası qaydası;
- təsərrüfat əməliyyatlarına görə nəzarət qaydası, həmçinin mühasibat uçotunun təşkili üçün zəruri sayılan digər anlar.

Müəssisənin uçot siyasəti haqda əmri qaydaya görə üç əsas bölmədən ibarətdir:

- maliyyə və idarəetmə uçotunun təşkili;

- maliyyə və idarəetmə uçotunun aparılma texnikası;
- əsas obyektlərin uçotu metodikası.

Müasir dövrdə mühasibat uçotunun aktual problemlərindən biri məhsul istehsalı (yerinə yetirilən iş və xidmətlər), satışı və onlara çəkilən məsrəflərin uçot-hesabat sənədlərinin MHBS-yə və yeni hesablar planına uyğun olaraq, işlənməsi ən vacib məsələlərdən biridir. Müəssisənin balans məlumatları və bu balansa əlavə olunan «Müəssisələrin, təşkilatların vəsaitlərinin tərkibi və onların yaranması» haqqında, «Mənfəət və zərərlər» haqqında hesabat, «Kapitalda dəyişikliklər haqqında hesabat», mühasibat uçotu hesablar planının 202 №-li «İstehsalat məsrəfləri və onun subhesabları», 721 №-li «İnzibati xərclər», 204 №-li «Hazır məhsul», 205 №-li «Mallar», 206 №-li «Satış məqsədilə saxlanılan digər aktivlər», 221 №-li «Kassa», 223 №-li «Bank hesablaşma hesabı», 211 №-li «Alıcı və satıcıların qısamüddətli debitor borcları» adlı sintetik hesabların debet və kredit məlumatları, onların analitik məlumatlarını əks etdirən jurnal-orderlər və onların dövriyyə cədvəllərinin məlumatları xammal və əsas materiallar yeni yaradılan məhsulun əsasını təşkil edir, yəni xammal və material olmasa, konkret növ məhsul istehsal etmək mümkün deyil. Xammal və materialların tərkibində satın alınmış yarımfabrikatlar, komplektləşdirici məmulat və detallar xüsusi qrup təşkil edir ki, bunlar da emalın müəyyən mərhələsini keçmiş, lakin hələ hazır məhsula çevrilməmiş olurlar.

Beynəlxalq mühasibat standartları sisteminda aktiv hesablar, onların nəticəsi va gələcək gəlirin mənbəyi kimi çıxış edir. Bu hesablarda müxtəlif dəyərlilərin (əmlakların) artması yaxud azalması aks etdirilir. Buraya: *kassa, alınası veksellər, alınası vəsaitlar, avans ödənilən məsrəflər, torpaq, bina, avadanlıq və i.a.* daxil edilir. Passiv hesablar, keçmiş hesabların nəticələri və gələcək mənbələrin götürülməsi kimi nəzərdə tutulur. Onlar da qısa və uzunmüddətliyə bölünməklə pul öhdəliklarinin (borcların) artması, yaxud azalmasını uçota alır. Passiv hesablara: *verilmiş veksellər, ödəniş hesabları, sair qısa va uzunmüddətli öhdəliklər va s.* daxildir.

Gəlir və xərclər hesabları müvəqqəti vəsait adını daşıyır. Bu hesablar hesabat dövrünün axırında bağlanılır və mənfəət və zərər kimi təşkilatın işinin maliyyə nəticəsini müəyyən edir. Belə bir əməliyyat ölkəmizin mühasibat uçotunun 601 «Məhsul (iş, xidmətlər) satışı», 801 «Mənfəət və zərər» hesablarında baş verən əməliyyatlarla eynilik təşkil edir.

Mənfəətdan vergini uçota alan hesab üzrə qalıq Azərbaycanın mühasibat uçotunda 521 «Büdcə ilə hesablaşmalar» hesabında əks etdirilən əməliyyatla eynilik təşkil edir və ya təşkilatın vergi ödənişlərinə görə borcunu ya da artıq ödənilən məbləği göstərir. Qiymətləndirmənin əsasını maya dəyəri təşkil edir. Satın alınmış aktivlərin maya dəyərinə - müqavilə qiyməti ilə yanaşı, bu aktivi işçi vəziyyətinə gətirmək üçün sərf edilən bütün xərclər (vergilər və gömrük ödənişləri, aktivin gətirilməsi, quraşdırılması və s.) daxil edilir. Dövriyyədənkənar aktivlərin yenidən qiymətləndirilməsi yalnız qanunvericilik orqanlarının qərarına əsasən həyata keçirilir. Dövriyyədənkənar aktivlər və debitor borcları balansda onların xalis dəyəri ilə qiymətləndirilir. Ehtiyatları qiymətləndirmək üçün alış və ya satış qiymətlərinin birindən, yəni ən aşağı olanından istifadə edilir. Ehtiyatları istehsala silərkən qəbul edilmiş metod hesab olunan- FİFO, LİFO və orta maya dəyəri qiymətindən istifadə edilir.

## ƏDƏBİYYAT

1. Milli mühasibat uçotu standartları. Qanun 2008
2. T.Abbasov. Mühasibat uçotunun Beynəlxaıq və Milli standartlarının əsasları (CAAP v İRFS əsasları). Dərs vəsaiti. Bakı, 2010, 327 səh.
3. T.Abbasov. Büdcədən maliyyələşən təşkilatlarda uçot və hesabat (CAAP v İRFS əsasları). Dərs vəsaiti. Bakı, 2014, 382 səh.
4. S.M.Səbzəliyev,V.Mquliyev. Xidmət sahələrində mühasibat (maliyyə) uçotu. Bakı, 2015

## РЕЗЮМЕ

**Абдулла Абдуллаев**

**АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ БУХГАЛТЕРСКОГО УЧЕТА В СОВРЕМЕННЫХ ЭКОНОМИЧЕСКИХ УСЛОВИЯХ**

В научной статье в основном широко откомментированы международные стандарты бухгалтерного учета и актуальные проблемы национального бухгалтерного учета. В качестве одной из актуальных проблем бухгалтерского учета в современную эпоху был изучен вопрос подготовки бухгалтерских документов по производству, реализации и расходованию продукции в соответствии с новым планом счетов.


**Ключевые слова:** бухгалтерный учет, международные стандарты, технологии учета, учетная система, регулирование бухгалтерного учета


## SUMMARY

**Abdulla Abdullayev**

**ACTUAL PROBLEMS OF ACCOUNTING IN MODERN ECONOMIC CONDITIONS**

The scientific article mainly widely commented on international accounting standards and current problems of national accounting. As one of the urgent problems of accounting in the modern era, the issue of preparing accounting documents for the production, sale and consumption of products in accordance with the new chart of accounts was studied.


**Keywords**: accounting, international standards, accounting technologies, accounting system, accounting regulation

# II BÖLMƏ. ÜMUMİ İQTİSADİYYAT

**AĞARZA RÜSTƏMOV**
**ƏBDÜLHÜSEYN ZAMANOV**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İXRAC POTENSİALININ MÜASİR VƏZİYYƏTİ VƏ PROBLEMLƏRİ

*Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrinin genişləndirilməsi, ixrac potensialının artırılması və səmərəliliyinin yüksəldilməsi qeyri-neft sektorunun davamlı inkişafına, o cümlədən istehsal, kommunal, xidmət, sosial, sosial-bazar infrastruktur təminatının yaxşılaşdırılmasına, yeni müəssisələrin yaradılmasına, nəticədə isə yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına, həyat səviyyəsinin yüksəldilməsinə səbəb olmuşdur.*

*Məqalədə Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, ixrac potensialı, onun müasir vəziyyətinin tətqiqi ortaya çıxan problemlərin öyrənilməsi və bu istiqamətdə həyata keçirilən siyasətin başlıca məqsədlərindən biri olaraq, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ixrac potensialını artırmaqla idxaldan asılılığı azaltmaq kimi məsələlər araşdırılmışdır.*

***Açar sözlər:*** *sosial-iqtisadi inkişaf, qeyri-neft sektoru, davamlı inkişaf, ixracyönümlülük, məşğulluq səviyyəsi, ərzaq təhlükəsizliyi, beynəlxalq bazar və s.*

Ölkəmiz müstəqillik əldə etdikdən sonra onun memarı və qurucusu "İnkişafın Azərbaycan modeli"nin müəllifi ümumimilli lider Heydər Əliyevin strategiyasının həyata keçirilməsi nəticəsində ölkədə siyasi və makro iqtisadi sabitlik yaranmış, iqtisadiyyatın bütün sahələrində köklü islahatlar aparılmış, dinamik sosial-iqtisadi inkişafın təməli qoyulmuşdur.

Ümumimilli liderin ölkəyə rəhbərlik etdiyi (1993-2003cü illər) 10 il ərzində bütün sahələrdə böyük uğurlar qazanılmış, maliyyə imkanları artmış, trans milli layihələrin təşəbüskarı və iştirakçısı kimi bazar iqtisadiyyatının tələblərinə cavab verən infrastruktur yaradılmış, müasir elmi texniki tərəqiyə əsaslanan ən yeni texnologiyalarla müəssisələr fəaliyyətə başlamış, sahibkar və biznes mühiti yaxşılaşdırılmış, əhalinin məşğullugu artmış, həyat səviyyəsi xeyli yüksəlmişdir.

2003-cü ildə İlham Əliyev prezident seçildikdən sonra regionların sosial-iqtisadi inkişafı problemi onun iqtisadi siyasətinin əsas xəttini təşkil etmişdir. 29 yanvar 2019 cu ildə "Azərbaycan Respublikasının regionlarının sosial- iqtisadi inkişafı Dövlət Proqramı"nın (2014-2018-ci illər) icrasının yekunlarına həsr olunmuş konfransda giriş nitqində bir daha qeyd etmişdir: "Seçkilər ərəfəsində mən demişdim: Əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə regionların inkişafı ilə məşğul olacağam, bölgələrdə olan problemlərin həlli işində öz səylərimi əsirgəməyəcəyəm".

Müstəqilliyimizin ilk illərində əsas problemlərdən biri də respublikamızın iqtisadiyyatını inkişaf etdirməklə idxaldan asılı vəziyyətdən qurtarmaq kimi tale yüklü məsələlər dururdu. İqtisadiyyatın vaxtı ılə prioritetini təşkil etmiş sahələrdə dərin böhran prosesləri müşahidə edilirdi. Bütün bunlara əsaslanan İlham Əliyev neft-qaz gəlirlərindən səmərəli istifadə etməklə regionların tarazlı inkişafının təmin edilməsi məqsədi ilə Dövlət Proqramının qəbuluna başlamışdır.

Ölkə başçısının ilk belə fərmanlarından biri məhz "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) olmuşdur. Dövlət Proqramının əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, regionlarda istehsal, kommunal, xidmət, sosial, sosial və bazar infrastruktur təminatını yaxşılaşdırmaq, yeni müəssisələrin açılması, iş yerlərinin yaradılması, nəticədə əhalinin məşğulluq səviyyəsinin artırılması, həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur.

Son 15 ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı üç proqram qəbul edilmiş dördüncü proqramın icrasına başlanmışdır. Dövlət proqramlarının icrası nəticəsində Azərbaycan iqtisadiyyatına 250 milyard ABŞ dolları sərmayə qoyulub ki, bunun da yarısı xarici sərmayədir. Mövcud olan sərmayə mühiti investorları həvəsləndirmiş bunun nəticəsidir ki, regionlarda qarşıya qoyulmuş işlərin yerinə yetirilməsi müvəffəqiyyətlə davam etdirilməkdədir. Ötən dövr ərzində ümumi daxili məhsulun həcmi 3,3 dəfə, sənaye məhsulu 2,6 dəfə, ixracat 4,7 dəfə, valyuta ehtiyatları 24 dəfə artaraq 45 milyard ABŞ dolları təşkil etmiş, 2 milyondan çox yeni iş yeri yaradılmış, bunun da 90 faizindən çoxu daimi iş yerləri olmuşdir. Bu illər ərzində isə əhalinin sayı 1,6 milyon nəfər artmış, pensiya ödəmələri 9 dəfə, əmək haqqı isə 7 dəfə artmışdır.

Regionlarda məhsul istehsalının artması yeni emal müəssisələrinin açılmasını zəruri edir. Bu məqsədlə respublikamızın regionlarında 51 aqrokombinatın yaradılması nəzərdə tutulub ki, ondan da 17-si bu gün fəaliyyət göstərir. Kənd təssərüfatı və sənayenin inkişafı “Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda (2019-2023-cü illər) xüsusi yer tutur. Proqramda nəzərdə tutulan işlərin icrası üçün 17 milyard manat vəsait nəzərdə tutulmuşdur ki, bunun da 13 milyard manatı kapital qoyuluşu kimi gözlənilir. Qalan 4 milyard manat vəsait isə sahibkarlar tərəfindən iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına qoyulacaqdır.

29 yanvar 2019 cu ildə “Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın (2014-2018-ci illər) icrasının yekunlarına həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: “Azərbaycanın uğurlu inkişaf modelinin qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət, xalq tərəfindən dəstəklənir, çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevirilməsinə hesablanıb. Bu baxımdan “Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası digər regionlarda oldugu kimi Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına da öz müsbət təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikasının çox zəngin təbii sərvətləri, əlverişli iqlim şəraiti, alternativ və bərpa olunan enerji mənbələri, sənayesi, kənd təsərrüfatı, inkişaf etmiş nəqliyat şəbəkəsi, təbabət və qida əhəmiyyətli bitki örtüyü, turizm zonası, sosial-iqtisadi inkişafda münüm rol oynamaqla iqtisadiyyatın çoxşaxəli inkişafına səbəb olmuşdur.

Ötən illər ərzində muxtar respublikanın inkişafını təmin etmək məqsədilə icrası uğurla başa çatan dövlət proqramları və həmçinin “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”, 2016-cı il yanvarın 11-də qəbul olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”, 2016-cı il noyabrın 18-də qəbul olunmuş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”, 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın və Ali Məclis Sədrinin “Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında” 29 noyabr 2018-ci il tarixli Sərəncamı, 13 sentyabr 2019-cu il tarixli Azərbaycan Prezidenti İlham Əliyevin "Şərur sənaye məhəlləsinin yaradılması haqqında” Fərmanı ümumi inkişafa təkan verəcəkdir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada 2019-cu ilin birinci yarısında 1,6 milyard manatlıq ümumi daxili məhsul istehsal edilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövründən 1,5 faiz çoxdur. Adam başına düşən ümumi daxili məhsulun həcmi 3382,4 manat olmuşdur, buda keçən ilin müvafıq dövründən 1,9 faiz çoxdur. Bir nəfərə düşən orta aylıq əmək haqqı 449,3 manat və ya keçən ilin müvafiq dövründən 5,4 faiz çoxdur. Görülən işlərin nəticəsində cari ildə 2024 yeni iş yeri açılıb və bunun da 98 faizidaimi iş yerləridir. Sənaye məhsullarının həcmi 636,2 milyon manat, 2018-ci ilin müvafiq dövründən 1,3 faiz çox, kənd təsərrüfatı məhsulları 245, 2 milyon manat, 2018-ci ilin müvafiq dövründən 3,4 faiz çox, əsas kapitala yönəldilən vəsait 587 milyon manat və ya keçən ilin müvafiq dövründən 1,4 faiz çoxdur. Bu vəsaitin 566 milyon manatı və ya 96,4 faizi əsaslı tikintiyə yönəldilmişdir. Respublika bank və kredit təşkilatları tərəfindən 64 milyon manat kredit verilmişdir ki, bu da ya keçən ilin müvafiq dövründən 2 dəfə çoxdur. Ondan uzunmüddətli kredit 57 milyon manat, qısamüddətli kreditə isə 7 milyon

manatı verilmişdir. Rabitə xidməti 31 milyon manat 2018-ci ilin müvafiq dövründən 3,8 faiz çox olmuşdur.

Dövlət proqramlarının icrasının sürətləndirilməsi kənd təsərrüfatı məhsulları istehsalının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaqla təmin edilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına, sahibkarlığın inkişafına stimul vermişdir. Muxtar respublikada aqrar sektorda məhsul istehsalı artdıqca idxal azalır. Bu sektorda həyata keçirilən siyasətin başlıca məqsədi də budur – idxaldan asılılığı azaltmaq, ixrac potensialını artırmaqla ərzaq təhlükəsizliyini təmin etmək.

Əhalinin heyvandarlıq məhsulları ilə etibarlı təminatı üçün kənd təsərrüfatının vacib sahəsi olan heyvandarlığa xüsusi diqqət yetirilmiş, heyvanların baş sayında və heyvandarlıq məhsulları istehsalında artıma nail olunmuşdur belə ki, 2019-cu ilin birinci yarısında diri çəkidə ət istehsalı, 3348 ton 2018-ci ilin müvafiq dövründən 1,7 faiz çox, süd istehsalı 60358 ton, 2018-ci ilin müvafiq dövründən 1,3 faiz çox olmuşdur. 2018-ci ildə muxtar respublikada iribuynuzlu mal-qara 113916 baş, xırdabuynuzlu heyvanlar 692530 baş olmuşdur. Daxili bazarda quş ətinə və yumurtaya olan tələbatı yerli istehsal hesabına ödəmək üçün ötən dövr ərzində sahibkarlıq subyektlərinə 7 milyon manatdan çox kredit verilmişdir. Verilən kreditlərin hesabına 64 quşçuluq təsərrüfatı 14 balıqçılıq təsərrüfatı yaradılmış, cari ildə arıçılıqla məşğul olanlara 297 min manat kredit verilmiş və saxladıqları hər arı aləsinə görə hüquqi və fiziki şəxslərə subsidiyaların verilməsi də bu sahənin inkişafına yeni stimul yaratmışdır. Sahibkarlara və fermerlərə yanacağın, motor yağının, gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açmış, əkin sahələrinin və məhsuldarlığın və ümumi məhsulun ilbəil artmasına, 2018- ci ildə taxılın 119,9 min tona, tütün 51 tona, üzüm 16222 tona, meyvə 53949 tona çatmasına səbəb olmuşdur.

Muxtar respublikanın əhalisini ilin bütün fəsillərində etibarlı şəkildə ərzaqla təmin etmək məqsədi ilə həcmi 13280 ton olan 29 soyuducu anbar, 126672 kvadrat metr olan 20 istixana kompleksi fəaliyyət göstərir. Aparılan təhlillərdən o nəticəyə gəlmək olar ki, bu sahədə çoxlu nəaliyyətlər əldə olunsa da, çatışmazlıqlar da mövcuddur. Belə ki, aqrar sahə təbii faktorlardan asılı olduğundan istehsal olunan məhsulların sığorta olunması, yeni texnologiyaların və innovasiyaların tətbiqi, verilən subsudiyalarla məhsuldarlıq arasında fərqlər hələ də qalmaqdadır.

Ötən dövr ərzində “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 1742 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilmiş, onlardan 1483 ədədi nağd hesablaşma və lizinq yolu ilə sahibkarlara satılmışdır.

Hazırda hava limanında yeni uçuş-enmə zolağının qurulması və dəmir yolu təsərrüfatında infrastruktur tədbirləri davam etdirilir. Culfa-Ordubad magistral yolunun tikintisi və Naxçıvan muxtar respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair 4 Sərəncam imzalanmış, bu işlərin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikasına 55 milyon manat vəsait ayrılmışdır.

Ümumilikdə, 2019-cu ilin altı ayında Naxçıvandakı elektrik stansiyalarında 198 milyon 250 min 701 kilovat-saat elektrik enerjisi istehsal edilib. Bu enerjinin 63,4 faizi su elektrik stansiyalarında, 27,3 faizi istilik elektrik stansiyalarında, 9,3 faizi Günəş Elektrik Stansiyasında istehsal olunmuşdur.

Kəngərli rayonu ərazisində 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası istismara verilərək Günəş Elektrik Stansiyasının layihə gücü 24 meqavata çatdırılmış, Ordubad rayonu ərazisində Araz çayı üzərində derivasiyatipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikinti işləri davam etdirilməkdədir. Muxtar respublika elektrik enerjisi idxalçısından ixracatçısına çevrilmişdir.

Muxtar respublikada turizmin inkişafı üçün geniş imkanlar açılmışdır. Duzdağ Fizioterapiya Mərkəzində tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr üçün müasir şərait yaradılıb. Bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı müalicə turizminin inkişafı istiqamətində atılmış ən mühüm addımlardandır. Hazırda tikintisi davam edən Darıdağ Arsenli Su Müalicə və İstirahət

Kompleksi bu şəfalı suyun müalicəvi xüsusiyyətlərindən ən səmərəli şəkildə istifadəyə şərait yaradacaqdır. Həmçinin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, pirlər, imamzadələr, qədim məscidlər muxtar respublikada dini və ziyarət turizminin, zəngin bitki örtüyü isə herbari turizminin inkişafına hərtərəfli şərait yaradaraq turizmin bir çox növünün inkişafına zəmin yaratmışdır. Bu sahədə görülən işlərin nəticəsidir ki, cari ilin 8 ayında muxtar respublikamıza 250 minə yaxın turist səfərdə olmuşdur.

Lakin göstərilənlərlə yanaşı, kənd təsərrüfatının ənənəvi sahələrindən olan üzümçülük, tütünçülük, meyvəçilik sahəsində işlərin davam etdirilməsinə baxmayaraq, görülmüş işlər hələ də günün tələbləri səviyyəsində deyildir. Muxtar respublikanın rayonlarında göstərilən sahələrin inkişafı üçün potensial imkanlar mövcuddur. Bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bu məhsulların 121 növü ərzaq, 262 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 243-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir. Muxtar respublikada ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 1995-ci illə müqayisədə 59,1 dəfə artaraq 2 milyard 582 milyon manatdan çox olub. Bu dövr ərzində sənaye məhsulunun həcmi 2 faiz, kənd təsərrüfatı məhsulunun həcmi 12,2 faiz artıb. Həyata keçirilən islahatların nəticəsi olaraq, yerli tələbatın əsas etibarı ilə ödənilməsi təmin olunmuş, daxili bazarda ərzaq bolluğu yaradılmışdır. Yerli tələbatdan artıq istehsal olunan məhsullar ixrac olunmağa başlanmışdır. Meyvə-tərəvəz və digər ərzaq məhsullarının istehsalında artıma nail olunması üçün emal sənayesinin inkişafı ilə bağlı tədbirlər müəyyənləşdirilmişdir. Qeyd olunanlarla yanaşı, kənd təsərrüfatı məhsullarının ixracını artırmaq, xarici bazarlarda rəqabətqabiliyyətli məhsul satmaq üçün məhsulun çeşidlənməsinə, qablaşdırılmasına, saxlanmasına, istehsalına və ixracına stimul yaradan digər tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Qeyd etmək lazımdır ki, ölkənin ixrac imkanlarının genişləndirilməsi problemi ilə yanaşı, ölkənin idxal siyasətinə də fikir verilir. Çünki ölkənin ixrac potensialının inkişafında idxalı əvəzetmə strategiyası da az rol oynamır.

Azərbaycan Prezidenti 29 yanvar 2019 cu ildə "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2014-2018-ci illər) icrasının yekunlarına həsr olunmuş konfransda qeyd etmişdir ki, biz idxalı əvəzləmək üçün daha da fəal işləməliyik. Belə ki, ötən dövr ərzində buğdanın alınması üçün xaricə 227 milyon dollar, kərəyağı - 50 milyon dollar, mineral və qazlı sular - 48 milyon dollar, düyü - 36 milyon dollar, soya və ondan alınan məhsullar - 38 milyon dollar, qeyri-qida məhsullarından: dərman vasitələri - 211 milyon dollar, siqaret - 160 milyon dollar, trikotaj məhsulları - 100 milyon dollar, sabun-yuyucu vasitələr - 100 milyon dollar, gübrələr - 55 milyon dollar, ümumiyyətlə, Azərbaycanın daxilində 1 milyard 025 milyon dollarlıq satış bazarı vardır. Kənd təsərrüfatı sahələrinin idxalın mənfi təsirlərindən qorunması, onların getdikcə daha güclü inkişafı və rəqabət qabiliyyətinin artırılması və gələcəkdə xarici bazara çıxış imkanı əldə etməsi məqsədilə idxalı əvəz etmə siyasətindən də istifadə olunmalıdır.

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmışdır. 2019-cu ilin yanvar iyul aylarında 253,4 milyon ABŞ dolları xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 222 milyon ABŞ dolları artımı təşkil edir ki, bu da 190 milyon ABŞ dolları həcmində müsbət saldo yaratmışdır. Bu dövrdə 32,4 milyon ABŞ dolları həcmində məhsul idxal olmuşdur ki, nəticədə ixracdan asılılıq getdikcə azalmağa başlamışdır.

İxrac potensialı hər bir regionun iqtisadi resurlarından tam və səmərəli şəkildə istifadə etməklə xarici bazarın tələblərinə uygun miqdarda və keyfiyyətdə məhsul və xidmət ixrac etmək qabiliyətidir. İxrac etmək üçün ilk növbədə tələbat olmalıdır, ixrac olunan məhsulun qiyməti dünya bazarı qiymətindən aşağıdırsa, bazar daima mövcuddur. Tədqiqatlar göstərir ki, ixrac potensialının əsas faktoru regionun ərazisində olan zəngin təbii ehtiyyatların mövcudluğu və ondan səmərəli istifadənin vəziyyətindən asılıdır. Regionda ixrac olunan məhsulların 76 faizini sənaye məhsulları, 24 faizini isə kənd təsərrüfatı məhsulları təşkil edir.

Təhlillər onu deməyə əsas verir ki, ölkəmizin daxili bazarlarında olan təlabatları ödəmək üçün geniş potensial imkanlar mövcuddur. Lakin qeyd etmək olar ki, aqrar bölmənin infrastrukturu bazar iqtisadiyyatının bugünkü tələblərindən geri qalır. Xarici təcrübələr göstərir ki, kənd təsərrüfatının inkişaf etdirilməsi və səmərəli fəaliyyəti digər problemlərin həlli ilə yanaşı istehsal, emal, ixrac infrastrukturların formalaşdırılmasından bilavasitə asılıdır. Belə ki, aqrar sahədə infrastruktura bütün nəqliyyat sahələri, rabitə, istehsal edilən məhsulların saxlanılması üçün anbarlar, bütün növ soyuducular, tara təsərrüfatları, maddi-texniki təchizat, topdan və pərakəndə satış bazarları, və s. daxildir. Araşdırmalar göstərir ki, infrastrukturun əhatəli təşkil olunmaması məhsul itkisi ilə nəticələnir. Bu baxımdan ölkənin qarşısında duran əsas vəzifələrdən biri kənd təsərrüfatının inkişafı və ixracın stimullaşdırmasına əhəmiyyətli təsir göstərən infrastrukturların yaradılmasıdır.

Müasir dünyada təbii məhsullara verilən üstünlük belə məhsulların xarici bazarlara çıxarılma imkanlarını artırır. Bu məqsədlə muxtar respublikada ilk dəfə olaraq məhsul ixracına dəstək məqsədilə “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilib. Müəssisənin əsas vəzifəsi məhsulların respublika ərazisində satışının genişləndirilməsi, qablaşdırma, dizayn, markalanma və digər göstəricilərin yaxşılaşdırılması, xarici ölkələrə ixracın təşkil edilməsindən ibarətdir.

Muxtar respublika sahibkarları bu gün nəinki qonşu ölkələr, həmçinin dünyanın 58 ölkəsi ilə yaxından əməkdaşlıq edirlər. Muxtar respublikanın iqtisadi inkişafında ilk mərhələ keyfiyyətli məhsul istehsal edib daxili bazarın tələbatını ödəməkdən ibarət idisə, bu gün həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olmaq qarşıda duran əsas vəzifələrdən biridir. Artıq muxtar respublikanın məhsullarından olan dəri, mebel, daş və beton məhsulları, sement, gips və gips lövhələr, mineral sular, vafli məmulatları və digər bir çox məhsullar Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya, İraq, Gürcüstan və digər ölkələrə ixrac edilir. Məhz qarşıda duran mühüm vəzifələrdən biri də ixracın həm məhsulların çeşidi, keyfiyyəti, həm də coğrafiyası baxımından şaxələndirilməsidir. Bu məqsədlə qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya fəaliyyət göstərir. İxrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar da məhz buradan təmin olunur. Verilən sertifikatlar ərzaq məhsullarının maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına şərait yaradır. Son illər keçirilmiş 200-dən çox yerli və beynəlxalq əhəmiyyətli sərgilərdə muxtar respublikadan 1000-dən çox nümayəndə iştirak edib, 500-dən çox çeşiddə məhsul Rusiya, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, Türkiyə, Belarus, Avstriya, Polşa, İran və bir çox ölkələrdə nümayiş etdirilib. “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqi istiqamətində iş aparılmaqdadır. Artıq ölkə ixracatçıları xaricdə keçirilən sərgilərdə “Made in Azerbaijan” brendi altında vahid ölkə stendi ilə təmsil olunurlar. Bu çərçivədə cari ildə Almaniyaya təşkil olunmuş ilk ixrac missiyasında muxtar respublikadan da nümayəndə heyəti iştirak edib və Berlin şəhərində keçirilən “Yaşıl həftə” beynəlxalq qida sərgisində Naxçıvanda fəaliyyət göstərən 9 şirkətin 18 növdə və 54 çeşiddə məhsulunun nümayişi təmin olunub Babək “Sirab” Açıq Səhmdar Cəmiyyəti Dubayda keçirilən ən nüfuzlu sərgilərdən biri olan “Gulfood-2017” sərgisində Naxçıvanın brend məhsullarından olan “Sirab” mineral suyunu nümayiş etdirib.

Araşdırmalar göstərir ki, regionda ixracatçılarının qarşılaşdığı çətinliklərdən biri də məhz yük daşımaları və logistik xidmətlərlə bağlıdır. 13 sentyabr 2019-cu il tarixli Azərbaycan Prezidenti İlham Əliyevin "Şərur sənaye məhəllələrinin yaradılması haqqında” Fərmanı ümumi inkişafa təkan verməklə, yeni istehsal və xidmət sahələrinin yaradılmasına imkan verəcəkdir. Ötən il Naxçıvan-Bəndərabbas dəmir yolu marşrutunun açılması yerli məhsulların körfəz ölkələrinə, eləcə də beynəlxalq dəniz limanlarına sərfəli tariflərlə çıxışına şərait yaratmışdır. Dəmir yolu vasitəsilə muxtar respublikadan Orta Asiya ölkələrinə də çıxış təmin olunub ki, bu da ixracatçılara dövlət tərəfindən verilən əvəzsiz töhfədir

Muxtar respublikamızda yerli istehsalın dəstəklənməsi və məhsul bolluğunun yaradılması məqsədi ilə idxal olunan toxumluq kənd təsərrüfatı məhsulları, quşçuluğun və arıçılığın inkişafı üçün

müxtəlif növ quşlar və arı ailələri gömrük ödənişlərindən tam azad olunmuş, xaricdən gətirilən xammala güzəştli tarif dərəcələri tətbiq edilmişdir.

Araşdırmalar göstərir ki, daxili bazarın qorunması və yerli istehsalın stimullaşdırılması ilə yanaşı, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılmasına etibarlı zəmin yaradılıb. Hazırda qarşıda duran mühüm vəzifələrdən biri də iqtisadi inkişafdan əldə edilən gəlirlərin, ilk növbədə, insan kapitalının formalaşdırılmasına yönəldilməsidir. Neftdən asılılığın azaldılmasının aktual olduğu indiki məqamda, aqrar məhsulların ixracının stimullaşdırılması zəruridir.

Aqrar istehsalın və ixracın artırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- ✓ Aqrar sektorda yeni texnologiya və innovasiyalardan istifadə etməklə məhsuldarlığın artırılmasına nail olmaqla bərabər, bu sahədə elmi-tədqiqat təcrübi işlərdən geniş istifadə etmək;
- ✓ Regionda kənd təsərrüfatının əsas sahələrindən hesab olunan üzüm, tütün, şəkər çuğunduru və barama məhsullarının keçmiş şöhrətinin qaytarılması üçün potensial imkanlar vardır və bu sahədə tədbirləri davam etdirmək;
- ✓ Regionda məhsulların keyfiyyətinin yüksəldilməsi üçün yüksək reproduksiyalı elit toxum sortlarının və mal-qaranın cins tərkibinin, məhsuldarlığının yaxşılaşdırılması sahəsində yeni innovasiyalı texnologiyalardan istifadə etmək;
- ✓ Aqrar sahənin ixracyönümlülüyün artırılması üçün bazaar infrastrukturunu, xidmət əlaqələrini daha da təkmiləşdirmək, xüsusilə marketinq, informasiya, reklam, elmi tədqiqat və bu sahənin uğur qazanması üçün qabaqcılların və xarici təcrübələrdən istifadə etmək;
- ✓ Aqrar sahədə məhsul istehsalı, emalı, ixracın artırılması və rəqabət qabiliyyətliliyin yüksəldilməsi üçün mövcud resurs potensiallarından səmərəli istifadə etməklə xarici bazara çıxışı təmin etmək;
- ✓ Muxtar respublikaya, xüsusən əcnəbi turistlərin cəlb olunması üçün, internet resurslarından, vido çarxlarından və yeni elektron şəbəkə materiallardan istifadə etməklə, xarici firmalarla əməkdaşlığı gücləndirmək;
- ✓ Muxtar respublikada sığorta işini təkmilləşdirməli, aqrar sahədə istehsalın sığortalanma dairəsini genişləndirməli, sahibkarlar daha ətraflı maarifləndirilməli, sığorta bazarında aqrar sektorun xüsusi çəkisi artırılmalıdır.

Bu gün Naxçıvan Muxtar Respublikasında əsası ümümimilli lider Heydər Əliyev tərəfindən qoyulan İnkişafin Azərbaycan Modeli siyasi xətti uğurla, sədaqətlə və inamla davam etdirilir.

## ƏDƏBİYYAT

1. S.E. Əhmədova. Azərbacan iqtisadiyyatı. Bakı, 2015
2. A.Şəkərəliyev. Q.Şəkərəliyev Azərbacan iqtisadiyyatı reallıqlar və perespektivlər. Bakı, 2016
3. 29 yanvar 2019-cu ildə "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2014-2018-ci illər) icrasının yekunları
4. 28 yanvar 2019 cu ildə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2014-2018-ci illər) icrasının yekunları
5. Azərbaycan qəzeti. Müasir inkişafın reallıqları və üfüqləri. 11 dekabr 2018
6. Naxçıvan 3 mart 2019 AZƏRTAC
7. Statistka nmr.az/x news.php? id- 897

## РЕЗЮМЕ

**А.Рустамов**
**А.Заманов**

## СОВРЕМЕННОЕ ПОЛОЖЕНИЕ И ПРОБЛЕМЫ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Расширение международных торговых отношений в Нахчыванской Автономной Республике, повышение их экспортного потенциала и увеличение эффективности является важным фактором влияния на устойчивое развитие ненефтяного сектора, а также на улучшение обеспечения производственной, коммунальной, обслуженческой, социальной, социально-рыночной инфраструктр, образование новых предприятий, в конечном счете же на открытие новых рабочих мест, увеличение уровня занятости населения, повышения уровня проживания.

В статье исследуются такие вопросы как развитие ненефтяного сектора в Нахчыванской Автономной Республике, изучение проблем, проявившихся при рассмотрении их современного положения и одного из основных целей при проведении соответствующей политики – повышение экспортного потенциала и уменьшение зависимости от импорта с целью обеспечения продовольственной безопастности.

**Ключевые слова**: социально-экономическое развитие, ненефтеной сектор, устойчивое развитие, экспортная ориентация, занятость населения, продовольственная безопастность, международный рынок и др.

## SUMMARY

**A.Rustamov**
**A.Zamanov**

## MODERN TRENDS AND PROBLEMS OF EXPORTING POTENTIAL OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Expansion of foreign trade relations of Nakhchivan Autonomous Republic, increase of export potential and increase of efficiency, sustainable development of non-oil sektor, including improvement of produktion, utilities, services, social, social and market infrastrukture, creation of new jobs, promoted employment, increased employment and improved living standartds.

The article explores the development of the non-oil sektor in the Nakhchivan Autonomous Republic, its export potential, its current state, and the importance of reducing its dependence on imports by increasing its export potential to ensure food security as one of the main policy goalis in this regard **.**

**Key words**: socio-ekonomic development, non-oil sektor, sustainable development, export orientation, employment lavel, food security, international market, etc.

**ZƏHMƏT ŞAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# 1993-1995-Cİ İLLƏRDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFININ TƏHLİLİNƏ DAİR

*İctimai informasiyaların dəyişməsi istənilən ölkədə xalq təsərrüfatının bütün sahələrində köklü dəyişikliklər meydana çıxarır, yeni münasibətlər yaradır, özünəməxsus inkişaf modelini formalaşdırdığı kimi məsələlərin həlli və onun elmi təhlilini yeniləşdirən problemlərin həllini də xeyli çətinləşdirir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının XX əsrin 90-cı illərində iqtisadi və sosial həyatını elmi cəhətdən təhlil etmək mövcud naxçıvanşünaslığın öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Tədqiq edilən mövzuda dinamik iqtisadi inkişafın gələcəkdə qarşıya çıxa biləcək çətinliklərin aradan qaldırılması, xalq təsərrüfatının bütün sahələrinin dayanıqlı inkişafının tədqiqinə çalışılmışdır.*

***Açar sözlər:*** *sosial-iqtisadi, diyar, bölgə, ticarət, iqtisadiyyat, sənaye, energetika*

Məsələnin tarixi araşdırılmasında ölkənin idarəetmə sükanı arxasında olan şəxslərin və tarixi dövrləşmənin mühümlüyünü nəzərə alaraq əsas diqqətin ilk növbədə 1991-1993-cü illəri əhatə edən zaman kəsiyinə yönəldilməsi heç də təsadüfi deyildir. Məhz bu dövr Naxçıvan Muxtar Respublikasında istər iqtisadi, istərsə də onunla birbaşa əlaqədə ifadə olunan siyasi və digər müstəvilərdə köklü dəyişikliklərin bərqərar olması ilə müşayiət olunur. Məhz bu dövrdə dahi şəxsiyyət, təcrübəli rəhbər, millətinin "Ulu Öndəri" olan Heydər Əlirza oğlu Əliyevin muxtar respublikaya qayıdışı, çoxsaylı maneə və çətinliklərlə mübarizə prosesində onun aktiv iştirakı, sonradan isə bu proseslərin əlaqələndirilərək vahid sistem şəklində qiymətləndirilməsi, çıxış yollarının axtarılması Naxçıvan adlı məmləkətin perspektiv dövdə toxunulmazlığının təmin edilməsinə, sürətli sosial-inkişafına yol açdı.

Nəzərdən keçirilən tarixi dövr istər Naxçıvan Muxtar Respublikasının, istərsə də ümumilikdə Azərbaycan Respublikasının həyatında bir çox müsbət məqamlarla müşayiət olunmuşdur. Belə ki, ilk növbədə siyasi sferada ölkə tarixində artıq mövcud olmuş və müstəqilliyimizi simvolizə etmiş atributların bərpasının (istər respublikanın, istərsə də muxtar respublikanın adlarından "Sovet Sosialist" sözlərinin ləğv edilməsi, bayrağın, gerbin, himnin dəyişdirilməsi və s.) məhz Naxçıvanda mümkün olması bu diyarın əhəmiyyətindən, onun rəhbərinin isə siyasi səriştəsi və biliklərinin kifayət qədər yüksək səviyyədə olmasından xəbər verirdi.

Digər tərəfdən, "dağılan Sovetlər İttifaqı" iqtisadi baxımdan da təkcə sadə söz yığınağı kimi qiymətləndirilə bilməz. Uzun illərdən bəri bərqərar olan istehsal-iqtisadi əlaqələrə ölkələr və fərdi subyektlər tərəfindən xitam verilməsi, istehsalın təmərküzləşməsi, kombinləşməsi, kooperativləşməsi kimi anlayışların digər respublikalarla əlaqədə formalaşmış işgüzar mühitdən silinməsi qarşıya yetərli səviyyədə mənfi xarakteristikalara malik "səhnəni" çıxarır.

Muxtar respublikanın taleyinin 1991-1993-cü illərdə səriştəli xadim və müdrik ağsaqqal Heydər Əlirza oğluna həvalə edilməsi heç də həmin şəxsin hakimiyyətə qayıdış istəyi ilə əlaqələndirilməməlidir. Çünki dahi şəxsiyyət muxtar respublikanın tərəqqisinin sabit yüksəlişlə müşayiət olunan dövrünə deyil, tənəzzül prosesinin çoxsaylı elementlərini özündə cəmləşdirən zaman kəsiyinə özünün atdığı ardıcıl və məqsədyönlü "addımlarla", çoxsaylı və genişspektrli təklif və tövsiyələri ilə yeni görüntü verməli idi.

Muxtar respublikada hərtərəfli qiymətləndirmə aparan Heydər Əliyev istər iqtisadi, siyasi, istərsə də digər yönlərdə fəaliyyət planları və proqramların hazırlanmasına xüsusi diqqət ayırdı. Bu ilk növbədə görüləcək işlərin "konturları" ilə bağlı daha dəqiq, dərin və əhatəli fikir və düşüncələrin ortaya çıxmasına, baxılan sahə və istiqamətlər üzrə beynəlxalq arenada bərqərar olmuş təcrübənin ölkəmizin xüsusiyyətləri nəzərə alınmaq şərtilə mənimsənilməsinə şərait yaratdı.

Naxçıvanda 1993-cü ildə hakimiyyət dəyişikliyi muxtar respublikanın sosial-iqtisadi inkişafının üçüncü mərhələsinin başlanmasının əsasını qoymuş oldu. Bu dövrün özü ilk növbədə böyük çətinliklərlə, o cümlədən 1993-1995-ci illər dağıdıcılıq psixologiyası ilə qarşılansa da, qısa bir zamanda donmuş buz sındırılmış oldu və yeni-yeni nailiyyətlər əldə olunmağa başlanıldı. Doğrudan da, bu dünyada insan daha çox xeyirxah əməlləri, insani keyfiyyətləri və qurub-yaratmaq əzmi ilə xatırlanır, bu işdə isə rəhbər əsas simadır. Bu mənada qısa müddətdə xalqın rəğbətini qazanan və onları öz ətrafında birləşdirən Ali Məclisin Sədri Vasif Talıbov Naxçıvanda quruculuq işlərinin miqyasının genişlənməsinə nail olmağa başlamışdır. Naxçıvanın blokada şəraitində olmasına baxmayaraq, rəhbərlə yanaşı, naxçıvanlıların fədakarlığı hesabına Naxçıvan inkişaf etməyə başlamışdır. Bununla yanaşı, xalqın vəziyyətini yaxşılaşdırmaq üçün əsası Heydər Əliyev tərəfindən qoyulmuş aqrar islahat çox prinsipiallıqla, həm də qısa bir zamanda həyata keçirildi, torpaq kəndlilərin mülkiyyətinə paylanıldı. Bu hal isə kənd təsərrüfatının inkişafına geniş şərait yaratmaqla əhalinin maddi rifah halının yaxşılaşmasına səbəb oldu. Heydər Əliyevin quruculuq ideyasına söykənən Ali Məclisin Sədri Vasif Talıbov ilk növbədə 1982-ci ildən tikintiləri dayandırılmış və dağılmaq təhlükəsində qalan obyektlərin bərpası qayğısına qalmışdır. Bu cür bərpa obyektlərindən Naxçıvan şəhərindəki Ticarət-Tədris Mərkəzinin, Naxçıvan Dövlət Universiteti üçün 1600 yerlik tədris korpusunun, Naxçıvan Hava Limanının, Şərur rayonundakı Sərxanlı kənd məktəbinin, Babək rayonundakı Nehrəm, Cəhri və Sirab kənd məktəblərinin, Ordubad rayonundakı Əylis kənd mədəniyyət evinin tikintilərini misal göstərmək olar. Bu cür obyektlər Ali Məclisin Sədri Vasif Talıbovun rəhbərliyi sayəsində qısa bir müddətdə yüksək keyfiyyətlə bərpa edilərək xalqın istifadəsinə verildi.

Beləliklə, möhtərəm Heydər Əliyevin siyasətinin ana xəttini təşkil edən quruculuq missiyası ölkəmizin digər regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da 1996-cı ildən etibarən müvəffəqiyyətlə yerinə yetirilməyə başlandı. Naxçıvan Muxtar Respublikasında son ildəki iqtisadi, siyasi, elm, təhsil, sosial mədəni, hərbi, abadlaşdırma və s. kimi sahələrdə aparılan quruculuq işləri dediklərimizə sübutdur. Blokada şəraitində olan muxtar respublikada 1991-1992-ci illərdə energetika çatışmazlığı və qışın sərt keçməsi ilə əlaqədar ağaclar kəsilib yandırılmış, yaşıllığa ciddi zərbə vurulmuşdur. Məhz yaşıllığa vurulan bu zərbəni aradan qaldırmaq üçün Heydər Əliyev hələ Azərbaycana ikinci dəfə hakimiyyətə qayıtmamışdan əvvəl, hakimiyyətinin Naxçıvan dövründə, yəni 1992-ci ilin yazından etibarən yaşıllaşdırma ayının keçirilməsi barədə qərar vermişdi. Bu qərarın yerinə yetirilməsində Ali məclisin Sədri Vasif Talıbovun rəhbərliyi və təşəbbüsü ilə qəbul olunmuş muxtar respublika Ali Məclisinin 9 fevral 1996-cı il, 4 mart 1997-ci il, 9 mart 1998-ci il, 23 mart 1999-cu il müşavirələrinin Qərarları, 17 fevral 2000-ci il və 15 mart 2001-ci il tarixli Sərəncamları ilə yaz və payız mövsümlərində muxtar respublikada yaşıllaşdırma və abadlıq aylığı keçirilməsi işi bir ənənə halına çevrilmişdir.

Görülmüş işlərin hesabına yaşıllıq zolaqlarının əhatə dairəsi genişlənmiş və parklar salınmışdır. İftixar hissi ilə demək olar ki, blokada şəraitində olan Naxçıvanda yanacaq çatışmamazlığı üzündən meşələr doğranıb sıradan çıxsa da, 1995-2000-ci illər ərzində muxtar respublikada da meşələrin sahəsi bərpa edilib, 4126 hektara çatdırılmış, magistral yollarında, çayların sahillərinə yüz minlərlə bəzək ağacları əkilmişdir. Naxçıvanda aparılan tikinti, abadlıq, mədəni quruculuq və yaşıllaşdırma işlərinin miqyası xüsusən 1998-99-cu illərdə ölçüyəgəlməz dərəcədə artmış və qədim diyar yaşıllıqlar aləminə çevrilmişdir. Ölkə Prezidenti Heydər Əliyev Azərbaycanın ayrılmaz bir hissəsi olan, öz doğma torpağı Naxçıvanda 1996 və 1999-cu illərdə səfərdə olan zaman burada keçirilən ümumdövlət əhəmiyyətli tədbirlərdən olan dahi Azərbaycan şairi Hüseyn Cavidin monumental abidəsinin açılışı və muxtar respublikanın 75 illik yubileyində etdiyi nitq və çıxışlarında son illərdə aparılan abadlıq və quruculuq işlərindən məmnun olduğunu bildirmişdir. Ölkə prezidenti muxtar respublika rəhbərliyinin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirərək böyük qürur hissi ilə demişdir: «Əgər Naxçıvanda belə bir ağır vəziyyətdə məktəb binası tikilə bilirsə, buraya daş gətirmək mümkün deyil, burada kərpic zavodu, mişar daşı və başqa şeylər yoxdur, əgər xəstəxana, universitet binaları tikilirsə, bəs başqa yerdə niyə tikilmir? Demək, bu, təşəbbüsdən, fədakarlıqdan

asılıdır. Şübhəsiz, Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir və Naxçıvanda bütün sahələrdə quruculuq prosesi gedir». Həmçinin ölkə prezidenti 1998-1999-cu illərin buraxılış obyektləri olan akademik Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikasının, Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun, Cəmşid Naxçıvanski adına Hərbi məktəbin Naxçıvan filialının, Cəlil Məmmədquluzadənin ev muzeyinin, Naxçıvan şəhərində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Ticarət-Tədris Mərkəzinin və digər obyektlərin açılışı zamanı söylədiyi fikirlər, etdiyi tövsiyələr muxtar respublikanın gələcək inkişafının strategiyasını müəyyənləşdirmişdir. Naxçıvan Muxtar Respublikası 1988-ci ildən etibarən tam blokada şəraitindədir. Azərbaycanın bu bölgəsi ölkənin digər əraziləri ilə yalnız hava nəqliyyatı vasitəsi ilə birbaşa əlaqə saxlayır və aparılmış danışıqlar əsasında muxtar respublikaya İran İslam Respublikası və Türkiyə dövlət ərazisindən şose yolları vasitəsi ilə yük daşınmasına nail olunur. Eləcə də enerji çatışmazlığı da bu dövlətlərin hesabına qismən nizama salınır. Amma bütün bunlara baxmayaraq, bu regionda Heydər Əliyev məktəbindən bəhrələnən və onun quruculuq ideyasına söykənən Ali Məclisin Sədri Vasif Talıbov 1995-2001-ci illərdə muxtar respublikada sosial-iqtisadi həyatda, ictimai mühitdə, elm və təhsilin inkişafında, ordu quruculuğunda gərgin iş aparmaqla, böyük nəticələrə nail olunmuşdur. Ona görə son bu beş il sadəcə desək, muxtar respublikanın yenidən və tamamilə Heydər Əliyev quruculuq xəttinə qayıdış dövrü kimi tarixə daxil olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2000-ci il fevral ayının 10-da keçirilən birinci çağırış yeddinci sessiyasında 1995-ci ildən ötən beş il ərzində əldə olunmuş nailiyyətlərdən danışarkən Ali Məclisin Sədri Vasif Talıbov qeyd etmişdi ki, «Biz bu nailiyyətlərə birincisi, ölkə rəhbəri, möhtərəm Heydər Əliyevin 1969-cu ildən başladığı quruculuq və inkişaf konsepsiyasını davam etdirməyimizlə, ikincisi, 1990-1993-cü illərdə siyasi fəaliyyətinin Naxçıvan dövründə işləyib hazırladığı muxtar respublikanın uzun müddətə hesablanmış inkişaf proqramına əməl etməyimizlə, onun icrasını həyata keçirməyimizlə nail olmuşuq».

Göründüyü kimi, bu quruculuq missiyasının prinsipiallıqla həyata keçirilməsi ilə muxtar respublikada bütün sahələr üzrə, o cümlədən sənaye, kənd təsərrüfatı, elm, təhsil, səhiyyə, mədəniyyət, idman, nəqliyyat, tikinti, abadlıq və s. kimi sahələrdə inkişaf yüksək səviyyəyə qaldırılmışdır. Ona görə də böyük fərəh hissi ilə deyə bilərik ki, son beş il muxtar respublikanın tarixində elə bir mərhələdir ki, bu dövrün tarixi təcrübəsinə söykənmədən gələcək inkişaf meyllərini proqnozlaşdırmaq çox çətin olar.

Həm də bu dövrü mülkiyyət formalarının və iqtisadi idarəetmə metodlarının dəyişildiyi, tarixi inkişafın bir mərhələsindən digərinə keçid dövrü kimi də səciyyələndiyini söyləmək olar.

Beləliklə, yuxarıda apardığımız tədqiqatlardan məlum olur ki, hörmətli Ali Məclisin Sədri Vasif Talıbovun rəhbərliyi ilə 1995-2001-ci illərdə görülən tədbirlərlə əlaqədar muxtar respublikada xalq təsərrüfatının inkişafına nail olunmuş və quruculuq yüksəlişi özünü ayrı-ayrı sahələrdə də ciddi şəkildə göstərmişdir.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı əslində Azərbaycanın özünə qayıdışı oldu. Onun hakimiyyətə qayıdışı ilə Azərbaycanda mövcud olan gərginlik və müşkül məsələlər öz axarına düşdü. Azərbaycan xalqı azad, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə irəliləyərək, bütün ölkələr və xalqlar ilə sülh, dostluq və əməkdaşlıq şəraitində yaşamağa başladı. Müharibə şəraitinə, ağır iqtisadi vəziyyətə, 1993-1995-ci illərdə olan təxribatlara baxmayaraq, Azərbaycan yenidən bütün sahələrdə, o cümlədən dövlətçilik, ordu, mədəni, iqtisadi, siyasi sahələrdə quruculuq yoluna qədəm qoydu. Heydər Əliyev 1993-cü ilin oktyabr ayında xalq tərəfindən yekdilliklə prezident seçildikdən sonra, onun Naxçıvan Muxtar Respublikasında işləyib hazırladığı və həyata keçirdiyi sosial-iqtisadi inkişaf proqramının birinci mərhələsi başa çatdı.

## ƏDƏBİYYAT


1. Hacıyev İ. Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində. DDA. Bakı, 1999, 655 s.
2. Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (9-10 iyun 2006-cı ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı, Təhsil, 2006, 504 s.
3. Naxçıvan ensiklopediyası. İki cilddə. c.I. Naxçıvan, 2005, 326 s.; c.II. Naxçıvan, 2005, 376 s.
4. Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı, Elm, 1999, 184 s.
5. Naxçıvan Muxtar Resublikası – 80. Tarixi – statistik məcmuə. Bakı, Səda, 2004, 212 s.
6. Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik (8 fevral 2007-ci ildə keçirilmiş elmi-praktik konfransın materialları). Bakı, Nurlan, 2007, 406 s
7. Naxçıvan MR-75. Elmi əsərlər. Xüsusi bur. № 5, Naxçıvan, 1999
8. Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunur. // Bakı Universiteti xəbərləri: xüsusi buraxılış. 1999, № 3
9. Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı, Qismət, 2002, 168 s.
10. “Şərq qapısı” qəzetinin 1990-1995-ci illərdəki sayları
11. Z.Şahverdiyev. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı, Qismət, 2002-ci il


## РЕЗЮМЕ

**З.Шахвердиев**

### 1993-1995 НАХЧЫВАНСКАЯ АВТОНОМНАЯ РЕСПУБЛИКА АНАЛИЗ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

Изменения в социальных сетях могут привести к фундаментальным изменениям во всех секторах экономики в любой стране, создать новые отношения и затруднить решение проблем и обновить свой научный анализ,поскольку он сформировал свою собственную модель развития. В связи с этим научный анализ экономической и социальной жизни Нахчыванской Автономной Республики в 1990-е годы имеет особое значение с точки зрения изучения существующих нахчыванских исследований. По исследуемой теме были предприняты усилия для решения проблем, с которыми может столкнуться динамичное экономическое развитие в будущем, и длярассмотрения вопроса об устойчивом развитии всех секторов национальной экономики.

**Ключевые слова**: Край, торговли, экономики, промышленности, энергетики, региональной, социально-экономической

## SUMMARY

**Z.Shahverdıyev**

### 1993-1995 NAKHCHIVAN AUTONOMOUS REPUBLIC ANALYSIS OF ECONOMIC DEVELOPMENT

Changes in Social Networking Moghot's Opportunities for Fundamental Changes in Economists in Love, Strengthen New Reflections and Reconciliation Risk Problems and Reconciliation Model In the light of the economic and social analysis of the Nakhchivan Autonomous Republic in the 1990s, there was an urgent need to improve the quality of life. It is a translation of the problem for the root of the problem, with the translation of the dynamic economics of development of the economy, and the emergence of the economic sector.

**Key words:** Socio-economic, land, trade, economy, industry, energy, regional

**GÜLARƏ RƏHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
**ELŞƏN MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

# REQRESSİYA TƏNLİYİNƏ ƏSASƏN PROQNOZ SƏHVİNİN MÜƏYYƏN OLUNMASI

*Ekonometrikanın nəzəri bazasını riyazi statistika və iqtisadi kibernetika təşkil edir. Ekonometrikanın məqsədi iqtisadi sistemlərin fəaliyyətinin nöqtəvi və interval proqnozlarını əldə etməkdən ibarətdir. Məqalədə bu cür proqnozlarda səhvlərin müəyyən olunması məsələsinə baxılmışdır.*

***Açar sözlər:*** *avtoreqressiya modeli, nöqtəvi proqnoz, interval proqnoz, etibarlı interval, əsaslı qiymətləndirmə*

Ekonometrik modellərin tərtibində ekonometrikanın aşağıdakı əsas prinsipləri nəzərə alınmalıdır. Ekonometrikanın nəzəri modelinin əsas prinsipləri; Ekonometrikanın kriteriya və prinsipləri; Ekonometrikanın nəzəri modellərinin xüsusiyyətləri; İnformasiya verilənləri əsasında modelin qiymətləndirilməsi; Müşahidələrin aparılmasında məqsəd problemin qoyuluşudur; Modelin səmərəliliyinin təyin edilməsi; Alternativ modelin qurulması və təkmilləşdirilməsi; Çoxsaylı müşahidələrin aparılması; Proqnoz üçün modeldən istifadə və iqtisadi siyasətin həyata keçirilməsi [1].

İqtisadiyyatda bir sıra iqtisadi göstəricilər vardır ki, onlar arasında sıx əlaqə mövcuddur. Bu elə asılılıqdır ki, bir dəyişənin hər bir qiymətinə digər bir dəyişənin hansısa müəyyən deyil, çoxlu sayda mümkün qiymətləri uyğun gəlir. Belə asılılıqlar statistik, stoxastik və ya ehtimallı asılılıqlar adını almışdır. Statistik asılılıqlara misal olaraq, ölkənin ümumi daxili məhsulunun kapital (əsas fondlardan) və əmək qüvvəsindən (işçilərin sayından); kənd təsərrüfatı bitkilərinin məhsuldarlıqlarının onların əkin sahələrinə verilən gübrələrin miqdarından asılılıqlarını göstərmək olar. Dəyişənlər arasındakı statistik asılılıqları korrelyasiya və reqressiya təhlilinin üsulları ilə öyrənmək mümkündür. Bu üsulların köməyi ilə müxtəlif cür məsələlər həll edilir. Reqressiya təhlilinin əsas məsələsi dəyişənlər arasında asılılığın şəklinin müəyyən edilməsindən ibarətdir. Korrelyasiya təhlilinin əsas məsələsi isə dəyişənlər arasındakı əlaqənin üzə çıxarılması və onun əlaqə sıxlığının qiymətləndirilməsindən ibarətdir. Ekonometrik modelləşdirmədə ən vacib ilkin şərtlərdən biri hadisə və sınaqların təsadüfü xarakter daşımasıdır. Alınmış nəticənin adekvatlığı bu şərtin ödənilməsindən xeyli dərəcədə asılıdır. Bu şərt heç də bəsit mənada başa düşülən təsadüfilik deyil. Əgər proses və ya hadisə kənar təsirlər olmadan, asılı olmayaraq öz daxili mahiyyəti və ya qanunauyğunluqları ilə baş verirsə, onda onun təsadüfü olması qəbul edilir. Hər bir kəmiyyət sabit və təsadüfü olan iki hissəyə bölünür. Təsadüfü hissə ölçmə və hesablamalarda texniki avadanlıqların səhvi, insan beyninin və ya gözün görməsinin buraxdığı səhvlərlə əlaqədar ola bilər. Seçmə nəzəriyyədə sübut olunmuşdur ki, kəmiyyətin təsadüfü hissəsinin bütün xarakteristikaları elə kəmiyyətin özünə də aiddir. Ekonometrik modelləşdirmənin nəticələrindən, o cümlədən seçmə nəzəriyyənin prinsip və qanunlarından ictimai həyatda insanların fəaliyyətinin qiymətləndiril-məsində istifadə etmək mümkündür [2].

Aşağıda qurduğumuz ekonometrik modellər reqressiya və korrelyasiya təhlilinin mahiyyətini açıqlayır.

Məsələ 1. Region üzrə verilənlər 2018-cı il üçün cədvəl 1-də göstərilib. Tələb olunur:

1. y-in x-dən asılılığının xətti cüt reqressiya tənliyini qurun. 2. Xətti cüt korrelyasiya əmsalını və approksimasiyanın orta səhvini hesablayın. 3. Reqressiya və korrelyasiya parametrlərinin statistik əhəmiyyətliyini qiymətləndirin. 4.Orta səviyyədən 107% fərqlənən $x$ orta adambaşı yaşam minimumunun proqnoz qiymətində Y əmək haqqı proqnozunu hesablayın .5. Proqnoz səhvini və onun inamlı intervalını hesablamaqla proqnozun dəqiqliyini qiymətləndirin.

Cədvəl 1.

| Regionun nömrəsi | Bir əməkqabiliyyətli insanın Həftə ərzində orta adambaşı yaşam minimumu, manat, x | Orta həftəlik əmək haqqı, manat, y |
|---|---|---|
| 1 | 80 | 136 |
| 2 | 80 | 151 |
| 3 | 90 | 132 |
| 4 | 76 | 152 |
| 5 | 91 | 164 |
| 6 | 104 | 197 |
| 7 | 70 | 137 |
| 8 | 85 | 156 |
| 9 | 75 | 155 |
| 10 | 85 | 165 |
| 11 | 78 | 157 |
| 12 | 113 | 171 |

***Məsələnin həlli.***1. Xətti reqressiya tənliyi parametrlərinin hesablanması üçün aşağıdakı cədvəli quraq.

Cədvəl 2.

| | X | Y | Yx | $x^2$ | $y^2$ | $\hat{y}_x$ | $y-\hat{y}_x$ | $A_i$ |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 136 | 80 | 10880 | 6400 | 18496 | 155,714 | -19,7 | 14,5 |
| 2 | 151 | 80 | 12080 | 6400 | 22801 | 155,714 | -4,7 | 3,11 |
| 3 | 132 | 90 | 11880 | 8100 | 17424 | 155,697 | -23,7 | 17,95 |
| 4 | 152 | 76 | 11552 | 5776 | 23,104 | 155,7208 | -3,72 | 2,45 |
| 5 | 164 | 91 | 14924 | 8281 | 26896 | 155,6953 | 8,30 | 5,06 |
| 6 | 197 | 104 | 20488 | 10816 | 38809 | 155,6732 | 41,33 | 20,98 |
| 7 | 137 | 70 | 9590 | 4900 | 18769 | 155,731 | -18,731 | 13,67 |
| 8 | 156 | 85 | 13260 | 7225 | 24336 | 155,7055 | 0,29 | 0,19 |
| 9 | 155 | 75 | 11625 | 5625 | 24025 | 155,7225 | -0,72 | 0,46 |
| 10 | 165 | 85 | 14025 | 7225 | 27225 | 155,7055 | 9,29 | 5,63 |
| 11 | 157 | 78 | 12246 | 6084 | 24649 | 155,7174 | 1,28 | 0,82 |
| 12 | 171 | 113 | 19323 | 12769 | 29421 | 155,6579 | 15,34 | 8,97 |
| Yekun | 1027 | 1873 | 161873 | 89601 | 295955 | - | 4,559 | 93,79 |
| Orta qiymət | 85,6 | 156 | 13489,4 | 7466,8 | 24663 | - | - | 7,8 |
| $\sigma$ | 11,8 | 18 | | | | | | |
| $\sigma^2$ | 1139,44 | 327 | | | | | | |

$$b=\frac{\overline{y\cdot x}-\bar{y}\cdot\bar{x}}{\sum x^2-\left(\bar{x}\right)^2},\quad b=\frac{13489,4-156\cdot 85,6}{89601-7323,36}=\frac{13489,4-13353,6}{82273,64}=\frac{135,8}{82273,64}=0,0017$$

$$a=\bar{y}-b\cdot\bar{x}$$

$$a=156-0,0017\cdot 85,6=156-0,146=155,85$$

Belə bir reqressiya tənliyi alınır: $\hat{y}_x$ =155,85-0,0017 · x.

Orta adambaşı yaşam minimumunu 1 manat artırmaqla orta günlük əmək haqqı orta hesabla 0,0017 manat artır.

2. Korrelyasiya əmsalı xətti əlaqələrin sıxlığını qiymətləndirir:

$r_{xy} = b\frac{\sigma_x}{\sigma_y}$; $r_{xy}$=0,0017 $\cdot \frac{11,8}{18}$=0,001; $r_{xy}^2 = 0,000001$, $\sigma_x^2 = \overline{x^2} - \bar{x}^2$; $\sigma_y^2 = \overline{y^2} - \bar{y}^2$

$\sigma_x^2 = 7466,8 - 7327,36 = 139,44$

$\sigma_x = 11,8$

$\sigma_y^2 = 24663 - 24336 = 327$

$\sigma_y = 18$

Bu o deməkdir ki, 0,0001% əmək haqqının variasiyası (y) - x faktorunun variasiyası ilə - orta adambaşı yaşam minimumu ilə izah olunur. Modelin keyfiyyəti approksimasiyanın orta səhvini müəyyən edir:

$$\bar{A} = \frac{1}{n}\sum A_i;\quad \bar{A} = \frac{1}{12}\cdot 93,79 = 7,8\%.$$

Qurulmuş modelin keyfiyyəti yaxşı qiymətləndirilir, belə ki, $\bar{A}$ 8-10% -i aşmır.

3. Reqressiya parametrlərinin əhəmiyyətliyinin statistik qiymətləndirilməsi Styudentin –t kriteriyası və hər bir göstəricinin inamlı intervalının hesablanması yolu ilə aparılır. 0-dan fərqli göstəricilərin statistik əhəmiyyətsizliyi haqqında $H_0$ hipotezini irəli sürək: $a=b=r_{xy}=0$.

$t_{cəd}$ d $f$ =n-2=12-2=10 sərbəstlik dərəcəsi və $\alpha = 0,05$ üçün 2,23 təşkil edir.

Təsadüfi səhvləri təyin edək- $m_a, m_b, m_{r_{xy}}$:

$$m_a = \sqrt{\frac{\sum(y-\hat{y}_x)}{n-2} * \frac{\sum x^2}{n\sum(x-\bar{x})^2}},\quad m_a = \sqrt{\frac{4,559^2}{12-2}\cdot\frac{89601}{12\cdot 11,8}} = \sqrt{1315} = 36,3$$

$$m_b = \sqrt{\frac{\frac{\sum\left(y-\hat{y}_y\right)^2}{n-2}}{\sum\left(x-\bar{x}\right)^2}},\quad m_b = \sqrt{\frac{4,559/10}{11,8}} = \sqrt{0,038} = 0,19,\quad m_{r_{xy}} = \sqrt{\frac{1-r^2}{n-2}}$$

$$m_{r_{xy}} = \sqrt{\frac{1-0,000001}{10}} = \sqrt{\frac{0,999999}{10}} = 0,316.$$

Onda $t_a = \frac{a}{m_a}$; $t_b = \frac{b}{m_b}$; $t_r = \frac{r}{m_r}$; $t_a = \frac{155,85}{36,3} = 4,3$. $t_b = \frac{0,0017}{0,19} = 0,0089$.

$t_r = \frac{0,001}{0,316} = 0,003$.

$t_a$-statistikanın faktiki qiyməti onun cədvəl qiymətini aşır.

Belə ki, $t_a=4,3>t_{cəd}=2,3$, onda reqressiya əmsalının –*a*- statistik əhəmiyyətliyi sübut olunmuş olur (bu əmsalın 0-ra bərabər olması haqqında hipotez rədd edilir). Belə ki, $t_b=0,0089<t_{tab}=2,3$, $t_{r_{xy}}=0,003 < t_{cəd}=2,3$, onda b reqressiya əmsalının statistik əhəmiyyətli olması sübut oluna bilmir, (bu əmsalın 0-a bərabər olması haqqında hipotezi rədd edə bilmərik). *a* və *b* üçün inamlı intervalı hesablayaq. Bunun üçün hər bir göstərici üçün limit səhvini təyin edək:

$\Delta_a = t_{tab}\cdot m_a$; $\Delta_a$ =2,23 · 36,3=80,9 , $\Delta_b = t_{tab}\cdot m_b$, $\Delta_b = 2,23\cdot 0,19 = 0,42$.

İnamlı interval:

$\gamma_a = a \pm \Delta_a = 155,85 \pm 80,9$, $\gamma_{a_{min}} = 155,85 - 80,9 = 74,95$

$\gamma_{a_{\max}} = 155,85 + 80,9 = 236,75$,  $\gamma_b = b \pm \Delta b = 0,0017 \pm 0,42$

$\gamma_{b_{\min}} = 0,0017 - 0,42 = -0,4183$,  $\gamma_{b_{\max}} = 0,0017 + 0,42 = 0,4217$.

İnamlı intervalın yuxarı və aşağı sərhədlərinin analizi bizə belə bir nəticəyə gəlməyə imkan verir: $\rho = 1-\alpha = 0,95$ ehtimalı ilə verilmiş sərhəddə yerləşən a parametri 0 qiymətini almır, başqa sözlə, statistik əhəmiyyətli hesab olunmur və əhəmiyyətli dərəcədə 0-dan fərqlənir. İnamlı intervalın yuxarı və aşağı sərhədlərinin analizi bizə belə bir nəticəyə gəlməyə imkan verir: $\rho = 1-\alpha = 0,95$ ehtimalı ilə verilmiş sərhəddə yerləşən b parametri 0 qəbul edilir, başqa sözlə, eyni zamanda mənfi və müsbət qiymətlər ala bilmir [3].

4. Reqressiya tənliyinin alınmış qiymətləri proqnoz vermək üçün istifadə olunur. Əgər yaşam minimumunun orta qiymətləri: $x_p = \bar{x} \cdot 1,07 = 85,6 \cdot 1,07 = 91,6$ min manat təşkil edir, onda yaşam minimumunun proqnoz qiyməti: $\hat{y}_p = 155,85 + 0,0017 \cdot 91,6 = 156$ manat təşkil edir.

5. Proqnoz səhvi aşağıdakı kimidir : $m_{\hat{y}_p} = \sqrt{\frac{\sum\left(y-\hat{y}\right)^2}{n-m-1}} \cdot \sqrt{1+\frac{1}{n}+\frac{\left(x_p-\bar{x}\right)^2}{\sum\left(x-\bar{x}\right)^2}}$,

$$m_{\hat{y}_p} = \sqrt{\frac{(4,559)^2}{9}} \cdot \sqrt{1+\frac{1}{12}+\frac{\left(91,6-85,6\right)^2}{12\cdot\left(11,8\right)^2}} = \sqrt{\frac{20,78}{9}} \cdot \quad \sqrt{1+\frac{1}{12}+\frac{36}{1670,88}} = \sqrt{2,3} \cdot \sqrt{1+\frac{1}{12}+0,022}$$

$=1,5 \cdot \sqrt{1,105} = 1,575$ min manat.

95% hallarda aşağıdakı qiymətləndirmələri aşmayan limit səhvinin proqnozu:

$\Delta_{\hat{y}_p} = t_{tab} \cdot m_{\hat{y}_p}$,  $\Delta_{\hat{y}_p}$ =2,23 · 1,575=3,51 təşkil edir.

Proqnozun inamlı intervalı:

$\gamma_{\hat{y}_p} = 91,6 \pm 3,51$,  $\gamma_{\hat{y}_{p\min}} = 91,6 - 3,51 = 88,09$ man;  $\gamma_{\hat{y}_{p\max}} = 91,6 + 3,51 = 95,11$ man.

Alınmış orta həftəlik əmək haqqı proqnozu ümidvericidir ($\rho = 1-\alpha = 0,95$), lakin dəqiq deyil, beləki, $D_\gamma$ inamlı intervalın yuxarı və aşağı sərhədinin diapazonu 1,08-i təşkil edir: $D_\gamma = \frac{\gamma_{\hat{y}_{\max}}}{\gamma_{\hat{y}_{\min}}}$;

$D_\gamma = \frac{95,11}{88,09} = 1,08$.

Məsələ №3.

Azərbaycanın 30 regionu üzrə verilənlər aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 3. (insanların əmək haqqından başqa digər gəlirləri var.)

| Əlamət | Orta qiymət | Orta kvad-ratik meyl | Cüt korrelyasiyanın xətti əmsalı |
|---|---|---|---|
| Adambaşına düşən həftəlik orta gəlir, y | 88,8 | 8,44 | |
| Adambaşına düşən həftəlik orta əmək haqqı manat, $x_1$ | 52,9 | 7,86 | $r_{yx_1} = 0,8605$ |
| İşsizliyin orta yaşı, il, $x_2$ | 35,5 | -1,42 | $r_{yx_2} = -0,2401$<br>$r_{x_1x_2} = -0,096$ |

Tələb olunur:

1. Standart və təbii formada cəm reqressiyanın tənliyini qurun; xüsusi elastiklik əmsallarını hesablayın, onları $\beta_1$ və $\beta_2$ ilə müqayisə edin, aralarındakı fərqi müəyyənləşdirin. 2. Xüsusi korrelyasiya əmsallarını və cəm korrelyasiya əmsallarını hesablayın, onları cəm korrelyasiyanın xətti əmsalları ilə müqayisə edin və aralarındakı fərqi müəyyənləşdirin. 3. Ümumi və xüsusi Fişerin F-kritereriyasını hesablayın .

*Məsələnin həlli.* 1. $x_1$ və $x_2$-dən asılı y cəm reqressiyasının forması: $y = a + b_1 \cdot x_1 + b_2 \cdot x_2$ şəkildədir. Onun parametrlərinin hesablanması üçün dəyişənlərin standartlaşması metodunu tətbiq edək və axtarılan tənliyi standartlaşdırılmış masştabda quraq: $t_y = \beta_1 \cdot t_{x_2} + \beta_2 \cdot t_{x_2}$. $\beta$ - əmsalarının hesablanmasını aşağıdakı düsturlarla aparaq:

$$\beta_1 = \frac{r_{yx_1} - r_{yx_2} r_{x_1x_2}}{1 - r^2_{x_1x_2}},\ \beta_2 = \frac{r_{yx2} - r_{yx_1} r_{x_1x_2}}{1 - r^2_{x_1x_2}}\ \ \beta_1 = \frac{0,8605 - (-0,2401)\cdot(-0,096)}{1-(-0,096)^2} = \frac{0,8375}{0,9908} = 0,845.$$

$$\beta_2 = \frac{-0,2401 - 0,8605\cdot(-0,096)}{1-(-0,096)^2} = \frac{-0,1571}{0,9908} = -0,159.$$

Bu tənliyi alarıq: $t_y = 0,845 \cdot t_{x_1} - 0,159 \cdot t_{x_2}$.

Təbii formada tənliyin qurulması üçün $b_1$ və $b_2$ əmsallarını hesablayaq, bu məqsədlə $\beta_1$ -dən $b_1$-ə keçmək üçün aşağıdakı düsturlardan istifadə edək:

$$\beta_i = b_i \frac{\sigma_{xi}}{\sigma_y};\ b_i = \beta_i \frac{\sigma_y}{\sigma_{x_i}};\ b_1 = \frac{0,845\cdot 8,44}{7,86} = 0,907;\ b_2 = \frac{-0,159\cdot 8,44}{-1,42} = 0,945.$$

$a$ -nın qiymətini aşağıdakı münasibətdən təyin edək:

$$a = \hat{y} - b_1 \cdot \bar{x}_1 - b_2 \cdot \bar{x}_2,\ \ a = 88,8 - 0,907\cdot 52,9 - 0,945\cdot 35,5 = 7,2722,$$

$$y_{x_1x_2} = 7,2722 + 0,907 \cdot x_1 + 0,945 \cdot x_2$$

$x_1$ və $x_2$ -nin y-ə nisbi təsirinin xarakteristikası üçün orta elastiklik əmsallarını hesablayaq:

$$\bar{Y}_{yx_j} = b_i \frac{\bar{x}_j}{\bar{y}};\ \bar{Y}_{yx_1} = \frac{0,907\cdot 52,9}{88,8} = 0,5403\%;\qquad \bar{Y}_{yx2} = \frac{0,945\cdot 35,5}{88,8} = 0,3778\%.$$

Orta əməkhaqqının, $x_1$-in, öz orta səviyyəsindən 1% artması adambaşına düşən orta gəlirin, y-in, öz orta səviyyəsindən 0,54 qədər artmasını göstərir; işsizliyin orta yaşını, $x_2$-ni, 1% artırmaqla adambaşına düşən gəlir y – öz orta səviyyəsindən 0,38% aşağı düşür. Aydındır ki, orta əməkhaqqının adambaşına düşən orta gəlirə, $y$ -ə təsiri daha çoxdur, nəinki, $x_2$-orta işsizlik yaşına. $\beta_1$ və $\beta_2$ modullarını müqayisə etməklə əlaqələrin gücü haqqında analoji nəticələrə gəlmək olar: $|\beta_1| = |0,845| \rangle |\beta_2| = |-0,159|$. $\bar{Y}_{yx_j}$ və $\beta_j$ -nin müqayisəsi zamanı alınmış fərqlər (faktorun nəticəyə təsir gücündəki), onunla izah olunur ki, elastiklik əmsalı aşağıdakı orta münasibətlərdən alınır [4]:

$$\bar{Y}_{yx_j} = b_j \frac{\bar{x}_j}{\bar{y}}.$$

$\beta$ -əmsalı orta kvadratik meyl münasibətlərindən alınır: $\beta_1 = b_1 \frac{\sigma_{x_1}}{\sigma_y}$.

2. Xüsusi korrelyasiyanın xətti əmsalları aşağıdakı rekkurent düstur üzrə hesablanır:

$$r_{yx_1}x_2 = \frac{r_{yx_1} - r_{yx_2}\cdot r_{x_1x_2}}{\sqrt{(1-r^2_{yx_2})(1-r^2_{x_1x_2})}} = \frac{0,8605-(-0,2401)\cdot(-0,096)}{\sqrt{(1-0,2401^2)(1-0,096^2)}} = \frac{0,8375}{\sqrt{0,9337}} = 0,8667$$

$$r_{yx_2}x_1 = \frac{r_{yx_2} - r_{yx_1}\cdot r_{x_1x_2}}{\sqrt{\left(1-r^2_{yx_1}\right)\left(1-r^2_{x_1x_2}\right)}} = \frac{-0,2401-0,8605\cdot(-0,096)}{\sqrt{(1-0,74)(1-0,009216)}} = \frac{-0,1571}{\sqrt{0,2576}} = \frac{-0,1571}{0,5075} = -0,3096$$

$$r_{x_1x_2}y = \frac{r_{x_1x_2} - r_{yx_1}\cdot r_{yx_2}}{\sqrt{\left(1-r^2_{yx_1}\right)\left(1-r^2_{yx_2}\right)}} = \frac{-0,096-0,8605\cdot(-0,2401)}{\sqrt{\left(1-0,8605^2\right)\left(1-(-0,2401)^2\right)}} =$$

$$= \frac{-0,096-(-0,2066)}{\sqrt{(1-0,7405)(1-0,0576)}} = \frac{0,1106}{\sqrt{0,2446}} = \frac{0,1106}{0,4945} = 0,2237 .$$

Əgər cüt və xüsusi korrelyasiya əmsallarının qiymətini müqayisə etsək, onda belə bir nəticəyə gələrik ki, faktorlar arasındakı zəif əlaqə üzündən ($r_{x_1x_2} = -0,096$) cüt və xüsusi korrelyasiya əmsalları biri-birindən əhəmiyyətli dərəcədə fərqlənmir: cüt və xüsusi korrelyasiya əmsalları əsasında sıxlıq və əlaqənin istiqaməti haqqında nəticələr üst-üstə düşür:

$r_{yx_1} = 0,8605$; $r_{yx_2} = -0,2401$; $r_{x_1x_2} = -0,096$;

$r_{yx_1}x_2 = 0,8667$; $r_{yx_2}x_1 = -0,3096$; $r_{x_1x_2}y = 0,2237$.

Cəm korrelyasiyanın xətti əmsallarının hesablanması $r_{yx_j}$ və $\beta_j$ əmsallarından istifadə etməklə yerinə yetirilir:

$$R_{yx_1x_2} = \sqrt{r_{yx_1}\cdot\beta_1 + r_{yx_2}\cdot\beta_2} = \sqrt{0,8605\cdot 0,845+(-0,2401)\cdot(-0,159)} = \sqrt{0,727+0,038} =$$
$$= \sqrt{0,765} = 0,874 .$$

y-in $x_1$ və $x_2$-dən asılılığı sıxlıq kimi xarakterizə olunur, beləki, adambaşına düşən orta gəlirin 76% variasiyası modeldə qeydə alınmış faktorların –orta əmək haqqı və orta işsizlik yaşının variasiyası ilə müəyyən edilir. Modelə daxil olmayan digər faktorlar ümumi y variasiyasından uyğun olaraq 24% variasiya ilə fərqlənir .

3. Ümumi $F$ - kriteriyası reqressiya tənliyinin statistik əhəmiyyətliyi haqqında hipotezi və əlaqə sıxlığının göstəricisini ($R^2 = 0$) yoxlayır :

$$F_{\text{üm}} = \frac{R^2_{yx_1x_2}}{1-R^2_{yx_1x_2}} \div \frac{m}{n-m-1} = \frac{R^2_{yx_1x_2}}{1-R^2_{yx_1x_2}}\cdot\frac{n-m-1}{m}$$

$$F_{\text{üm}} = \frac{0,7638}{0,2346}\cdot\frac{27}{2} = 3,2558\cdot 13,5 = 43,9533 .$$ $F_{\text{xüs}}=3,35$; $\alpha = 0,05$.

$F_{\text{üm}}$ və $F_{\text{xüs}}$ müqayisə etməklə, $H_0$ hipotezinin rədd edilməsinin zəruriliyi haqqında nəticəyə gəlib çıxırıq, belə ki, $F_{\text{xüs}} = 3,35 \langle F_{\text{üm}} = 43,9533$.

1-$\alpha$ =0,95 ehtimalı ilə $x_1$ və $x_2$ fakorlarının təsadüfi olmayan təsirlərindən formalaşan $R_{yx_1x_2}$ əlaqə sıxlığının göstəricisi və tənliyin statistik əhəmiyyətliyi haqqında nəticə çıxarırıq. Xüsusi $F$ - kriteriyası - $F_{x1}$ və $F_{x2}$- cəm reqressiya tənliyində $x_1$ və $x_2$ fakorlarının iştirakının statistik əhəmiyyətliyini qiymətləndirir, həmçinin tənliyə bir faktordan sonra digər faktorun daxil olmasının məqsədəuyğunluğunu qiymətləndirir, yəni, $F_{x1}$ tənliyə $x_2$ faktoru daxil olan kimi $x_1$ faktorunun daxil olmasının məsədəuyğunluğunu qiymətləndirir. Uyğun olaraq, $F_{x2}$ $x_1$ faktorundan sonra modelə $x_2$ faktorunun daxil olmasının məqsədəuyğunluğunu göstərir:

$$F_{x1\text{üm}} = \frac{R^2_{yx_1x_2} - r^2_{yx_2}}{1-R^2_{yx_1x_2}} \div \frac{1}{n-m-1} = \frac{R^2_{yx_1x_2} - r^2_{yx_2}}{1-R^2_{yx_1x_2}}\cdot\frac{n-m-1}{1} .$$

$F_{x1üm} = \frac{0,874^2 - 0,0576}{1-0,7655} \cdot \frac{27}{1} = \frac{0,7062}{0,2345} \cdot 27 = 3,0115 \cdot 27 = 81,3105$. $F_{xüs}$=4,21; $\alpha$ =0,05.

$F_{xüs}$ və $F_{üm}$ -ni müqayisə edərək modelə $x_2$ faktorundan sonra $x_1$ faktorunun daxil edilməsinin məqsədəuyğunluğu haqqında nəticəyə gəlirik, belə ki, $F_{x1üm}$ =85,3105 $\rangle$ $F_{xüs.}$ X2 faktorundan sonra x1 faktorunun daxil edilməsi hesabına $R_y^2$ artımının əhəmiyyətsizliyi haqda $H_0$ hipotezini alırıq.

$x_1$ faktorundan sonra modelə x2 faktorunun daxil edilməsinin məqsədəuyğunluğunu $F_{x2üm}$ yoxlayır:

$$F_{x2üm} = \frac{R^2_{yx_1x_2} - r^2_{yx1}}{1 - R^2_{yx_1x_2}} \div \frac{1}{n-m-1} = \frac{R^2_{yx_1x_2} - r^2_{yx_1}}{1 - R^2_{yx_1x_2}} \cdot \frac{n-m-1}{1}$$

$$F_{x2üm} = \frac{0,874^2 - 0,8605^2}{1-0,8774^2} \cdot \frac{27}{1} = \frac{0,7638 - 0,7405}{1-0,7638} = \frac{0,0233}{0,2363} = 0,0986.$$

$F_{x2üm}$ aşağı qiyməti $r^2_{yx1}$ artımının statistik əhəmiyyətsizliyini göstərir. Uyğun olaraq, $x_2$ faktorunun (işsizliyin orta yaşı) modelə daxil olmasının məqsədəuyğun olmaması haqda sıfır $H_0$ hipotezi təsdiqlənir. Bu onu göstərir ki, orta gəlirin orta əmək haqqından asılılığının cəm reqressiya modeli kifayət qədər statistik əhəmiyyətlidir, etibarlıdır və $x_2$ faktorunu daxil etməklə onu yaxşılaşdırmağa ehtiyac yoxdur [5,6] .

## ƏDƏBİYYAT


1. Gülarə Rəhimova, İqtisadiyyatda Ekonometrik Tədqiqatlarin Rolu. AMEA, Naxçıvan, məqalə, 2015
2. Орлова И.В., Половников В.А. Экономико-математические методы и модели: Компьютерное моделирование: учебное пособие. – М.: Вузовский учебник, 2018
3. Кремер Н.Ш., Путко Б.А. Эконометрика: учебник для вузов / под ред. проф. Н.Ш. Кремера. – М.: ЮНИТИ-ДАНА, 2013-2018
4. Многомерный статистический анализ в экономических задачах: Компьютерное моделирование в SPSS / под ред. И.В. Орловой. – М.: Вузовский учебник, 2008, 2014
5. Дайитбегов Д.М. Компьютерные технологии анализа данных в эконометрике. – 2-е изд., испр. и доп. – М.: Вузовский учебник, 2010
6. Эконометрика: учебник / под ред. И.И. Елисеевой. – 2-е изд., перераб. и доп. – М.: Финансы и статистика, 2015–2018


## РЕЗЮМЕ

**Гюлара Рагимова, Елшан Мамедов**

**ОПРЕДЕЛЕНИЕ ОШИБКА ПРОГНОЗА ПО УРАВНЕНИЮ РЕГРЕССИИ**

В статье мы провели статистический анализ построенного уравнения регрессии, выяснили, что насколько надёжны полученные оценки коэффициентов регрессии; как хорошо полученное уравнение регрессии описываем имеющиеся статистические данные, может быть следует изменить спецификацию модели; оценить точность прогноза, построить доверительный интервал для зависимой переменной.

**Ключевые слова**: авторегрессионная модель, точечный прогноз, интервальный прогноз, доверительный интервал, состоятельная оценка.

## SUMMARY

**Gulara Rahimova, Elshan Mammadov**

**DEFINITION ERROR OF THE FORECAST FOR THE REGRESSION EQUATION**

In article we carried out statistic analysis of the constructed regression equation, clarified that, the received estimates of regression coefficients are how safe; as well received equation of regression we describe the available statistical data, can be it is necessary to change the specification of model; to evaluate a forecast accuracy, to construct a confidential interval for dependent variable.

**Key words**: autoregressive model (AR), dot forecast, interval forecast, confidence interval, consistent estimator.

**DİLSUZ QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*

# İQTİSADİ İNKİŞAFIN "NAXÇIVAN MÖCÜZƏSİ"

*Azərbaycan dövlətinin ən böyük uğuru, görkəmli dövlət xadimi Heydər Əliyev siyasi kursunun təntənəsi, bu çətin şəraitdə yüksəlişin əldə edilməsinin mümkünlüyünün konkret və əyani göstəricisidir.*

*Məqalədə Naxçıvan Muxtar Respublikasının yeni inkişaf mərhələsində qazanılmış uğurlu nəticələr, inkişafın sabit və dayanıqlı səciyyə daşıması qabaqcıl idarəçilik metodlarının tətbiq edilməsi Naxçıvanın blokada vəziyyətində özünəməxsus milli inkişaf modelini yaratması məsələləri araşdırılır.*

***Açar sözlər:*** *H.Əliyev siyasi kursu, Naxçıvan Muxtar Respublikası, yeni inkişaf mərhələsi, sabit və dayanıqlı inkişaf, Naxçıvan modeli*

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi siyasətin strateji məqsədi sosialyönümlü, diversifikasiya olunmuş, özünüinkişaf qabiliyyətli iqtisadiyyatın qurulmasıdır. Qürurla deyə bilərik ki, muxtar respublika bu sahədə tarix üçün olduqca qısa sayılan zaman kəsiyində qibtəediləcək nailiyyətlər qazanıb, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsi adekvat olaraq bütün sahələrdə modernləşməyə əsaslı təkan verib. Naxçıvanın blokada vəziyyətində özünəməxsus milli inkişaf modelini yaratması Azərbaycan dövlətinin ən böyük uğuru, görkəmli dövlət xadimi Heydər Əliyev siyasi kursunun təntənəsidir. Bu çətin şəraitdə yüksəlişin əldə edilməsinin mümkünlüyünün konkret və əyani göstəricisidir. Naxçıvanda qazanılmış uğurlu nəticələr, inkişafın sabit və dayanıqlı səciyyə daşıması qabaqcıl idarəçilik metodlarının tətbiq edilməsi ilə birbaşa bağlıdır.

Ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikasında müxtəlif sahələri əhatə edən dövlət proqramlarının həyata keçirilməsi nəticəsində innovativ inkişaf davamlı xarakter alıb. Milli və bəşəri dəyərlərin vəhdətdə yaşadıldığı muxtar respublikada bu gün aparılan məqsədyönlü dövlət siyasəti sayəsində müasir sənaye kompleksləri yaradılıb, özəl sektorun fəaliyyəti genişləndirilib.

Dünyada cərəyan edən qlobal çağırışlar şəraitində hər bir ölkə davamlı inkişafın təmin edilməsi üçün müvafiq siyasət yeridir. Bundan irəli gələrək, siyasi və sosial-iqtisadi sahələrdə sistemli şəkildə islahatların aparılması zəruriətə çevrilmişdir. Məhz bu baxımdan islahatların uğurlu nəticələnməsi bilavasitə idarəetmə sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasından və kadr potensialının təkmilləşdirilməsindən asılıdır. Xüsusilə qeyd etmək olar ki, Azərbaycan Respublikası müstəqilliyini qazanmamışdan əvvəl Naxçıvanda 1991-ci il sentyabrın 4-də ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sesiyasında Naxçıvanda sovet hakimiyyəti ləğv edildi. Məhz ilk dəfə SSRİ məkanında Naxçıvanda SSRİ-nin tərkibindən çıxmaq haqqında qərar qəbul edilmiş, SSRİ-nin saxlanılması haqqında referenduma etiraz edilmişdi. Yeni, müstəqil Azərbaycanın qurulması prosesi Naxçıvanda uğurla davam etdirilmiş və Azərbaycan Respublikası Naxçıvan təcrübəsindən istifadə etmişdi. Ümummilli lider H.Əliyevin məhz Naxçıvan Ali Məclisinin Sədri işlədiyi dövrün ilk təcrübələri sonradan Azərbaycan Respublikasında aparılacaq iqtisadi islahatların örnəyi kimi qəbul edilmişdir. Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası tarixinin məna və mahiyyətinə görə bir-birindən kəskin surətdə fərqlənən iki dövrü bir-birindən ayrılırdı - sovet dövrü başa çatır, xalqın arzusunda olduğu müstəqillik dövrü başlanırdı. Naxçıvanda yeni Azərbaycanın quruculuğu prosesi gedirdi. Bu tarixi prosesə ulu öndər Heydər Əliyev başçılıq edirdi.

Ölkədə ardıcıl aparılan struktur islahatları məhz ictimai inkişafın hər bir sahəsində öz əksini tapmaqdadır. Ölkədaxili siyasi sabitlik və sosial-iqtisadi inkişafda əldə edilən uğurlar respublikanın beynəlxalq aləmdə nüfuzunun artmasına səbəb olmuşdur.

Blokada və inkişaf sözləri kəskin şəkildə bir-biri ilə ziddiyyət təşkil edən müxtəlif anlayışlardır. Buna görədir ki blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında nəzərə çarpan sürətli sosial-iqtisadi inkişaf beynəlxalq səviyyəli ekspertlər tərəfindən heyrətlə qarşılanır. Səbəb isə məlumdur: dünyanın heç bir yerində blokada vəziyyətində saxlanılan bir məkanda inkişaf meylləri, ümumiyyətlə, nəzərə çarpmayıb. Yəni hazırda dünyada ikinci belə bir nümunə yoxdur. Məhz buna görə həmin beynəlxalq ekspertlər iqtisadi inkişafla bağlı terminologiyaya yeni bir anlayışın daxil olduğunu etiraf edirlər.

Bu, sosial-iqtisadi inkişafın Naxçıvan modelidir.

Naxçıvan Muxtar Respublikasının yeni inkişaf mərhələsi isə öz başlanğıcını Ali Məclisin 1995-ci il dekabrın 16-da keçirilmiş sessiyasından götürür. Məhz həmin sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri seçilmiş cənab Vasif Talıbov 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq və inkişaf yolunun ağır blokada şəraitində yaşayan, istehsal və nəqliyyat əlaqələrinin maksimum məhdudluğu səbəbindən ciddi problemlərlə üzləşən muxtar respublikamızda davam etdiriləcəyini, öz fəailiyyətini bu proqram əsasında quracağını bəyan etmişdir. Bu gün Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin icra olunması, çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, lazımi islahatların aparılması, mühüm əhəmiyyətə malik Dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qorumaqdadır. Bu dövrdəki məqsədyönlü fəaliyyət nəticəsində, ilk növbədə muxtar respublikamızın hərtərəfli tərəqqisində mühüm amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılmışdır. Ötən dövr ərzində bütün iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət muxtar respublikamızda tarazlı və davamlı inkişaf üçün başlıca amil olmuş, şəhər və rayonlarımızda canlanma yaranmış, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılmış, yeni təsərrüfat subyektləri yaradılmış və işsizliyin səviyyəsi xeyli dərəcədə azalmışdır.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının bütün sahələrində olduğu kimi, ötən müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, yeni iş yerləri açılıb və sənaye sahəsi məhz ön planda öz mövqeyini möhkəmləndirib. Qədim diyarda sənaye məhsullarının istehsalının ilbəil sürətlə artması da bu sahədə nəzərəçarpan inkişafın əsas göstəricilərindən biri kimi dəyərləndirilir.

İqtisadiyyatın ən vacib sahəsi olan kənd təsərrüfatında istehsalın və ixracın stimullaşdırılması, məhsulun rəqabətqabiliyyətliliyinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında kompleks tədbirlər həyata keçirilir. Bu istiqamətdə görülən işləri yüksək qiymətləndirən dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi: "Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri, demək olar ki, tam şəkildə öz həllini tapmışdır. Bu da böyük nailiyyətdir, böyük uğurdur".

Bu baxımdan göstərmək olar ki, ümumilikdə, istehsalın yüksək sürətlə artması iqtisadi inkişafın mühüm göstəricilərindən hesab edilir. Yerli istehsalın inkişafı strategiyasına uyğun olaraq, hazırda muxtar respublikada 349 növdə məhsul istehsal olunmaqdadır. Bu məhsulların 116 növü ərzaq, 233 növü qeyri-ərzaq məhsullarıdır. 107 növdə ərzaq, 227 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 334 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilib.

Yuxarıda qeyd etdiyimiz kimi, blokada şəraitində olmasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası bütün sahələrdə inkişafa nail olub. Təbii ki, bu inkişaf meylinin qorunub saxlanılması qarşıda duran ən mühüm vəzifələrdən biridir. Onu da deyək ki, inkişaf həm də enerjiyə olan tələbatı daha da artırır. Yəni yüksəlişi qoruyub saxlamaq üçün ilk növbədə muxtar respublikanın enerji təhlükəsizliyini təmin etmək lazımdır. Bu mənada muxtar respublikada enerji təminatının daha da yaxşılaşdırılması, ən əsası, enerji təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm əhəmiyyətə malik işlər görülüb. Bütün bunların nəticəsində Naxçıvan enerji ixrac edən mühüm iqtisadi məkana çevrilib.

Muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr

tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində ardıcıl tədbirlərə əsasən yaradılan "isaxtar.nmr.az" internet saytı vasitəsilə muxtar respublikada əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatlar işaxtaranlara çatdırılır.

Muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əmək məşğulluğunun artırılmasına və ümumilikdə muxtar respublika iqtisadiyyatının dinamik inkişafına nail olunmuşdur. Muxtar respublikada son illərdə həyata keçirilən iqtisadi və sosial təmayüllü islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olmuşdur.

Geniş ictimai rəydə "Naxçıvan möcüzəsi" adlandırılan iqtisadi inkişafın Naxçıvan modeli haqda Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri belə xarakteristika verir: "Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".

## ƏDƏBİYYAT


1. Sosial-iqtisadi inkişafın Naxçıvan modeli nümunə kimi qəbul edilir https://azertag.az
2. Naxçıvan: inkişafın yeni mərhələsi .http://www.statistika.nmr.az


## РЕЗЮМЕ

**Дилсуз Гасымов**

### «НАХЧЫВАНСКОЕ ЧУДО» РАЗВИТИЯ ЭКОНОМИКИ


Самым большим успехом Азербайджанского государства является торжество политического курса выдающегося государственного деятеля Гейдара Алиева, это конкретный и наглядный показатель возможности достижения высот в тяжёлых условиях.

В статье исследованы успешные результаты, достигнутые Нахчыванской Автономной Республикой на новом этапе развития, стабильный и устойчивый характер развития, внедрение передовых методов управления, вопросы создания своеобразной национальной модели развития в обстановке блокады Нахчывана.


**Ключевые слова:** Политический курс Г.Алиева, Нахчыванская Республика, новый этап развития, стабильное и устойчивое развитие, Нахчыванская модель.

## SUMMARY

**Dilsuz Gasimov**

### THE NAKHCHIVAN WONDER OF ECONOMIC DEVELOPMENT


The significant success of Republic of Azerbaijan and the triumph of political course of Haydar Aliyev, the remarkable state person is indicator of possibilities achievements in this difficult condition. In this article were studied the issues of succeed results of Nakhchivan Autonomous Republic in new economic condition, the stability and sustainability of development, applying new management methods, the establishing special development model of Nakhchivan in blockade condition.


**Key words:** Heydar Aliyev political course; Nakhchivan Autonomous Republic; new economic development stage; stable and sustainable development; the Nakhchivan model.

**HƏVVA ADIGÖZƏLOVA**
*Naxçıvan Dövlət Universiteti*
*eva.alieva.2012@mail.ru*

# İNTELLEKTUAL KAPİTAL İDARƏETMƏ OBYEKTİ KİMİ

*Müasir cəmiyyətdə intellektual kapital ölkə sərvətinin əsası hesab olunur və iqtisadi sistemlərin rəqabətqabiliyyətini təyin edir, eləcə də iqtisadi artımın və ölkənin inkişafının əsas resursu kimi çıxış edir. İntellektual kapitalın köməyi ilə ölkə iqtisadiyyatı daha da informasiyatutumlu, texnoloji tərəqqiyə və innovasiyalara istiqamətlənmiş olur. İntellektual kapitalın yaranması və səmərəli istifadə edilməsi milli iqtisadiyyatın inkişafını, əhalinin iqtisadi və sosial vəziyyətinin yaxşılaşdırılmasını təmin edir.*

***Açar sözlər:*** *insan kapitalı, intellektual kapital, kadr kapitalı, intellektual mülkiyyət, innovasiya, iqtisadi inkişaf*

Bu gün dünyada iqtisadi sistemlərin effektiv işləməsinin təmin edilməsi üçün və bu sistemlərin intensiv inkişafı və istehsalın keyfiyyət səviyyəsinin yüksəldilməsi üçün intellektual kapitalın rolunun artırılmasına çox diqqət yetirilir. Bütün dünyada olduğu kimi, bu problem respublikamız üçün də aktualdır.

Ötən əsrlərdə dünya ölkələrinin inkişafının tədqiqi göstərir ki, insan kapitalı, hər bir ölkənin uğuru, digərlərinin isə uğursuzluğunu müəyyənləşdirən əsas inkişaf amillərindən biri idi. Qərb sivilizasiyası orta əsrlərdə, müəyyən tarixi mərhələdə, daha qədim olan sivilizasiyalarla qlobal tarixi yarışı məhz insan kapitalının (təhsil daxil olmaqla) surətli artımı hesabına udmuşdur. XVIII-ci əsrin sonunda Qərbi Avropa - Çin və Hindistanı adambaşına düşən ÜDM-la görə 1,5 dəfə, əhalinin savadlılığına görə isə 2 dəfə qabaqlamışdır. Bu son şərtin üstünə iqtisadi azadlıq və demokratiya şəraitini də gələndə, avropalıların, eləcə də ABŞ və digər ingilis-sakson ölkələrin iqtisadi uğurlarının əsas amili olduğunu görürük.

İnsan kapitalının iqtisadiyyatın artımına təsiri, xüsusilə Yaponiyanın timsalında daha parlaqdır. Əsrlərlə izolyasiya siyasəti aparan bu ölkədə, təhsil və ömür uzunluğu da daxil olmaqla, insan kapitalı hər zaman yüksək səviyyədə olmuşdur. Buna görə də, Yaponiya, insan kapitalının start səviyyəsinə görə, XX əsrdə texnoloji sıçrayış edib, dünyanın qabaqcıl ölkələri sırasına daxil olmağa hazır idi. İnsan kapitalı müstəqil iqtisadi resurs olmaqla, müasir şəraitdə ETT ilə uzlaşdırdıqda, ÜDM – in artımının əsasıdır. Bu resursun təbii resurslardan, klassik əməkdən və adi kapitaldan fərqi ondan ibarətdir ki, burada daimi yüksək investisiya qoyuluşları tələb olunur və bu investisiyaların geri qaytarılması müəyyən vaxt tələb edir. Dünya Bankı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına (UNDP) əsasən bu gün dünyada fiziki kapital və ya yığılan sərvət ümumi sərvətin cəmi 16%, təbii sərvət - 20%, insan kapitalı və ya insana qoyulan investisiyalar isə - 64% təşkil edir. Bəzi inkişaf etmiş ölkələrdə isə sonuncunun payı 80% -ə çatır.

Dünyanın qabaqcıl ölkələrində insan kapitalına investisiyaları əsas dövlət həyata keçirir. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsas funksiyalarından biri məhz bundan ibarətdir. İnsan kapitalı aşağı səviyyəli və aşağı keyfiyyətli olduqda, yüksək texnologiyalı sahələrə investisiya qoyuluşları heç bir səmərə vermir. Finlərin, İrlandiyalıların, Yaponların, Çinlilərin (Tayvan, Hon-Konq, Sinqapur, Çin və s.), Koreyalıların, inkişaf etmiş yeni Avropa ölkələrinin (Yunanıstan, İspaniya, Portuqaliya) nisbətən surətli uğurları belə nəticəni təsdiqləyir ki, insan kapitalının formalaşmasının əsasını bu ölkələrin əsas əhali kütləsinin yüksək mədəniyyəti təşkil edir. İnsan kapitalları milli sərvətin əsas tərkib hissəsi, onun aparıcı qüvvəsidir. İnsan kapitalı – əhalinin həyat səviyyəsi və keyfiyyətinə, o cümlədən tərbiyə, təhsil, sağlamlıq, bilik, sahibkarlıq qabiliyyəti, informasiya təminatı, təhlükəsizlik və iqtisadi azadlığa, eləcə də elm, mədəniyyət və incəsənətə qoyulan investisiyalar hesabına formalaşır. Bir bilik, bacarıq, adət, təcrübə ehtiyatı kimi, insan kapitalı investisiya prosesində nəinki yığılmaq qabiliyyətinə malikdir, eləcə də maddi və mədəni

aşılanmaya məruz qalır. Zaman keçdikcə, insan kapitalına qoyulan investisiyalardan alınan gəlirlər artır. Beynəlxalq iqtisadiyyat və maliyyə institutları insan kapitalı probleminə daim maraq göstərirlər. BMT-nin iqtisadi və sosial şurası hələ 1970-ci illərdə bəşəriyyətin davamlı inkişafı strategiyası üzrə sənəd hazırlamışdır. Bu sənəddə, qlobal iqtisadi inkişafda insan amilinin rolu və əhəmiyyəti problemi qoyulmuşdur. Bu tədqiqatda insan kapitalının bəzi tərkib hissələrinin hesablanma metodikaları yaradılmışdır: bir nəslin orta ömür müddəti, aktiv əmək qabiliyyəti dövrü, iş qüvvəsinin təmiz balansı. İnsan kapitalının dəyərinə tərbiyəyə, təhsilə və yeni işçilərin hazırlanmasına çəkilən xərclər, ixtisasartırma xərcləri, əmək fəaliyyəti dövrünün uzadılmasına çəkilən xərclər, xəstəliyə görə itkilər, ölüm və sair daxildir. İnsan kapitalı elementlərinin toplanma mənbələri: elm, təhsil, səhiyyə, informasiya xidməti, mədəniyyət və incəsənətdir. Bu mənbələri aşağıdakılarla tamamlamaq lazımdır:

- əhalinin və sahibkarların təhlükəsizliyinə qoyulan investisiyalar – insan kapitalının digər tərkib hissələrinin toplanmasını təmin edirlər, insanın yaradıcı və peşəkar potensialının həyata keçməsini təmin edirlər, həyat keyfiyyətinin dəstəklənməsini və artımını təmin edirlər;
- cəmiyyətin elitasının hazırlanmasına qoyulan investisiyalar;
- sahibkarlıq fəaliyyəti və sahibkarlıq iqliminə qoyulan investisiyalar – kiçik biznes və vençur biznesinə qoyulan dövlət və özəl investisiyalar.
- sahibkarlıq qabiliyyətinin dəstəklənməsi və inkişafı üçün şəraitin yaradılmasına qoyulan investisiyalar ölkənin iqtisadi istehsal resursu kimi onun reallaşmasını təmin edirlər;
- uşaqların tərbiyəsinə qoyulan investisiyalar;
- müsbət səmtdə əhalinin mentalitetinin dəyişməsinə qoyulan investisiyalar – bunlar əhalinin mədəniyyətinə qoyulan və insan kapitalının səmərəliliyini müəyyən edən investisiyalardır;
- əhalinin institusional xidmətlə təmin olunmasına qoyulan investisiyalar – ölkə institutları əhalinin yaradıcılıq və peşəkar qabiliyyətinin açılması və reallaşmasına çalışmalı, əhalinin həyat keyfiyyətini artırmalı, xüsusən də ona bürokratik maneələri azaltmağa köməklik etməlidirlər;
- insan kapitalını əhəmiyyətli dərəcədə artıran – digər ölkələrdən mütəxəssis, yaradıcı insanların və digər istedadlı və yüksək dərəcədə peşəkar insanların dəvət olunması ilə əlaqədar, biliyə qoyulan investisiyalar;
- əmək miqrasiyasının azadlığı da daxil olmaqla, iqtisadi azadlığın inkişafına qoyulan investisiyalar.

Əksər ölkələrdə insan kapitalı toplanmış milli sərvətin yarısından çoxunu təşkil edir. Bu da, həmin ölkələrin yüksək inkişaf səviyyəsini əks etdirir. Dünya Bankının analitikləri insan kapitalının dəyərinin qiymətləndirilməsi üçün diskont metodunu təklif etmişlər. Məcmu milli sərvətin verilmiş gəlirlilik norması üzrə onun dəyəri hesablanır. Sonra alınmış kəmiyyətdən, torpağın, faydalı qazıntıların, meşə və dəniz resurslarının dəyəri, istehsal kapitalı və digər aktivləri çıxırlar. Nəticədə, insan kapitalının dəyəri qalır. Bu metodika üzrə hesablanmış İntelektual kapitalın dəyəri, hətta ən kasıb ölkələrdə belə, milli sərvətin yarısını, inkişaf etmiş ölkələrdə isə – 3/4 təşkil edir. Belə ki, makrosəviyyədə güclü sinergetik səmərə (effektlər) yaranır. Texnoloji vençur biznesində, yüksək ixtisaslı mütəxəssislərin təmərküzləşməsi nə qədər yüksək olsa, onların hər birindən alınan səmərə bir o qədər yüksək olacaq. Elmi tədqiqatlar sahəsində sinergetik effektlər daha da əhəmiyyətlidir.

Son onilliklərdə, inkişaf etmiş ölkələrdə intellektual kapitala qoyulan investisiyaların qabaqlayıcı artımı müşahidə olunur. Fiziki kapitala nisbətən, insan kapitalı daha sürətli templərlə artırdı. 1990-cı illərdə ABŞ-da təhsilə, səhiyyəyə və sosial təminata məcmu xərclər, istehsala yönəldilən kapital qoyuluşlarını üç dəfədən çox üstələyirdi. İnkişaf etmiş ölkələrdə ixtisaslı və intellektual əməyin yüksək səviyyədə ödənilməsi bilik əldə etmənin əsas stimullarından olub, həmin ölkələrin əsas inkişaf amili olmuşdur.

Öz növbəsində, intellektual əməyin yüksək imici, yeni iqtisadiyyatlar, biliklər üçün onun yüksək əhəmiyyəti, güclü sinergetik effektlər yaradaraq, ölkənin, sənaye sahələrinin, korporasiyaların məcmu intellektini və son nəticədə, ölkənin məcmu insan kapitalını gücləndirir. Buradan, dünyanın inkişaf etmiş ölkələrinin çox yüksək üstünlükləri və onlarla bir cərgəyə durmağa cəhd edən, onlara çatmağa çalışan inkişaf etməkdə olan iqtisadiyyatlı ölkələrin problemləri gündəmə gəlir.

İntellektual kapital iki tərkib hissədən ibarətdir:

1) kadr kapitalı, bura insan aktivləri və struktur aktivlər daxildir.

2) intellektual mülkiyyət, bura sənaye mülkiyyəti, müəllif hüquqları obyektləri və nou-hau daxildir.

İntellektual mülkiyyət istehsal intellektual aktivlər və marketinq intellektual aktivlərə bölünür. İnsan aktivləri – insanlara məxsus biliklər, təcrübə, peşəkar cəhətlər, onların qabiliyyəti, xarakteri, tərbiyəsi, mədəniyyət səviyyəsidir. Bunlar intellektual kapitalın tərkibinin baza hissəsidir və intellektual mülkiyyətin yaranması üçün baza təşkil edir.

Struktur aktivləri – kollektivin, cəmiyyətin yaradıcı potensialını göstərir və insan aktivləri istifadəsi işçilərin fəaliyyətinin cəmindən artıq bir nəticədə verir. Struktur aktivlərinin səviyyəsi nə qədər yüksək olarsa, o qədər kollektiv işin sinergetik səmərəsi çox olur. Kollektivin əldə etdiyi nəticə korporativ mədəniyyətdən, biliklərin cəmləşməsindən, işçilərin qarşılıqlı münasibətindən və peşəkar səviyyələrindən asılıdır. Korporativ mədəniyyət struktur aktivlərinin bütün tərkib hissələrinə (kollektiv fəaliyyətin texnologiyalarına, kollektivin idarə olunmasına, təhsil sisteminə və s.) təsir edir. İntellektual mülkiyyət – təşkilatın qeyri-maddi aktivlərinə aiddir və burada işçilərin yaradıcılıq fəaliyyəti, onların bilik və təcrübələrinin nəticələri yaradılır. Şirkətdə yaradılan intellektual mülkiyyət, birincisi, innovasiyalı məhsulun istehsalında istifadə oluna bilər, ikincisi, intellektual bazarda satılıb başqa şirkətin mülkiyyətinə çevrilə bilər. İntellektual mülkiyyət üç obyektdə cəmləşə bilər: sənaye mülkiyyətinin obyekti, müəllif hüququ obyekti və nou-hau.

Sənaye mülkiyyətinin obyektləri 2 qrupa ayrılır: 1) ixtiralar, faydalı modellər, sənaye məhsulunun nümunələri, seleksiya nəticələri; 2) firma nişanı, ticarət nişanı, xidmət nişanı, məhsulun istehsal olunduğu yer adı.

Müəllif hüququ obyektlərinə elmi işlər, ədəbiyyat və incəsənət əsərləri, EHM proqramları, göstəricilər bazası, qarışıq hüquq obyektləri (tele-, radioquruluşlar v ə s.) daxildir.

İntellektual kapitalın tərkibində kadr kapitalı və intellektual mülkiyyət olaraq dövr edərək 3 mərhələ keçir. Birinci mərhələdə pul formasından istehsal kapitalının intellektual formasına çevrilm əsi baş verir. Bu mərhələdə:

- intellektual fəaliyyətlə məşğul olan, tələb olunan bilik, təcrübəyə malik insanlar işə qəbul olunur;
- innovasiyalı ideyaların işlənib hazırlanması, intellektual mülkiyyətin yaradılması və ya başqa şirkətlərdən alınması həyata keçirilir;
- heyətin öyrənilməsi və peşəkar səviyyəsinin artırılması həyata keçirilir, nəticədə onların biliyi artır, peşəkar səviyyəsi təkmilləşir;
- şirkətin korporativ mədəniyyəti yüksəlir;
- intellektual əməyin motivasiyası, yaradıcılıq aktivliyi artırılır.

İkinci mərhələdə istehsal kapitalının elementləri intellektual məhsulun istehsal olunmasında iştirak edirlər, onun maddiləşməsinə imkan yaradırlar. İntellektual kapitalın maddiləşməsi texnoloji prosesinin bütün mərhələlərdə öz əksini tapır və nəticədə əlavə dəyər yaranır.

Üçüncü mərhələdə intellektual kapital yenə əmtəə çevrilir, onun bazar qiyməti formalaşır. Beləliklə, bu mərhələdə intellektual kapital satılaraq pula çevrilir və şirkətə gəlir, mənfəət gətirir. Biznesin düz təşkili bu pulun bir hissəsinin intellektual kapitalın artırılmasına yönəldilməlidir və yenidən birinci mərhələnin kəmiyyət və keyfiyyət baxımından daha yüksək səviyyədə başlamasına istiqamətləndirilməlidir. İntelektual kapitalın idarə olunması bu 3 mərhələnin fasiləsiz dövriyyəsini təmin etməlidir.

Bu tsiklin tərkib hissələrinin hər hansı biri olmadıqda intellektual kapitalın inkişafı zəifləyə bilər, qoyulan investisiyaların səmərəsiz xərclənməsinə, ödənilməməyinə gətirib çıxara bilər.

Ölkəmizin bilik iqtisadiyyatının formalaşması və innovativ inkişaf növünə keçidi baxımından son zamanlarda intellektual kapitalın iqtisadi artımın əsas amili kimi nəzərə alınması getdikcə aktuallaşır, bu da öz növbəsində yüksək rəqabət qabiliyyətini və dövlətin daxili və dünya bazarlarında lider mövqeyini təmin edir, həm də əhalinin həyat keyfiyyətini və kəmiyyətini yaxşılaşdırır.

## ƏDƏBİYYAT

1. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti/ Dərs vəsaiti. Bakı, "İqtisad Universiteti" nəşriyyatı 2012, 212 səh.
2. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkisaf perspektivləri. Bakı, Elm, 2009, 416 s.
3. Корицкий А. В. Экономическая теория. Трансформация теорий человеческого капитала и современность. Новосибирск, 2006, 208 с.
4. Супрун В. А. Интеллектуальный капитал. Главный фактор конкурентоспособности экономики в 21 веке. М.: КомКнига, 2006, 192 с.
5. Лукичёва Л. И. Управление интеллектуальным капиталом. М.: Омега-Л, 2007, 552 с.
6. Пацкалев А. Ф., Шебунина Е. А. Интеллектуальная собственность как фактор ускорения развития экономики // Экономика строительства. 2004. № 2, с. 35–46
7. Илышев А. М., Воропанова И. Н. Учет интеллектуальной собственности // Бухгалтерский учет в бюджетных и некоммерческих организациях. 2004, № 21, с. 26-33
8. Гаврилова Н. Преимущество использования интеллектуальной собственности // Экономист. 2004, № 4, с. 32-35

## РЕЗЮМЕ

**Хавва Адыгезалова**

### ИНТЕЛЛЕКТУАЛЬНЫЙ КАПИТАЛ КАК ОБЪЕКТ УПРАВЛЕНИЯ

Интеллектуальный капитал в современном обществе становится основой богатства и определяет конкурентоспособность экономических систем, выступает ключевым ресурсом роста и развития. С его помощью экономика страны становится более информационноемкой, технологичной и ориентированной на инновации. Способность экономики создавать и эффективно использовать интеллектуальный капитал все в большей мере определяет экономическую силу нации и ее благосостояние.

**Ключевые слова:** человеческий капитал, интеллектуальный капитал, кадровый капитал, интеллектуальная собственность, инновации, экономическое развитие.

## SUMMARY

**Yeva Adigozalova**

### INTELLECTUAL CAPITAL AS MANAGEMENT OBJECT

In modern society intellectual capital become the base of wealth and it defi nes competitiveness of economic systems, and it is basic resource of growth and development. With its help economy of country become more informational,

Technological and it oriented on innovations. The ability of economy to create and use effectively intellectual capital increasingly defi nes economical national power and its well-being.

**Key words:** human capital, intellectual capital, personnel capital, intellectual property, innovation, economic development.

**MAYİSƏ ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ƏRZAQ RESURSLARININ TƏHLÜKƏSİZLİYİ

*Məqalədə ölkənin milli ərzaq siyasəti şərh edilir və qeyd edilir ki, əhalinin ərzaq məhsulları ilə və eləcə də emal sənaye sahələrinin təminatında ərzaq kompleksinin yaradılması probleminin öyrənilməsi məsələləri iqtisadiyyat elmində strateji mahiyyətə malikdir.*

*Həmçinin məqalədə müasir şəraitdə ərzaq təhlükəsizliyinin təmin edilməsinin daha çox qlobal xarakter daşıması və ölkənin iqtisadi təhlükəsizliyinin tərkib hissəsi olmaqla ölkənin strateji maraqlarının qorunmasında mühüm rol oynaması vurğulanır. Qeyd edilir ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi ölkənin milli maraqlarının xarici rəqabətin təzahürlərindən qorunmasında aparıcı amildir.*

***Açar sözlər:*** *ərzaq siyasəti, ərzaq təhlükəsizliyi, strateji maraqlar,bazar iqtisadiyyatı, resurs, təminat, kənd təsərrüfatı*

Hələ iki min il əvvəl qədim yunan filosofu Ksenofond əsaslı şəkildə ifadə edirdi ki, “... kənd təsərrüfatı bütün başqa peşələrin anası və ailə başçısıdır: kənd təsərrüfatı yaxşı idarə olunduqda, bütün digər peşələr tərəqqi edir”. Müasir iqtisadi inkişaf mərhələsində digər sahələrlə yanaşı, kənd təsərrüfatı və onun emalı sahələri beynəlxalq iqtisadi-sosial əlaqələrin mühüm mənbələri kimi elmi tədqiqat obyektinə çevrilmişdir

Ərzaq təminatı qlobal problem olduğu üçün hər bir ölkənin siyasi-iqtisadi strategiyasının əsas bölmələrindən sayılır. Ölkənin milli ərzaq siyasəti əhalinin ərzaq məhsulları ilə təmin etmək imkanları kənd təsərrüfatının inkiafı ilə bağlıdır. Qlobal səviyyədə ərzaq məhsulları istehsalının səviyyə göstəricilərində inkişaf etməkdə olan ölkələrinin potensial imkanları yüksəkdir.

Dayanıqlı ərzaq kompleksinin mövcud olması – istehlak bazarında kifayət qədər yüksək qida keyfiyyətinə malik olan məhsulların mövcudluğu və bolluğu deməkdir. Əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasının ərzağın iqtisadi və siyasi imkanları ilə əlaqələndirilməsi önəmli məsələ kimi qəbul edlilir. Qlobal ərzaq təhlukəsizliyinin modernizasiyası ekoloji cəhətdən ərzaq məhsullarının təhlükəsizliyinin təsnifatı, ərzaqın analoji qida məhsullarının istehsalı və istehlakının modernizasiyası nəzərdə tutulur. Ərzaq kompleksinin təminatı dayanıqlı iqtisadi inkişafı strategiyasının yaradılması, funksiyaları və idarəedilməsi ilə fərqlənən sektorial vahidlərinin gerçəkliyinin əsasında təhlil edilir. Gəlir faktoru əslində ərzaq məhsullarının bazarda mövqeyi və potensialı ilə tarazlaşır. Odur ki, xammaldan ərzaq məhsulu istehsalı baxımından optimal səviyyədə istifadə edilməsi, dayanıqlı inkişaf konsepsiyasının əsas mənbələrindən biri kimi faydalıdır. Gerçəkliyin məqsəd və vəzifələri “Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyasında ərzaq məhsullarının modernləşməsi ilə təyin edilməsi önəmə gətirilmişdir. Ərzaq kompleksinin dayanıqlı inkişafı istehsal sahələrinin məhsul realitəsindən əldə edilən gəlirlərdən asılıdır.

Fikrimizcə, Azərbaycanın ekoloji təmiz ərzaq məhsulları istehsalı sahəsində çox böyük potensial imkanları mövcuddur. Bir məsələni də qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə ekoloji təmiz kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi ilbəil və yüksək sürətlə artır. Belə ki, 1980-ci illərdə yaranan inkişaf etmiş ölkələrin ərzaq məhsulları bazarında satılan ərzaq məhsullarının strukturunda ekoloji təmiz ərzaq məhsullarının xüsusi çəkisi bu gün 10%-dən 20%-ə qədər dəyişir. Beynəlxalq bazarlar sistemində ekoloji təmiz kənd təsərrüfatı məhsulları bazarının xüsusi çəkisinin dinamik artması trendi Azərbaycanda sözügedən məhsulların ixrac potensialının artırılması üçün əlverişli şərait kimi çıxış edə bilər. Bu baxımdan, ölkəmizdə ekoloji təmiz ərzaq məhsulları istehsalı yeni bir sahəvi klasterin formalaşdırılmasını tələb edir. Ona görə də, sözügedən istiqamətdə ciddi elmi təhlillər aparılmalı, irəli sürülən yeni nəzəri müddəa bazarına əsaslanan proqnoz modellər qurulmalı və alınan yeni elmi-tədqiqat nəticələri əsasında xüsusi dövlət proqramı qəbul olunmalıdır.

Çünki dövlətimizin ciddi, sistemli-kompleks və ardıcıl dəstəyi olmadan sözügedən məqsədə nail olmaq qeyri-mümkündür.

Qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişafı dövlət tərəfindən iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi diqqətdə saxlanılır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlərin sistemli və kompleks şəkildə həyata keçirilməsi məqsədi ilə Prezident İlham Əliyevin imzaladığı "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın tətbiqi ilə əhalini yerli məhsullarla təmin edən fermerlərin səmərəli fəaliyyəti üçün önəmli güzəştlər müəyyən edilir. Torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilmiş fermerlər güzəştli şərtlərlə kredit, toxum, gübrə, texnika, damazlıq mal-qara ilə təmin olunurlar.

Məhsuldarlığın, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması, kənd təsərrüfatının gəlirli sahələrinin inkişaf etdirilməsi, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkili və ərzaq təhlükəsizliyinə nail olunması üçün aqrar sahədə aparılan islahatlar müsbət nəticəsini verir. Rayonlarda və iri şəhərlərdə daimi fəaliyyət göstərən ixtisaslaşdırılmış "fermer" mağazaları" və "yaşıl market"lər şəbəkəsi", topdan satış mərkəzləri yaradılır. "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanın qəbulu isə respublikada əhalinin qida məhsulları ilə etibarlı təminatına yönələn dövlətin sosial-iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Çünki qida təhlükəsizliyinin təmin edilməsi, keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının artırılması sahəsində nəzərəçarpan nailiyyətlər ərzaq təhlükəsizliyinin təminatı baxımından da əhəmiyyətlidir. Beləliklə, ölkədə əhalini təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin etmək, qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyini daha da artırmaq qarşıdakı dövr üçün də əsas vəzifələrdən biridir.

Nəzərdə tutulan hədəf ölkədə bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsini, milli standartların dünya bazarlarının tələblərinə tam uyğunlaşdırılmasını və beynəlxalq təşkilatlarla əməkdaşlığın dərinləşdirilməsini zəruri edir. Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, bu istiqamətdə görülən işlər əhalinin daha keyfiyyətli ərzaqla təmin olunması, "tarladan süfrəyədək" prinsipinin tətbiqi qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsini günün tələbi kimi qarşıya qoyur. Bu məqsədlə Qida Təhlükəsizliyi Agentliyi yaradıldı. Məhsulların təhlükəsizliyinə nəzarəti həyata keçirən, maddi-texniki bazanın gücləndirilməsi və modernləşdirilməsi ilə məşğul olan Agentlik əhalinin ərzaq təhlükəsizliyinin təminatı üçün lazımi tədbirləri müəyyənləşdirir. Ölkədə aqrar sahənin inkişafı sayəsində daxili bazarın yerli məhsullarla tam təminatının nəticəsidir ki, əhalinin kənd təsərrüfatı məhsullarına ehtiyacı fermerlər tərəfindən ödənilir.

Yuxarıdakılardan məlum olur ki, hazırda Azərbaycan Prezidenti İlham Əliyevin diqqət mərkəzində saxladığı ən mühüm problemlərdən biri ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Müasir şəraitdə ərzaq təhlükəsizliyinin təmin edilməsi daha çox qlobal xarakter daşıyır və ölkənin iqtisadi təhlükəsizliyinin tərkib hissəsi olmaqla ölkənin strateji maraqlarının qorunmasında mühüm rol oynayır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi ölkənin milli maraqlarının xarici rəqabətin əlverişsiz təzahürlərindən qorunmasında aparıcı amil olmaqla ərzaq müstəqilliyinin təzahürü kimi şərtlənir.

Naxçıvan Muxtar Respublikası blokada şəraitində olan iqtisadi region olduğu üçün burada sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsinə, ərzaq təminatının yaxşılaşdırılmasına xüsusi önəm verilir. Bu baxımdan "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" müstəsna əhəmiyyətə malikdir. Dövlət proqramı qloballaşma şəraitində dünya ərzaq bazarında müşahidə olunan qeyri-sabitliyin ərzaq məhsullarının qiymətinə təsirinin neytrallaşdırılmasına, ərzaq bazarının idxaldan asılılığının aradan qaldırılmasına xidmət edən mühüm dövlət sənədidir. Proqramın əsas məqsədi hər bir vətəndaşın sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul olunmuş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Dövlət proqramından irəli gələn vəzifələrin uğurla icra edilməsi nəticəsində əsas ərzaq məhsullarının istehsalında müsbət nəticələr əldə edilmiş, yeni emal

müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə yardımının göstərilməsi, güzəstli şərtlərlə gübrə satışının təşkili, məhsulun satışı üçün yarmarkaların keçirilməsi kənd təsərrüfatı sahəsində məhsul istehsalının həcminin ilbəil artmasına səbəb olmuşdur.

Dövlət proqramlarına uyğun olaraq, ölkənin bütün regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində çox mühüm tədbirlər həyata keçirilir. Naxçıvan MR Ali Məclisinin 2004-2008, 2009-2013, 2014-2018-ci illəri əhatə edən "Regional sosial iqtisadi inkişafı" dövlət proqramlarında region əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar bir çox məsələlər öz əksini tapmışdır. Dövlət proqramlarının qəbulundan keçən dövr ərzində görülmüş işlər bir daha göstərir ki, yaxın gələcəkdə muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyi tam şəkildə təmin olacaqdır.

## ƏDƏBİYYAT

1. Əliyev İlham. Bakıda BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa üzrə 28-ci regional konfransındakı nitqi. "Xalq qəzeti" № 85, 2012-ci il, 20 aprel
2. "Naxçıvan Muxtar Respublikası 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" 2014-cü il, 1 sentyabr, s.8
3. "Şərq qapısı", 2018-ci il, 23 yanvar, №14
4. Azər Qurbanzadə. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri. Bakı, "Kooperasiya" nəşriyyatı, 2017, 192 səh.
5. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, Sabah, 2008, 452 s.

## РЕЗЮМЕ

**М.М.Аббасова**

## БЕЗОПАСНОСТЬ ПРОДОВОЛЬСТВЕННЫХ РЕСУРСОВ В НАХЧЫВАНСКОЙ АР

В статье комментируется национальная продовольственная политика страны и подчеркивается, что вопросы изучения проблем обеспечения населения продовольственной продукцией и создания продовольственных комплексов в обеспечении отраслей перерабатывающей промышленности имеет стратегическое значение в экономической науке.

Также в статье подчеркивается наибольший глобальный характер обеспечения продовольственной безопасности, являющейся составной частью экономической безопасности, и ее важная роль в защите стратегических интересов страны. Отмечается, что обеспечение продовольственной безопасности является ведущим фактором в защите национальных интересов страны от проявлений внешней конкуренции.

**Ключевые слова:** продовольственная политика, продовольственная безопасность, стратегические интересы, рыночная экономика, ресурсы, обеспечение, сельское хозяйство.

## SUMMARY

**M.M.Abbasova**

## SAFETY OF FOOD RESOURCES IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article about that the national food policy of the country and it is noted that issues of studying the problem of creating a food complex in the processing industry areas have a strategic importance in economics. Food safety in modern conditions plays a more global role and plays an important role in protecting the strategic interests of the country being an integral part of the country´s economic safety. Food safety is a key factor in protecting the national interests of the country from manifestations of external competition.

**Key words**: food policy, food safety, strategic interests, market economy, resource, assurance, agriculture.

**MƏHSƏTİ ƏSGƏROVA**
*Naxçıvan Dövlət Universiteti*
*mehseti_74@ gmail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA YÖNƏLMİŞ DÖVLƏT SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

*Məqalədə Naxçıvan Muxtar Respublikasının inkişafın yeni keyfiyyət mərhələsinə yüksəldilməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının rolundan danışılır. Burada Naxçıvan Muxtar Respublikasında sənayə və kənd təsərrüfatı sahələrində istehsalın yüksək sürətlə artması tədqiq edilmişdir. Eyni zamanda elmi məqalədə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına yönəlmiş dövlət siyasətinin əsas istiqamətləri verilmiş və geniş şərh edilmişdir*

***Açar sözlər:*** *Naxçıvan Muxtar Respublikası, Dövlət Proqramı, sosial-iqtisadi inkişaf, bazar iqtisadiyyatı, regional inkişaf*

Görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində bu gün Naxçıvan Muxtar Respublikası çox sürətlə inkişaf edir.

Qədim diyarda Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin icra olunması, çoxsahəli iqtisadiyyatın formalaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, lazımi islahatların aparılması mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması baxımından ölkəmizdə liderliyini qorumaqdadır.

İctimai-siyasi sabitliyin, sosial-iqtisadi inkişafın, milli iqtisadi tərəqqinin müşayiəti ilə hərtərəfli yüksəlişini günbəgün artıran ölkəmizdə sağlam iqtisadi mühit formalaşmış, bu isə regionların uzunmüddətli, mükəmməl baza əsasında, möhkəm və təkmil iqtisadi münasibətlər zəminində tərəqqisinə güclü təminat yaratmışdır.

Bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, investisiyaların daha çox regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin təmin edilməsi həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin ana xəttini təşkil etmişdir. Xüsusilə qeyd edək ki, Naxçıvan Muxtar Respublikası ölkəmizdə qəbul edilən hüquqi aktların, həyata keçirilən tədbirlərin, əldə olunan uğurlu nəticələrin həm başlanğıcına, həm də sosial-iqtisadi dayaqlarına çevrilmişdir.

Naxçıvan Muxtar Respublikasının inkişafın yeni keyfiyyət mərhələsinə yüksəlməsində son illərdə regionların sosial iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb edir. Regionların hər tərəfli tərəqqisi sahəsində 2004-cü ildən başlanmış, məqsədyönlü siyasətə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər) və 2009-cu il 28 may tarixli fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Hər iki dövlət proqramının uğurlu icrası nəticəsində muxtar respublikada real sektorun inkişafının sürətləndirilməsinə, tarazlı və davamlı inkişafa, kommunal xidmət və sosial infrastruktur təminatın yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına və həyat səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur.

Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkanlar yaradıb, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırılıb. Naxçıvanda həyata keçirilən iqtisadi siyasət, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlib. Məhz yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal edilir. Əlamətdar haldır ki, 108-si ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

Naxçıvanda mövcud olan yüksək potensialdan daha səmərəli istifadə etməklə sənaye və kənd təsərrüfatının inkişafını sürətləndirmək, bu işdə sahibkarlara hərtərəfli dəstək vermək, əhalinin həyat səviyyəsini yüksəltmək, sosial rifah halını daha da yaxşılaşdırmaq bu gün də dövlətimizin diqqət mərkəzində olan əsas məsələlərindəndir.

İqtisadiyyatın sənayeləşməsini sürətləndirmək yolu ilə muxtar respublikanın güclü sənaye mərkəzinə çevrilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi öz nəticəsini verməkdədir. Naxçıvan Muxtar Respublikasında rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, bunun nəticəsində yeni iş yerləri açılıb. Sənaye məhsullarının istehsalının ilbəil sürətlə artması da bu sahədə nəzərəçarpan inkişafın əsas göstəricilərindən biri kimi dəyərləndirilir.

Muxtar respublikanın hərtərəfli inkişafı istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq “ Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı” hazırlanmışdır. Dövlət proqramının icrası muxtar respublikanın inkişafında mühüm əhəmiyyət kəsb etməklə, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaradılmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, nəticədə, əhalinin rifah halını daha da yaxşılaşdırılmasında müstəsna rol oynamışdır.

Azad sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsullarının istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində kiçik və orta sahibkarlığın daha da gücləndirilməsi öz bəhrəsini verməkdədir.

Aydın məsələdir ki, görülən işlər, əldə olunan nəticələr, müəyyən edilən düzgün xətt silsilə şəklində və mərhələli olmaqla, yeni fəaliyyətin, təşkilati-struktur mexanizmlərin, hüquqi-iqtisadi tənzimlənmənin, innovativ istehsal potensialının zəncirvari həlqə formasında əhatə dairəsini genişlətməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış “ Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər), 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı, 2014-2015- ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı, 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı, “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramlarının həyata keçirilməsi muxtar respublika iqtisadiyyatını gücləndirib, kənd təsərrüfatının kompleks inkişını təmin edib.

Sənaye və kənd təsərrüfatı sahələrində istehsalın yüksək sürətlə artması iqtisadi inkişafın mühüm göstəricilərindən hesab edilir. Bu, sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması, torpaq mülkiyyətçilərinə, ailə təsərrüfatlarına, fermerlərə göstərilən dövlət dəstəyi nəticəsində mümkün olmuşdur.

Sosial iqtisadi inkişaf sahəsində qəbul edilmiş dövlət proqramlarının icrası muxtar respublika iqtisadiyyatının daha da güclənməsini, makroiqtisadi göstəricilərin bütün parametrləri üzrə inkişaf dinamikasının qorunub saxlanmasını təmin etmişdir. İnkişafın ən mühüm göstəricilərindən biri, yəni istər maddi istehsal, istərsə də qeyri-maddi xidmətlər sahələrində iqtisadi fəaliyyətin son nəticəsini xarakterizə edən amillərindən biri Ümumi Daxili Məhsulun artım həcmidir. Birinci proqramın qəbul edildiyi 2004-cü illə müqayisədə Ümumi Daxili Məhsulun həcmi on iki dəfə artaraq 2 milyard 773 milyon 20 min manatdan çox olmuşdur. Ümumi Daxili Məhsulda maddi istehsal sektorunun xüsusi çəkisi 60%-ə yaxın olması isə sabit iqtisadi artımın daha bir göstəricisidir.

Naxçıvan Muxtar Respublikasında 2019-cu ilin yanvar-avqust aylarında 1 milyard 803 milyon 670 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Bu, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 3945 manat olmuşdur. Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 742 milyon 932 min 800 manat

dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

Muxtar respublikada keçdiyimiz sosial-iqtisadi inkişaf yolunda olduğu kimi, cari ilin 8 ayında da yüksək perspektivə malik nailiyyətlər qazanılmaqdadır. Təbii ki, bunlar milli iqtisadi inkişafın ən dolğun təminatı üçün olduqca əhəmiyyətlidir. Heç şübhəsiz ki, müəyyən edilən prioritetlər baxımından belə bir inkişaf mənzərəsi yaxın gələcəkdə muxtar respublikanın yeni, növbəti inkişaf səhifələrindən də xəbər verməkdədir.

Müasir dövr hərtərəfli, o cümlədən innovativ inkişafdan, yüksək sosiallaşmadan, mütərəqqi humanizmlərdən ibarət əlverişli mexanizmlərə söykənən və bununla da xalqın, bütün təbəqələrdən olan insanların maraqlarını, mənafelərini ifadə edə bilən iqtisadiyyatın qurulması və inkişafını tələb etməkdədir.

Aparılmış təhlillər və formalaşmış əlverişli iqtisadi mühit muxtar respublikada mövcud olan bütün resurslardan səmərəli istifadənin təşkili, investisiya qoyuluşlarının artırılması, sosial infrastruktur təminatının gücləndirilməsi, yeni istehsal və xidmət sahələrinin, iş yerlərinin yaradılması, əhalinin məşğulluq səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair dördüncü " Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edildi.

Dövlət Proqramı çərçivəsində ölkədə regionların inkişafı ilə əlaqədar tənzimləmə sisteminin, o cümlədən qanunvericilik bazasının, institusional və iqtisadi mexanizmlərin daha da təkmilləşdirilməsi, investisiya və innovasiya fəallığının artırılması, mütərəqqi texniki avadanlıqlar və texnologiyaların tətbiqi əsasında yerli iqtisadi (təbii iqtisadi, istehsal-texniki və elmi-texniki) potensialın gücləndirilməsi və təsərrüfat dövriyyəsinə tam cəlb olunması buna uyğun olaraq, iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi (digər üstünlüyə malik əlavə dəyər yaradan məhsul və xidmət istehsalı sahəsinin inkişaf etdirilməsi) və səmərəliliyinin yüksəldilməsi hesabına rəqabətqabiliyyətliliyinin artırılması, sahibkarlığın inkişafı, məhsul və xidmət istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin daha da sağlamlaşdırılması, maliyyə resurslarına və bazara çıxış imkanlarının asanlaşdırılması, istehsal, sosial və bazar infrastrukturunun modernləşdirilməsi, sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və aztəminatlı insanlar üçün əlçatanlılığının təmin edilməsi, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi, təbii ehtiyatlardan daha da səmərəli istifadə olunması və ekoloji təhlükəsizliyin qorunması üzərində nəzarətin möhkəmləndirilməsi və bu kimi digər istiqamətlərdə kompleks işlərin görülməsi nəzərdə tutulur. Nəticədə, təbii resurslardan mümkün qədər tam və səmərəli istifadə olunması, təsərrüfat subyektlərinin fəaliyyətinin gücləndirilməsi, yerlərdə, yeni innovasiyalara əsaslanan məhsul və xidmət istehsalı sahələrinin dəyər zəncirinin bütün həlqələri üzrə inkişaf etdirilməsi, elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi ilə yaşıl iqtisadiyyatın inkişafı üçün münbit şəraitin yaradılması, bununla da ölkədə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da dayanıqlı inkişafının təmin olunması, qeyri-neft sektoru üzrə ixrac həcminin artımına nail olunması, regionlarda, o cümlədən kənd yerlərində yaşayan əhalinin layiqli məşğulluq və gəlir əldə etmə imkanlarının artması və onların sosial rifah halının yüksəlməsi, beləliklə də, regionların davamlı və tarazlı inkişafının təmin olunması gözlənilir.

İqtisadiyyatın yeni müstəvidə, yeni iqtisadi şəraitdə inkişaf etdirilməsi zərurəti, bazar münasibətlərinə xas olan idarəetmə mexanizmlərinin səmərəli təşkili və idarə olunması, bir-birini əvəz edən dövrlərin inkişaf qanunauyğunluqlarından irəli gələn islahatların ardıcıllığının və davamlılığının təmin edilməsi muxtar respublikanın əldə etdiyi ən mühüm nailiyyətdir.

## ƏDƏBİYYAT


1. C.Qasımov. Naxçıvan Muxtar Respublikası ölkənin milli iqtisadi quruculuq proseslərində Naxçıvan, 2018
2. H.Məmmədov. Davamlı iqtisadi inkişaf: infrastruktur problemləri. Dərs vəsaiti. Naxçıvan, 2017
3. Naxçıvan Muxtar Respublikası 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Şərq qapısı, 2012-ci il
4. Naxçıvan Muxtar Respublikası 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Şərq qapısı, mart 2019-cu il
5. Naxçıvan Muxtar Respublikası 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Şərq qapısı, 2012-ci il
6. Statistika materialları. 2019
7. Nakhchivan. preclib. az


## РЕЗЮМЕ

**М.Р.Аскерова**

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ, НАПРАВЛЕННЫЕ НА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье рассматривается роль государственных программ социально-экономического развития регионов Нахчыванской Автономной Республики в переходе на новый этап развития. В научной статье рассматривается быстрый рост производства в протымленности и сельском хозяйстве Нахчыванская Автономная Республики. В то ще время в научной статье были данны и широко прокомментированы основные направления государственной политики, направленные на социально – экономическое развитие Нахчыванская Автономная Республики.

**Ключевые слова:** Нахчыванская Автономная Республика, Государственная рограмма, социально-экономическое развитие, рыночная экономика, программа регионального развития.

## SUMMARY

**M.R.Askerova**

## MAIN DIRECTIONS OF THE STATE POLICY AIMED AT THE SOCIO-ECONOMIC DEVELOPMENT OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article diccusses the role of adopted stateproqrams on socio-economic development of the regions of Nakhchivan Autonomous Republic to a new stage of development. The scientific article examines the rapid grouth of industrial and agricultural production in the Nakhchivan Autonomous Republic. At the same time the main directions of the state policy aimed at the socio-economic development of the Nakhchivan Autonomous Republic were given and widely commented in the scientific articles

**Key words:** Nakhchivan Autonomous Republic, State proqram, Socio-economic development, Market economy, Regional development proqram.

**BƏHRAM HƏSƏNOV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AQRAR İSTEHSALIN MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAFI İSTİQAMƏTLƏRİ

*Naxçıvan MR-in iqtisadi inkişafında aqrar sfera önəmli yerə malikdir və bu sahənin inkişafı respublika rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunub. Ölkənin ərzaq və qida təhlükəsizliyi bu sahədə görülən işlərlə birbaşa bağlıdır. Azad bazar iqtisadiyyatı sisteminə keçmiş bu region gözəl təbii-iqlim şəraiti ilə fərqlənir, ona görə də zəruri ərzaq məhsulları istehsalı və əhalinin sağlamlığı bu sahəyə göstərilən qayğıdan xeyli dərəcədə asılıdır. Bunları əsas götürərək Naxçıvan MR-də aqrar sahənin hazırkı vəziyyəti, potensial imkanları və inkişaf istiqamətləri araşdırılmışdır.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, lizinq, torpaq fondu, su ehtiyatları, ərzaq təhlükəsizliyi, bitkiçilik, heyvandarlıq*

İqtisadi və ticari əlaqələrin intensivləşdirilməsi, dövlətlərarası ticarət dövriyyəsinin stimullaşdırılması, istehlak bazarında sağlam rəqabətin formalaşdırılması və s. kimi amillərə əsaslanaraq dünya birliyinin əksər dövlətləri iqtisadiyyatının qloballaşdırılmasını problemlərin həllində optimal həll variantı kimi nəzərdə tuturlar. Belə bir şəraitdə istehsalçılar maddi-texniki vəziyyətlərindən asılı olmayaraq, qlobal bazarda bərəbər hüquqlarla təmsil olunmalı, rəqabət isə əsas tənzimləyici rolunda çıxış etməlidir.

Aqrar sahə, ələlxüsus da kənd təsərrüfatı özünün bir sıra xüsusiyyətlərinə görə iqtisadiyyatın digər bölümlərindən fərqlənir. Bu sahənin səciyyəviliyi kənd təsərrüfatı istehsalının bir sıra obyektiv və təbii amillərdən ciddi asılılığından irəli gəlir. Torpaq və su ehtiyatlarının aşınma proseslərinin sürətlənməsi, kənd təsərrüfatı və ərzaq məhsullarına tələb-təklif nisbətinin qeyri-proporsional dəyişməsi, böhran və depressiya halları, kənd təsərrüfatında disparitetlik və s. aqrar sahə üçün əlavə çətinliklər törədir. Bütün bunlar hamısı müasir dövrdə çevik aqrar siyasətin həyata keçirilməsini tələb edir.

Aqrar sahə ölkə iqtisadiyyatının bir çox istehsal və xidmət sahələrini özündə birləşdirən mürəkkəb sosial - iqtisadi sistem olmaqla əsas məqsədi - kənd təsərrüfatı üzrə xammalların istehsalı, onların emal edilməsi nəticəsində əldə edilən çoxçeşidli ərzaq məhsullarının istehlakçılara çatdırılmasından ibarətdir. Aqrar sahənin tərkibində kənd təsərrüfatı aparıcı rol oynayır.

Kənd təsərrüfatı - bitki və heyvan mənşəli məhsulların istehsal olunması, bunların keyfiyyət və səmərəliliyinin yüksəldilməsi, bu məhsulların uyğun şərtlərdə mühafizəsi, işlənib qiymətləndirilməsi və satışa çıxarılmasına deyilir. Kənd təsərrüfatı, iki təməl istehsal əsasında formalaşır. Bunlar bitki mənşəli istehsal və heyvan mənşəli istehsaldır.

Kənd təsərrüfatı insan fəaliyyətinin ən başlıca və qədim sahəsidir. Dünyada elə bir ölkə yoxdur ki, orada kənd təsərrüfatı və ona yaxın olan meşə təsərrüfatı, ovçuluq, balıqçılıqla məşğul olunmasın. Dünya əhalisinin 1 milyard nəfəri, yəni iqtisadi fəal əhalinin yarıya qədəri bu sahələrdə çalışır.

Kompleks tədbirlər çərçivəsində yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə yardımlarının göstərilməsi, gübrələrin güzəştlə çatdırılması, meliorasiya irriqasiya sistemlərinin yenilənməsi, səmərəli kreditləşdirmə mexanizminin formalaşdırılması, lizinqin inkişafının dəstəklənməsi, lazımi texnikaların sayının tələbata uyğun artırılması, yeni satış bazarlarının təşviqi kənd təsərrüfatı sahəsində iqtisadi aktivliyi əhəmiyyətli dərəcədə intensivləşdirmişdir. Bu müddət ərzində kənd təsərrüfatının davamlı inkişafına yönəldilmiş kompleks islahatlar üzrə mühüm qərarlar qəbul edilmiş, proqram xarakterli idarəetmə formalaşdırılmış, 2005-2010-cu illəri əhatə edən Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə, 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair və

2012-2015-ci illərdə Naxçıvan MR-də meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramları qəbul olunmaqla konkret inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası müasir müstəqillik dövrünün ən yüksək inkişaf mərhələsindədir. İqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sektorun davamlı inkişafı istiqamətində qətiyyətli addımlar atan muxtar respublika ötən dövr ərzində qürurverici nailiyyətlərini yaşamaqdadır. Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu milli iqtisadi inkişaf strategiyası burada uzunmüddətli perspektivlər üzrə çevik mexanizmləri işə salmış, bu isə iqtisadiyyatın sahə strukturunda məhsuldar nəticələrin qazanılmasına əlverişli şərait yaratmışdır. Keçən müddət ərzində muxtar respublikada əhalinin artan miqyasdakı sayına və tələbatlarına uyğun istehsal potensialı formalaşdırmış, bu məqsəd üzrə sahələrin təşfiqi stimullaşdırılmış, iqtisadi və hüquqi mexanizmlərdən düzgün istifadə edilmişdir. Təmin edilən səmərəli fəaliyyət mühiti isə güclü infrastruktur potensialı fonunda yüksək faydalılığa şərait yaratmışdır.

Bu günə qədər keçdiyimiz yola nəzər saldıqda görürük ki, Naxçıvan Muxtar Respublikasında:

- *iqtisadiyyat bütün sahələrin tarazlı və dayanıqlı inkişafı üzrə təşəkkül tapıb;*
- *aparıcı sahələrin cəmiyyət üzvlərinə xidmət potensialı gücləndirilib;*
- *ərzaq təhlükəsizliyi iqtisadi prioritetlərə aid edilərək daha təkmil əsasda təmin edilməkdədir;*
- *mezoiqtisadi səviyyədə təşkilatlanma bütövlükdə şaxələndirmə prosesinin çevikliyini təmin etmişdir;*
- *bütün bunlar isə insan-əmək-istehsal-məşğulluq-sosial dayanıqlılıq həlqəsinin möhkəmliyinin və davamlılığının təminatçısı kimi böyük əhəmiyyət daşımaqdadır və s.*

Sadalanan amillərdən ibarət inkişaf vəziyyətinə diqqət edərkən görünür ki, muxtar respublikanın sosial-iqtisadi inkişafına təkan verən mexanizmlər bir-biri ilə vəhdət, sistemlilik və əhəmiyyətlilik təşkil etməkdədir.

Təbii ki, burada əhalinin məskunlaşması və ərazi xüsusiyyətləri nəzərə alınmaqla iqtisadiyyatın bütün sahələrinin əhəmiyyətliliyinin artırılması ilə yanaşı, daha çox kənd təsərrüfatı sahəsinin inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi öz spesifik zərurəti ilə seçilməkdədir. Bu məqsədlə böyük Heydər Əliyevin ötən əsrin 90-cı illərinin əvvəllərindən buradan başlatdığı müasir iqtisadi islahatlar 1995-ci ildən etibarən Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatının da dinamik inkişaf potensialına çevrildi və bu sahədə də dövlət siyasətinin mühüm tərkib hissəsini ifadə etdi.

İllər bir-birini əvəz etdikcə Naxçıvan Muxtar Respublikası iqtisadi potensialını daha da artırmış, səmərəli və yüksək təminat qabiliyyətinə malik olan aqrar siyasətin keyfiyyətli icra mexanizmlərini formalaşdırmış, eyni zamanda fəaliyyətin qətiyyətli və məhsuldar mənzərəsinə çevrilmişdir. Kənd təsərrüfatının sahələri üzrə məhsul istehsalının təmin edilməsi, bu sahədə təsərrüfat fəaliyyətinin stimullaşdırılması, daxili bazarın və yerli tələbatın dolğun şəkildə nəzərə alınması və s. kimi məsələlər təmin edilən iqtisadi potensialın gerçək ifadəsindən ibarətdir.

Müqayisə predmeti olaraq seçilən illər Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri tərəfindən imzalanmış fərman və sərəncamların, eləcə də təsdiq edilərək kənd təsərrüfatı sahəsində uğurla icra olunan (indi də qarşıdakı dövrlər üzrə davam edən) dövlət proqramları, strategiyaların və s. qazandırdığı uğurları ifadə etməkdədir.

Kənd təsərrüfatında məhsul istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, onların məhsuldarlıq göstəricilərinin yüsəldilməsi, müasir texnika və avadanlıqlardan istifadə sahəsində problemlərin aradan qaldırılması dövlətin zəruri məqsədlərindəndir. Bu mənada yuxarıdakı hüquqi aktların davamı və təkanverici qüvvəsi olaraq 2005-ci il 28 yanvar tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Naxçıvan Muxtar Respublikasında aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər" haqqında imzalanan Sərəncamın xüsusi əhəmiyyəti vardır. Bu, kənd təsərrüfatı sahəsində məhsul istehsalının intensivliyinin artırılması ilə yanaşı, həm də müasir dövrün inkişaf səviyyəsinə ardıcıllıq və davamlılıq gətirməkdədir. Adı çəkilən hüquqi sənədlə Naxçıvan Muxtar Respublikasında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradıldı və onun xətti ilə müxtəlif adda kənd təsərrüfatı texnikaları gətirilərək məhsul istehsalçılarının istifadəsinə verildi.

Qeyd edə bilərik ki, ötən 2016-cı ildə də bu proses davam etmiş, kənd təsərrüfatı məhsulları istehsalçılarının zəruri texnika ilə təmin edilməsi artıq ənənə halı almış, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə muxtar respublikaya 66 ədəd müxtəlif kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq gətirilmiş, lizinq yolu ilə torpaq mülkiyyətçilərinə verilmişdir. Bu proses cari ilin birinci yarısında da kəndli əməyinin stimullaşdırıcı amilini təşkil etmişdir. Qeyd edək ki, gətirilmiş texnikaların sayı 2017-ci ildə 173 ədəd olmuşdur. 2005-ci ildən bu cari hesabat dövrünə qədər ASC tərəfindən 1978 ədəd texnika gətirilmişdir.

Hesab edirəm ki, muxtar respublikada su təchizatını yaxınlaşdırmaq üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:

* respublikanın umumi su ehtiyatı, onun mənbələrinin dəqiqləşdirilməsi, yararlılıq dərəcələrinin, ayrı – ayrı sahələr üzrə suya olan mövcud və gələcək tələbatın mü əyyən edilməsi, ona uyğun su təsərrüfatı balansının aparılması;

* su ehtiyatlarının düzgün qiymətləndirilməsi, onlardan düzgün istifadə olunması, bu mütərəqqi suvarma sisteminin tətbiqi üçün tədbirlər planının hazırlanması;

* sudan istifad ə sahələri və tələbatı nəzərə alınaraq su təsərrüfatının yenidən qurulması, Naxçıvançay üzərində su anbarlarının tikilməsi;

*sudan istifadə edənlər assosiasiyalarının yaradılmasına və fəaliyyətinə yardım göstərilməsi;

* əkin dövriyyəsinə yeni daxil edilən torpaq sahələrində, xususilə dağlıq və dağətəyi bölgələrdə irriqasiya sisteminin təşkil edilməsi.

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları da davamlı olaraq yaxşılaşdırılıb. 2018-ci ildə muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə, ümumilikdə 30 milyon 760 min 400 manat məbləğində kreditlər verilib. Bu da bir il öncəki göstəricidən 2,3 dəfə çoxdur.

Muxtar respublikamızda iqtisadiyyatın ən vacib sahəsi olan kənd təsərrüfatında istehsalın və ixracın stimullaşdırılması, məhsulun rəqabətqabiliyyətliliyinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə dövlət dəstəyi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə imkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", 2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", həmçinin "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi muxtar respublika iqtisadiyyatını gücləndirib, kənd təsərrüfatının kompleks inkişafını təmin edib.

Əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması muxtar respublikada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açıb, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olub. Bundan başqa, yüksəkkeyfiyyətli süd və ət məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı da diqqət mərkəzində saxlanılır. Məhz bütün bunların nəticəsidir ki, 2019-cu ildə 284 milyon 475 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub.

Regional iqtisadi inkişaf siyasəti ölkədə həyata keçirilən ümumi sosial-iqtisadi inkişaf siyasətinin çox mühüm daxili tərkib hissəsidir. Deməli, regional iqtisadi inkişaf siyasəti müəyyən edilərkən sosial-iqtisadi inkişafın tələbləri əsas götürülməlidir. Ona görə də ölkənin ümumi sosial-iqtisadi inkişafı ilə regional iqtisadi inkişafı qarşılıqlı əlaqədə olmalı, bir-birini tamamlamalı və onlar ümumi inkişafa və tərəqqiyə yol açmalıdırlar.

Ümumiyyətlə, dövlətin sosial-iqtisadi inkişaf siyasətinin başlıca istiqamətlərindən biri regional iqtisadi inkişaf siyasətidir. Ona görə də regional iqtisadi inkişaf siyasətinin reallaşma

mexanizmi də bütövlükdə sosial-iqtisadi inkişaf mexanizminin tərkib hissəsidir. Regional iqtisadi inkişaf siyasəti məhsuldar qüvvələr nisbətən zəif inkişaf etmiş regionlarda istehsalın üstün inkişafına nail olunmasına şərait yaradılmasını, bu məqsədlə əməl etmək üçün regional iqtisadi, sosial, ekoloji və s. ziddiyyətlərin yumşaldılmasına əməl edilməsini nəzərdə tutur.

Dövlətin regional sosial-iqtisadi inkişaf siyasəti hər bir regionun, təsərrüfatların, sahələrin inkişafı qarşısında mühüm və perspektiv məqsədlər qoyur. Bu məqsədə nail olmaq üçün obyekt düzgün seçilməli, qarşıya çıxan vəzifələr müəyyən edilməli, cəmiyyət və regionların mənafeyi baxımından onların yerinə yetirilməsi təmin edilməlidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan regionları. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2018
2. Nadirov A.A. Müasir Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri. Bakı, Elm, 2018. 452 s.
3. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərslik. Bakı, 2011
4. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, 2005
5. Əhmədov İ.V. Kənd təsərrüfatının idarə edilməsi. Bakı, 2006

## РЕЗЮМЕ

**Б.Гасанов**

### СУЩЕСТВУЮЩЕЕ ПОЛОЖЕНИЕ АГРАРНОГО ПРОИЗВОДСТВА И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В экономическом развитии Нахчыванской Автономной Республике аграрная сфера занимает важное место и развитие этой отрасли окружена вниманием и заботой руководства республики. Продовольственная и пищевая безопасность страны непосредственно связана с проведёнными работами в этой области. Перешедшая к системе свободной рыночной экономики этот регион отличается прекрасными природно-климатическими условиями, поэтому производство необходимых продовольственных продуктов и здоровье населения в большой степени зависит от оказываемого внимания. На основании этого исследованы современное положение аграрной отрасли, потенциальные возможности и направления развития Нахчывнской Автономной Республике.

**Ключевые слова**: сельское хозяйство, лизинг, земельный фонд, запасы воды, продовольственная безопасность, растениеводство, животноводство

## SUMMARY

**B.Hasanov**

### THE CURRENT SITUATION OF AGRICULTURAL PRODUCTION AND DIRECTIONS OF DEVELOPMENT IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

In the economic development of the Nakhchivan Autonomous Republic, the agricultural sector occupies an important place and the development of this industry is surrounded by the attention and care of the leadership of the republic. Food and nutritional security of the country is directly related to the work carried out in this area. Having passed to the system of free market economy, this region is characterized by excellent climatic conditions, therefore, the production of necessary food products and the health of the population largely depend on the attention given. Based on this, the current situation of the agricultural industry, potential opportunities and directions of development of the Nakhchivn Autonomous Republic are investigated.

**Key words:** Agriculture,leasing, land fund, water supplies, food security, plant growing, animal husbandry

**RAUF RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İXRAC POTENSİALININ ARTMASI DÜŞÜNÜLMÜŞ İQTİSADİ SİYASƏTİN NƏTİCƏSİDİR

*Məqalədə milli iqtisadiyyatın dünya təsərrüfatına qoşulmasında çox vacib faktor kimi çıxış edən xarici iqtisadi əlaqələr, o cümlədən ixrac potensialı, bu istiqamətdə Naxçıvan Muxtar Respublikasında mövcud vəziyyət və ixrac potensialının artırılması istiqamətində həyata keçirilən tədbirlər müxtəlif aspektlərdən araşdırılmışdır.*

***Açar sözlər:*** *ixrac, ixrac potensialı, xarici ticarət, xarici bazar*

Müasir dövrdə dünya iqtisadiyyatına inteqrasiyanın mühüm göstəricilərindən biri xarici ticarətdir. Hər bir ölkənin sənayesi, kənd təsərrüfatı, xidmət sahələri, əhalisinin sosial vəziyyəti xeyli dərəcədə xarici-iqtisadi əlaqələrdən və xarici ticarətin dövriyyəsindən asılıdır.

Xarici ticarətdə isə ixrac mühüm əhəmiyyətə malikdir. Davamlı iqtisadi inkişafa nail olmaq istəyən hər bir ölkə hökmən ixrac potensialını artırmalıdır. İxrac potensialını artıra bilməyən ölkənin iqtisadi böyüməni təmin etməsi qeyri-mümkündür. Məhz mal və xidmətlərin ixracı iqtisadi artımda, sahibkarlıq subyektlərinin və bütün ölkənin imicinin yüksəldilməsində mühüm rol oynayan amillərdəndir. Qlobal böhranın təsirlərinin qarşısının alınması və neft gəlirlərindən asılılığı maksimum şəkildə aşağı salmaq üçün qeyri-neft sektorunun inkişaf etdirilməsi bu gün ölkəmizdə prioritet məsələlərdəndir. Bu məqsədlə qeyri-neft məhsulları istehsal edən müəssisələrin sayının artırılması, istehsal olunan məhsulların satılması üçün yeni bazarların axtarıb tapılması və ixrac potensialının artırılması məqsədilə ölkəmizdə intensiv tədbirlər həyata keçirilməkdədir.

Bu istiqamətdə Prezident İlham Əliyevin "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi qaydasının təsdiq olunması haqqında" 2016-cı il tarixli 5 oktyabr Fərmanı ixracqabiliyyətli məhsul istehsalının genişlənməsinə, məhsulların keyfiyyətinin daha da yaxşılaşmasına, eləcə də, yerli və xarici bazarlarda rəqabətədavamlı məhsulların çeşidlərinin artırılmasına mühüm töhfə vermişdir.

Həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq olunmuş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da ixrac yönümlü iqtisadi model əsas götürülərək yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyata transformasiya mühüm məqsəd kimi müəyyən olunmuşdur.

Respublikamızda iqtisadi sferada həyata keçirilən diversifikasiya siyasəti, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlaması da xarici iqtisadi əlaqələrdə müsbət inkişafa təkan vermişdir. Bu istiqamətdə xarici ölkələrə təşkil edilən ixrac missiyaları, nüfuzlu beynəlxalq sərgilərdə Azərbaycan şirkətlərinin iştirakı, xarici ticarət əlaqələrini o, cümlədən ixracın əhatə dairəsini daha da genişləndirmişdir. Azərbaycan dövlətinin bütün sahələrdə olduğu kimi, xarici iqtisadi fəaliyyət sahəsində də həyata keçirdiyi islahatlar ölkəmizin bütün bölgələrində o, cümlədən Naxçıvan Muxtar Respublikasında da geniş şəkildə öz əksini tapmışdır.

Hər hansı bir ölkədə sahibkarlığın inkişaf etdirilməsi bazarın əmtəə və xitmətlərlə bollaşdırılmasına, ölkənin ixrac potensialının artmasına gətirib çıxarır. Muxtar respublikada kiçik və orta sahibkarlığın inkişafı və biznes mühitinin yaxşılaşdırılması hər zaman prioritet istiqamətlərdən biri olmuşdur. Sahibkarlara maliyyə dəstəyi göstərmək məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondunun yaradılması isə bu məqsədlə həyata keçirilmiş ən əhəmiyyətli tədbirlərdən biri olmuşdur. Fond tərəfindən bu günə

qədər müxtəlif layihələrin maliyyələşdirilməsi üçün güzəştli kreditlər ayrılmış, həmin vəsait rəqabətqabiliyyətli və ixracyönümlü bir çox müəssisələrin yaaradılmasında istifadə olunmuşdur.

Sahibkarlığa göstərilən diqqət və qayğının, o cümlədən yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, mövcud istehsal müəssisələrinin yenidən qurulmasının nəticəsi olaraq artıq muxtar respublikada bu gün 383 növdə məhsul istehsal olunur ki, bu məhsulların 126-sı ərzaq, 257-si qeyri-ərzaq məhsullarıdır. Hal-hazırda 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli imkanlar hesabına ödənilir.

Əgər muxtar respublikanın iqtisadi inkişafında ilk mərhələ keyfiyyətli məhsul istehsal etməklə əhalinin tələbatını ödəməkdən ibarət idisə, bu gün isə istehsal olunan həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olmaq qarşıda duran əsas vəzifələrdən biridir.

Son illər muxtar respublikada dövlət maliyyə dəstəyi ilə rəqabətə dayanıqlı məhsul istehsal edən yeni müəssisələrin sayının daha da artması ixrac potensialının inkişafına müsbət təkan vermişdir. Bildiyimiz kimi, tarixən Naxçıvanın əsas ixrac məhsulları kimi tanınan, dünyada məşhur olan “Badamlı”, “Sirab” mineral sularına, dünyada ən təmiz olan Duzdağ duzuna, dadlı ət və süd məhsullarına indi də böyük tələbat vardır. Keçmişdən fərqli olaraq müasir texnologiyanın tətbiq olunduğu və ölkəmizin milli brendi kimi tanınan Naxçıvan məhsulları indi daha yüksək rəqabət qabiliyyətinə malikdir. Onlar arasında vafli məmulatlarını, çay, emal olunmuş ət və meyvə məhsullarını, qazlı aromatlaşdırılmış içkiləri, spirtli içkiləri, meyvə şirələrini, yüksəkkeyfiyyətli tikinti məhsullarını, o cümlədən Naxçıvan sementini, gips və daş məmulatlarını, xam dəri, plastik və metal məmulatlarını, mebel, metal örtüklər, panel radiatorlar, karbon qazı, uşaq bezləri və digər çox sayda məhsulları misal göstərmək olar.

Hər hansı bir müstəqil dövlətin iqtisadi gücü, hər şeydən əvvəl, onun enerji təhlükəsizliyindən asılıdır. Enerjinin idxal olunduğu yerdə heç bir iqtisadi inkişafdan söz gedə bilməz. Hazırda muxtar respublikada hidroenerji resurslarından və günəş enerjisindən səmərəli istifadə enerji təhlükəsizliyini təmin etməklə yanaşı, qonşu ölkələrlə enerji mübadiləsi aparmağa da imkan verir. Əgər bu gün muxtar respublikada enerjiyə olan daxili tələbatımızı ödəməklə yanaşı, ixrac edib ondan gəlir də əldə edə biliriksə, heç şübhəsiz, bu, aparılan güclü iqtisadi siyasətin nəticəsidir.

İxracyönümlü məhsul istehsalı ilə yanaşı onun xarici bazara çıxarılması üçün münbit şəraitin olaması da mütləqdir. Bu məqsədlə isə ölkəmizdə və xarici ölkələrdə təşkil olunan sərgi, yarmarka, seminar və konfranslarda iştirak mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada bu istiqamətdə də istər ölkəmizdə, istərsə də xaricdə keçirilən mühüm iqtisadi tədbirlərdə, o cümlədən biznes forumlar, sərgilər, seminar və konfranslarda naxçıvanlı sahibkarların iştirakı təmin edilir.

Belə ki, təkcə 2019-cu ilin ötən dövrü ərzində ölkə daxilində və 10 xarici ölkədə keçirilən 25 beynəlxalq tədbirdə muxtar respublikadan olan 101 sahibkarlıq subyektinin 102 nümayəndəsi iştirak etmişdir. Muxtar respublikada istehsal olunan ərzaq məhsulları Almaniya Federativ Respublikasında keçirilən “Green Week” və “Anuga-2019”, Birləşmiş Ərəb Əmirliklərində keçirilən “Gulfood”, Rusiya Federasiyası “World food” beynəlxalq sərgilərdə və Türkiyə Respublikasında təşkil edilmiş müxtəlif sərgilərdə nümayiş olunmuşdur. 2019-cu ildə Moskva şəhərində keçirilən “Prod Expo” Beynəlxalq ərzaq sərgisində isə “Ləzzət Qida Sənaye” MMC tərəfindən istehsal olunan vafli məhsulları “Ən yaxşı məhsul-2019” qızıl mükafata layiq görülmüşdür, bu da muxtar respublikada qida məhsullarının yüksək keyfiyyətlə istehsal olunmasına ən yaxşı nümunədir.

Hazır məhsul şəklində Naxçıvandan ixrac olunan məhsullar muxtar respublika iqtisadiyyatının ümumi inkişaf potensialını artırmaqla yanaşı, həm də milli brendlərimizin sayının çoxalmasına, bu da öz növbəsində xarici bazarlarda Naxçıvana olan marağın artmasına və xarici turistlərin regionumuza səfər etməsinə səbəb olur. Muxtar respublikadan brend şəklində ixrac olunan məhsullardan biri də məhz turizm xidmətləridir. Belə ki, Naxçıvandan hazır əmtəə şəklində ixrac olunan brend məhsullarla yanaşı, Əlincə möhtəşəmliyi, Möminə xatın zərifliyi, Batabat gözəlliyi, Əshabi-Kəhf möcüzəsi, Duzdağ şəfası, Naxçıvan lavaşı və daha çox sayda tanınmış turizm ehtiyatlarımızla turistlər ancaq Naxçıvana səyahət etməklə tanış ola bilərlər. Nəticədə, beynəlxalq turizm inkişaf etdikcə bu cür yerində ixracat forması ilə təkcə muxtar respublikamızdakı turizm və qonaqpərvərlik sənayesi deyil, eyni zamanda iqtisadiyyatın

bütün sahələri də bu gəlirdən öz payını almış olur.

Muxtar respublikada xarici bazarlara çıxışın təmin edilməsi, ixracın artırılması istiqamətində həyata keçirilən ən əhəmiyyətli tədbirlərdən biri kimi regionda fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsini qeyd etmək olar. Demək olar ki, artıq muxtar respublikada "İnvestisiya təşviqi sənədi"nin tətbiqi prosesinə başlanılmış, bu sənədi əldə etmiş sahibkarların gəlir və mənfəətinin 50 faizi 7 il müddətinə müvafiq vergilərdən, əmlakı isə 7 il müddətində əmlak vergisindən tam azad olunmuşdur. Həmçinin sahibkarlıq subyektləri tərəfindən xaricdən gətirilən texnika, texnoloji avadanlıqlar və qurğular isə 7 il müddətinə gömrük rüsumları və ƏDV-dən azad edilmişdir. Muxtar respublikada müasir gömrük sisteminin yaradılması da ixracın həcminin artırılmasında xüsusi rol oynamışdır. Bu istiqamətdə son dövrlər Culfa və Şahtaxtı Gömrük idarələrinin yeni sərhəd-keçid kompleksləri, Naxçıvan Şəhər Gömrük İdarəsi üçün yeni kompleks, Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi və "Naxçıvan terminal kompleks" Birliyi üçün müasir gömrük infrastrukturları istifadəyə verilmiş, Sədərək Gömrük İdarəsi üçün isə yeni sərhəd-keçid kompleksinin inşası hazırda davam etdirilir.

Yeni gömrük komplekslərinin istifadəyə verilməsi gömrük nəzarəti və rəsmiləşdirilməsinin müasir tələblər səviyyəsində həyata keçirilməsinə imkan vermişdir ki, bu da iqtisadi-ticarət əlaqələrinin, o cümlədən də muxtar respublikada ixrac potensialının genişləndirilməsinə səmərəli şərait yaratmışdır. Muxtar respublikada ixracatçıların əsas çətinliklərindən biri də məhz yük daşımaları və logistik xidmətlərlə bağlı idi. Lakin həyata keçirilən tədbirlər sayəsində bu sahədə də yaxşı nəticələr əldə edilmişdir. Belə ki, Naxçıvan-Bəndərabbas dəmir yolu marşrutunun işə salınması ilə yerli məhsulların körfəz ölkələrinə, Orta Asiya ölkələrinə, eləcə də beynəlxalq dəniz limanlarına sərfəli tariflərlə çıxışına şərait yaradılmışdır. Muxtar respublikanın ixrac potensialını artıran növbəti addımlardan biri də Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında əldə olunmuş razılığa əsasən muxtar respublikaya güzəştli ticarət rejiminin tətbiqi barədə qəbul edilmiş qərardır. Həmin qərar muxtar respublikada istehsal olunan sənaye və kənd təsərrüfatı məhsullarının Türkiyənin istənilən bölgəsinə idxal rüsumları ödənilmədən ixracına şərait yaradır. Belə ki, əldə olunmuş razılığa əsasən Naxçıvan Muxtar Respublikasından illik 100 milyon ABŞ dolları həcmində məhsulun Türkiyə Respublikasına ixracı idxal rüsumlarından azad edilmişdir.

İstehsal olunan məhsulların xarici bazarlara çıxışını təmin etmək istiqamətində həyata keçirilən tədbirlərdən biri də xaricdə ticarət evlərinin yaradılmasıdır. Hazırda Riqa, Varşava, Minsk, Kiyev kimi şəhərlərdə fəaliyyət göstərən Azərbaycan ticarət evlərində muxtar respublikada istehsal olunan məhsullar nümayiş olunur. Türkiyənin İğdır şəhərində yeni yaradılan "Ticarət Evi"-nin istifadəyə verilməsi isə muxtar respublikada istehsal olunan məhsulların təşviqi və satışına, iş adamları arasında ticarət sövdələşmələrinin aparılmasına geniş imkanlar yaratmaqdadır.

Bir məqamı da xüsusilə vurğulamaq lazımdır ki, muxtar respublikada istehsal olunan bütün məhsullar, eyni zamanda ixracyönümlü ərzaq məhsulları daha çox saf və təbiidirlər. Müasir dünyada isə təbii məhsullara verilən üstünlük belə məhsulların xarici bazarlara çıxarılma imkanlarını artırır. Bu məqsədlə muxtar respublikada ilk dəfə olaraq məhsul ixracına dəstək məqsədilə "Naxçıvan Məhsulları" MMC təsis edilmişdir. Müəssisənin əsas vəzifəsi istehsal olunan məhsulların respublika ərazisində satışının genişləndirilməsi, qablaşdırma, dizayn, markalanma və digər göstəricilərin yaxşılaşdırılması, xarici ölkələrə ixracının təşkil edilməsindən ibarətdir.

Xarici bazarlara məhsul çıxarılmasında əsas şərtlərdən biri onun dünyada qəbul olunmuş standartlar səviyyəsində istehsalı və yüksək keyfiyyətidir. Xarici tərəfdaşlar istehsalçı müəssisələr üçün ilk şərt kimi məhsulun keyfiyyətinin idarə edilməsində İSO ─ nun tələblərinə əməl edilməsini qoyurlar. Bu istiqamətdə muxtar respublikada qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya fəaliyyət göstərir ki, ixrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar məhz bu laboratoriya tərəfindən təmin olunur. Laboratoriya tərəfindən verilən sertifikatlar muxtar respublikada istehsal olunan ərzaq məhsullarının maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına şərait yaradır.

Həyata keçirilən düşünülmüş və uğurlu iqtisadi siyasətin nəticəsidir ki, bu gün muxtar respublikada istehsal gücünə görə 52 müəssisə ixrac potensialına malikdir və həmin müəssisələr

tərəfindən 60 növdə məhsul istehsalı həyata keçirilir. Hər ötən gün muxtar respublikanın ixrac dövriyyəsinin həcmi və ixrac coğrafiyası daha da genişlənməkdədir.

Belə ki, təkcə 2019-cu ilin birinci yarısında muxtar respublikada 219 milyon 443 min Amerika Birləşmiş Ştatları dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır ki, burada ixracın həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artaraq 191 milyon 612 min Amerika Birləşmiş Ştatları dolları təşkil etmiş, 164 milyon Amerika Birləşmiş Ştatları dollarına yaxın məbləğdə müsbət saldo yaranmışdır. 2019-cu ilin ötən dövrü ərzində isə muxtar respublikadan Türkiyə, Gürcüstan, Rusiya, İran, İraq, Amerika Birləşmiş Ştatları, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, Qırğızıstan, İspaniya, Belarus, Litva, Əfqanıstan və digər ölkələrə mineral sular, daş məhsulları, vafli və peçenyelər, plastik borular və digər tikinti ləvazimatları, tütün məmulatları, ziynət əşyaları, alüminium külçələr, meyvə-tərəvəz məhsulları ixrac olunmuşdur.

Sonda isə qeyd etmək lazımdır ki, müasir iqtisadi şəraitdə ölkəmizdə qeyri-neft məhsulları üzrə ixracın artırılmasında qarşıya qoyulmuş məqsədlərə çatmaq istiqamətində Naxçıvan Muxtar Respublikasında həyata keçirilən işlər öz bəhrəsini verməyə başlamışdır. Bu istiqamətdə sahibkarlığa göstərilən sistemli dövlət dəstəyi, ixracın stimullaşdırılması ilə bağlı qəbul edilmiş qərarlar muxtar respublikada istehsal olunan məhsulların ixrac imkanlarının artmasına və iqtisadi əlaqələrin genişlənməsinə çox böyük imkanlar yaratmışdır.

Lakin qarşıda geniş perspektivlər də vardır. Bir vaxtlar muxtar respublika iqtisadiyyatına yaxşı gəlir gətirmiş üzümçülük, baramaçılıq və tütünçülük kimi sahələrin inkişafına göstərilən diqqət yaxın gələcəkdə bu məhsullar üzrə də ixracat imkanlarını artıracaqdır.

## ƏDƏBİYYAT


1. Əli Həsənov. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011
2. Eldar İsmayılov, Vladimer Papava- Mərkəzi Qafqaz: Geosiyasətdən geoiqtisadiyyata doğru, “Qafqaz” Bakı, 2006
3. C. Nuriyev. Beynəlxalq iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi. Bakı, 2000
4. Кочетов Э.Г. - Геоэкономика. Освоение мирового экономического пространства. 2010
5. www.stat.gov.az
6. www.statistika.nmr.az
7. www.customs.gov.az


## РЕЗЮМЕ

**Рауф Рагимов**

### УВЕЛИЧЕНИЕ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ ЯВЛЯЕТСЯ РЕЗУЛЬТАТОМ ПРОДУМАННОЙ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ

В статье с различных аспектов исследованы внешние экономические связи, выступающие как важный фактор в присоединении к мировой экономике, в том числе имеющаяся в этом направлении ситуация в Нахчыванской Автономной Республике, экспортный потенциал, а также мероприятия, осуществляемые в направлении увеличения экспортного потенциала.

**Ключевые слова:** экспорт, экспортный потенциал, внешняя торговля, внешний рынок

## SUMMARY

**Rauf Rahimov**

### INCREASE OF EXPORT POTENTIAL IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IS THE RESULT OF THOUGHT-OUT ECONOMIC POLICY

The article examines external economic relations from various aspects, which are an important factor in joining the global economy, including the situation in the Nakhchivan Autonomous Republic in this direction, export potential, as well as measures taken to increase export potential.

**Key words:** export, export potential, foreign trade, foreign market

**SƏXAVƏT HEYDƏRLİ**
*Naxçıvan Dövlət Universiteti*

## MÜASİR DÖVRDƏ RESPUBLİKAMIZDA ƏRZAQ BAZARININ FORMALAŞMASI VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

*Məqalədə müasir dövrdə çox aktual məsələlər olan respublikamızda ərzaq bazarının formalaşması, inkişaf etməsi, ölkə iqtisadiyyatının dinamik inkişafına təsiri araşdırılmışdır. Qeyd edilmişdir ki, ərzaq müstəqilliyinin qorunub saxlanılması istiqamətində bir sıra normativ aktlar qəbul edilmişdir. Məqalədə qeyd edilmişdir ki, yalnız kənd təsərrüfatı məhsulları istehsalının artımını təmin etməklə, ərzaq bazarının tənzimləmə sahəsində dövlətin rolunun gücləndirilməsi ilə ərzaq bazarında sabitliyə nail olmaq mümkündür.*

***Açar sözlər***: *ərzaq bazarı, ərzaq təhlükəsizliyi, aqrar sektor, kənd təsərrüfatı, iqtisadiyyat, dövlət tənzimlənməsi, ərzaq və qida məhsulları, ərzaq təminatı*

Son dövrlər Azərbaycan Respublikası üzrə ərzaq təhlükəsizliyinin təmini, ərzaq bazarının inkişafı və qorunması, bu sahədə dövlət tənzimlənməsinin təşkili, regionlarda aqrar sahənin inkişafı ilə bağlı davamlı olaraq tədbirlər həyata keçirilməkdədir.

İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, ərzaq bazarının strukturu ilə ölkə iqtisadiyyatının mümkün əlaqələri bütövlükdə tarazlı və dinamik inkişafın əsasını formalaşdırır. Belə ki, ərzaq bazarının tələbata görə təklifi amili, daxili istehsalı, idxal-ixracı sahələrarası nisbətlərin asılılığı və balansın inkişafına təsir edir. Məhz bu baxımdan ərzaq bazarında struktur siyasət iqtisadi sahə və ərazi üzrə tələb və təklif mexanizmlərinin təsiri nəticəsində formalaşdırılır. Hər bir iqtisadi sosial amilin bazarın tələb və təklifinə təsiri təhlükəsizlik amili olaraq, daxili iqtisadi və sosial sahələrin planlaşma idarəetmə sistemini yaradır.

Ərzaq bazarı son nəticədə ölkə iqtisadiyyatının dinamik inkişafına təsir göstərən mexanizmlərdəndir. Ərzaq bazarında baş verən hər hansı dəyişikliklər son nəticədə iqtisadiyyatın bütün sahələrinə öz təsirini göstərir. Bu isə bilavasitə onunla bağlıdır ki, ərzaq bazarı əhalinin qida məhsullarına, sənayenin kənd təsərrüfatı xammalına olan tələbatının ödənilməsinə xidmət edir. Ərzaq məhsullarına olan tələbatın ödənilməsi ölkə iqtisadiyyatının dinamik inkişafından da bilavasitə asılıdır. Digər possovet məkanı ölkələrində olduğu kimi Azərbaycanda da, ölkə əhalisinin ərzaq təminatının yaxşılaşdırılması əsas prioritet məsələlərdəndir. Müvafiq problemin həlli hər bir dövlətin maraqlarına uyğundur. Azərbaycanda ərzaq təminatının yüksəldilməsi və vətəndaşların ərzaq məhsullarına olan tələbatına yerli istehsal hesabına ödənilməsi məqsədilə son illər davamlı tədbirlər həyata keçirilmişdir. Ölkənin ərzaq müstəqilliyinin qorunub saxlanılması istiqamətində bir sıra hüquqi normativ aktlar qəbul olunmuşdur. Onlara ölkə Prezidentinin 02.03.2001-ci ildə təsdiq etdiyi "Ərzaq təhlükəsizliyi üzrə Dövlət Proqramı", 25.08.2008-ci il tarixli "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Qida Təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu" aiddir.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol xəritəsi" qeyd edilən sahənin inkişafında mühüm rol oynamışdır.

Aparılmış təhlillər onu göstərir ki, ərzaq bazarı bütün dövrlərdə kənd təsərrüfatı məhsullarının, emal sənaye məhsullarının ticarətinə əsaslandığından bazarda böhran, qıtlıq və qiymət artımı əslində həmin sahənin mövcud vəziyyətindən qaynaqlanır. Ərzaq bazarının formalaşmasına bazar münasibətlərinin qanunauyğunluqları baxımından yanaşılmaqla qeyd etmək lazımdır ki, ərzaq bazarında sahibkarlığın təmin edilməsi kənd təsərrüfatının – ilk növbədə vətəndaşların tələbatının ödənilməsini təmin edən ərzaq məhsullarının istehsalının davamlı inkişafından tamamilə asılıdır. Əsasən ərzaq bazarının yerli istehsal hesabına təmin edilməsində ən başlıca istiqamətlərini kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının həcminin, kənd təsərrüfatı əmtəə təklifinin səviyyəsinin əhalinin tələbatına, emal sənayesinin kənd təsərrüfatı xammalına olan ehtiyacına uyğunlaşdırılması təşkil edir [2].

Kənd təsərrüfatı sahəsi milli iqtisadiyyatın strukturunun əsas hissəsi olduğundan bu proses ilk növbədə ölkənin ümumi iqtisadi inkişaf səviyyəsi ilə səciyyələnir. Qeyd etdiyimiz kimi, ərzaq problemi kənd təsərrüfatının inkişafı ilə bilavasitə bağlıdır. Azad ərzaq bazarının formaslaşması aqrar-ərzaq kompleksinin inkişafının mövcud vəziyyətindən asılıdır.

Bildiyimiz kimi ərzaq bazarının formalaşmasında, onun mövcud durumunda olan nöqsanların mövcudluğu son nəticədə əhalinin sosial vəziyyətinə və dövlətin iqtisadi maraqlarına təsir göstərir.

Ərzaq bazarında sabitliyə yalnız kənd təsərrüfatı məhsulları istehsalının artımını təmin etmək yolu ilə nail olmaq mümkündür. Kənd təsərrüfatı məhsullarına olan tələbatın artması yalnız əhalinin sayının artması ilə bilavasitə bağlıdır. Kənd təsərrüfatı məhsulları istehsalında əmək məhsuldarlığının yüksəldilməsi, intensiv texnologiyaların tətbiqi, tələb və təklif arasında tarazlığın bərpa olunmasının əsas vasitəsi hesab olunur.

Ərzaq bazarının formalaşması və dinamikası ölkədə ərzaq istehsalına yönəldilən siyasət və idxalın tənzimlənilməsi metodları və mexanizmləri ilə idarə olunur. Respublikada ərzaq kompleksləri islahatlar şəraitində təsərrüfat əlaqələri və istehsala şərait yaradan infrastruktur bölmələrinin inkişafı ilə bağlıdır. Ərzağın istehsalının bütün amilləri və bazarda reallaşma şərt bu kompleksin əhatə dairəsini təşkil edir və təhlükəsizlik baxımından dayanıqlı siyasəti formalaşdırır. Dayanıqlı siyasət sahə daxili amillərin biri-birinə təsiri və son nəticə olaraq təhlükəsizliyin rəqabətə dözümlü likvidlik, uzunmüddətli marketinq quruluşunu və bazar tələbatının ödənilməsində özünün xüsusi çəkisi ilə üstün artım tempi ilə xarakterizə olunur.

Ölkədə ərzaq bazarının formalaşmasında kənd təsərrüfatı, aqrar sektor, emal sənayesi və ticarətin formaları ərzaq bazarı sisteminin təşkili quruluşu olmaqla özünün planlaşma və tənzimləmə mexanizmlərini yaradır. Aqrar münasibətlər və onun sahə, ərazi texnoloji quruluşu, özünün daxili xüsusi səmərəsi sahələrarası rəqabətə dözümlü sferanın yaradılmasına və onun idarə olunmasına şərait yaradır. Ərzaq bazarının idarə olunması iqtisadi və sosial, sahə və ərazi məqsədləri baxımından həll olunur. Daha çox ərazinin təhlükəsizliyi, həmin ərazidə kənd təsərrüfatı, təbii sərvətlərin ərzaq tələbinə uyğun istifadəsi və dövlət tənzimlənməsi obyekti kimi təzahür edir [1].

Milli ərzaq bazarının mühüm tərkib hissələrindən biri də vətəndaşların ərzaq məhsullarına olan tələbatını ödəyən ərzaq bazarı hesab olunur. Ərzaq bazarının da, digər bazarlar kimi özünü tənzimləmək imkanları mövcuddur. Ərzaq bazarının fəaliyətinin tənzimlənməsində dövlətin rolunun olmaması belə, ərzaq bazarında tarazlığın pozulmasına səbəb olur. Ərzaq bazarında tənzimləmə sahəsində dövlətin rolunun gücləndirilməsi, tənzimlənmənin bazar mexanizmi, eləcə də ictimai vasitələrinin son məqsədi vətəndaşların keyfiyyətli ərzaq məhsullarını istehlak etməsi ekoloji baxımdan keyfiyyətli qida məhsulları əldə etməsi hesab olunur.

Ərzaq bazarında dövlət tənzimlənməsinin qarşısında duran əsas məsələlərdən biri də ölkədə yoxsulluq səviyyəsinin azaldılması, vətəndaşların alıcılıq qabiliyyətinin yüksəldilməsidir. Ölkənin ərzaq bazarında tənzimləmə tədbirləri vasitəsilə dövlət sosial sabitliyin qorunmasına nail olur. Bu zaman yoxsulluğun səviyyəsi azalır, aztəminatlı kateqoriyalı əhalinin sosial müdafiəsi təmin olunur. Nəticədə cəmiyyətdə sosial sabitlik yaranır.

Beynəlxalq təcrübəyə əsaslanaraq ərzaq bazarında qiymət mexanizminin düzgün təkmilləşdirilməsi ölkənin ərzaq təhlükəsizliyinin qorunmasında da mühüm şərt hesab olunur. Ərzaq bazarında qiymətlərin səviyyəsinə iqtisadi vasitələrlə təsir etmək daha çox səmərə verir. Ərzaq bazarı üzrə qiymətlərin aşağı salınması tədbirləri tarazlığın təmin edilməsinə istiqamətlənmiş mexanizmlərin pozulmamasına gətirib çıxarmalıdır. Ərzaq bazarında qiymətlərin səviyyəsinə dolayı yolla müdaxilə imkanları da vardır. Burada məqsəd kənd təsərrüfatı əmtəə istehsalçılarının məhsullarının bazara çatdırılmasında mövcud problemlərin ləğv edilməsindən ibarətdir.

Postsovet məkanı ölkələrinin təcrübəsi onu göstərir ki, dövlət tərəfindən büdcədən nəqliyyat xərclərinin subsidiyalaşdırılması kənd təsərrüfatı məhsulu istehsalı sahəsində ixtisaslaşan sahibkarların bazara məhsullarının çatdırılmasına mühüm təsir edir. Dövlətin tədarük qurumları tərəfindən kənd təsərrüfatı məhsullarının alınması, ərzaq bazarında qiymətlərin stabil saxlanılmasına imkan

verir. Nəzərə almaq lazımdır ki, ərzaq bazarının tənzimlənməsində qiymət mexanizminin təkmilləşdirilməsi zəruridir. Bu zaman istehlakçı əlverişli qiymətə məhsul əldə edə bilir. İstehlakçının əlverişli qiymətə məhsul əldə edilməsinin əsas şərti vətəndaşların gəlirlərinin artırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsidir.

Qeyd edək ki cəmiyyətdə sosial-iqtisadi fərqlərin mövcud olması, sosial sferanın ən mühüm problemlərindən hesab olunur. Bu zaman cəmiyyətdə sosial gərginlik arta, ölkənin ərzaq təhlükəsizliyinə təhdid yarana bilər. Vətəndaşların ərzaq bazarı üzrə alıcılıq imkanlarının azalması nəticə etibarı ilə regionlar üzrə, əsasən, kənd təsərrüfatı əmtəə istehsalçılarının fəaliyyətini genişləndirmək maraqlarını azaldır. Bundan başqa, ərzaq bazarı üzrə dövlət tənzimləmə vasitələri məhsulun keyfiyyətinə nəzarət prosesinin həyata keçirilməsi ilə bağlıdır. Ərzaq bazarı üzrə məhsulun keyfiyyətinə ciddi nəzarət olunması, rəqabət mühitinin qorunmasını təmin edir [5].

Ərzaq bazarında satılan ərzaq və qida məhsullarının keyfiyyətinə nəzarət lisenziyalaşdırma və sertifikatlaşdırma sistemi vasitəsilə həyata keçirilir. Ərzaq məhsulları üzrə dövlət səviyyəsində müxtəlif standartların tətbiq olunmasının vətəndaşlara xeyri çoxdur. Nəticə etibarı ilə ölkə vətəndaşları keyfiyyətli ərzaq məhsulları ilə təmin olunur, sağlam qidalanma mühiti təşəkkül tapar. Bundan başqa, əhalinin ərzaq məhsulları ilə etibarlı təmin olunması məsələsi ərzaq bazarının dövlət tənzimləməsindən birbaşa asılıdır. Ölkənin ərzaq bazarının formalaşması və inkişafında kənd təsərrüfatı məhsullarının payı mühüm rol oynayır. Məhz aqrar sektorun məhsulları ərzaq bazarında yüksək rəqabət imkanlarına malikdir. İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, ərzaq bazarı yalnız ölkə daxilində istehsal olunan yeyinti və kənd təsərrüfatı məhsullarından ibarət deyildir. Ərzaq bazarının inkişafında digər ölkələrdən idxal olunan yeyinti və kənd təsərrüfatı məhsullarının da payı mühüm rol oynayır. Ümumiyyətlə, idxal olunan və daxildə istehsal olunan ərzaq məhsulları daxili ərzaq bazarının əsasını təşkil edir. Məhz bu baxımdan daxili ərzaq bazarının qorunması ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

## ƏDƏBİYYAT


1. Abbasov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, Elm, 2005, 255 s.
2. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, Kooperasiya nəşr., 2005, 374 s.
3. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, Nurlar nəşr., 2004, 192 s.
4. Xudiyev A. Qloballaşma şəraitində milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətləri. Avtoreferat, 2012
5. Нуралиев С.У. Продовольственный рынок: проблемы становления и перспективы развития. Волгоград: Издательство Волгоградского ун-та, 2003, 280 с.


## РЕЗЮМЕ


**С.С.Гейдарли**

**ФОРМИРОВАНИЕ И ОСОБЕННОСТИ РАЗВИТИЯ ПРОДОВОЛЬСТВЕННОГО РЫНКА В РЕСПУБЛИКЕ НА СОВРЕМЕННОМ ЭТАПЕ**

В статье исследованы такие очень актуальные проблемы как формирование, развитие продовольственного рынка, его влияние на динамическое развитие экономики страны. Отмечается, что в направлении сохранения продовольственной независимости принят ряд нормативных актов.

Также в статье отмечено, что стабильности на продовольственном рынке можно добиться только при обеспечении роста производства сельскохозяйственной продукции и усилении роли государства в области регулирования продовольственного рынка.

**Ключевые слова:** продовольственный рынок, продовольственная безопасность, аграрный сектор, сельское хозяйство, экономика, государственное регулирование, продовольственная и пищевая продукция, продовольственное обеспечение

**SUMMARY**

**S.S.Haydarli**

**FORMATION AND DEVELOPMENT FEATURES OF THE FOOD MARKET IN OUR REPUBLIC IN MODERN PERIOD**

The article examines the formation and development of the food market in our country, which is a very important issue in modern times, and its impact on the dynamic development of the country's economy. It was noted that a number of normative acts have been adopted to preserve food independence. The article notes that only by ensuring the growth of agricultural production, it is possible to achieve stability in the food market by strengthening the role of the state in regulating the food market.

**Keywords:** food market, food security, agricultural sector, agriculture, economy, government regulation, food and food products, food supply

**İLKİN ŞƏKƏRƏLİSOY**
*AMEA Naxçıvan Bölməsi*

# SAHİBKARLIĞIN İNKİŞAFININ REGİONAL PROBLEMLƏRİ

*Məqalədə sahibkarlığın inkişafı və regional problemləri araşdırılır. Qeyd edilir ki, regional sahibkarlıq inkişaf etmədən bütövlükdə ölkənin iqtisadi inkişafından söhbət gedə bilməz. Ona görə də ölkənin regionlarından biri olan Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafından söhbət açılır, təhlillər aparılır və gələcək perspektivlər müəyyənləşdirilir.*

***Açar sözlər**: sahibkarlıq, region, dövlət proqramı, ərzaq təhlükəsizliyi, islahatlar*

XX əsrin axırlarında keçmiş SSRİ dağıldı, onun tərkibinə daxil olan respublikalar, o cümlədən Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdi və yeni iqtisadi sistemə transformasiya olundu. Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gələn Ümummilli liderimiz Heydər Əliyev ölkənin inkişaf strategiyasını müəyyən etdi.

"Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması və bazar iqtisadiyyatı, sahibkarlıq yoludur" [1] deyən ümummilli lider ölkənin iqtisadi inkişaf strategiyasının başlıca konturlarını verərək Azərbaycan reallığına tam uyğunlaşdırılmış iqtisadi inkişaf modelini müəyyənləşdirdi.

Beləliklə, yeni iqtisadi sistemə keçid mülkiyyət münasibətlərinin dəyişməsinə, dövlət mülkiyyətinin özəlləşdirilməsi hesabına xüsusi mülkiyyətin xüsusi çəkisinin getdikcə artması sahibkarlığın inkişafını təmin etmişdir.

İndi dünyada bazar iqtisadiyyatı sistemində fəaliyyət göstərən, bazar münasibətlərini inkişaf etdirən və dərinləşdirən ölkələrin həyat təcrübələri göstərir ki, zəngin məzmuna və müxtəlif formalara malik olan sahibkarlıq fəaliyyəti hər bir subyektin kompleks tərəqqisinin əsas şərti və hərəkətverici qüvvəsidir. Onun obyekti olan sahibkar isə cəmiyyətin ən təşəbbüskar, çevik, riskli iqtisadiyyata daim yenilik gətirən sosial təbəqəsidir.

Ölkəmiz bu gün sahibkarlığın inkişafında ölkəmiz keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Milli iqtisadiyyatın dayanıqlı və sabit inkişafı üçün qeyri-neft sektorunun gücləndirilməsi, sahibkarlığın inkişafının daha da sürətləndirilməsi bu mərhələnin əsas cəhətlərindən biridir.

İqtisadi islahatlar sahibkarlığın inkişafı üçün vacibdir və bu islahatlar bu gün də, gələcəkdə də davam etdirilməlidir. Ölkə başçısının fərman və sərəncamlarına əsasən islahatlar çox uğurla aparılır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına uyğun olaraq, son illərdə biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, o cümlədən prosedurların sadələşdirilməsi, elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, əsassız yoxlamaların qarşısının alınması və digər istiqamətlər üzrə davam etdirilmişdir.

Ölkəmizdə hazırda sahibkarlığı inkişaf etdirmək məqsədilə sistemli tədbirlər davam etdirilir, biznes mühiti yaxşılaşdırılır, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla daha mütərəqqi normativ-hüquqi baza formalaşdırılır.

Sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, xarici ticarət əməliyyatlarının aparılması, daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində keçirilən islahatların davamı olaraq tikintiyə icazələrin verilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və müflisləşmə üzrə qanunvericiliyə zəruri dəyişikliklər edilmişdir.

Qeyd etmək lazımdır ki, yerli təbii və iqtisadi resurslara əsaslanan müəssisələrin yaradılması, mövcud müəssisələrin modernləşdirilməsi, ənənəvi istehsal sahələri ilə yanaşı yenilərinin fəaliyyətə başlaması, regionlarda sənaye potensialının gücləndirilməsi və sənaye parklarının yaradılması, aqrar sektorun, turizmin və digər vacib sahələrin inkişaf etdirilməsi Azərbaycanın iqtisadi gücünü və beynəlxalq aləmdə nüfuzunu bir qədər də artırmışdır.

Dövlət proqramlarının ölkəmizdə həyata keçirildiyi şəraitdə özəl sektorun inkişafına xüsusi diqqət yetirilir və sahibkarlığa dövlət dəstəyi getdikcə artır. Bu gün Azərbaycanda güclü sahibkarlar

ordusu yaranmış, sahibkarlığı stimullaşdıran dövlət proqramlarının qəbul edilməsi və onların müvəffəqiyyətlə icra olunması sahibkarlığın inkişafına münbit şərait yaratmışdı.

Elə yeri gəlmişkən bir məsələni xüsusilə vurğulamaq yerinə düşər ki, Azərbaycan dövlətinin özəl bölmənin inkişafı və dəstəklənməsi ilə bağlı həyata keçirdiyi davamlı və ardıcıl tədbirlər məntiqi cəhətdən bir-birini tamamlayır. Qanunvericilik bazasının təkmilləşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin genişləndirilməsi, vergi yükünün azaldılması, sağlam rəqabətin təmin olunması, "bir pəncərə" prinsipinin tətbiqi, güzəştli kreditlərin verilməsi və digər tədbirlərin nəticəsidir ki, hazırda ölkəmizdə güclü özəl sektor formalaşmışdır.

Görülən tədbirlər nəticəsində ölkəmizdə son on ildə sahibkarlıq subyektlərinin sayı 2,5 dəfə artmış, bütövlükdə məşğul əhalinin 80 faizə yaxını özəl sektorda toplanmışdır. Həyata keçirilən tədbirlərin nəticəsində ölkədə istehsal olunan ümumi daxili məhsulda özəl sektorun payı getdikcə artmaqdadır. Hazırda ölkədə istehsal olunan ümumi daxili məhsulda özəl sektorun payı 87 faizə çatmışdır.

Azərbaycanda hayata keçirilən iqtisadi islahatların nəticəsidir ki, sahibkarlığın inkişaf dinamikası gündən-günə yüksəlməkdə davam edir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev çıxışlarının birində demişdir: "Ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır". İlham Əliyev ölkə prezidenti seçiləndən bu günə qədər bütün dövrlərdə iş adamlarının əsl himayədarı kimi çıxış etmiş, özəl bölməyə hər cür diqqət və qayğı göstərmişdir. Məhz keçən 2014-cü ilin mart ayında "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı fərman da sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının nəticəsi kimi qiymətləndirilməlidir.

Yuxarıda qeyd olunan bu mühüm sənəd onu deməyə əsas verir ki, sahibkarlığın inkişafında, Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, onun ən qabaqcıl təcrübələr əsasında təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi qarşıdakı illərdə sahibkarlığın inkişafı üçün geniş imkanlar açacaqdır.

Qeyd etmək lazımdır ki, əvvəlki illərdə olduğu kimi, sonrakı illərdə də sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri olmuşdur. Sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, özəl sektora dövlət dəstəyinin artırılması, sahibkarların hüquqlarının müdafiəsi və əsassız müdaxilələrin aradan qaldırılması istiqamətində işlər davam etdirilmiş, aparılan yoxlamaların vahid məlumat reyestri yaradılmışdır.

Sahibkarlığın inkişafına dövlət dəstəyinin ən vacib komponentlərindən biri sahibkarların maarifləndirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi, konsaltinq və innovasiya xidmətlərinin göstərilməsi olmuşdur.

Sahibkarlıq sahəsində ölkədə görülən işlər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən daim diqqət mərkəzində saxlanılmış və yüksək qiymətləndirilmişdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, ölkəmizdə qəbul olunmuş regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları (2004-2008, 2009-2013 və 2014-2018-ci illər) müvəffəqiyyətlə yerinə yetirilmişdir. Azərbaycan Respublikası Prezidenti regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunmuş konfransdakı giriş nitqində demişdir: "Beləliklə, görülmüş işlər haqqında danışanda əlbəttə ki, biz son 15 il ərzində yerinə yetirilmiş işlərə nəzər salmalıyıq... Son 15 ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, ümumi daxili məhsul 3,3 dəfə artmışdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. İxracımız 4,7 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir" [2].

Azərbaycan prezidenti cənab İlham Əliyev "Regionların 2014-2018-ci illrdə sosial-iqtisadi inkişafının yekunlarına" həsr olunmuş konfransdakı çıxışında demişdi: "İlk dəfə Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında 2006-cı ildə qeyd olundu və o vaxt Azərbaycan 98-ci yerdə qərarlaşdı. Aparılan köklü islahatlar, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində son hesabatda Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Yəni bu, deməyə əsas verir ki, bundan sonra da həm daxili, həm xarici investorlar Azərbaycana böyük həcmdə sərmayə qoyacaqlar" [3]. Onu da qeyd

etmək yerinə düşər ki, Azərbaycan əvvəlki illərdə olduğu kimi, bu gün də MDB məkanında birinci yerdədir.

Ölkədə olduğu kimi, regionlarda da sahibkarlığın inkişafı daim diqqət mərkəzində saxlanılır. Çünki istənilən regionun tərəqqisi həmin regionda sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. Buna görə də sahibkarlıq subyektlərinin yaradılması inkişaf edən hər bir dövlət üçün prioritet məsələlərdən biridir. Bazar iqtisadiyyatına keçidin uğurla başa çatdırılması ölkəmizdə bu subyektlərin sayının daha da artmasına gətirib çıxarmış, nəticədə milli iqtisadiyyatda özəl sektorun payı xeyli yüksəlmişdir.

Qeyd etmək lazımdır ki, sahibkarlığın inkişafı əlverişli biznes mühitinin yaradılması məqsədilə islahatların aparılması, iqtisadiyyatın davamlı və tarazlı inkişafının təmin edilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırki mərhələsinin mühüm istiqamətlərindən biridir.

Ölkədə yeridilən güclü iqtisadi siyasətin davamı olaraq Naxçıvan Muxtar Respublikasında da mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, yerli sahibkarlığın inkişafı ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən irimiqyaslı islahatlar nəticəsində özəl sektorun inkişafı üçün əlverişli iqtisadi mühit yaradılmışdır. 2018-ci ildə muxtar respublikada 2,8 milyard manatlıq ümumi daxili məhsul istehsal edilmişdir ki, bu da 2017-ci ilə nisbətən 1,3 faiz artım deməkdir [4].

Ölkə başçısı həmçinin regionlarda sahibkarlığın inkişafı üçün güzəştli kreditlərin verilməsi işini davam etdirməyi daim diqqət mərkəzində saxlayır.

Qeyd edək ki, bu sahədə muxtar respublika iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir.

2018-ci ildə muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 13,8 milyon manat təşkil etmişdir. Bu kreditlərdən 8,1 milyon manatı fərdi sahibkarlığın inkişafına, 5,7 milyon manatı isə yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə sərf olunmuşdur [5].

Bütövlükdə son 5 ildə (2014-2018-ci illər) muxtar respublikada sahibkarlara 113,8 milyon manat kredit verilmişdir. Bu kreditlərin 40,2 milyon manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 73,6 milyon manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur [6].

Azərbaycanda və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında aparılan sənayeləşdirmə prosesi nəticəsində muxtar respublikada 2018-ci ildə 990,1 milyon manatlıq sənaye məhsulu istehsal olunmuşdur ki, bu da 2017-ci il səviyyəsindən 1,3 faiz çoxdur. Bütövlükdə muxtar respublikada istehsal olunan sənaye məhsulunun 94,7 faizi özəl sektorun payına düşmüşdür [5].

Muxtar respublikada sahibkarlığın yeni mərhələyə qədəm qoyması nəticəsində ənənəvi fəaliyyət sahələrinə yeni innovasiyaların tətbiqi də genişlənir.

Ərzaq təhlükəsizliyinin təminatı daxili istehsal və emal sahələrinin inkişafını sürətləndirməklə yanaşı rəqabətqabiliyyətli məhsulların istehsalını da stimullaşdırır. Bu baxımdan dövlətin əsas hədəflərindən biri də ölkədə sahibkarlığın inkişaf etdirilməsi olub. Çünki kiçik və orta sahibkarlığın inkişafı həm də dövlətin iqtisadi sabitliyinin əsas şərtlərindən biridir. Buna görə də muxtar respublikamızda sahibkarlığın inkişaf etdirilməsi üçün əlverişli biznes mühiti yaradılmışdır.

Ölkəmizdə və muxtar respublikamızda son 12 ildə sahibkarlıq fəaliyyətini tənzimləyən qaydaların əhəmiyyətli dərəcədə liberallaşdırılması, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmlərinin təkmilləşdirilməsi özəl bölmənin yüksəliş tempini daha da artırmışdır.

## ƏDƏBİYYAT

1. Nazim Əhmədov. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, Sabah, 2008, 452 s.
2. Xalq qəzeti, 2019-cu il, 30 yanvar, s.1
3. Azərbaycan Prezidenti İlham Əliyevin "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunmuş konfransdakı nitqi". Xalq qəzeti, Bakı, 2019-cu il, 30 yanvar, №23
4. "Şərq qapısı" qəzeti, 22 yanvar 2019-cu il, № 15, s.1
5. "Şərq qapısı" qəzeti, 22 yanvar 2019-cu il, № 15, s.3
6. "Şərq qapısı" qəzeti, 7 fevral 2019-cu il, № 27

## РЕЗЮМЕ

**И.Шакаралисой**

**РЕГИОНАЛЬНЫЕ ПРОБЛЕМЫ РАЗВИТИЯ ПРЕДПРИНИМАТЕЛЬСТВА**

В статье исследуются республиканские и региональные проблемы предпринимательства. Отмечается, что без развития регионального предпринимательства, в целом о развитии экономики страны не может быть и речи. Поэтому здесь говорится о развитии предпринимательства в одном из регионов страны, а именно в Нахчыванской Автономной Республике, проводятся анализы и определяются будущие перспективы.

**Ключевые слова:** предпринимательство, регион, государственная программа, продовольственная безопасность, реформы.

## SUMMARY

**I. Shakaralisoy**

**REGIONAL PROBLEMS OF THE ENTREPRENEURSHIP`S DEVELOPMENT**

Regional and republic problems of the entrepreneurship are investigated in the article. It is noted that? It may not out of the question from economical development of the country as a whole without regional entrepreneurship development. Therefore, it is dealt with from entrepreneurship`s development in the Nakhchvan Autonomous Republic? Which is one of the regions of the country, analyzes are conducted and future perspectives are determined.

**Key words**: entrepreneurship, region, state program, food safety, production.

**XATİRƏ QASIMOVA**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SU EHTİYATINDAN İSTİFADƏ EDİLMƏSİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

*Məqalədə Naxçıvan Muxtar Respublikasının su və hidroenerji ehtiyatlarının böyük iqtisadi əhəmiyyətindən bəhs olunmuşdur. Eyni zamanda son illər muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlərin zəruliliyinə toxunulmuşdur. Kənd təsərrüfatı və əkinçiliyin inkişafını şərtləndirən əsas amillərdən biri suvarma sistemlərinin təkmilləşdirilməsinin olması vurğulanmışdır. Bu sahədə göstərilən tədbirlərdən kəhrizlərin bərpası, su təchizatının yaxşılaşdırılması ilə yanaşı, həm də tariximizin və mədəni irsimizin qorunub saxlanılması baxımından mühüm əhəmiyyətinə toxunulmuşdur.*

***Açar sözlər:*** *hidroenerji ehtiyatları, su təchizatı, suvarma sistemləri, kəhrizlərin bərpası*

Naxçıvan Muxtar Respublikasının su və hidroenerji ehtiyatları böyük iqtisadi əhəmiyyətə malikdir. Belə ki, Naxçıvan Muxtar Respublikasının su ehtiyatları ərazidə qeyri-bərabər paylanmışdır və məhduddur. Respublikada su ehtiyatlarının miqdarının və onun ərazi üzrə bölgüsünün düzgün müəyyən edilməsi üçün su ehtiyatlarının əsas mənbələrinin tədqiqi diqqət mərkəzində olmalıdır. Naxçıvan Muxtar Respublikasının su ehtiyatlarına aşağıdakılar aiddir:

1.Çay suları;
2.Kəhriz və bulaq suları;
3.Süni yaradılmış su anbarları;
4.Süni su toplayıcı gölməçələr;
5.Suvarma sistemləri.

Su təmizlik, aydınlıq, həyat deməkdir. Həyatımız isə ərzaq təhlükəsizliyinin təmin olunmasından xeyli dərəcədə asılıdır. Son illər muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı xarakter alması hər bir naxçıvanlını ürəkdən sevindirir. Bəhrələrini hamılıqla gördüyümüz həmin tədbirlərin əsası ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə qoyulub. Dahi rəhbərin inkişafına böyük önəm verdiyi sahələr sırasında meliorasiya və irriqasiya da mühüm yer tuturdu. Ümummilli lider meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsini ona görə vacib sayırdı ki, məhsuldar torpaq sahələrimiz əkilməmiş qalmasın, şoranlaşmanın qarşısı alınsın, əhalinin yerli əkinçilik məhsullarına tələbatı daxili imkanlar hesabına ödənilsin, ərzaq təhlükəsizliyi təmin edilsin, güclü iqtisadiyyata nail olaq, iqtisadi asılılıq qapılarımızı döyməsin.

Naxçıvan Muxtar Respublikasında su ehtiyatları nisbətən az olduğuna görə, içməli və təsərrüfat məqsədli su mənbələrindən düzgün istifadə, muxtar respublikada suya olan tələbatın daha az məsrəflə və tam ödənilməsi mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikanın su balansının strukturuna bir çox amillər (hidrometeoroloji şərait, çay və göllərə daxil olan su kütlələrinin həcmi, kimyəvi xassələri, hövzə və çalaların morfoloji quruluşu və morfometrik ölçüləri) təsir edir. Müəyyən edilmişdir ki, Araz çayı, Naxçıvançay, Arpaçay və onların qolları üzərində inşa edilən su anbarları, sututarlar və digər hidroqovşaqların hesabına çay suları daha çox tənzimlənir. Muxtar respublikanın çay və göllərinin kənd təsərrüfatında və əkinçilikdə müstəsna əhəmiyyətini nəzərə alaraq onların mühafizəsinə nəzarət artırılır, regionun təbii hidrosistemi ardıcıl şəkildə öyrənilir.

Naxçıvan MR ölkəmizin su ilə ən az təmin olunmuş regionlarındandır. Bu, müəyyən dərəcədə səthi axarların il ərzində qeyri-bərabər paylanması ilə bağlıdır. Suya olan tələbatı ödəmək üçün muxtar respublikada bir sıra su anbarları tikilib istifadəyə verilmişdir. Yaradılmış anbarlar və suvarma sistemləri öz növbəsində təbii landşaftı və texniki geosistemə mənfi təsir göstərən müəyyən problemlər ortaya çıxarmışdır. Bu ilk növbədə şorlaşmaya, sututarların gətirmələr hesabına dolması və çirklənməsinə aiddir. Bu baxımdan, Naxçıvan MR-də tədqiqat işlərinin aparılmasını və qaldırılan problemlərin aktuallığını, onun təcrübi, elmi əhəmiyyətini nəzərə alaraq, ərazinin su problemlərini və

onun ekoloji mühitə təsirini öyrənmək üçün elmi-tədqiqat işlərinin planı hazırlanmışdır. Regionu əhatə edən müxtəlif illərdə çəkilmiş aerokosmik şəkillərin təhlili, spektrometrik və radiometrik məlumatların araşdırılması göstərir ki, su anbarlarında gedən dinamik proseslər ətraf mühitə mənfi təsir göstərməklə ekoloji tarazlığın pozulmasını sürətləndirir. Araz çayının orta axarlarında bir çox məsələləri kompleks həll etmək məqsədilə yaradılan "Araz" su qovşağı respublikamızın ən böyük su anbarlarından biridir. Su anbarı mürəkkəb hidro-iqlim rejiminə malikdir. Arazın anbara töküldüyü mənsəb hissədə axının sür'əti nisbətən böyükdür və bu sürət bəndə doğru azalaraq minimuma yaxınlaşır. Nəticədə suda olan asılı maddələr dibə çökməyə başlayır. Proses qarın aktiv əridiyi yaz daşqınları zamanı daha sürətlə gedir. Payız fəslində isə həm suyun səviyyəsi, həm də onda olan asılı gətirmələrin miqdar azalır. Müxtəlif illərdə çəkilmiş aerokosmik şəkillərin müqayisəli təhlili nəticəsində "Araz" və muxtar respublikanın ikinci böyük su anbarı sayılan "Arpaçay" da şəffaflıq və bulanıqlığa görə bir-birindən fərqlənən zonalara ayrılmışdır. Ayrı-ayrı zonalarda aparılan aerospektral ölçmələr və infraqırmızı çəkilişlər suyun digər təbii xüsusiyyətlərini səciyyələndirməyə imkan vermişdir.

Kənd təsərrüfatı və əkinçiliyin inkişafını şərtləndirən əsas amillərdən biri suvarma sistemlərinin təkmilləşdirilməsidir. Muxtar respublikada bu sahədə "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" üzrə nəzərdə tutulmuş tədbirlər uğurla həyata keçirilmişdir. Burada çay hövzələrindən kənarda yerləşən yaşayış məntəqələrində suvarma məqsədilə kəhriz, bulaq və subartezian quyularından geniş istifadə edilir.

Naxçıvan Muxtar Respublikasında bütün çaylar Araz çayı hövzəsinə aid olub, ümumi sayı dövrü çaylarla birlikdə 400-ə yaxındır. Çayların ümumi uzunluğu 1750 km-dir. Çay şəbəkəsinin orta sıxlığı 0,33 kv. km təşkil edir. Çayların orta illik su ehtiyatı isə 1 milyard m kubdan çoxdur. Su ehtiyatına görə Arpaçay, Naxçıvançay, Gilançay və Əlincə çay ərazisinin əsas çayları hesab edilir. Naxçıvan Muxtar Respublikasının su ehtiyatının formalaşmasına və bölgüsünə ərazinin relyefinin və təbii iqlim şəraitinin mürəkkəbliyi və rəngarəngliyi təsir edir. Azərbaycan Respublikasının Su Problemləri Elmi Tədqiqat İnstitutunun hesablamalarına görə Naxçıvan Muxtar Respublikasının su ehtiyatları təbii tranzit çaylarda orta sululuğu illər üzrə 626 milyon m.kub/il, azsulu illər üzrə 515 milyon m.kub/il, daxili çaylarda isə su ehtiyatları orta sulu illər üzrə 514 milyon m.kub/il, azsulu daxili çaylarda illər üzrə 355 milyon m.kub/il təşkil edir. Ümumi halda çayların orta illik axın həcmi 1140 milyon m.kub\il, az sulu illərdə isə 870 milyon m.kub/il təşkil edir.

Muxtar respublikada mütəmadi olaraq təbii ehtiyatlar, o cümlədən su ehtiyatları ilə bağlı problemlər müəyyənləşdirilir və onların xalq təsərrüfatında tətbiqinin nəzəri əsasları tədqiq olunur. Bu sahədə aparılan regional işlər böyük əhəmiyyətə malikdir. 1970-ci ilə qədər muxtar respublikada kiçik və az əhəmiyyətli bir neçə su anbarı yaradılıbsa, həmin ildən sonra hazırda ümumi tutumu 1 milyard 544 milyon kubmetr olan 20 su anbarı tikilib. Bütövlükdə, muxtar respublikada 1970-ci ildən sonra istifadəyə verilmiş su anbarları 55 min hektara yaxın torpaq sahəsinin suvarılmasına xidmət edib. Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü meliorasiya və irriqasiya sahəsində həyata keçirilən tədbirləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov belə xarakterizə edir: " Muxtar respublikada istifadəyə verilən su anbarları və başqa əhəmiyyətli suvarma obyektləri məhsuldar qüvvələrin inkişafında mühüm rol oynamışdır... Həmin dövrdə görülən irimiqyaslı meliorasiya və irriqasiya tədbirləri məhsul bolluğuna təminat yaratmış, muxtar respublikanın kəndləri simasını dəyişmiş, adamların güzəranı yaxşılaşmışdır. Bir sözlə, muxtar respublikada iri sututarların, dəryaçaların inşa olunması, sadəcə, tikinti proqramlarının yerinə yetirilməsi demək deyildi. Bu, eyni zamanda uzun müddətə hesablanmış strateji proqram idi". Görkəmli dövlət xadimi Azərbaycana rəhbərliyinin ikinci dövründə də belə tədbirlərin həyata keçirilməsinə ciddi önəm verib.

Yeni nasos stansiyaları, subartezian quyuları vasitəsilə torpaqların əkin dövriyyəsinə qatılması da öz həllini tapıb. Belə ki, 1995-2019-cu illər ərzində Araz, Vayxır, Ordubad çayları, Arpaçay, Naxçıvançay, Buzovçay üzərində 49 yeni nasos stansiyası tikilib, 400-dən artıq subartezian quyusu qazılıb. Bəhs olunan dövr ərzində suvarma və içməli su təminatında qədim hidrotexniki qurğu olan

kəhrizlərdən geniş istifadə edilib, onların təmir-bərpası daim diqqət mərkəzində saxlanılıb. Bu gün muxtar respublikanın şəhər və rayonlarında 336 kəhriz istismar olunur. 2003-2019-cu illər ərzində 136 kəhrizin təmir-bərpasının aparılması bu qədim su mənbələrindən istifadəni xeyli yaxşılaşdırıb.

Bu illər ərzində muxtar respublikanın su təsərrüfatı işçiləri daha bir vəzifəni yerinə yetirməkdədirlər. Ən qiymətli sərvət olan torpaqlarımızı və yaşayış məntəqələrimizi sel sularının təsirindən qorumaq məqsədilə hər il sahilbərkitmə işləri aparılır. Bu gün Sədərək rayonundan başlamış Ordubadadək, eləcə də Şahbuz rayonunda çay və selovlarda 593 kilometr selə qarşı istiqamətləndirici bənd salınıb. Şərur, Kəngərli, Culfa və Ordubad rayonlarında Araz çayı boyunca 54,1 kilometr sahilbərkitmə işləri aparılıb. Bu tədbirlərin görülməsində keyfiyyət amili ön plana çəkilib. Ona görə də həyata keçirilmiş tədbirlər öz bəhrələrini verməkdədir. Su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri insanları sağlam və ekoloji cəhətdən təmiz su ilə təmin etməkdir. İçməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadənin yaxşılaşdırılması istiqamətində də muxtar respublikamızda irimiqyaslı layihələr həyata keçirilib. ”Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” layihəsi çərçivəsində Naxçıvan şəhərinin su təchizatı və kanalizasiya sistemləri yenidən qurulub, əhalinin içməli suya olan ehtiyacı tam şəkildə ödənilib. Naxçıvançay yatağında uzunluğu 2,9 kilometr, dərinliyi isə 6 metr olan kaptaj tikilib, kaptajdan sutəmizləyici qurğuya qədər 6,4 kilometr özüaxınlı şüşəlifli magistral boru xətti çəkilib. Babək rayonunun Şıxmahmud kəndi ərazisində Naxçıvan Şəhər Su Anbarı və Su-təmizləyici Qurğular Kompleksi istifadəyə verilib. Membran tipli qurğu əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsində böyük rol oynayır. Kompleksdə suyun təmizlənməsi üçün ən müasir qurğu və avadanlıqlardan istifadə olunur. Qurğunun gücü saniyədə 472 litrdir. Təmizlənmiş su ümumi tutumu 25 min kub metr olan 3 su anbarına yığılır və şəbəkəyə ötürülür. Su-təmizləyici qurğudan şəhər şəbəkəsinə hər birinin uzunluğu 3,75 kilometr olmaqla, cəmi 7,5 kilometr şüşəlifli borularla özüaxınlı qoşa magistral xətti çəkilib. Layihə çərçivəsində Naxçıvan şəhəri və Naxçıvan şəhər inzibati ərazisinə aid olan Qaraçuq, Bulqan, Qaraxanbəyli, Hacıniyyət və Tumbul kəndləri, Babək rayonunun Şəkərabad, Xəlilli və Şıxmahmud kəndləri daxil olmaqla, su və kanalizasiya şəbəkəsinin tikintisi həyata keçirilib. Nəticədə, 350,1 kilometr daxili su və 332,5 kilometr kanalizasiya şəbəkələri çəkilib, 25 min 874 ev birləşməsi aparılaraq sayğac quraşdırılıb, 135 min sakin fasiləsiz olaraq Beynəlxalq Səhiyyə Təşkilatının tələblərinə cavab verən içməli su ilə təmin edilib. Suvarma və içməli su təminatında qədim hidrotexniki qurğu olan kəhrizlərdən geniş istifadə edilir, onların təmir-bərpası daim diqqət mərkəzində saxlanılır. Kəhrizlərin bərpası su təchizatının yaxşılaşdırılması ilə yanaşı, həm də tariximizin və mədəni irsimizin qorunub saxlanılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu günə qədər muxtar respublikada 120 kəhriz bərpa olunmuşdur. Muxtar respublikada mexaniki suvarma üsulundan da geniş istifadə olunmaqdadır. İkinci suvarma mənbəyi kimi istifadə edilən 101 nasos stansiyası və 824 subartezian quyusu suvarma mövsümündə tam gücü ilə istismar olunur. Əkin sahələrini və yaşayış məntəqələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə muxtar respublikanın çay və selovlarında selə qarşı istiqamətləndirici bənd salınır. Bu da torpaqların yuyulmasının və şoranlaşmasının qarşısını almaqla yanaşı, həm də torpaqların münbitliyinin qorunmasına imkan verir. Ötən dövrdə Araz çayı boyunca 54 kilometrdən artıq məsafədə sahilbərkitmə işləri aparılmışdır. Su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri də insanları sağlam və ekoloji cəhətdən təmiz içməli su ilə təmin etməkdir. Bu gün muxtar respublikada içməli su və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində kompleks tədbirlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Şəhər Su Anbarı və Su Təmizləyici Qurğular Kompleksi, eləcə də Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkəsi, Şahbuz və Culfa şəhərlərində içməli su və kanalizasiya sistemləri istifadəyə verilmişdir.

Ali Məclisin Sədri deyib: İnsan var ki, sağlığında əməlləri ölkəsinə, xalqına xeyir verir. İnsan da var ki, həm sağlığında, həm də yoxluğunda onun əməlləri yaşayır, insanlara doğru yol göstərir. Bu gün ümummilli liderimiz Heydər Əliyevin yolu, əməlləri yaşayır və bəhrəsi göz qabağındadır.

## ƏDƏBİYYAT

1. Həsənov Ə. Naxçıvan MR-in təbii sərvətləri və onlardan istifadə yolları. Bakı, Araz, 2001, 246 səh.
2. S.Babayev .Naxçıvan MR-in coğrafiyası. Bakı, 1999
3. Ə.Quliyev. Naxçıvan MR-də kəhrizlərin vəziyyəti və onlardan səmərəli istifadə yolları. Naxçıvan, 2000
4. http://www.statistika.nmr.az/
5. http://nakhchivan.preslib.az/ebooks/
6. http://www.ebooks.az

## РЕЗЮМЕ

**Хатира Гасымова**

### ПУТИ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ИСПОЛЬЗОВАНИЯ ВОДНЫХ РЕСУРСОВ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье обсуждается большое экономическое значение водных и гидроэнергетических ресурсов Нахчыванской Автономной Республики. В то же время в последние годы автономная республика затронула вопрос о необходимости действий в этом направлении. Совершенствование ирригационных систем является одним из основных факторов, способствующих развитию сельского хозяйства и сельского хозяйства. От мер, принятых в этой области, восстановление подземный водопровод коснулось не только улучшения водоснабжения, но также и важности сохранения нашей истории и нашего культурного наследия.

**Ключевые слова:** гидроэнергетические ресурсы, водоснабжение, ирригационные системы, реабилитация каналов

## SUMMARY

**Khatira Gasimova**

### WAYS TO INCREASE THE EFFICIENCY OF THE USE OF WATER RESOURCES OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

It spoke about the enormous economic importance of water and hydropower resources of the Nakhchivan Autonomous Republic. At the same time, in recent years, the autonomous republic has touched upon the need for action in this direction. Improvement of irrigation systems is one of the main factors contributing to the development of agriculture and agriculture. From the measures taken in this area, the restoration of the underground water-supply touched not only on the improvement of water supply, but also on the importance of preserving our history and our cultural heritage.

**Keywords:** hydropower resources, water supply, irrigation systems, rehabilitation of canals

**AMAR QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*ammarhuseyn@yahoo.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN ROLU

*Məqalədə mikro sahibkarlığın əhəmiyyətindən ətraflı bəhs edilmiş və onun sosial əhəmiyyətindən söz açılmışdır. Mikro sahibkarlıq fəaliyyətinin rolu və iqtisadi mahiyyətinə toxunulmuşdur. Naxçıvan Muxtar Respublikasının iqtisadi həyatında təsərrüfatların rolundan bəhs olunmuş və onların mikro sahibkarlığın inkişafı ilə sıx əlaqələrinin olduğu əsaslandırılmışdır. Sahibkarlığın inkişafında dövlətin hüquqi-iqtisadi tənzimlənmə siyasətindən bəhs edilmiş və bu sahədə imzalanmış qanun və fərmanların əhəmiyyəti göstərilmişdir. Muxtar respublikada həlli vacib məsələlərdən biri kimi bölgələrdə mikro sahibkarlığın inkişafını sürətləndirməkdə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməkdə iqtisadiyyatın davamlı inkişafına, əhalinin sosial həyat səviyyəsinin yüksəlməsinə ölkədə işsizliyin və yoxsulluğun azalmasına nail olmağın yolları geniş şəkildə izah olunmuşdur.*

***Açar sözlər:*** *sahibkarlıq fəaliyyəti, təsərrüfat, iqtisadi idarəetmə, istehsal münasibətləri, mikro sahibkarlıq, məşğuliyyət*

Yeni iqtisadi münasibətlərə keçid şəraitində mükəmməl bazar mühitinin yaradılmasının başlıca amillərindən biri sahibkarlığın formalaşdırılması və inkişafıdır. İstənilən sahibkar öz mənfəətini maksimallaşdırmağa cəhd edir və onun maddi sərvəti işinin, yaxud firmasının gətirdiyi gəlirdən asılıdır. Özü üçün mənfəət əldə edərək sahibkar cəmiyyətə zəruri olan mal və xidmətlər istehsal edir, yeni bazarlar yaradır, yeni iş yerləri təqdim edir və mövcud olanları saxlayır, başqalarının yaratdığı mal və xidmətlərin istehlakçısı kimi çıxış edir və müvafiq vergilər ödəyir. Kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadiyyatda oynadığı rol iri müəssisələrə nisbətən daha əhəmiyyətlidir. Xüsusən də ümumi daxili məhsulun, məşğulluğun artırılması, eyni zamanda büdcənin vergi ehtiyaclarının ödənilməsi kimi məsələlərində kiçik və orta sahibkarlar əvəzedilməz imkanlara malikdir. Odur ki, inkişaf arzusunda olan dövlətlərdə kiçik və orta sahibkarlara dəstək sahibkarlığa dəstəyin əsas növü hesab olunur. Nəzərə alaq ki, inkişaf etmiş ölkələrdə mövcud müəssisələrin 99 faizi kiçik və orta sahibkarlardır. Kiçik və orta sahibkarların məşğulluqda payı 50-70, ümumi daxili məhsul istehsalında isə 50-60 faiz arasında dəyişir.(1-125)

Kiçik və orta sahibkarlar eyni zamanda inkişaf etməkdə olan ölkələrin də makroiqtisadi səhnəsində önəmli rola malikdirlər. Ancaq zəif inkişaf edən ölkələrdə kiçik və orta sahibkarların payı həm ÜDM istehsalında, həm də məşğulluqda bir qədər kiçikdir. Belə ki, inkişaf etmiş ölkələrdə ÜDM istehsalında kiçik və orta sahibkarların töhfəsi 50%-ə yaxın olduğu halda, bu rəqəm orta keçid mərhələsinə malik olan ölkələrdə 40, zəif templə inkişaf edən ölkələrdə isə 30 faiz ətrafında dəyişir. Məşğulluğun təmin edilməsində isə inkişaf dərəcəsinə görə müvafiq olaraq kiçik və orta sahibkarların payı 45, 36, 30 faiz ətrafındadır. Göründüyü kimi, ölkənin iqtisadi inkişafı kiçik və orta sahibkarların vəziyyətindən birbaşa asılıdır. Kiçik və orta sahibkarların iqtisadiyyatda bu dərəcədə önəmli çəkiyə sahib olması isə onların xüsusiyyətləri ilə əlaqədardır. Çünki kiçik və orta sahibkarlar daha az investisiya ilə daha çox istehsal və məhsul müxtəlifliyi əldə etməyə malikdir. Eyni zamanda iqtisadi dalğalanmalar kiçik və orta sahibkarlara daha az təsir göstərir. Bundan başqa, tələbata və müxtəlifliklərə rahat uyğunlaşa, bölgələrarası tarazlı iqtisadi inkişafı təmin edə bilirlər. Ən əsası, gəlir bölgüsündəki ədalətsizliyi minimum səviyyəyə endirirlər. Bu kimi xüsusiyyətlər kiçik və orta sahibkarların ölkə iqtisadiyyatında vacib problemlərin həllində əsas iştirakçı olmasına imkan verir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli Qərarı ilə "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları" təsdiq edilib. Qərara əsasən sahibkarlıq subyektlərinin əvvəlki bölgü meyarları dəyişdirilərək, "kiçik", "orta" və"iri" sahibkarlıq

qrupları ilə yanaşı, "mikro sahibkarlıq" qrupu da müəyyənləşdirilib. Bu, mikro sahibkarların ayrıca qrup olaraq qeydiyyata alınmasında və bununla da sahibkarlığın əhatə dairəsinin genişləndirilməsində əhəmiyyətlidir. Meyarlara, əsasən, mikro sahibkar işçilərin sayı 10-dək, illik gəliri 200 min manata dək olan, kiçik sahibkar işçilərin sayı 11-50, illik gəliri 3 milyon manata dək, orta sahibkar isə işçilərinin sayı 51-250, illik gəliri 3-30 milyon manat olan sahibkarlardır.(5)

Mikro, kiçik, orta sahibkarlıq müxtəlif dövlətlərin iqtisadi çiçəklənməsinə səbəb olan istehsalın canlanmasına və əhalinin iqtisadi fəallığının yüksəldilməsinə güclü stimul verən mühüm amildir. Mikro, kiçik, orta sahibkarlıq iqtisadiyyatın ən çevik və nəticəli sektorlarından biridir, habelə ÜDM-in xeyli hissəsinin yaradılması onun payına düşür, iqtisadi fəal əhalinin xeyli hissəsi onda işləyir. İş yerinin yaradılmasından başqa, rəqabət qabiliyyətli, dinamik və diversifikasiyalı iqtisadiyyatın yaradılmasında da kiçik və orta biznesin mühüm rolu vardır. Bazar münasibətlərinin formalaşması və inkişafı müxtəlif mülkiyyət formalı təsərrüfat subyektlərinin fəaliyyətini tələb edir. Çoxlu sayda kiçik mülkiyyətçilər təbəqəsi kimi çıxış edən kiçik sahibkarlıq əhəmiyyətli şəkildə ölkənin sosial-iqtisadi inkişaf səviyyəsini müəyyən edir. Ona görə də sivil ölkələr də olduğu kimi, Azərbaycanda da bu sektorun inkişafına xüsusi fikir verilir. Kiçik sahibkarlıq sektorunda milli resursların əsas kütləsi yaradılır və dövr edir ki, bu da orta və iri sahibkarlar üçün qida mühitidir. Kiçik müəssisələrin böyük olmayan texnoloji istehsal və idarəetmə çevikliyi bazarın dəyişən konyukturasına dəqiq və vaxtında uyğunlaşmağa və reaksiyasına imkan verir. Daha dinamik inkişaf edən sektor olmaqla kiçik sahibkarlıq makroiqtisadi mühitə əhəmiyyətli təsir göstərməyə qadirdir. O, məşğulluğun genişləndirilməsinə kömək edir, inhisarçılığın yaranmasına mane olan bazar mexanizminin həqiqi fəaliyyətinə imkan yaradır bir sözlə, rəqabət mühitinin formalaşdırılmasının mühüm amili kimi çıxış edir.

Milli iqtisadiyyatı formalaşdırmaq, daxili bazarı xarici amillərin təsirindən qorumaq üçün sağlam sahibkarlıq mühitinin yaradılması zəruridir. Bu amil nəzərə alınaraq ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında xüsusi mülkiyyətin, kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası müstəqillik illərində bütün istiqamətlər üzrə inkişaf edərək yeni bir tarixi mərhələ səviyyəsinə yüksəlmişdir. Vaxtilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin atdığı düşünülmüş və uzaqgörən addımlar sayəsində Naxçıvan Muxtar Respublikası işğaldan xilas edilmiş, burada gələcək inkişafın möhkəm təməlləri yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına göstərdiyi böyük diqqət və qayğı regionda müasir inkişafın təmin edilməsinə meydan açmışdır. Möhtərəm Prezidentin qədim diyara etdiyi tarixi səfərlər hər dəfə inkişafın yeni bir dalğasına təkan vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan dövlətinin yaratdığı geniş imkanlardan səmərəli şəkildə istifadə edərək, bütün qüvvələri və resursları muxtar respublikada hərtərəfli və əsaslı inkişafa nail olmağa səfərbər etmişdir. Sahibkarlara göstərilən dövlət maliyyə dəstəyinin həcminin ildən-ilə artırılması, bu sahədə fəaliyyətə süni müdaxilələrin aradan qaldırılması, bir sıra vergi və gömrük güzəştlərinin tətbiqi sahibkarlıq fəaliyyətinin inkişafına öz təsirini göstərmişdir.(3)

Əldə olunmuş uğurların davamlılığının qorunub saxlanılması və artan əhali tələbatına uyğun olaraq iqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. İnkişafı xarakterizə edən əsas göstərici kimi 2019-cu ilin yanvar-iyun aylarında ümumi daxili məhsul istehsalı 1 milyard 279 milyon 637 min manatdan artıq olmuşdur ki, bu da bir il öncəki göstəricidən 1,4 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,9 faiz artaraq 2801 manatı ötmüşdür. Ümumi daxili məhsulun tərkibində ilk yeri 29,9 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 57,6 faiz təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-iyun aylarında sənaye məhsulu 1,4 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,2 faiz, kənd təsərrüfatı məhsulu 2,8 faiz, nəqliyyat sektorunda yük daşınması 2,3 faiz, informasiya və rabitə xidmətləri 3,9 faiz artmışdır.

Muxtar respublika iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilir. 2019-cu ilin yanvar-iyun aylarında muxtar respublikada sahibkarlara 12 milyon 571 min 200 manat kredit verilmişdir. Verilmiş kreditin 5 milyon 765 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 6 milyon 806 min 200 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Bu dövrdə 20 hüquqi və 2327 fiziki şəxs qeydiyyata alınmışdır.

Ötən il Türkiyə Respublikasının İqdır şəhərində Naxçıvan Muxtar Respublikasının Ticarət Evi istifadəyə verilmişdir ki, bu da muxtar respublikada istehsal olunan məhsulların təşviqi və satışına, eyni zamanda iş adamları arasında işgüzar görüşlərin təşkilinə və ticarət sövdələşmələrinin aparılmasına geniş imkanlar yaradacaqdır. Sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bu məhsulların 126-sı ərzaq, 257-si qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir. 2019-cu ilin yanvar-may aylarında orta aylıq əməkhaqqının məbləği 440 manat təşkil etmişdir ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən 4,6 faiz çoxdur və Naxçıvan Muxtar Respublikası üzrə orta aylıq nominal əməkhaqqının səviyyəsi ölkənin digər iqtisadi rayonları ilə müqayisədə daha yüksəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmışdır. 2019-cu ilin yanvar-iyun aylarında muxtar respublikada 2293 yeni iş yeri yaradılmışdır ki, bunun da 2271-i və ya 99 faizi daimi iş yerləridir. (4)

Naxçıvan Muxtar Respublikasının əldə etdiyi uğurlu nəticələr onu göstərir ki, hörmətli Prezidentimiz İlham Əliyevin uzun müddətdir ki, Naxçıvana ciddi nəzarəti, diqqət və qayğısı muxtar respublikanın rəhbərliyi tərəfindən yüksək əzmkarlıq və səfərbərliklə qarşılanır və bu da Naxçıvanın sosial-iqtisadi inkişafında və əhalinin rifah halının yaxşılaşmasında öz əksini tapır.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın dövlət büdcəsindən muxtar respublikaya ayrılan maliyyə vəsaitləri öz təyinatına uyğun düzgün istifadə edilməklə Naxçıvanın sosial-iqtisadi inkişafına və əhalinin rifahının yaxşılaşmasına, bölgənin təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

## ƏDƏBİYYAT


1. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. Bakı, 2019
2. T.Abbasov Naxçıvan: aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf. Bakı, 2018, 584 s.
3. "2018-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarının xülasəsi" Naxçıvan, Əcəmi, 2019
4. http://az.trend.az/business/economy/2485849.html
5. http://www.e-qanun.az/framework/27284

## РЕЗЮМЕ

**Амар Касумов**

### РОЛЬ МАЛОГО И СРЕДНЕГО БИЗНЕСА В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье обсуждается важность микропредпринимательства и его социальная значимость. Подчеркивается роль и экономический характер микропредпринимательства в этой области. Обсуждалась роль семейных фермерских хозяйств в экономической жизни Нахчыванской Автономной Республики и их тесная связь с развитием микропредпринимательства. Развитие предпринимательства высветило государственную политику правового и экономического регулирования и подчеркнуло важность законов и указов, подписанных в этой области.

Одним из важнейших вопросов в Автономной Республике является пути ускорения развития микропредпринимательства в регионах,устойчивого развития экономики за счет природно-экономтческого потенциала трудовых ресурсов,пути снижения бедности и безработицы в стране.

**Ключевые слова:** предпринимательство, фермерство,экономическое управление, производственные отношения, микропредприятие,занятость.



## SUMMARY

**Amar Gasimov**

### THE ROLE OF SMALL AND MEDIUM-SIZED BUSINESSES IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article deals about the importance of small and medium-sized business and their impact on the employment of the population. The role and economic essence of entrepreneurial activity in this area is emphasized. It was argued that employment was closely linked with the development of small and medium enterprises. İt is told about the legal and economic regulation policy of the Nakhchivan Autonomous Republic in the development of entrepreneurship and the importance of the laws and decrees signed in this area. Has been described extensively the one of the crucial issues in the Autonomous Republic is the ways of accelerating the development of entrepreneurship in the regions, the sustainable development of the economy through efficient use of natural and economic potential, increasing the level of employment of the population and to achieve unemployment and poverty reduction in the country.

**Key words:** business activity, economic management, production relations, small entrepreneurship, employment.

# III BÖLMƏ. SAHƏ İQTİSADİYYATI VƏ XARİCİ TİCARƏT

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*
*ceyhun.ilhamoglu@gmail.com*

## XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN LİBERALLAŞDIRILMASI ŞƏRAİTİNDƏ REGİONAL İNKİŞAF VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ

*Məqalədə qloballaşma prosesinin genişlənməsi və xarici iqtisadi əlaqələrin sürətlə liberallaşmasının səbəb olduğu regional fərqlilik anlayışının mahiyyəti iqtisadi təhlükəsizlik baxımından nəzərdən keçirilmiş, regionların inkişaf səviyyəsindəki fərqlərin meydana gətirdiyi iqtisadi və sosial-siyasi nəticələr təhlil edilmiş, problemin həllinin zəruriliyi əsaslandırılmışdır.*

***Açar sözlər:*** *qloballaşma, xarici iqtisadi əlaqələr, region, regional fərqlilik, rifah səviyyəsi, yoxsulluq, həyat şərtləri*

Qloballaşma prosesinin genişləndiyi və xarici iqtisadi əlaqələrin sürətlə liberallaşdırıldığı bir şəraitdə region iqtisadiyyatının inkişafına (regional iqtisadi inkişafa) həm daxili, həm də xarici təhlükələr yaranır. Qeyd edək ki, hər bir regionun xüsusiyyətləri ilə əlaqədar olaraq, gözlənilən və gözlənilməyən təhlükələr mövcuddur. Əgər gözlənilən təhlükə vaxtında nəzərə alınmazsa, onda bu təhlükə həm həmin regionun, həm də bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyinə təsir göstərə bilər. Bu çox mürəkkəb proses olduğundan təhlükələrin meydana gəlməsinin obyektiv səbəblərini və qanunauyğunluqlarını bilmədən onların qarşısını almaq qeyri-mümkündür.

İqtisadçı alimlər regional iqtisadi inkişafa təsir göstərən təhlükələrin yaranma səbəblərini iki yarımqrupa ayırırlar:

1. İqtisadiyyatda böhran vəziyyətinin yaranması ilə bağlı regional iqtisadi inkişafa təsir göstərən təhlükələr. Bu yanaşmanın tərəfdarlarına görə regional iqtisadi inkişafa təsir göstərən təhlükə dedikdə, regionda böhran vəziyyətinin yaranmasına səbəb olan amillər başa düşülür;
2. Sürətli inkişaf ilə bağlı regional iqtisadi inkişafa təsir göstərən təhlükələr. Bu yanaşmanın (“İnkişaf qütbləri” nəzəriyyəsinin tərəfdarları) tərəfdarlarına görə isə iqtisadi inkişaf regionlararası fərqlərin meydana gəlməsinin başlıca şərtidir ki, bu da regional iqtisadi inkişafa təsir göstərən təhlükələri yaradan faktordur.

Bizim araşdırmamızın və ya məruzəmizin (məqaləmizin) tədqiqat obyekti inkişafın səbəb olduğu regionların inkişaf səviyyəsindəki fərqliliyi nəzərdən keçirmək, regionların inkişaf səviyyəsindəki fərqlərin regionun iqtisadi inkişafı üçün törətdiyi iqtisadi, sosial və siyasi təhlükələri aşkara çıxartmaq və problemin həlli zəruriliyini əsaslandırmaqdır.

Aparılan araşdırmalar sosial-iqtisadi inkişafın müxtəlif ölkələr arasında olduğu kimi, hər hansı bir ölkədaxili regionlar arasında da fərqli sürətlə reallaşdığını göstərir. Bir ölkə hüdudları daxilindəki regionların inkişaf səviyyəsində müşahidə edilən fərqlər ancaq 1929-cu ilin Böyük İqtisadi Böhranından sonra diqqəti cəlb etməyə başladı. Məhz bu səbəbdən İkinci Dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrində regional sosial-iqtisadi inkişaf fərqliliyini azaltmağa və milli təhlükəsizliyin təmin edilməsinə xidmət edən regional siyasətin həyata keçirilməsinə başlanıldı.

Deməli, Azərbaycan iqtisadiyyatının sürətli inkişafı ilə bağlı olaraq yaranan mərkəzi regionlar ilə digər regionlar arasındakı sosial-iqtisadi fərqlilik yalnız ölkəmizə xas problem deyildir. Məhz bu nöqteyi-nəzərdən regional inkişaf fərqliliyinin ortaya çıxma səbəblərini və onun regionun iqtisadi inkişafı üçün törətdiyi iqtisadi, sosial və siyasi təhlükələri araşdırmağa ehtiyac vardır.

Regionların inkişaf səviyyəsindəki fərqlərin meydana gəlməsinin tarixi köklərini araşdırarkən sosial-iqtisadi inkişafın müəyyən ölkələrdə və əsasən, bu ölkələrin fərqli xüsusiyyətləri ilə seçilən regionlarında baş verdiyini görürük. İqtisadi inkişafın hər yerdə eyni zamanda baş verməsinin

mümkünsüz olduğu, təbii ehtiyatların zəngin və coğrafi mövqenin əlverişli olduğu regionda başladığı, bazar güclərinin bu region ətrafında toplandığı və tədricən müəyyən bir səviyyəyə çatdıqdan sonra bu region ətrafında yayılmağa başladığı görülməkdədir [1].

Nəticə etibarilə, iqtisadi inkişafın "keçmiş texnik" dövründən başlayaraq haliyəyədək müəssisələrin, biznesmenlərin böyük əksəriyyətinin öz iqtisadi fəaliyyətlərinə əlverişli şəraitə malik regionlarda başladıqlarını görürük. Beləliklə, bəzi regionlarda başlayan toplanma hərəkatı artaraq bu regionları inkişaf etdirməkdədir. İnkişaf nöqtəsindən və ya ərazisindən yoxsul digər regionlarda isə durğunluq, hətta geriləmə müşahidə olunmaqdadır. "İnkişaf qütbləri" nəzəriyyəsinə əsasən inkişaf nöqtəsi və ya ərazisi ətrafında sosial-iqtisadi hərəkətliliyin gedərək artması və bunun nəticəsində regionlararası fərqlərin meydana çıxması iqtisadi inkişafın bir şərtidir. İqtisadi inkişaf nəticəsində meydana gələn regionlararası gəlir bölgüsündəki fərqlilik, başqa sözlə desək, ədalətsizlik heç də yaxşı hal deyildir. Qeyd edək ki, qaçınılması mümkünsüz olan və sosial ədalət baxımından istənilməyən bu halı qısa müddət ərzində aradan qaldırmaq lazımdır. Çünki inkişaf etməkdə olan region digər regionların inkişafına mənfi istiqamətdə təsir göstərir. Bu mənfi təsirlərə əsasən digər regionlardan inkişaf edən regiona doğru olan fəal işçi axınını, kapital transferini, durğun regionlardakı ənənəvi sənaye sahələrinin iflasa uğramasını və s. göstərmək olar.

İnkişaf edən regionda baş verən iqtisadi canlanma iş yerlərinin artmasına, əmək haqlarının yüksəlməsinə və həyat səviyyəsinin yaxşılaşmasına səbəb olur. Həyat səviyyəsinin yüksəkliyi və rahatlığı, boş iş yerlərinin olması ilə fərqlənən inkişafda olan region digər regionlardakı əhalini özünə cəlb edir. Ətraf regionlardan inkişaf edən regiona doğru olan bu axında gizli və açıq işsizlərlə yanaşı, ilk əvvəl iqtisadi fəal əhali kateqoriyasına daxil olan ixtisaslı kadrlar iştirak etməkdədirlər. Ətraf regionlardakı təşəbbüskar və sahibkarlıq ruhuna malik, ancaq yaşadığı regionu özü üçün əlverişli hesab etməyən şəxslər – başda gənclər olmaqla yüksək ixtisaslı və peşəkar işçilər ilk axın edənlər sırasındadırlar.

Gənc və işgüzarlıq ruhuna sahib fəal və peşəkar kadrlarını itirən ətraf regionlar inkişaf potensiallarını itirərək mövcud inkişaf səviyyələrini belə qorumaqda çətinliklərlə qarşılaşırlar. Reallıqda bu hərəkət regionlar arasında baş verən beyin axınından başqa bir şey deyildir. Bu iş qüvvəsinin axını nəticəsində inkişafın başlanğıc mərhələsində olan region "gələcəyin işgüzarları" potensialına malik olmaqla yanaşı, bu mütəxəssislərin sayəsində daha sürətlə inkişaf edir.

İqtisadi fəal işçi axınının bir digər təsiri işçi axını ilə üzləşən regionda köç edən işçilərin istehsaldakı səbəb olduqları əlavə dəyərin və buna əlavə olaraq istehlak həcminin azalmasıdır ki, son nəticədə, işçi axını ilə üzləşən regionun gəlirləri azalacaqdır. Tam əksinə olaraq işçi axınını qəbul edən regionun gəlirləri axın edən insanların istehlak səviyyəsi ilə əlaqədar artır. Beləliklə, işçi axını ilə üzləşən regionun gəliri azalır, işçi axınını qəbul edən regionun gəlirləri artır. Bu da regionlar arasındakı regional fərqliliyin bir forması olan gəlir bərabərsizliyinin daha da artmasına səbəb olacaqdır.

Hazırda Azərbaycanda şəhər əhalisinin həyat səviyyəsi rayon əhalisindən, aran, dağətəyi rayonlarda vətəndaşların həyat səviyyəsi isə dağ rayonlarına nisbətən yüksəkdir. Buna görə də Azərbaycanın regionlarından əhali şəhərlərə getməyə can atır. Bu axının qarşısının alınmasının yeganə yolu regionların iqtisadiyyatını inkişaf etdirmək əsasında şəhərlə kənd əhalisinin sosial-iqtisadi inkişaf səviyyəsindəki fərqliliklərini bir-birinə yaxınlaşdırmaqdır. Fikrimizcə, Azərbaycanın regionlarında kiçik və orta həcmli şəhərlər, şəhər tipli qəsəbələr yaratmaq, kənd təsərrüfatı istehsalını sənaye əsasına keçirməklə regionlardakı sosial-iqtisadi problemləri həll etmək mümkündür.

Qeyd edək ki, təşəbbüskar və işgüzarlıq ruhuna sahib fəal mütəxəssislərin durğun regionlardan inkişaf edən regionlara doğru axını özü ilə bərabər kapital axınına səbəb olur. Belə ki, durğun regionlardan inkişaf etmiş regionlara axın edən fəal mütəxəssislər əllərindəki kapitalı da özləri ilə birlikdə aparırlar. İnkişaf edən regionda meydana gələn iqtisadi hərəkətlilik, yüksək tələb və sərmayə qoymaq üçün artan imkanlar durğun regionlarda az miqdarda olsa belə, ənənəvi sənaye və kənd təsərrüfatı fəaliyyəti nəticəsində əldə edilən gəlirin yığıma yönəldilən və ya qənaət edilən hissəsini özünə cəlb edir. Bunun səbəbi durğun regionlarda qənaət nəticəsində əldə edilən vəsaitin dəyərləndirilməsi imkanlarının məhdud olmasıdır. Həmçinin durğun regionlarda mövcud olan və

yetərincə inkişaf etməmiş banklar onlara əmanət edilən vəsaitləri inkişaf edən regionlara transfer edərək dəyərləndirirlər [3].

İnkişaf edən region ilə durğun region arasındakı ticarət durğun regionun əleyhinə olub, mövcud ənənəvi iqtisadi fəaliyyətləri zəiflədir. İnkişaf edən regionda böyük həcmli və daha yüksək verimliliklə işləyən modern sektorların gedərək artması və bu sektorların öz məhsullarını durğun regionlara satması bu regionlardakı mövcud iqtisadi fəaliyyətləri iflasa sürükləyir. Belə ki, durğun regiondakı ənənəvi istehsalçıların istehsal etdikləri əmtəələr inkişaf edən regionlardan gələn əmtəələrdən həm aşağı keyfiyyətli, həm də baha olduğundan özünə alıcı tapa bilmir.

Dünya təcrübəsi göstərir ki, xüsusilə az inkişaf etmiş ölkələrdə inkişaf edən regionlardakı sənaye sahələri digər regionlardan xammal təminatına dayanmayan mallara yönəlmişlərsə, durğun region inkişaf edən regionun varlığından zərərli çıxacaqdır. Çünki nisbətən az inkişaf etmiş regionlar daha əvvəl ölkə hüdudları kənarından ucuz qiymətə idxal etdikləri sənaye malları əvəzinə inkişafda olduğu üçün gömrük qanunları ilə qorunan inkişaf edən regionda istehsal edilən malları daha baha qiymətə satın almaq məcburiyyətində qalacaqdır. Bu gün bir çox az inkişaf etmiş ölkənin nisbətən inkişaf etmiş regionlarında istehsalına başlanan və inkişaf etmiş regiondakı müəssisələri qorumaq məqsədilə idxalı tamamilə qadağan edilən istehlak mallarını buna misal göstərmək olar.

*Regionların inkişaf səviyyəsindəki fərqlərin regionun iqtisadi inkişafı üçün törətdiyi iqtisadi təhlükələr.* Hər bir ölkədə hansı iqtisadi sistem tətbiq edilirsə edilsin hər bir iqtisadiyyatın həll etmək məcburiyyətində olduğu təməl iqtisadi problemlərdən biri ölkədə həcmi məhdud olan istehsal amillərinin tamamının istehsalda iştirakını təmin etməkdir. Hər hansı bir ölkədəki resursların tam istifadəsi geniş mənada bütün istehsal amillərinin istehsal dövriyyəsinə cəlb edilməsi deməkdirsə, dar mənada ölkədəki bütün iş qüvvəsinin (işləmək istəyən fəal əhali qrupu) istehsal prosesində iştirak etməsidir. Qeyd edək ki, əgər bir ölkədəki regionlararası inkişaf fərqləri nəzərə çarpacaq səviyyəyə çatmışsa, deməli, inkişaf baxımından geri qalmış regionlardakı istehsal amillərindən tam istifadə olunmur və bu səbəbdən tam məşğulluqdan söhbət belə gedə bilməz. Əgər bir ölkədə tam məşğulluq təmin edilə bilməmişsə və işsizlik problemi varsa, sözü gedən ölkədə ÜDM-nin həcmi və dolayısı ilə rifah səviyyəsi aşağı düşəcəkdir. Nəticə etibarilə bir ölkənin geri qalmış regionlarında işsizliyin var olması rifah itkisinin başlıca göstəricisidir.

*Regionların inkişaf səviyyəsindəki fərqlərin regionun iqtisadi inkişafı üçün törətdiyi sosial və siyasi təhlükələr.* Bir ölkənin regionları arasında iqtisadi inkişaf fərqlərinin olması və bu fərqin get-dikcə artması və ya mövcud fərqin azaldılması istiqamətində tədbirlərin görülməməsi mühüm mənfi sosial nəticələr doğurur. Hər şeydən əvvəl, qeyd edək ki, iqtisadi fərqlilik eyni səviyyədə sosial fərqlilik yaradır. Belə ki:

- inkişaf etmiş regionlarda iş imkanlarının çox olması həm işsizlik səviyyəsinin aşağı, həm də əmək haqlarının yüksək olmasına səbəb olmaqdadır. İnkişaf baxımından geri qalmış regionlarda isə iş imkanları məhdud olduğundan açıq və gizli işsizlik səviyyəsi artır. Bu səbəbdən bu bölgələrdə gəlirlər aşağı və yaşam şərtləri son dərəcə çətindir. Bu bölgə insanlarının yeganə çıxış yolu doğulub böyüdükləri yerləri, ata və analarını, dostlarını buraxıb iş imkanlarının çox olduğu və əmək haqlarının yüksək olduğu inkişaf etmiş regionlara köçməkdir.
- inkişaf nöqteyi-nəzərindən geri qalmış regionda istehsalın, əmək haqların və dolayısı ilə satınalma gücünün aşağı olması bu regionlarda sosial xidmətlərin inkişaf etməməsinə səbəb olur. Bu regionlarda sağlıq xidmətləri geridir, təhsil xidmətləri kifayət qədər inkişaf etməmişdir, mədəni fəaliyyətlər son dərəcə məhduddur. Sağlıq müəssisə və xidmətlərinin yetərsizliyi xəstəliklərin müalicəsində gecikmələrə, zaman itkisinə və nəticə etibarilə iş qüvvəsinin məhsuldarlığının aşağı düşməsinə səbəb olur. Dünya standartlarına uyğun sağlıq sisteminin yaradıla bilməməsi inkişafdan geri qalmış regionda uşaq ölümünün artmasına, təbii artım səviyyəsinə və s. səbəb olur. Bu qeyd etdiklərimiz isə məcburi köçün başlıca səbəbinə çevrilir [4].
- dövlət iqtisadi israfın qarşısını ala bilmək üçün infrastrukturun yenilənməsinə və ya yaradılmasına investisiya qoyuluşlarını inkişaf etmiş regionlardan başlayaraq inkişafdan geri qalmış regionlara doğru yönəldir.

Gördüyümüz kimi, iqtisadi inkişaf nöqteyi-nəzərindən geri qalmış regionlardakı infrastrukturun və sosial xidmətlərin yetərsiz olması, eyni zamanda satınalma gücünün aşağı olması sahibkarlıq subyektlərinin aktiv fəaliyyətə keçməsi üçün əlverişsiz şərtlərdir. Yeni müəssisələrin regionda yaradılması üçün zəminin olmaması, onların regionda fəaliyyət göstərə bilməməsi burada əlverişsiz şərtlərin davam etməsinə və bölgə əhalisinin bu ərazidən köçüb getməsinə səbəb olur. Regional fərqliliyin sosial təhlükəsi bu halda özünü daha bariz şəkildə büruzə verir. Məsələn, inkişaf baxımından geri qalmış regionlara universitetləri bitirmiş gənc və ixtisaslı kadrları belə göndərmək çətinləşir. Bu cür regionlara təyin edilənlər bölgəyə getməkdənsə, işsiz qalmağı üstün tuturlar. Respublikamızın inkişafdan geri qalan ucqar dağlıq rayonlarında ixtisaslı və gələcək vəd edən potensiallı kadrların çatışmaması yuxarıda qeyd etdiyimiz problemlərdən irəli gəlir. Bu səbəblə respublikamızda bu regionlara göndərilən kadrlar iqtisadi baxımdan stimullaşdırılır.

Bir ölkənin regionları arasındakı kökü iqtisadi səbəblərlə bağlı olan sosial fərqlilik ölkədə siyasi qeyri-sabitliyin mənbəsi ola bilər. Belə ki, ölkənin bəzi regionları inkişaf edib zənginləşdikcə, digər regionların inkişafdan geri qalması regionlar arasında balansın və ya uyğunluğun azalmasına və regionların bir-birinə yadlaşmasına (məsələn, inkişaf edən regionun daha çox Avropa sayağı həyat sürməsi) səbəb olur. Din, məzhəb və irqi fərqliliklər iqtisadi inkişaf səviyyəsi yüksək olan ölkə və ya ölkədaxili regionlarda birlikdə yaşayan insanların əhəmiyyət vermədikləri, hətta mədəni zənginlik, tolerantlıq kimi gördükləri amil inkişaf baxımdan geri qalmış regionlarda mühüm amil kimi ön plana çıxır və qeyri-sabitlik mənbəsi olmağa başlayır. "Etnik və məzhəb fərqliliyi səbəbi ilə regionun inkişafına laqeyd yanaşılır" fikri region əhalisi arasında yayılmağa başlayır. Məhz bundan sonra siyasi həll yollarını dırnaqarası göstərənlər tərəfdar toplamağa müvəffəq olurlar. Tarixə nəzər yetirsək görərik ki, ABŞ-da baş verən vətəndaş müharibəsi regionlararası fərqlilikdən meydana gələn ilk ciddi münaqişədir. Digər tərəfdən Pakistanın ikiyə bölünməsinin səbəbi regional inkişafdakı fərqlilikdir.

Son olaraq qeyd edək ki, sürətli inkişaf dövrünü yaşayan respublikamızda bu inkişafdan qaynaqlanan regionların inkişaf səviyyəsindəki fərqlilik problemi həll edilməsi vacib bir məsələ kimi "2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət proqramı"nda qarşıya qoyulmuşdur.

## ƏDƏBİYYAT


1. Aydalot P. "Note sur les Economies Externes et Quelque Notions Connexe" Revue conomique, №6, November, 1965
2. Eraydın A. Bölgesel Gelişme. Ankara, 1982
3. Zeynel Dinler. Bölgesel iktisat. Bursa, 2012
4. Myrdal G. Theorie Economique et Pays Sans-developpees. Paris, 1959


## РЕЗЮМЕ

**Джейхун Махмудов**

## ПРОБЛЕМЫ РЕГИОНАЛЬНОГО РАЗВИТИЯ И ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ В КОНТЕКСТЕ ЛИБЕРАЛИЗАЦИИ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ

В статье рассматривается сущность регионального различия с точки зрения экономической безопасности в процессах глобализации и быстрой либерализации внешнеэкономических связей, анализируются экономические, социально-политические результаты, сформированные различиями в уровне развития регионов, обосновывается необходимость решения проблемы.

**Ключевые слова**: глобализация, внешнеэкономические связи, регион, региональные различия, уровень благосостояния, бедность, условия жизни.

## SUMMARY

**Jeyhun Mahmudov**

### PROBLEMS OF REGIONAL DEVELOPMENT AND ENSURING ECONOMIC SECURITY IN THE CONTEXT OF LIBERALIZATION OF FOREIGN ECONOMIC RELATIONS

In the article revised the essence of the concept of difference which caused by expansion of globalization and rapid liberalization of foreign economic relations, were analyzed economical, social-political results of caused by difference in the level of development of the regions, and grounded necessary solving of the problem.

**Key words:** globalization, foreign economic relations, region, the difference of region, the level of welfare, the poverty, the conditions of living

**MÜSLÜM CABBARZADƏ**
*Naxçıvan Dövlət Universiteti*
*muslum_cabbarzade@yahoo.com*

# "STARTAP NAXÇIVAN" HƏRƏKATI: UĞURLU İNNOVASİYALAR ÜÇÜN SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ MODELİ

*Məqalədə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı və innovasiyaların tətbiqi məsələləri təhlil olunmuşdur. Rəqabətədavamlı iqtisadiyyatın qurulması istiqamətində aparılmış irimiqyaslı, kompleks və sistemli işlərin innovasiyaların genişlənməsinə təsiri ilə bağlı araşdırmalar aparılmışdır. İnnovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılmasına təsir göstərən amillər müəyyən edilərək qiymətləndirilmişdir.*
***Açar sözlər:*** *Naxçıvan iqtisadiyyatı, innovasiyalar, kreativ iqtisadiyyat, startap layihələri*

Yaşadığımız əsrin ötən dövründə muxtar respublikamızda sosial-iqtisadi inkişaf səviyyəsinin davamlı olaraq yüksəlişi yeni imkanlar yaradıb. Kreativ əmək və innovasiyalardan səmərəli istifadə etməklə cəmiyyət həyatının bütün sahələri sürətlə yenilənib.

İqtisadi və sosial inkişafda innovasiya amilinin nəzərə alınması son illərdə qəbul edilmiş mühüm dövlət proqramları və sənədlərində aydın şəkildə ifadə olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 29 mart 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" iqtisadiyyatın innovasiyalı inkişafını nəzərdə tutan növbəti mühüm dövlət sənədidir. Proqramda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi, yeni texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsi, innovativ təsərrüfatçılıq formalarının yaradılması prioritet vəzifələr kimi qarşıya qoyulub.

Muxtar respublikamızda iqtisadi və sosial sahələrdə innovasiyaların tətbiqinə hələ yeni əsrin əvvəllərindən başlanıb. İnnovasiyalar daha təkmil texnoloji proses yaradılması, bazara yeni məhsul çıxarılması, həmçinin sosial xidmətlərə yeni tərzdə yanaşma ilə ifadə olunur. Zaman keçdikcə bütün sahələrdə innovasiyaların artan sürətlə tətbiq olunması muxtar respublikanın sosial-iqtisadi inkişafının müasir mənzərəsini yaradıb. İqtisadiyyatımızın sahə strukturunda mütərəqqi dəyişikliklər, ənənəvi sahələrlə yanaşı, texnoloji və elm tutumlu yeni sahələrin meydana gəlməsi, yeni məhsulların istehsalı, mövcud məhsulların yeni növ və modifikasiyalarda bazara çıxarılması ilbəil daha geniş miqyas alıb. İstehsala uzunmüddətli innovativ yanaşmanın nəticəsidir ki, hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Sənayedə və kənd təsərrüfatında müasir texnologiyaların, yeni xammal növlərinin istehsala cəlb olunması texnoloji yönümlü innovasiyaların yayılmasını sürətləndirir.

Muxtar respublikanın bank və maliyyə sektorunda innovasiyaların tətbiqi geniş vüsət alıb. Ən müasir texnologiyaların istifadəsi diqqətdə saxlanılıb, nağdsız ödəniş sistemləri, elektron bankçılıq təşəkkül tapıb və inkişaf etdirilib. Maliyyə xidmətlərinə sürətli, asan və səmərəli çıxışı təmin edən yeni ödəmə texnologiyaları, bankomatlar, ödəniş terminalları istifadəyə verilmiş, sürətli pul köçürmələri imkanı yaradılıb.

Ticarətin daha müasir, yüksək rahatlığı və funksionallığı ilə seçilən supermarketlər, alış-veriş mərkəzləri, ixtisaslaşdırılmış satış şəbəkələri vasitəsilə həyata keçirilməsi təmin edilib. Muxtar respublikada müxtəlif yarmarkaların və festivalların təşkili yerli məhsulların tanıdılmasına, ailə təsərrüfatlarında əmtəəlik istehsal və bazar təcrübəsinin inkişafına xidmət edən təşkilati innovasiyalardır. Ailə təsərrüfatları üçün müvafiq sahələr üzrə məsləhət və maarifləndimə xidmətlərinin təşkili, qablaşdırma, etiketlənmə, markalanma dəstəyinin göstərilməsi də bu qəbildən olan yeniliklər kimi diqqətəlayiqdir.

Elm və təhsil müəssisələrində yaradılmış müasir informasiya-kommunikasiya infrastrukturunun interaktiv təhsil sisteminə qoşulması kadr hazırlığında yeni dövrün əsasını qoyub. Muxtar

respublikanın informasiya-rabitə sistemi tamamilə yeni nəsil texnologiyalar əsasında qurulub, "Elektron hökumət" portalı vasitəsilə əhaliyə 300-ə yaxın elektron xidmətin göstərilməsi təmin edilib. Enerji təsərrüfatı smart texnologiyaların tətbiqi mərhələsinə yüksəlib. Muxtar respublikada istifadəyə verilmiş günəş elektrik stansiyaları dövrümüzün ən qabaqcıl innovasiya nümunəsidir.

Kənd yaşayış məntəqələrində əhalinin bütün zəruri xidmətləri eyni məkanda əldə etməyə imkan yaradan kənd və xidmət mərkəzləri, vətəndaşlara yaşadıqları ərazidə göstərilən səyyar xidmətlər, nümunəvi təsərrüfat və ailə təsərrüfatı layihələri, Ağbulaq turizm istirahət bölgəsi kimi muxtar respublikaya məxsus olan sosial və biznes yönümlü innovasiyalar orijinal ideyası və yüksək səmərəliliyi ilə seçilir.

Yeni layihələrin maliyyələşdirilməsi mexanizmlərinin inkişafı da diqqətdə saxlanılıb. Biznesə yeni başlayanlar (startap) və icra edilmiş layihələrin genişləndirilməsi üçün maliyyə resurslarına ehtiyacı olan sahibkarlara dövlət tərəfindən verilən güzəştli kreditlərin həcmi ilbəil artır. Eyni zamanda investisiya tələbatını ödəmək üçün sahibkarlara banklar tərəfindən əlverişli şərtlərlə, aşağı faiz dərəcələri ilə təklif olunan kreditlər münbit investisiya mühiti yaradıb.

Nüfuzlu "Caspian European Club"ın dəstəyi ilə hazırlanmış ölkəmizin iqtisadi regionlarının investisiya reytinqində 2017-2018-ci illərdə ardıcıl olaraq lider mövqeyə sahib olması Naxçıvan Muxtar Respublikasının investisiya və innovasiya cəlbediciliyinin daha bir ifadəsidir.

Sosial-iqtisadi, texniki və intellektual potensialın möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan rəqabətədavamlı iqtisadiyyatın qurulması istiqamətində aparılmış irimiqyaslı, kompleks və sistemli işlər innovasiyaların genişlənməsi üçün möhkəm baza yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı görülmüş işlərin davamı olaraq yüksək ixtisaslı kadr hazırlığı və innovasiyaların yaradılması istiqamətində yeni vəzifələr müəyyənləşdirir.

İrəli sürülən məqsədlər ali məktəblərin innovasiyalı inkişafın aktiv subyektlərinə çevrilməsini tələb edir. Əmək bazarının tələblərinə uyğun kadr hazırlığının həyata keçirilməsi, elmi araşdırmaların aparılması kimi ənənəvi istiqamətlərlə yanaşı, ali məktəblər innovativ ideyaların generasiyası funksiyasını da yerinə yetirməlidirlər. İnnovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması, elmi nailiyyətlərin və yeni texnologiyaların sahibkarlıq strukturlarına ötürülməsi, investorlar üçün cəlbedici ola biləcək layihələrin hazırlanması, innovasiya fəaliyyətinin kadr təminatı qarşıda duran başlıca vəzifələr sırasındadır.

Yeni ideyaların yaradılması və startaplara çevrilməsi istiqamətində aktiv şəkildə fəaliyyət göstərmək üçün təhsil müəssisələrinin geniş maddi-texniki bazası və böyük elmi potensialı mövcuddur. Təhsildə və texnologiyalarda olan ən son nailiyyətlər auditoriyalarda tətbiq olunur. Bu potensialdan səmərəli istifadə etməklə ali məktəblərdə innovasiya mühitinin inkişafı kreativ düşüncəli yeni nəslin formalaşmasına ciddi təsir göstərəcəkdir. "Fikir fabriki" rolunu oynayan gənc nəslin yaradıcı potensialının startap layihələrinin hazırlanmasına səfərbər edilməsi gələcək mühəndislər, menecerlər, sahibkarlar ordusunun formalaşmasına aparan ən optimal vasitədir.

İnnovasiya fəallığının yüksəldilməsində, uğurlu startapların yaradılmasında muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələri ilə yanaşı, hami təşkilatların da öhdəsinə mühüm vəzifələr düşür. İnnovasiyaların idarə olunmasında təhsil müəssisələrinin və hami təşkilatların balanslaşdırılmış əməkdaşlığının yaradılması tələbə-novatorların "Startap Naxçıvan" hərəkatının aktiv iştirakçısına çevrilməsinə xidmət edəcəkdir.

Hami təşkilatların təhsil müəssisələri ilə birlikdə "İdeyadan başlanğıca" devizi altında innovativ layihələrin həyata keçirilməsində iştirak etməsi, təqdim edilmiş layihələrin ekspert qrupları tərəfindən dəyərləndirilməsi onların praktik əhəmiyyətini yüksəldəcəkdir. Tələbələr müvafiq təşkilatlarda təlim almaq, təcrübə keçmək, ixtisas artırmaqla yanaşı, innovativ ideyaları təklif etmək, istifadə etmək və reallaşdırmaq imkanı qazanacaqlar. Eyni zamanda, innovasiya sferasında müvəffəqiyyət əldə etmək üçün məsləhət və dəstək almaq, ideyalarını səmərəli layihələrə yönəltmək kimi üstünlüklərdən yararlana biləcəklər.

Muxtar respublikada innovasiyaların stimullaşdırılması istiqamətində xeyli əvvəl başlayan və hazırda yeni müstəvidə davam etdirilən məqsədyönlü tədbirlər innovativ inkişafın yeni mərhələyə yüksəlməsinə təkan verəcəkdir.

## ƏDƏBİYYAT


1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı
2. Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
3. Naxçıvan Muxtar Rerspublikası – 95. Naxçıvan, "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, 2019, 184 s.


## РЕЗЮМЕ

**Муслум Джаббарзаде**

## ДВИЖЕНИЕ «СТАРТАП НАХЧЫВАН»: ЭФФЕКТИВНАЯ МОДЕЛЬ СОТРУДНИЧЕСТВА ДЛЯ УСПЕШНЫХ ИННОВАЦИЙ

В статье проанализированы вопросы экономического развития Нахчыванской Автономной Республики и применение инноваций. Были проведены исследования о влиянии масштабной, сложной и систематической работы на создание конкурентоспособной экономики. Выявлены и оценены факторы, влияющие на целенаправленный поиск и реализацию инновационных проектов.

**Ключевые слова:** экономика Нахчывана, инновации, креативная экономика, стартап проекты.

## SUMMARY

**Muslum Jabbarzade**

## MOVEMENT "STARTUP NAKHCHIVAN": AN EFFECTIVE COLLABORATION MODEL FOR SUCCESSFUL INNOVATIONS

In the article were analyzed issues economic development of the Nakhchivan Autonomous Republic and application of innovations. Studies have been conducted on the impact of large-scale, complex and systematic work on the creation of a competitive economy. Factors influencing the purposeful search and implementation of innovation projects were identified and evaluated.

**Key words**: Nakhchivan economy, innovation, creative economy, startup projects.

**ƏŞRƏF ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ƏRZAQ BAZARININ TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

*Elmi məqalədə qloballaşma şəraitində istər dövlətin milli təhlükəsizliyinin və eləcə də onun mühüm elementi kimi çıxış edən milli iqtisadi təhlükəsizliyin təmin edilməsində ərzaq probleminin həlli yollarından bəhs olunmuşdur. Müasir şəraitdə əhalinin etibarlı qida məhsullarına tələbatının ödənilməsi strateji əhəmiyyətə malikdir. Bu, dövlətin qida müstəqilliyinin qorunması, bölgələrin sosial-iqtisadi inkişafının sürətlənməsi, həmçinin fiziki və hüquqi şəxslərin, eləcə də istehsalçıların sosial-iqtisadi vəziyyətinin sabitləşməsi ilə sıx bağlıdır. Regional ərzaq bazarlarının formalaşması və inkişafı əhalinin etibarlı qida məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayır. Məlum olduğu kimi, bölgənin ərzaq bazarı bütövlükdə bazar münasibətləri sisteminin mühüm tərkib hissəsidir və regional iqtisadiyyatın inkişafında mühüm hərəkətverici qüvvə rolunu oynayır.*

***Açar sözlər:*** *ərzaq təhlükəsizliyi, region iqtisadiyyatı, ərzaq bazarı, aqromarketinq*

Müasir şəraitdə dövlətin milli iqtisadi təhlükəsizliyinin təmin edilməsinə bir sıra amillər təsir göstərir. Bu amillər tarixi-iqtisadi şəraitdən də bilavasitə asılıdır. Beynəlxalq əmək bölgüsündə hər bir ölkənin, eləcə də ölkənin milli-iqtisadi müstəqilliyini şərtləndirən amillər, istehsalın ixtisaslaşması və digər bu kimi proseslər, son nəticədə milli-iqtisadi təhlükəsizliyə təsir göstərən amillərdən biri kimi çıxış edir. Qloballaşma şəraitində istər dövlətin milli təhlükəsizliyinin və eləcə də onun mühüm elementi kimi çıxış edən milli iqtisadi təhlükəsizliyin təmin edilməsində ərzaq problemi əhəmiyyətli rola malikdir. Ərzaq probleminin həlli bütün hallarda ölkə əhalisinin ərzaq təminatının yaxşılaşdırılması deməkdir. Təbii ki, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi də dövlətin milli iqtisadi təhlükəsizliyinin təmin edilməsinin başlıca ünsürü hesab edilir.

Məlum həqiqətdir ki, ərzaq problemi kifayət qədər iqtisadi problemlikdən daha çox siyasi-sosial bir problemə çevrilmişdir. Bu isə onunla bağlıdır ki, artıq ərzaq problemi hər bir ölkənin sosial-iqtisadi həyatına, eləcə də dövlətin siyasi suverenliyinə təsir vasitəsi kimi qiymətləndirilməkdədir. Dövlətin milli ərzaq təhlükəsizliyinin təmin edilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi bütün hallarda dövlətin aqrar siyasəti və eləcə də ərzaq bazarının tənzimlənməsinə istiqamətlənmiş tədbirlər sistemi ilə müəyyən edilir.

Regionların ərzaq bazarları məcmu halda ölkənin ərzaq bazarını səciyyələndirir. Bundan əlavə, hər bir ölkənin milli iqtisadiyyatında və eləcə də onun milli ərzaq bazarı son nəticədə dünya ərzaq bazarını şərtləndirən amillər kimi çıxış edir. Odur ki, istər regionlarda fəaliyyət göstərən ərzaq bazarları arasındakı sıx qarşılıqlı əlaqə və inteqrasiya münasibətlərinin mövcudluğu, son nəticədə ölkənin milli ərzaq bazarının formalaşdırdığı kimi, təbii ki, milli ərzaq bazarları arasındakı sıx qarşılıqlı əlaqə də dünya ərzaq bazarını səciyyələndirir.

Aparılan araşdırmalardan belə qənaətə gəlmək mümkündür ki, regionda ərzaq bazarlarının formalaşması, məhz Naxçıvan MR-də aqrar sahədə həyata keçirilən islahatların müvəffəqiyyətli nəticəsi kimi xarakterizə olunmalıdır. Ərzaq bazarının formalaşmasının maddi əsasını kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, habelə bu sahədə əmtəə təklifi təşkil edir. Ona görə də ərzaq bazarını bütövlükdə bazar təsərrüfatçılıq sisteminin spesifik xüsusiyyətlərə malik olan ayrıca bir mexanizmi kimi də xarakterizə etmək olar. Məlum həqiqətdir ki, ərzaq bazarı bütövlükdə bazar təsərrüfatçılıq sisteminin mühüm tərkib hissəsini təşkil etsə də, bu bazarda reallaşdırılan məhsullar, daha doğrusu, əmtəələr, əslində aqrar sahədə istehsal olunur. Tədqiqatlar göstərir ki, Naxçıvan MR-də aqrar sahənin spesifik xüsusiyyətləri də regionda ərzaq bazarının formalaşmasına təsirsiz ötüşmür. Bütün bunlar regionun ərzaq bazarının spesifik bazar təzahürü kimi formalaşmasına gətirib çıxarır.

Ərzaq bazarının regional amillərini xarakterizə edərkən Naxçıvan MR-də ərzaq bazarının formalaşdırılmasının metodoloji aspektlərinə diqqət yetirmək lazımdır. Məlum olduğu kimi, regional

bazarların formalaşdırılması zamanı sistem əmələ gətirici faktorlar kimi, əslində iqtisadiyyatın sahə və ərazi kəsimlərinin davamlı fəaliyyət imkanlarının təmin edilməsi ön plana çəkilir. Problemə məhz ərzaq məhsullarının istehsalı və tədavülü sferasından yanaşdıqda, qeyd etmək lazımdır ki, əslində bu sahənin davamlı inkişafının təmin edilməsi ərzaq bazarının regional amillərinin ön plana çəkilməsi baxımından mühüm rol oynayır.

Regionlarda ərzaq bazarının tənzimlənməsi, əsas etibarilə iqtisadi və sosial məqsədləri özündə əks etdirir. Doğrudur, bütün hallarda istər iqtisadi və istərsə də sosial məqsədlər, son nəticədə cəmiyyətdə siyasi və sosial sabitliyin təmin edilməsinə əlverişli şərait yaradır. Məhz bütün bunlar əsas götürülərək belə qənaətə gəlmək olar ki, əslində regionlarda ərzaq bazarının tənzimlənməsinin iqtisadi və sosial məqsədlərinin ümumiləşdirilmiş parametrləri, bütövlükdə cəmiyyətdə ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində qarşıya qoyulan hədəflərə nail olmağa imkan verir.

Əhalinin etibarlı ərzaq məhsulları ilə təmin olunmasında və eləcə də ərzaq bazarında sabitliyin təmin olunması istiqamətində bütün növ məhsul növləri üzrə yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə diqqət artırılmalıdır. Regionların ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi təbii ki, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını tələb edir. Kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını isə, ərzaq bazarında əmtəə təklifinin həcminin yüksəldilməsi deməkdir. Bu da öz növbəsində əhalinin etibarlı ərzaq məhsulları ilə təminatında önəmli rol oynayır.

Naxçıvan MR-də ərzaq bazarının təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri kimi aqromarketinqin inkişaf etdirilməsi önəmli rola malikdir. Məlum olduğu kimi, aqromarketinq fəaliyyəti bütövlükdə marketinq fəaliyyətinin ən mühüm modellərindən birini özündə əks etdirir və əsas etibarilə kənd təsərrüfatı məhsullarının istehsalı və satış sistemi ilə bağlı proseslərin öyrənilməsini nəzərdə tutur. Ərzaq bazarında marketinq xidmətinin təşkilinin funksional yarımsistemlərinə aşağıdakıları şamil etmək olar:

- problemin tədqiqi və strategiyanın işlənib hazırlanması;
- məqsədin müəyyənləşdirilməsi;
- problemin həlli ilə bağlı alternativlərin qiymətləndirilməsi kriteriyaları;
- alternativlərin qiymətləndirilməsi metodlarının seçilməsi;
- qərarların qəbul edilməsi;
- qərarların yerinə yetirilməsinin təşkili;
- qərarların reallaşdırılmasına nəzarət.

Naxçıvan MR-in ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi, regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsinin nəticəsi kimi dəyərləndirilməlidir. Naxçıvan MR-in ərzaq bazarında əhalinin bərabərhüquqlu istifadə imkanlarının təmin edilməsi məqsədilə də zəruri tədbirlər görülür və aztəminatlı əhali kateqoriyalarının ərzaq məhsulları əldə edilməsi üçün davamlı olaraq yarmarkalar, festivallar təşkil dilir. Təbii ki, bütün bunlar kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsində əhəmiyyətli rol oynamaqla yanaşı, eyni zamanda ərzaq bazarında qiymətlərin səviyyəsinin sabitləşdirilməsində də mühüm təsir mexanizminə malik olmuşdur.

Naxçıvan MR-də ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsini şərtləndirən ümumi cəhətlərdən biri də muxtar respublikada əmtəə istehsalçılarının kənd təsərrüfatı texnikasını və digər istehsal potensialı elementlərinə olan tələbatın ödənilməsi ilə bağlı olmuşdur. Məhz bunun nəticəsidir ki, aqrar sahədə iqtisadi fəallığı təmin edən amillərdən biri kimi kənd təsərrüfatı üzrə maşın və mexanizmlərin tələbata uyğun olaraq, artırılmasına xüsusi diqqət yetirilir. Təkcə 319-u 2019-cu ilin yanvar-sentyabr aylarında olmaqla "Naxçıvan Aqrolizinq" ASC-nin xətti ilə 2694 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq muxtar respublikaya gətirilmişdir.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə istiqamətlənmiş tədbirlər regionun ərzaq bazarına da bilavasitə təsir göstərməkdədir. Ölkə üzrə sosial-iqtisadi inkişafın sürətləndirilməsinə istiqamətlənmiş konsepsiyanın muxtar respublikada da uğurla davam etdirilməsi nəticəsində özəl sektor inkişaf edir, dövlətin maliyyə dəstəyi ilə yerli istehsal və xidmət sahələri yaradılır. Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq 2019-cu ilin yanvar-sentyabr aylarında 372 milyon 356 min

500 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Araşdırmalar göstərir ki, heç bir halda bütün resurslardan istifadə etməklə belə bütün növ ərzaq məhsulları üzrə daxili tələbatı 100 faiz hədlərində ödəmək mümkün deyildir. Dünyanın inkişaf etmiş ölkələrində xüsusilə istehsalın intensivləşdirildiyi şəraitdə belə bu məqsədə tamamilə nail olmaq mümkün olmamışdır.

Beləliklə, regionlarda ərzaq bazarının tənzimlənməsinin strateji məqsədini ölkənin ərzaq təhlükəsizliyi təşkil edir. Naxçıvan Muxtar Respublikasında ərzaq bazarının təkmilləşdirilməsinin əsas istiqamətləri kimi aşağıdakıları qeyd etmək olar:

1. Kənd təsərrüfatı və ərzaq bazarında tələb və təklif arasında səmərəli balansın formalaşdırılması. Araşdırmalar belə nəticəyə gəlməyə əsas verir ki, Naxçıvan MR-də yerli istehsal potensialının davamlı olaraq gücləndirilməsi nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatın ödənilməsində idxaldan asılılıq əsas etibarı ilə aradan qaldırılmışdır. Muxtar respublikada cari iqtisadi inkişaf prosesləri əhalinin alıcılıq qabiliyyətinin davamlı yüksəlişində, istehlak bazarında əmtəə dövriyyəsinin və pullu xidmətlərin həcminin artımında özünü daha qabarıq büruzə verir. Ərzaq bazarında pərakəndə və topdansatış əmtəə dövriyyəsinin həcmi artdıqca əhalinin istehlak etdiyi məhsulların həcmi də yüksəlir. Bu həm əhalinin alıcılıq qabiliyyətli tələbinin yüksəlməsi, gəlirlərin səviyyəsinin artması, həm də əhalinin istehlak etdiyi məhsulların qiymətlərinin münasibliyi ilə sıx əlaqədardır;

2. Daxili ərzaq bazarının qorunması istiqamətində dövlət tənzimlənmə mexanizmlərindən istifadə səviyyəsinin yüksəldilməsi. Aparılan araşdırmalar göstərir ki, regionlarda ərzaq bazarının tənzimlənməsinin obyektiv zəruriliyini şərtləndirən amillərə müasir şəraitdə qloballaşma tendensiyalar da şamil edilir. Qloballaşma prosesləri xarici rəqabətin əlverişsiz təzahürlərinin daxili ərzaq bazarına təsiri halında özünü kəskin şəkildə büruzə verir. Məhz belə bir şəraitdə regionlarda ərzaq bazarının tənzimlənməsi, həm də xarici bazarın neqativ təzahürlərinin zərərsizləşdirilməsi ilə sıx əlaqədardır;

3. Aqrar sahədə konsaltinq xidmətlərinin təşkili. Naxçıvan Muxtar Respublikasında əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi məqsədilə aqrar bölmədə ötən illər ərzində aparılan köklü islahatlar bu sahənin daha sürətli inkişafına əlverişli zəmin yaratmışdır. Bununla yanaşı, hesab edirik ki, heyvandarlıqla məşğul olan sahibkarlara və təsərrüfat rəhbərlərinə müvafiq dövlət strukturları tərəfindən maliyyə və texniki yardımlarla yanaşı, yüksək səviyyədə məsləhət xidməti göstərilməsi işi gücləndirilməlidir;

4. Aqrar sahədə marketinq xidmətinin təşkili və təkmilləşdirilməsi. Regionlarda ərzaq bazarının formalaşması və inkişafı baxımından aqrobiznesin səmərəli təşkili də marketinq fəaliyyətinin həyata keçirilməsindən bilavasitə asılıdır. Bu baxımdan mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, kənd təsərrüfatı əmtəə istehsalçılarının aqromarketinq xidmətinin xüsusiyyətinin dəqiq şəkildə nəzərə alınması vacibdir. Nəzərə almaq lazımdır ki, aqromarketinq xidmətinin çevik şəkildə reallaşdırılması üçün müəssisələrdə kifayət qədər potensial imkanlar mövcud olmalıdır.

5. Kənd təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsi və mütərəqqi texnologiyalardan istifadə edilməsi. Araşdırma nəticəsində belə qənaətə gəlmişik ki, regionumuzda bəzən təbii-iqlim şəraitinin əlverişsiz keçməsi, eləcə də regionlarda təbii-iqlim şəraitinin kənd təsərrüfatı istehsalı üçün yetərli olmamağı və digər bu kimi amillər bütövlükdə regionun ərzaq təhlükəsizliyinə öz mənfi təsirini göstərir. Təbii ki, bu problemə təsir göstərən amillərə eyni zamanda texnoloji proseslərin zəif olmasını, eləcə də aqrar-sənaye kompleksində istehsalın qeyri-səmərəli fəaliyyət göstərməsini də aid etmək olar. Təhlil göstərir ki, ərzaq müstəqilliyində bütün hallarda əhəmiyyətli rol oynayan kənd təsərrüfatı və emal sənayesində texnoloji proseslərin geri qalması məhsuldarlığın səviyyəsinin aşağı olmasına və eləcə də istehsal edilən məhsulların nəinki xarici bazarda, eləcə də daxili bazarda effektiv şəkildə rəqabət aparmaq iqtidarında olmamağı ilə nəticələnir;

6. Kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi və kooperasiya formasında təşkili. Muxtar respublikanın bir çox kəndlərində bəzən kənd təsərrüfatı istehsalçılarının sərəncamında olan torpaq

resurslarının həcminin aşağı olması, son nəticədə həmin əmtəə istehsalçılarının manevr imkanlarını məhdudlaşdırır. Məhz belə bir şəraitdə iqtisadi səmərəliliyin həmin müəssisələr üçün aşağı səviyyədə olması artıq reallıqdan irəli gəlir. Bu da ərzaq bazarının formalaşmasına mənfi təsir göstərir. Odur ki, muxtar respublikanın kənd təsərrüfatında istehsalın intensivləşdirilməsinə və kooperasiya münasibətlərinin inkişaf etdirilməsinə gələcəkdə xüsusi diqqət yetirilməsini faydalı hesab edirik;

7. Yerli kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması ilə əlaqədar kompleks tədbirlərin həyata keçirilməsi. Araşdırmalarımız göstərir ki, Naxçıvan MR-də ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi ilə bağlı qarşıda duran ən mühüm problemlərdən biri də kənd təsərrüfatı məhsullarının satışı ilə bağlı problemlərin effektiv şəkildə həllindən ibarətdir. Naxçıvan MR-ə ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi istiqamətində zəruri tədbirlərdən biri də iqtisadi stimullaşdırma fəaliyyətinin həyata keçirilməsidir. Naxçıvan MR-də torpaqların keyfiyyəti səviyyəsinin diferensiasiyasına müvafiq olaraq, kreditlərin səviyyəsinin müəyyənləşdirilməsi, eləcə də dövlət büdcəsindən ödənilən yardımların fərqləndirilməsinə ehtiyac duyulur;

8. Ekoloji təmiz məhsul istehsalının həyata keçirilməsi ilə bağlı məqsədli proqramların reallaşdırılması. Naxçıvan MR-də fəaliyyət göstərən əmtəə istehsalçılarının iqtisadi maraqlarının yüksəldilməsində ekoloji təmiz məhsul istehsalı faktoru əhəmiyyətli rol oynaya bilər. Perspektiv baxımdan yanaşdıqda, xüsusilə Naxçıvan MR-in ərzaq bazarında ekoloji cəhətdən təmiz məhsulların təklifini formalaşdırmaq və bu sahədə bazarın konyunkturuna uyğun olaraq, məhsul təklifini həyata keçirmək kifayət qədər səmərəli nəticələr verə bilər. Məhz belə bir şəraitdə, xüsusilə pilot təsərrüfatların yaradılmasına xüsusi diqqət yetirilməlidir. Bütün bunların həyata keçirilməsi fikrimizcə, regionda ərzaq bazarının inkişafına və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

## ƏDƏBİYYAT


1. İbrahimov İ.H. Sahibkarlıq fəaliyyətinin tənzimləməsi məsələləri, Bakı, Səda, 2010, 240 s.
2. Abbasov T.A. Kənd təsərrüfatının resurs potensialı və ondan səmərəli istifadənin regional problemləri. Bakı, Elm, 2002, 186s.
3. Verdiyev Ə.Ç., Qarayev İ.Ş. Aqrar bazarın formalaşmasının iqtisadi problemləri. Bakı, Şirvannəşr, 2000, 256 s.
4. İmanova M.T. Bazarın marketinq tədqiqinin regional problemləri: müasir vəziyyət və perspektivlər. Bakı, Nurlan, 2010, 208 s.
5. İbrahimov İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri. Bakı, Səda, 2005, 360s.


## РЕЗЮМЕ

**Ашраф Алекперов**

## ГЛАВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ПРОДОВОЛЬСТВЕННОГО РЫНКА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В современных условиях удовлетворение спроса населения на надёжную продовольственную продукцию имеет важное стратегическое значение. Это в первую очередь, наряду с защитой продовольственной независимости государства, также тесно связано с ускорением социально-экономического развития региона и со стабилизацией социально-экономического состояния физических и юридических лиц, а также производителей и потребителей. В удовлетворении населения надёжной продовольственной продукцией большую роль играет формирование регионального продовольственного рынка. Как известно, продовольственный рынок, в целом являясь составной частью системы рыночных отношений, выступает как важная движущая сила в развитии региональной экономики.

**Ключевые слова:** продовольственная безопасность, экономика региона, продовольственный рынок, агромаркетинг.

**SUMMARY**

**Ashraf Alakbarov**

**THE MAIN DIRECTIONS OF IMPROVOMENT OF FOOD MARKET IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

In modern conditions, meeting the demand of the population for reliable food products is of strategic importance. First of all, it is closely linked to the state's protection of food independence, as well as the acceleration of socio-economic development of the regions as well as the stabilization of the socio-economic status of individuals and legal entities, as well as producers and consumers. Formation and development of regional food markets plays a crucial role in meeting the population's demand for reliable food products. As it is known, the region's food market is an important component of the system of market relations as a whole, and acts as an important driving force in the development of regional economics.

**Key words:** food security, regional economy, food market, agromarketing

**NAZİM ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCANDA AQRAR İSLAHATLARIN ƏSASI İLK DƏFƏ NAXÇIVANDA QOYULMUŞDUR

*Məqalədə MDB məkanında aqrar islahatlara ilk dəfə Naxçıvanda başlanması göstərilir. Qeyd olunur ki, hələ 1992-ci ilin əvvəllərində Naxçıvan MR-də Heydər Əliyevin rəhbərliyi altında Culfa rayonunun Şurut və Gal kəndlərində torpaq islahatına başlanıldı. İlk növbədə muxtar respublikada bitkiçilik məhsullarının əkin sahələrinin genişləndirilməsi və bu əsasda məhsul istehsalının artırılmasına xüsusi diqqət yetirilir. Habelə məqalədə verilən cədvəllər vasitəsilə son 28 ildə muxtar respublikada heyvandarlıq sahəsində əldə olunan nailiyyətlər, adambaşına düşən bitkiçilik və heyvandarlıq məhsulları istehsalı geniş təhlil obyektinə çevrilir.*

***Açar sözlər:*** *aqrar islahatlar, bitkiçilik məhsulları, heyvandarlıq məhsulları, torpaq islahatı, taxıl, kartof, tərəvəz, üzüm*

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında kənd təsərrüfatı sahəsi mühüm yer tutur. Bu sahə muxtar respublikanın ümumi daxili məhsulunun (ÜDM) 1/3 hissəsini verir, iqtisadi fəal əhalinin 2/3 hissəsi burada çalışır. Kənd təsərrüfatı məhsullarının becərilməsi üçün muxtar respublikada əlverişli iqlim şəraiti, yüksək temperatur, günəş radiasiyasının yüksək göstəriciləri, məhsuldar torpaqlar vardır. Burada əkinçilik yalnız suvarma şəraitində mümkündür. Bunun üçün çoxlu sayda su anbarları, kanallar, dəryaçalar yaradılmışdır. İstilik sevən kənd təsərrüfatı bitkiləri olan taxıl, üzüm, tütün, meyvə, bostan-tərəvəz bitkiləri yüksək məhsuldarlığı ilə seçilir.

Hələ 1992-ci ilin əvvəllərində Naxçıvan MR-də Heydər Əliyevin rəhbərliyi altında Culfa rayonunun Şurut və Gal kəndlərində torpaq islahatlarına başlandı. [1].

Uğurla həyata keçirilən aqrar islahatların nəticəsində xüsusi mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşması prosesinin ilk mərhələsi 2000-ci ildə uğurla başa çatdırılmışdır. Muxtar respublikanın 205 kəndində olan 132 təsərrüfatda torpaq islahatları aparılmış, 70758 ailəyə və ya 241046 nəfərə torpaq sahəsi verilmişdir. Orta hesabla hər ailəyə 0,80 hektar və ya hər bir nəfərə 2342 kvadratmetr torpaq payı düşmüşdür [2].

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün 1995-ci ildən bəri əkin sahələri strukturunda dəyişikliklər edilmiş, əkin sahələri artırılmışdır. Əkin sahələri 2000-ci ildə 1995-ci ilə nisbətən 30-35 faiz artmışdır.

Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar.

Naxçıvan MR-də kənd təsərrüfatı bitkiləri üzrə əkin sahəsinin bölgüsü, hektarla

Cədvəl 1.

| Məhsullar | 2000 | 2005 | 2010 | 2016 | 2018 |
|---|---|---|---|---|---|
| Dənli və dənli-paxlalı bitkilər | 15274 | 26764 | 36734 | 35466 | 35797 |
| Kartof | 1451 | 1990 | 2741 | 3053 | 3215 |
| Tərəvəz | 4863 | 5686 | 6005 | 6150 | 6183 |
| Bostan bitkiləri | 2465 | 2844 | 2819 | 2766 | 2776 |
| Bağlar və giləmeyvəliklər | 2243 | 2746 | 3955 | 4736 | 5000 |
| Üzüm bağları | 1519 | 923 | 1031 | 1269 | 1402 |

*3.Naxçıvan Muxtar Respublikasının çoğrafiyası II cild, Naxçıvan, 2018, c. 190*
*4.Naxçıvan MR Statistika idarəsinin materialları, 2019*

Cədvəl məlumatlarının təhlili göstərir ki, 2000-2015-ci illərdə dənli və dənli paxlalı bitkilərin əkin sahəsi 24161, buğda əkin sahəsi 18595, arpanın əkin sahəsi 5280, paxlalı bitkilərin əkin sahəsi

916, dən üçün günəbaxan əkin sahəsi 247, kartof əkin sahəsi 1516, tərəvəzin əkin sahəsi 1268, bostan bitkilərinin əkin sahəsi 288, bağlar və giləmeyvəliklər əkin sahəsi 2411 hektar artmışdır. Bunun əksinə olaraq isə, son 15 ildə dən üçün qarğıdalının əkin sahəsi 630, yem bitkilərinin əkin sahəsi 810, üzüm bağlarının əkin sahəsi isə 363 hektar azalmışdır.

1 yanvar 2002-ci il tarixdə Naxçıvan MR-in Şərur rayonu üzrə 23 min 971 ailəyə, Babək rayonu üzrə 10 min 860 ailəyə, Ordubad rayonu üzrə 4 min 575 ailəyə, Culfa rayonu üzrə 7 min 854 ailəyə, Şahbuz rayonu üzrə 4 min 118 ailəyə və Naxçıvan şəhəri üzrə 31 ailəyə - cəmi MR üzrə 51 min 409 ailəyə "Torpağın mülkiyyətə verilməsinə dair" Şəhadətnamələr hazırlanmışdır. Bu, nəzərdə tutulan şəhadətnamələrin 71,9 faizini təşkil etmişdir. Şəhadətnamələrin qalan 28,1 faizi də hazırlanaraq ailələrə təqdim edilmişdir.

Qeyd etmək lazımdır ki, torpağın xüsusi mülkiyyətə verilməsi ilə aqrar sahədə əmlakın özəlləşdirilməsi də başa çatmışdır. Beləliklə, aqrar islahatların həyata keçirilməsi öz bəhrəsini vermiş kənd təsərrüfatı məhsullarının artımı maili güclənmişdir. Əgər 2000-ci ildə kənd təsərrüfatında istehsal olunan məhsulun 99,8 faizi özəl sektorun payına düşürdüsə, 2001-ci ildə kənd təsərrüfatı məhsullarının hamısı özəl sektorda istehsal edilmişdir.

İqtisadi təhlil göstərir ki, muxtar respublikada həyata keçirilən islahatlar aqrar-sənaye potensialından səmərəli istifadə edilməsi üçün zəmin yaratmışdır. İslahatların müsbət nəticələri göz qabağındadır. Muxtar respublikada təkcə 2003-cü ildə 259,1 milyard manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Bu isə 1998-ci illə müqayisədə 42,9, 1999-cu illə müqayisədə 51,3 faiz, 2000-ci illə müqayisədə 29,6 faiz, 2001-ci illə müqayisədə 11,7 faiz çoxdur.

2003-cü ildə bütün təsərrüfat kateqoriyaları üzrə 81,4 min ton taxıl, 14,2 min ton kartof, 53,4 min ton tərəvəz, 41,7 min ton bostan məhsulları, 28,6 min ton meyvə və giləmeyvə və 129 min ton şəkər çuğunduru istehsal edilmişdir.

Naxçıvan MR Dövlət Statistika Komitəsinin verdiyi məlumatlardan aydın olur ki, kənd təsərrüfatının başqa sahələrində olduğu kimi, heyvandarlıq sahəsində də çox böyük irəliləyiş vardır. Muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın, qoyun və keçilərin sayı islahatlardan sonra ilbəil artmağa doğru gedir. Mal-qaranın baş sayının artması MR-də bütövlükdə əsas heyvandarlıq məhsullarının istehsalına və adambaşına düşən istehsala öz təsirini göstərmişdir. Statistik materialların təhlili göstərir ki, 2003-cü ildə 1993-cü illə müqayisədə ət istehsalı 77,5 faiz, süd istehsalı 3 dəfədən çox, yumurta istehsalı isə 48,3 faiz artmışdır.

Muxtar respublikada digər sahələrlə yanaşı, aqrar sektorun inkişaf etdirilməsinə xüsusi önəm verilməsi heç də təsadüfi deyildir. Bu baxımdan tikintisinə 1983-cü ildə başlanmış və sonradan məlum səbəblər üzündən yarımçıq qalmış, yalnız Azərbaycan Respublikası Prezidentinin 2002-ci ildə Naxçıvana səfərindən sonra tikinti işləri bərpa olunmuş Vayxır su anbarında aparılan inşaat işləri Dövlət Proqramına uyğun olaraq, 2005-ci ilin sonuna kimi başa çatdırılmışdır. İstismara verildikdən sonra 16800 hektar əkin sahəsinin suvarılmasını təmin etmiş su anbarı Naxçıvanda kənd təsərrüfatının daha intensiv inkişafına təkan vermiş və bununla da əhalinin məşğulluğunun artırılmasında, həyat səviyyəsinin yaxşılaşmasında ciddi dönüş yaranmasına səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, texniki xidmət sahəsində ölkə regionları içərisində Naxçıvan regionunda görülən işlər ürəkaçandır. Belə ki, son illərdə aqrar sektorda texniki xidməti həyata keçirən təsərrüfat subyektləri şəbəkəsinin yaradılması işi davam etdirilmişdir. "Naxçıvan Muxtar Respublikasında aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ona məxsus olan kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya müddətli satılması sahəsində səmərəli fəaliyyət göstərir. Bu işlərin davamı olaraq 2007-ci ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən əlavə olaraq, 138 ədəd yeni texnika muxtar respublikaya gətirilmişdir.

Naxçıvan MR iqtisadiyyatında kənd təsərrüfatı mühüm yer tutduğundan bu sahəyə diqqət artır ki, bu da öz bəhrəsini verir. Son illər muxtar respublikada bitkiçilik məhsulları istehsalının dinamikası aşağıdakı cədvəldə verilib:

Cədvəl 2

Naxçıvan MR-də bitkiçilik məhsulları istehsalı (min ton)

| Bitkilərin adı | 1990 | 1993 | 2000 | 2001 | 2002 | 2003 | 2005 | 2007 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Taxıl | 32,2 | 20,0 | 54,4 | 63,1 | 73,7 | 81,4 | 93,2 | 81,6 | 114,9 |
| Kartof | 2,6 | 1,8 | 13,5 | 15,2 | 13,6 | 14,2 | 26,3 | 33,7 | 49,6 |
| Tərəvəz | 20, | 14,8 | 42,7 | 47,8 | 50,2 | 53,4 | 56,4 | 59,8 | 85,6 |
| Bostan məhsulları | 5,3 | 1,0 | 33,6 | 37,2 | 39,9 | 41,7 | 39,8 | 38,5 | 38,7 |
| Meyvə və giləmeyvə | 8,3 | 8,2 | 28,4 | 28,7 | 28,8 | 28,6 | 36,4 | 37,1 | 55,9 |
| Üzüm | 110,9 | 33,0 | 14,0 | 13,8 | 12,6 | 11,4 | 13,3 | 13,7 | 16,2 |

*4.Naxçıvan MR Statistika idarəsinin materialları, 2019*

Cədvəl məlumatlarından aydın olur ki, üzümdən başqa, digər bütün məhsullar üzrə artım müşahidə olunmuşdur. Məhsuldarlıq xeyli artmışdır.

Mal-qaranın baş sayının dinamik artması heyvandarlıq məhsullarının istehsal həcminin artırmağa imkan vermişdir. Bunu aşağıdakı cədvəldən görmək olar:

Cədvəl 3.

Naxçıvan MR-də əsas heyvandarlıq məhsulları istehsalı (min ton)

| İllər üzrə | 1990 | 1993 | 2000 | 2001 | 2002 | 2003 | 2007 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|
| Ət (kəsilmiş şəkildə) | 7,1 | 4,0 | 5,3 | 6,4 | 6,9 | 7,1 | 16,0 | 27,6 |
| Süd | 30,7 | 17,0 | 54,2 | 55,3 | 58,9 | 59,5 | 70,0 | 84,0 |
| Yumurta (milyon ədəd) | 57,7 | 29,2 | 45,8 | 42,2 | 42,3 | 43,3 | 52,3 | 73,5 |

*4.Naxçıvan MR Statistika idarəsinin materialları, 2019*

Cədvəl məlumatlarından aydın olur ki, 2018-ci ildə muxtar respublikada 27,6 min ton ət, 84 min ton süd və 73,5 milyon ədəd yumurta istehsal olunmuşdur ki, bu da 1993-cü illə müqayisədə ət 4 dəfə, süd 2,7 dəfə və yumurta üzrə isə 1,2 dəfə çoxdur. İri buynuzlu mal-qaranın sayı 1 yanvar 2019-cu ildə 113916 başa çatmışdır ki, bu da 1995-ci illə müqayisədə 2,5 dəfə çoxdur. Qoyun və keçilərin sayı isə həmin dövrdə 2,5 dəfəyə yaxın artmışdı.

Adambaşına düşən bitkiçilik və heyvandarlıq məhsulları istehsalını aşağıdakı cədvəllərdən aydın görmək olar:

Cədvəl 4.

Naxçıvan MR-də adambaşına bitkiçilik məhsullarının istehsalı (kq)

| İllər üzrə | 1990 | 1993 | 2000 | 2001 | 2002 | 2003 | 2007 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|
| Taxıl | 105 | 61 | 156 | 150 | 173 | 201 | 212 | 253 |
| Kartof | 8 | 6 | 118 | 131 | 137 | 144 | 156 | 109 |
| Tərəvəz | 65, | 45 | 118 | 131 | 137 | 144 | 156 | 188 |
| Bostan məhsulları | 17 | 3 | 93 | 102 | 109 | 113 | 126 | 85 |
| Meyvə və giləmeyvə | 27 | 25 | 79 | 79 | 78 | 77 | 97 | 123 |
| Üzüm | 361 | 101 | 39 | 38 | 34 | 31 | 36 | 36 |

*4.Cədvəl məlumatları Naxçıvan MR Statistika İdarəsinin materialları əsasında müəllif tərəfindən hesablanmışdır.*

Cədvəl məlumatlarının təhlili göstərir ki, 1990-cı illə müqayisədə 2018-ci ildə muxtar respublikada üzümdən başqa, digər bitkiçilik məhsulları istehsalında adambaşına artım baş vermişdir. Belə ki, göstərilən dövrdə adambaşına taxıl istehsalı 148 kq, kartof 101 rq, tərəvəz 123 kq, bostan məhsulları 68 kq, meyvə və giləmeyvə 96 kq artmışdır. Belə bir artım adambaşına heyvandarlıq məhsullarında da baş vermişdir. Bunu aşağıdakı cədvəldən aydın görmək olar:

Cədvəldən görünür ki, adambaşına heyvandarlıq məhsulları istehsalı da artmaqdadır. Belə ki, 1990-2018-ci illərdə adambaşına ət istehsalı 38 kq süd istehsalı isə 84 kq artmışdır. Adambaşına yumurta istehsalı isə 1993-cü ilə nisbətən 32 ədəd artmasına baxmayaraq, 1990-cı ilə nisbətən 35

ədəd azalmışdır. Hesab edirəm ki, bu azalmanın əsas səbəbi dövlətə məxsus iri quşçuluq fabriklərinin işini dayandırması olmuşdur. Yuxarıda qeyd edildiyi kimi, artıq həm ölkədə, həm də muxtar respublikada bəzi məhsullar üzrə istehlak tələbatı ödənilməyə başlanmışdır.

Cədvəl 5.

Naxçıvan MR-də adambaşına heyvandarlıq məhsulları istehsalı (min ton)

| İllər üzrə | 1990 | 1993 | 2000 | 2001 | 2002 | 2003 | 2007 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|
| Ət (kəsilmiş şəkildə) | 23 | 12 | 15 | 17 | 19 | 19 | 42,0 | 61 |
| Süd | 100 | 52 | 150 | 152 | 160 | 161 | 191 | 184 |
| Yumurta (milyon ədəd) | 188 | 87 | 127 | 116 | 115 | 117 | 136 | 153 |

*4.Rəqəmlər statistik materiallar əsasında müəllif tərəfindən hesablanmışdır*

Əvvəlki illərdə olduğu kimi, yenə də bitkiçilik və heyvandarlıq məhsullarının əsas hissəsi əhalinin həyatyanı təsərrüfatında istehsal olunmuşdur.

## ƏDƏBİYYAT


1. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı, Elm, 2005
2. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, “Sabah” nəşriyyatı, 2008
3. Naxçıvan Muxtar Respublikasının coğrafiyası II cild, Naxçıvan, 2008, s.190
4. Naxçıvan MR Statistika İdarəsinin materialları. 2019-cu il
5. “Şərq qapısı” qəzeti. 1990-2018-ci il sayları


## РЕЗЮМЕ

**Н.Г.Ахмедов**

### ОСНОВЫ АГРАРНЫХ РЕФОРМ В АЗЕРБАЙДЖАНЕ ВПЕРВЫЕ ЗАЛОЖЕНЫ В НАХЧЫВАНЕ

В статье показано, что начало аграрным реформам впервые по СНГ положено в Нахчыване. Отмечено, что еще в начале 1992-го года под руководством Гейдара Алиева в Джульфинском районе Нахчыванской АР в сёлах Шурут и Джал было начались земельные реформы. В первую очередь в автономной республике специальное внимание было уделено расширению посевных площадей растениеводства и на этой основе увеличению производства урожая. Также посредством данных таблиц в статье в объект широкого анализа превратились успехи автономной республики за последние 28 лет в животноводческой отрасли, а также производство растительных и животных продуктов на душу населения.

**Ключевые слова:** аграрные реформы, продукты растениеводства, продукты животноводства, земельные реформы, зерно, картофель, овощи, виноград.

## SUMMARY

**N.H.Ahmadov**

### THE RUDIMENTS OF AGRARIAN REFORMS IN AZERBAIJAN WERE INITIALLY FORMED IN NAKHCHIVAN

It is shown in the article the agrarian reforms in CIS region were initially conceived in Nakhchivan. It is noted that, even at early 1992, in Nakhchivan AR, land reforms started in Shurut and Gal villages of Julfa district under the leadership of Heydar Aliyev. Initially, the main attention was paid to enlarging crop fields of plant breeding products and to increase crop production on this basis in autonomous republic. Additionally, achievements attained in husbandry, production of plant breeding and livestock products per a person, during last 28 years in autonomous republic, become great objects of study through the tables given in the article.

**Key words:** agrarian reforms, plant breeding products, livestock products, land reform, crop, potato, vegetable, grape

**MEHRİBAN İMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*marketinq05@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SƏNAYELƏŞMƏ SİYASƏTİNİN YENİ MƏRHƏLƏSİ: ŞƏRUR SƏNAYE MƏHƏLLƏSİ

*Elmi məqalədə dövlət iqtisadi siyasətinin əsas istiqamətlərindən birinin sənayenin şaxələndirilməsi olduğu qeyd edilmiş, sənaye parklarının, sənaye zonalarının və texnoparkların mahiyyəti, məqsədi və vəzifələri izah edilmişdir. Eyni zamanda sənaye məhəllələrinin yaradılması mexanizmi, sənayedə və xidmət sektorunda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması və tətbiq olunan vergi güzəştləri araşdırılmış, muxtar respublikamızda sənayeləşmənin yeni mərhələsinin qurulmasının sosial-iqtisadi əhəmiyyəti təhlil edilmişdir.*

***Açar sözlər:*** *sənaye məhəlləsi, dövlət siyasəti, sənayenin modernləşdirilməsi, innovasiya, iqtisadi strategiya*

Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən birini yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişaf etdirilməsi və şaxələndirilməsi təşkil edir. Müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək sənaye gücləri yaradılır.

Ölkəmizdə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli Fərmanı ilə müəyyən edilmiş (4), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli qərarı ilə Sənaye məhəllələri haqqında Nümunəvi əsasnamə təsdiq edilmişdir (5). Sənaye məhəlləsinin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsi və əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır.

Sənaye məhəlləsi sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazidir. Bu ərazi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olaraq, belə xərclərin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, sahibkarlığın inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələrinə münasibətdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti) sənaye məhəllələrinin fəaliyyətinin təşkili və tənzimlənməsi ilə məşğul olur və onun başlıca vəzifələrindən biri sənaye məhəllələrində sənaye istehsalının və müvafiq xidmət sahələrinin təşkili üçün zəruri infrastrukturun və biznes şəraitinin yaradılmasından ibarətdir. Sənaye məhəlləsi üçün nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahəsi idarəedici təşkilatın daimi istifadəsinə verilir və yalnız sənaye məhəlləsinin fəaliyyəti məqsədi ilə istifadə edilir. Sənaye məhəlləsinin ərazisində torpaqlar sənaye məhəlləsinin iştirakçılarına sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair imzalanmış müqavilənin müddətinə uyğun olaraq icarəyə verilir. Eyni zamanda torpaq sahəsinin və tikililərin icarə haqqı aşağı həddə müəyyən edilməklə, sahibkarlar güzəştli kreditlərlə təmin olunur, sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlər təşkil olunur və inzibati prosedurlar sadələşdirilir. Bu günə qədər ölkəmizdə Neftçala Sənaye Məhəlləsi, Masallı Sənaye Məhəlləsi yaradılmış, Hacıqabul və Sabirabad Sənaye Məhəlləsinin yaradılması üçün işlərin görülməsi davam etdirilir. Bu sənaye məhəllələrinin yaradılması nəticəsində 755 daimi iş açılmış, 1200-dən çox iş yerinin açılması isə nəzərdə tutulmuşdur (8).

Digər regionlarda olduğu kimi, muxtar respublikanın perspektiv inkişafı üçün də sənaye sahəsində dövlət siyasətinin əsas məqsədləri sənaye istehsalının dayanıqlı və yüksək artım tempinin təmin edilməsi, strukturunun təkmilləşdirilməsi, modernləşdirilməsi və səmərəliliyinin artırılmasıdır. Bu sahədə əsas tədbirlər istehsal avadanlığının yüksək mənəvi və fiziki aşınmasının aradan qaldırılmasından, məhsulun rəqabətqabiliyyətliliyinin, sənayedə investisiya və innovasiya fəallığının artırılmasından və emal sahəsində fəaliyyət növlərinin stimullaşdırılmasından ibarətdir.

Bu istiqamətdə görülən işlərin davamı olaraq, Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə 13 sentyabr 2019-cu ildə Şərur Sənaye Məhəlləsinin yaradılması haqqında Fərman imzaladı (6). Bazar iqtisadiyyatı sənaye müəssisələrindən istehsalın effektivliyinin yüksəldilməsi, elmi texniki tərəqqinin nailiyyətlərindən istifadə etməklə rəqabət qabiliyyətli məhsulların istehsalını və xidmətlərin göstərilməsini, effektli təsərrüfat tipinin və istehsalatın idarə edilməsini, yeni təşəbbüslər irəli sürməklə sahibkarlıq fəaliyyətinin canlandırılmasını tələb etdiyindən, muxtar respublikada da sənaye məhəlləsinin yaradılması sosial-iqtisadi inkişaf baxımından xüsusi əhəmiyyətə malikdir.

Sənaye parkı, Sənaye məhəlləsi və Texnologiyalar Parkını biri-birindən fərqləndirmək üçün onların mahiyyətinə nəzər salaq:

| | |
|---|---|
| **Sənaye parkı** | Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir |
| **Sənaye məhəlləsi** | Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazidir |
| **Texnologiyalar parkı** | İnnovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədi ilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi (kommersiyalaşdırılması) üçün zəruri infrastrukturu, maddi-texniki bazası və idarəetmə qurumları olan ərazidir |

Sənayenin müasir formalarının yaradılması xaricdən müvafiq məhsul idxalının azalmasında mühüm rol oynamaq iqtidarındadır. Müxtəlif sənaye sahələrini inkişaf etdirmək istəyən, ölkə iqtisadiyyatının tarazlı inkişafında maraqlı olan dövlətlər iqtisadi siyasətlərində bu cür istehsal sahələrinin yaradılmasına xüsusi önəm verir. Türkiyə, Almaniya, Polşa, Latviya, Rusiya, Çin və Cənubi Koreya təcrübələri göstərir ki, sənayeləşmənin müasir formalarının yaradılması ölkə iqtisadiyyatının ixrac, rəqabət qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir (7).

Sənaye məqsədləri ilə xüsusi ayrılmış bölgələrin qurulması 1960-cı illərdən başlayaraq müxtəlif formalarda baş vermiş, həm sənaye yönümlü Azad İqtisadi Zonaların qurulmasına, həm də xüsusi iqtisadi imtiyazları olmayan sənaye məhəllələri formalaşmağa başlamışdır. Sənaye məhəlləsi mikro, kiçik və orta müəssisələrin inkişafı üçün nəzərdə tutulduğu üçün onun ərazisi əksər hallarda 5-80 hektar arasında olur. Bəzi hallarda isə ərazilərin ölçüləri sənaye parklarının ərazilərinə yaxın ölçüdə yəni, yüzlərlə hektar) ola bilir. 50 hektara qədər olan sənaye məhəlləri sərf olunan məsrəflər baxımından effekli sayılmadığı üçün dünyada mövcud olan sənaye məhəllələrinin əksəriyyəti 40-80 hektar ərazidə təşkil olunmuşdur (7).

Təyinatına və mülkiyyətinə görə sənaye müəssisələrinin formaları aşağıdakılardan ibarət ola bilir:

| | | |
|---|---|---|
| Təyinatına görə | Qarışıq istehsal | İstehsal prosesində bir-biri ilə əlaqəsi olmayan kiçik sənaye müəssisələri |
| | Yardımçı istehsal | Hər hansı bir iri müəssisənin tələbatlarını ödəyən bir neçə yardımçı kiçik sənaye müəssisələri |
| | Bir sahəli istehsal | Sənaye sahəsi üzrə eyni xidmət göstərən və ya eyni tipli məhsulları istehsal edən əlaqəli kiçik müəssisələr |
| Mülkiyyətə görə | Dövlət | Mərkəzi dövlət orqanı, yerli icra orqanı və ya bələdiyyələr tərəfindən yaradılması təklif edilən, qurulan və idarə olunan məhəllələr |
| | Özəl | Özəl: şirkət, kooperativ və ya sənayeçilər assosiasiyası tərəfindən yaradılan məhəllələr. |
| | Qarışıq | Dövlət tərəfindən yardım göstərilməklə şirkət, kooperativ və ya sənayeçilər assosiasiyası tərəfindən yaradılan məhəllələr |

Mülkiyyətinə görə dövlət tərəfindən qurulacaq və idarə olunacaq Şərur Sənaye Məhəlləsinin yaradılması göstərilən hərtərəfli xidmət, stimullaşdırma tədbirlərin həyata keçirilməsi ilə rəqabət-qabiliyyətli, daxili və xarici bazarın tələbatına uyğun məhsul istehsalına, istehsalın perspektiv fəaliyyətinə, istehsal vasitələrindən effektiv istifadəyə və beləliklə, sənayenin kompleks inkişafını tənzimləməyə imkan verəcək. Bu iqtisadi siyasətin reallaşması formalaşan təsərrüfat strukturlarının artması, kiçik sahibkarlığın genişlənməsi və dinamik inkişafı, fiziki şəxslərin sahibkarlıqla məşğul olması, qeyri-dövlət sektorunun rolunun getdikcə artması ilə müşayiət olunacaq. Mövcud dünya standartlarına uyğun olaraq, mütərəqqi texnologiyalar əsasında qurulmuş belə müasir müəssisələr yalnız iqtisadi cəhətdən deyil, həm də yeni iş yerlərinin açılması ilə sosial baxımdan da mühüm əhəmiyyət kəsb edir.

Xarici dövlətlərin təcrübəsindən görünür ki, cəmiyyətin iqtisadi tərəqqisi, əsasən, elmtutumlu texnoloji proseslərin imkanlarının iqtisadi tələbatlarla birləşməsinin nəticəsi olan innovasiyanın əsasında təmin edilir. İnnovasiya prosesi yeni məhsuların mənimsənilməsi, buraxılan məhsulun modernləşdirilməsi, yeni istehsal vasitələrinin istehsal prosesinə cəlb edilməsi, texnologiya və məhsulun mütərəqqi istehsal üsularından istifadə edilməsi, istehsalın təşkili və idarə olunmasının daha mükəmməl formaları ilə əlaqəlidir (1,54). Həyata keçirilən bu proseslərin nəticəsində məhsulun çeşidi təzələnərək onun rəqabət qabiliyyəti yüksəlir, əhalinin tələbatı ödənilir, istehsalın səmərəliyi yüksəlir, məhdud resurslardan qənaətlə istifadə olunur, istehsal xərcləri azalmaqla mənfəət artır və sosial-iqtisadi inkişaf yüksəlir. İnnovasiya prosesinin son məqsədi yeni məhsulun reallaşdırılma qabiliyyətinin yüksəldilməsi və kütləvi istehsalının təşkili olduğundan sənaye məhəlləsində də qanunvericiliklə qadağan edilməyən, müasir texnologiyaların tətbiqi yolu ilə yüksək rəqbətqabiliy-yətli məhsulların istehsalı və xidmət göstərilməsi istiqamətində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi nəzərdə tutulur. Sənaye məhəlləsinin yaradılması özəl sektorun inkişafına daha böyük dövlət dəstəyi olmaqla burada əlverişli infrastrukturun təşkil edilməsi, cəlbedici güzəştlər mexanizmi, müvafiq prosedurların maksimal sadələşdirilməsi, elektron xidmətlərin təqdim edilməsi, idarəedici təşkilat tərəfindən təqdim olunan xidmətlər, layihənin maliyyələşmə imkanları daxili və xarici investisiyaların cəlb edilməsi üçün şərait yaradacaqdır (2,87). Sənaye məhəlləsinin ərazisində ən müasir tələblərə cavab verən infrastruk- yol-nəqliyyat, sosial, mədəni ictimai iaşə, inzibati, mühəndis-kommunikasiya təminatı və sənaye məhəlləsinin fəaliyyət göstərməsini təmin edən obyektlər kompleksi yaradılaraq sahibkarların istifadəsinə veriləcək. Sənaye məhəlləsində inhisarçılığa yol verilməməsi və sağlam rəqabət üçün şəraitin yaradılması ilə keyfiyyətli məhsul istehsalına nail olunacaq. İnvestisiya cəlbediciliyinin təmin olunması, sahibkarlıq fəaliyyətinin səmərəli həyata

keçirilməsi üçün sənaye parkının ərazisində investorlar üçün vergi və gömrük sahəsində bir sıra güzəştlər də nəzərdə tutulur. Baza güzəştlər portfeli kimi, AR Vergi Məcəlləsinə əsasən sənaye məhəlləsində fəaliyyət göstərəcək rezidentlər yeddi il müddətində mənfəət, torpaq, əmlak vergilərindən və parkda istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsalı məqsədilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğular ƏDV-dən azad edilir. Bu ərazilərdə fəaliyyət göstərəcək investorlar daim təklif olunan istilik və elektrik enerjisinin, suyun və qazın paylanması, tullantı sularının axıdılması və məişət tullantılarının yığılması xidmətlərindən yararlanacaq, həmçinin ofis, konsaltinq, laboratoriya müayinəsi, biznes-inqubasiya, təlim-treninq, peşə hazırlığı, marketinq, hüquq, logistika, xarici iqtisadi əməliyyatlarla bağlı xidmətlərlə təmin olunacaqlar ki, bu da vaxt itkisinin qarşısını almaqla, keyfiyyətli xidmət göstərilməsinə və sahibkarların maarifləndirilməklə öz fəaliyyətlərini elmi əsaslar üzərində qurmasına yardım edəcək.

Şərur rayonu mükəmməl rabitə və nəqliyyat infrastrukturuna, elektrik enerjisinə giriş imkanlarına və işçi qüvvələri ehtiyatına malik olan ərazi olduğu üçün sənaye məhəlləsinin bu ərazidə yaradılması iqtisadi cəhətdən əlverişli sayılır. Bu məqsəd üçün ayrılan torpaq sahəsində bir neçə şirkət bir-birinə yaxın olmaqla yerləşdirilməsi, onların ümumi infrastrukturu, kommunal xidmətləri, yanğınsöndürmə, təhlükəsizlik xidmətləri və ərazilərinin ümumi olması istehsal prosesinin zəncirvari getməsilə maya dəyərinin aşağı düşməsinə səbəb olacaq. Beləliklə də, Şərur Sənaye Məhəlləsi investisiya layihələrinin inkişafını, eləcə də mikro, kiçik və orta müəssisələrin gəlir əldə etməsi imkanlarını asanlaşdırmaqla, muxtar respublika iqtisadiyyatını daha sürətli inkişafını şərtləndirəcək, sənayedə işgüzar fəallığın artmasına, kiçik sahibkarlığın daha güclü inkişaf etməsinə təkan verəcəkdir.

Şərur Sənaye Məhəlləsi sürətli texniki-iqtisadi yüksəlişi özündə əks etdirməklə son dərəcə müasirliyi və mütərəqqi texnologiyaları ilə seçiləcək, muxtar respublikanın iqtisadi və sosial məsələlərinin həllinə, bütünlükdə onun perspektiv inkişafına mühüm təsir göstərəcəkdir. Həyata keçiriləcək düşünülmüş iqtisadi strategiya muxtar respublikamızın digər regionlar içərisində özünəməxsus inkişaf yoluna görə daha da fərqlənməsinə səbəb olacaq.

## ƏDƏBİYYAT


1. Allahverdiyev H.B., Qafarov K. S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, BDU, 2002, 448 s.
2. Əjdərov T. Bazar iqtisadiyyatı şəraitində Azərbaycan sənayesinin inkişaf istiqamətləri. Bakı, BDU, 2000, 258 s.
3. Nuriyev Ə.X. Regional siyasət və idarəetmə. Bakı, Elm, 2004, 348 s.
4. http://www.e-qanun.az/framework/28394 “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 2014-cü il
5. http://www.e-qanun.az/framework/30023 Sənaye məhəllələri haqqında Nümunəvi əsasnamə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 13 may 2015-ci il
6. https://e-huquq.az/az/xeber/serur_senaye_mehellesi_yaradilib_-_ferman_1164 Şərur Sənaye Məhəlləsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 13 sentyabr 2019-cu il
7. http://senaye.gov.az/content/html/3568/attachments/Dünyada%20sənaye%20məhəllələri%20haqqında.pdf
8. https://www.economy.gov.az/article/senaye-mehellesi/22757 Sənaye Məhəlləsi

## РЕЗЮМЕ

**Мехрибан Иманова**

**НОВЫЙ ЭТАП ПОЛИТИКИ ИНДУСТРИАЛИЗАЦИИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ: ПРОМЫШЛЕННЫЙ КВАРТАЛ ШАРУР**

В научной статье подчеркивается, что одним из ключевых аспектов экономической политики государства является диверсификация отрасли, были описаны характер, цели и задачи индустриальных парков, промышленных зон, технопарков. А также, были изучены механизм создания промышленных кварталов, благоприятные условия для развития микро-, малого и среднего бизнеса, работающих в промышленности и сфере услуг и налоговые льготы, а также проанализирована социально-экономическая значимость установления нового этапа индустриализации в нашей автономной республике.

**Ключевые слова:** индустриальный блок, государственная политика, модернизация промышленности, инновации, экономическая стратегия.



## SUMMARY

**Mehriban Imanova**

**A NEW STAGE IN THE INDUSTRIALIZATION POLICY IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC: SHARUR INDUSTRIAL QUARTER**

The scientific article emphasizes that one of the key aspects of the state economic policy is the diversification of the industry, the nature, goals and objectives of industrial parks, industrial zones, and technology parks have been described.

And also, the mechanism of creating industrial quarters, favorable conditions for the development of micro-, small and medium-sized businesses working in industry and the service sector and tax benefits were studied, and the socio-economic importance of establishing a new stage of industrialization in our autonomous republic was analyzed.

**Key worlds:** industrial block, public policy, industrial modernization, innovation, economic strategy.

**ƏLİ HƏSƏNOV**
*alihasanov51@mail.ru*
**ÜLVİYƏ İSGƏNDƏROVA**
*Naxçıvan Dövlət Universiteti*

# BABƏK RAYON CƏHRİ BƏLƏDİYYƏSİNİN AQRORESURS POTENSİALI VƏ ONUN İQTİSADİ-COĞRAFİ QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə qeyd edilir ki, müstəqillik əldə etdikdən sonra respublikamız azad bazar iqtisadiyyatı yolunu tutmuşdur. Torpaq üzərində yeni mülkiyyət formaları bələdiyyə, dövlət və xüsusi mülkiyyət formaları yaranmışdır. Bələdiyyələrə torpaq kadastr sənədləri təqdim edilməsinə baxmayaraq, onların çoxu bu sənədlərdən düzgün istifadə edə bilmirlər. Məqalədə Cəhri bələdiyyəsinin sərhədləri və sahəsi, bələdiyyənin ərazisində yayılan torpaq tipləri və yarımtipləri, onların sahələri haqqında dəqiq məlumatlar verilir. Qeyd edilir ki, bələdiyyə ərazisində sahəsi 5901,1 ha olan açıq dağ-şabalıdı, 1338,1 ha açıq şabalıdı, 1054,4 ha suvarılan açıq şabalıdı, 821,8 ha suvarılan şabalıdı, 437,6 ha nazikdağ şabalıdı torpaqları yayılıbdır. Məqalədə, həmçinin dövlət, şəxsi və xüsusi mülkiyyətdə olan suvarılan topraqlar haqqında da məlumat verilir. Müasir şəraitdə bu torpaqlardan istifadə problemləri və onların səmərəli istifadə yolları haqqında aktual təkliflər irəli sürülür.*

***Açar sözlər:*** *bələdiyyə, torpaq tipləri, aqroresurs potensialı, iqtisadi-coğrafi qiymətləndirmə*

**Aktuallıq**. Cəhri kənd bələdiyyəsi Babək rayonunun mərkəzi hissəsində yerləşir. Sahəsi 10264 ha olub, sahəsinə görə rayonda birinci yerdə durur. 1997-ci ildən sonra aparılan torpaq inventarlaşdırılması nəticəsində respublika ərazisində bələdiyyələr üzrə xəritələşdirmə aparılmış, onların sərhədləri, əraziləri müəyyənləşdirilmişdir. Vaxtı ilə təsərrüfat işləri ilə məşğul olan kadrlar bu əraziləri və onların xüsusiyyətlərini daha yaxşı bilirdilər və təsərrüfatı o istiqamətə yönəldə bilirdilər.

Sonrakı dövrlərdə istifadəçilər ərazinin sərhədlərini, bir sıra torpaq xüsusiyyətlərini unutmuşlar. Bələdiyyələrə bələdiyyə torpaq kadastr sənədləri verilsə də, onlar haqqında geniş məllumatlar ala bilməmişlər. Onların əksəriyyəti torpaq tipləri, onların mexaniki tərkibləri, torpaqların bonitet balı, münbitliyi, məhsuldarlığı və s. haqqında bir o qədər də elmi-nəzəri məlumatlara yiyələnməmişlər. Ona görə də bu işə yardım etmək üçün bələdiyyə torpaqları haqqında silsilə elmi məqalələrin verilməsini qarşımıza məqsəd qoymuşuq. Bu baxımdan məqalə aktual bir mövzuya həsr edilibdir.

**Təhlil**. Cəhri bələdiyyəsinə aid olan torpaqlar Cəhriçayın hər iki sahilində dağ, dağətəyi və maili düzənliklərdə yerləşir. Bələdiyyənin ümumi sahəsi 10264 ha olub, Vayxır, Naxçıvançay sahilindəki meşə fondu torpaqları, Didivar, Nəzərabad, Uzunoba gölü ilə, Naxçıvan şəhərinin qış otlağı, Naxşıvan Duzdaq mədəni ilə, Kəngərli rayonu, Böyükdüz, Kəngərli rayonu dövlət ehtiyatı fondu torpaqları, Payız, Şahbuz rayon Türkeş, Sələsüz bələdiyyələri ilə həmsərhəddir (4. I hissə səh.14).

Bələdiyyənin ərazisini Dərələyəz silsiləsindən ayrılan qollar parçalayır. Ərazini Məkkəz dağı, Hörgü silsiləsi, Qızıldağ, Yastan, Cəhri qaşı (tirə) parçalayır. Cənub hissəsi isə Naxçıvan –Şahbuz avtomobil yolunadək Cəhri düzündə, magistral yoldan cənubda isə Naxçıvan düzündə yerləşir. Ərazinin cənub-qərbində Hacı qını (qın-çıxıntı, uc, qurtaracaq olan yerə deyilir. Ə.H.) adlanan yüksəklik yerləşir.

Bələdiyyənin yaşayış mərkəzi də daxil olmaqla cənub hissəsi yayı isti quraq, qışı soyuq keçən yarımsəhra quru çöllər, şimal hissəsi isə yayı quraq keçən soyuq iqlim tipində yerləşir. Yağıntının orta illik miqdarı 275 mm, quraqlıq dövrdə 100 mm-ədək, yağıntılı dövrdə isə 350 mm-dən çox yağıntı düşür. Daha çox yağıntı aprel-may aylarında(100-120 mm) düşür (1 səh.16). Havanın orta mütləq minimum temperaturu -18$^0$, mütləq minimum temperaturu -30$^0$ –dən çox, mütləq maksimum

temperaturu $43^0$, havanın orta temperaturu $12,7^0$ olur. Günəşli saatların miqdarı 2000-2400 saatdır, ümumi radiasiyanın miqdarı 150,1 kkal/ $cm^2$ –dır (3 səh.237).




Xəritə sxem "Əkinçilik atlası" əsasında tərtib edilibdir.
Tərtib edən: dos. Ə.Həsənov

Ərazinin ən böyük çayı Cəhriçaydır. Uzunluğu 43 km olub, Ermənistan ərazisindən başlayır və hövzəsinin sahəsi 300 $km^2$-dır (1 səh.31). Çayın əsas qolları: İydəliçay, Çanıçay. Kərməcataqçay, Buzqovçay, Lizbirçay və s.dir. Bələdiyyənin yeganə su təminatı bu çay vasitəsi ilə həyata keçirilir. Cəhriçay qismən selli çaylar sırasına daxildir. Bu çayda sellər Kərməçataq və Lizbir cay zonasında düşən güclü yağıntılar zamanı baş verir. Bu sellər rənginə və asılı materiallara görə fərqlənir (6 səh.190-194). Naxçıvançayın bol sulu qoludur. Onu hidroenerji gücünə görə zəif əhəmiyyətli çaylar sırasına aid edirdilər (8 səh.122-123). Ancaq 1970-1980-ci illərdən sonra Cəhri çayda davamlı su axını müşahidə edilmir.

Təbii gölləri yoxdur. Kəndin şimalında kiçik su anbarları var. Vegetasiya dövründə kəndin şimal-şərq və şərq hissəsini su ilə təmin edir. Cəhri qaşının üstündə və kəndin cənubunda su yığılan gölməçələr var ki, avqust ayına kimi mal-qaranı su ilə təmin edir.

Ərazinin içməli su təminatında Məşhəd Abbas və Çimən kəhrizi mühüm rol oynayır. Məşhəd Abbas kəhrizinin debiti 115 l\san, Çimən kəhrizinin debiti isə 100 l/san-dir (5 səh.95).

Kəndin şimal-şərq hissəsindən keçən və Selov adlanan quru çay dərəsində tez-tez sellər baş verir və təsərrüfatlara ciddi ziyan vurur (6 səh.190-194). Səbəbi dərənin insanlar tərəfindən zəbt edilməsidir.

Cəhri bələdiyyəsinin ərazisində 4 tip və 6 yarım tip şabalıdı torpaqlar yayılıbdır (4. I hissə, səh.14). Daha geniş sahəni yuxa qalınlığa malik olan açıq-şabalıdı dağ torpaqları tutur. Yuxa qalınlığa malik olan açıq-şabalıdı dağ torpaqları kəndin şimal, şərq və Cəhri qaşından qərb hissədə yayılıbdır.

Bu torpaqlar mexaniki tərkibinə görə orta gillicəlidir. Əsasən, dağətəyi zonalarda yayılıbdır. Torpaq qatının qalınlığı çoxdur. Bu tip torpaqların ümumi sahəsi 5908,1 ha-dır (4. I hissə, səh.14). Prolüvial, dellüvial çöküntülərlə mürəkkəbləşir və daim "cavanlaşma" gedir. Az məhsuldarlığa malikdirlər. Bu tip torpaqlardan kəndətrafı örüş və qış otlaqları kimi istifadə edilir. Ancaq dağ tirələri arasında olan çökək-yastı hissələrdən: İydəli çökəkliyi, Kənd yeri, İşıqlar və s. əkinçilikdə istifadə etmək imkanları genişdir.

Həcminə görə ikinci yerdə açıq şabalıdı torpaqlar durur. Mexaniki tərkibinə görə bu torpaqlar yüngül gillicəli olub, maili düzənlikləri əhatə edir. Torpaq qatı qalın, sahəsi 1338,2 ha olub, Böyük Xor adlanan ərazidə yayılıbdır. Humusun miqdarı 2 % olub, humuslu qatın qalınlığı 60-70 sm olur (5 səh. 27).

Əsasən, otlanacaq kimi istifadə edilir. Su təminatı yaxşılaşdırılarsa, əkinçilik dövrüyyəsinə cəlb etmək olar. Böyük Xora Xor arxı, Orta arx, Peşov arxı ilə su aparmaq mümkündür.

Suvarılan açıq şabalıdı torpaqlar Cəhri qaşı-tirəsi ilə Cəhriçay arasında və cənub –şərqdə Cəhri kəndindən başlamış Naxçıvançaya qədər olan hissəni əhatə edir. Torpaq qatı qalın olub gillidir. Ümumi sahəsi 1054,4 hektardır (4. I hissə, səh.14). Yerli əhali belə torpaqları "ət" torpaqlar adlandırırlar. Ərazidə olan kiçik təpəciklər əkinçiliyə mane olur. Bəzi kiçik təpələr və ərazini parçalayan arxlar ləğv edilmiş və əkin sahəsi genişləndirmişdir. Bu işi bu gündə davam etdirmək olar.

Suvarılan şabalıdı torpaqların sahəsi 821,8 ha olub, mexaniki tərkibinə görə orta gillicəli, torpaq qatının qalınlığı çox olub maili düzənlikləri əhatə edir (4. I hissə, səh.14). Bu torpaq tipi kəndin cənub-qərb hissəsində Kiçik Xor və Qanlı dərə adlanan hissədə və kəndin şimal-şərq hissəsində yayılıbdır. Hər iki hissənin suya olan tələbatı Cəhriçay və şimal –şərq hissəni Cəhri su anbarları təmin edir.

Yuxa qalınlıqlı dağ şabalıdı torpaqlar kəndin şimal-qərb hissəsində yayılıbdır. Mexaniki tərkibinə görə yüngül gillicəli olub, torpaq qatı qalındır. Maili düzənliklərdə yerləşir. Humusun miqdarı 3-1 % -dir (5 səh. 25). Ümumi sahəsi 437,6 ha-dır. Bu torpaqlar kənd əhalisinin Şorakət adlandırdığı maili düzənlikdə yayılıbdır.

Bələdiyyə ərazisində ümumi sahəsi 166 ha olan, orta qalınlıqlı, orta və ağır gillicəli, qumsal açıq şabalıdı torpaqlar yayılıbdır (4. I hissə, səh.14). Bu torpaqlar kəndin cənub-şərq hissəsində Naxçıvançay sahilində olan meşə fondu torpaqları ilə sərhəddə Naxçıvan-Şahbuz şosse yolunun hər iki sahilində yerləşir.

Cəhri bələdiyyəsinin ərazisində 1370 ha suvarılan torpaq sahəsi var (4. II hissə, səh.45). Həyata keçirilən torpaq islahatları nəticəsində kolxoz və sovxozlar ləğv edilmiş, onların mülkiyyəti bələdiyyə və xüsusi mülkiyyətə verilmişdir. Suvarılan torpaq sahələrindən 18 ha bələdiyyə, 1352 ha isə xüsusi mülkiyyətin ixtiyarındadır. Statistik məlumatlara görə bələdiyyə mülkiyyətinə verilən torpaqların 17 ha, xüsusi mülkiyyətə verilən torpaqların isə 1006 ha əkin altındadır. Əkinə yararlı torpaqların 346 ha həyətyanı sahələrdir ki, bununda 233 ha əkin, 113 ha isə çoxillik əkmələr altındadır (4. II hissə, səh.45).

Bələdiyyə mülkiyyətində olan torpaqların bir hektarından meyvəçilikdə istifadə edilir. Bu bağ Nəzərabad körpüsündən şimalda Cəhriçayla kəndə gedən şosse yolunun arasında yerləşir. Bu bağda, əsasən, ərik, alça, armud ağacları, itburnu, üzüm kolları və s. var. Quraqlıq və baxımsızlıq nəticəsində bu bağ məhv olmaq qarşısındadır. Vaxtı ilə kəndin şimalında tut bağları, şimal-qərbdə, cənub –qərbdə meyvə bağları var idi. Vaxtı ilə kəndin ətrafında olan Lazımın ərikliyi, Həsənalının bağı, Vəlinin bağı, Məşə Nəsirin bağı, Məmmədqulunun bağı, Alqulunun bağı və s. meyvə bağları hələ də öz adlarını saxlayır. Kolxoz quruluşu dövründə insanların əmək haqqına zəhmət günlərinin sayına uyğun olaraq, meyvə, iydə, tut qurusu, arpa, buğda və s. qalan qismi isə pulla ödənilirdi. Sovxoz quruluşunda isə dövlətə həmin meyvələr plana uyğun olaraq, meyvə konserv zavodlarına təhvil verilirdi. Kolxoz, sovxoz mülkiyyəti ləğv edilərkən onların hamısı insanlar tərəfindən məhv edildi. Vaxtı ilə kəndin cənubunda "Nəçənnik İsmayıl"ın bağı adlanan yerdə çəltik, bütün əkin sahələrində pambıq, üzüm, tütün, tənbəki (maxorka), arpa, buğda, qarğıdalı, süpürgə və s. becərilirdi. Çoxsahəli təsərrüfat nəticəsində Cəhri kolxozu milyoner kolxoz olmuş, hətta cəbhəyə 150 milyon manat tank pulu keçirmişdir. Yaşlı adamların dediyinə görə 1941-45-ci illər müharibəsi və ondan sonrakı dövrlərdə Cəhri kəndində "aclıq" olmamış və bu vəziyyətdə olan kəndlər daim Cəhri kəndinə üz tutmuşlar. Xüsusən, Ermənistandan sürü ilə dilənçilər Cəhri kəndinə dilənməyə gəlirmişlər.

Belə bir təsərrüfat tarixinə malik olan ərazidə kənd təsərrüfatının arpa-buğda və otçuluq sahələri inkişaf edir. Suvarma suyundan düzgün istifadə edilməməsi su itkisinə səbəb olur, su olmayacaq fikrində olan insanların çoxunun istifadəsinə verilən torpaqlar boş qalır. Əkinçilik ancaq su ilə daha yaxşı təmin olunacaq sahələrdə monokultur təsərrüfat kimi inkişaf etdirilir.

**Nəticə**. Cəhri kənd bələdiyyə torpaqlarının aqroresurs potensialı tədqiq edilərkən müəyyən olunmuşdur ki, orta dağlıq zonada istehsal dövrüyyəsinə cəlb ediləcək geniş torpaq sahələri mövcuddur. Su qıtlığı üzündən bu sahələrdən istifadə edilmir. Eyni zamanda vaxtı ilə əkinçilikdə geniş istifadə edilən torpaqlar da bu problem üzündən istehsal dövriyyəsindən çıxır. Su mənbələrindən bir az aralıda yerləşən əkin sahələrinə su arxlarının bərbad vəziyyətdə olması üzündən, həmçinin kəndin daxilində olan su arxlarının itməsi, zəbt olunması nəticəsində nəinki kənarda olan torpaqlar, hətta belə insanların evinin qarşısında olan torpaqlar da istifadədən kənar qalır. Bütün su

arxları hamısı bərpa olunmalıdır. Kəndin cənubundan 2 su kanalı keşməsinə baxmayaraq bu kanallar çox kiçik sahələri su ilə təmin edir. Ərazinin su təminatını yaxşılaşdırmaq üçün Heydər Əliyev adına su anbarından İydəliçay vasitəsi ilə su çəkilə bilər.Yaxud da Lizbirçayın yatağı Cermux –Lizbir-Başkənd sınma xətti üzərində yerləşdiyindən orada zəngin su ehtiyatı var. Bu sudan istifadə etmək olar

Dövlət tərəfindən verilən və istifadədən kənarda qalan torpaqlar alınıb istifadə edə bilənlərin ixtiyarına verilməlidir.

Əkinçilikdə əsas yeri taxıl bitkiləri arpa, buğda və digər bitki yonca əkinləri tutur. Bu da konkret olaraq monokultur təsərrüfat deməkdir. Ərazidə polikultur təsərrüfat inkişaf etdirilməlidir

Torpaqlar düzgün qidalandırılmır. Əkinçi bir şeyi bilir torpağa azot kübrəsi verdim. Bu torpağın qidalanmasını tam təmin edə bilmir ona görə də münbitlik aşağı düşür və torpaqlar deqradasiyaya məruz qalır. Torpaqların düzgün qidalandırılması üçün əkinçilər arasında maarifləndirmə işləri aparılmalıdır.

## ƏDƏBİYYAT


1. С.А.Захаров. Почвы Нахичеванской АССР. АзФАН. 1939, 195 стр.
2. Г.Алиев и А. Зейнадов.ПочвытНахичеванской АССР. Баку, 1988, 238 стр.
3. Q.Ə Hacıyev, V.Ə.Rəhimov.Azərbaycan SSR inzibati rayonlarının iqlim səciyyəsi (sorğu kitabı). Bakı-1977, 269 səh.
4. Əkinçilik atlası. Babək rayonu. I və II hissə. Naxçıvan, 2011
5. Həsənov Ə. Naxçıvan MR-in təbii sərvətləri və onlardan mistifadə yolları. Bakı, Araz, 2001, 246 səh.
6. Həsənov Ə., İsgəndərova Ü., Həsənov İ. Naxçıvan MR ərazisində sellərin coğrafi yayılması və onların vurduğu ziyanın qiymətləndirilməsi. NDU, Elmi əsərlər, NDU, “Qeyrət” nəşriyyatı, 2017 № 3(84), səh.190-194
7. Həsənov Ə.Naxçıvan MR-də kənd əhalisinin sosial-iqtisadi həyat səviyyəsinin yaxşılaşdırılması yolları. Naxçıvan Muxtar Respublikasının yaranması; Tarix və müasirlik. Beynəlxalq konfransının materialları. Naxçıvan, 2007, səh.307-312
8. Azərbaycan SSR-inn atlası. Bakı, Moskva 1963, səh.
9. Qəhrəmanov R. Naxçıvan MSSR-də kənd təsərrüfatının yerləşdirilməsi və ixtisaslaşdırılması. Bakı, 1967


## РЕЗЮМЕ

**Али Гасанов, Улвия Искендерова**

## АГРОРЕСУРСНЫЙ ПОТЕНЦИАЛ ДЖАГРИНСКОГО МУНИЦИПАЛИТЕТА БАБЕКСКОГО РАЙОНА И ЕГО ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКАЯ ОЦЕНКА


В статье отмечается, что после преобретания независимости республика выбрала свободную рыночную экономику. На земле появились новые формы собственности: муниципалитетная (мера), государственная и частная собственность. Документы почвенных кадастров были переданы муниципалитету. Многие не правильно пльзовались этим документом.

В статье даются точные сведения о площади и границах Джагринского муниципалитета, обширные сведения о распространённых на территории муниципалитета типах и полутипах почвы.

Установлено, что на территории муниципалитета распространены тонкие горно светло-каштановые почвы площадью в 5908,1 га, светло-каштановые почвы площадью 1338,1 га, орошаемые светло-каштановые почвы площадью 1054,4 га, орошаемые каштановые почвы площадью 821,8 га, тонкие горно каштановые почвы площадью 437,6 га.

В статье так же дается сведение о государственных почвах, муниципалитете, частной собственности и орошамых почвах.

В современных условиях выдвигаются актуальные предложения о проблемах пользования почвой и путях их решения.

**Ключевые слова**: муниципалитет, типы почвы, агроресурсный потенциал, экономико-географическая оценка

## SUMMARY

**A.Hasanov U.Iskendarova**

## AGRORESOURCE POTENTIAL OF THE DZHAGRINSKY MUNICIPALITY OF BABEK DISTRICT AND ITS ECONOMIC AND GEOGRAPHICAL ASSESSMENT

The article notes that after the acquisition of independence, the republic chose a free market economy. On the ground, new forms of ownership appeared: municipal (measure), state and private property. Documents soil inventories were transferred to the municipality. Many have not correctly used this document.

The article provides accurate information about the area and borders of the Dzhagrinsky municipality, extensive information about the types and semi-types of soil that are widespread in the municipality.

It was established that on the territory of the municipality thin mountain light chestnut soils with an area of 5908.1 hectares, light chestnut soils with an area of 1,338.1 hectares, irrigated light chestnut soils with an area of 1054.4 hectares, irrigated chestnut soils with an area of 821.8 hectares, thin mountain chestnut soils with an area of 437.6 hectares.

The article also provides information about state soils, the municipality, private property and irrigated soils.

In modern conditions, there are current proposals on the problems of using the soil and ways to solve them.

**Key words**: municipality, soil types, agroresource potential, economic and geographical assessment

**İRADƏ BAĞIROVA**
*iradebagirova@yahoo.com*
**XƏYAL HEYDƏROV**
*Naxçıvan Dövlət Universiteti*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN STRATEGİYASI AZƏRBAYCANIN HƏRTƏRƏFLİ İNKİŞAFININ TƏMƏLİDİR

...Azərbaycanın iqtisadiyyatı bütün sahələrdə ildən-ilə inkişaf edir və yaranmış əsas gələcək inkişaf üçün böyük zəmindir.

***Heydər Əliyev***
***Azərbaycan xalqının ümummilli lideri***

*Məqalədə dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının həm ümumi dayanıqlı inkişafında, həm də iqtisadi inkişafında mərhələ-mərhələ tətbiq edərək həyata keçirdiyi strateji proqramlar və onların nəticələri ətraflı təhlil edilir.*

*Burada, eləcə də ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi birinci (1969-1982-ci illər) və ikinci (1993-2003-cü illər) dönəmdə əldə olunan ən mühüm nailiyyətlərdən bəhs edilir.*

***Açar sözlər:*** *Heydər Əliyev strategiyası, sənaye, kənd təsərrüfatı, xidmət sektoru, xarici ticarət siyasəti, iqtisadi təhlükəsizlik, iqtisadi siyasət, investisiya*

Azərbaycan Respublikasının hazırkı dayanıqlı inkişafı və hərtərəfli tərəqqisinin əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, gələcək inkişaf üçün möhkəm təməl yaradılmışdır. Vaxtilə Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi islahatlar olmasaydı, Azərbaycanın hazırkı inkişafı ancaq xəyal olaraq qalardı. Bu gün Azərbaycanda sosial-iqtisadi, ictimai-mədəni həyatın elə bir sahəsi yoxdur ki, həmin sahədən danışanda dünya miqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin adı çəkilməsin. Məhz onun ölkəmiz və xalqımız qarşısındakı əvəzsiz xidmətləri sayəsində müasir Azərbaycan dövləti qurulmuş, dövlətçiliyimizin siyasi, iqtisadi əsasları yaradılmış, ölkəmiz dünyada öz layiqli yerini tutmuşdur. Təsadüfi deyildir ki, ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi dövr müstəqilliyimizin əbədi və dönməz xarakter alması, dövlətçiliyimizin möhkəmlənməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi həkk olunmuş, Heydər Əliyevə fenomen şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazandırmışdır.

Ulu öndər bütün həyatı boyu vətənimizin gələcəyini düşünmüş, Azərbaycanın müstəqilliyinin əbədiliyinə, ölkəmizin hərtərəfli inkişafına bütün varlığı ilə inanaraq bu dövlətin ideya əsaslarını, strateji inkişaf istiqamətlərini müəyyənləşdirmişdir: "...Mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir„. Bu siyasi xətt - fəaliyyət prinsipi 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə başlanan şərəfli missiyanın əsas qayəsi idi. Məhz həmin dövrdən etibarən Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına, xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə start verildi. Azərbaycanın Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevrilməsi üçün bütün sahələrdə geniş islahatlar aparan Heydər Əliyev zəngin idarəçilik təcrübəsi sayəsində o dövrdə Azərbaycanın tarixində böyük dönüş yaratdı. Ulu öndərin gərgin fəaliyyəti və qətiyyəti sayəsində Azərbaycanın uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edəcək kompleks inkişaf proqramlarının icrasına başlandı, iqtisadi və digər sahələrdə SSRİ rəhbərliyi səviyyəsində əlverişli qərarların qəbuluna nail olundu. Dahi siyasət korifeyinin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparıldı, Azərbaycan sovet respublikaları arasında

xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye ölkəsinə çevrildi, sənaye və kənd təsərrüfatının bütün sahələrində inkişafa nail olundu, yeni sənaye sahələri yaradıldı, istehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ - də qabaqcıl mövqeyə yiyələndi, istehsal olunan məhsulların keyfiyyəti yaxşılaşdı. 1969-1982-ci illərdə Azərbaycanda elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq istehsalı və digər mütərəqqi sənaye sahələri yaradıldı. Əgər XIX əsrdən 1969-cu ilədək (təxminən 100 il ərzində) Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, 1969-1982-ci illərdə (təxminən 13 il ərzində) onların sayı 1048-ə çatdırıldı. Sənayenin inkişafında elmi - texniki tərəqqinin nailiyyətlərindən geniş istifadə sayəsində 1971-1985-ci illər ərzində 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradıldı. Bu dövrdə Azərbaycanın ixrac potensialı da artdı, sənaye və kənd təsərrüfatı məhsulları təkcə ittifaq respublikalarına deyil, xarici dövlətlərə də ixrac olunmağa başlandı. Həmin illərdə Azərbaycanda buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Heydər Əliyev 1970-ci illərdə neft sənayesinin bütün sahələrinin inkişafına da xüsusi diqqət yetirirdi. Məhz ulu öndərin rəhbərliyi ilə neft sənayesinin inkişafında yeni mərhələ başlanmış, "qara qızıl"ın Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsinin əsası qoyulmuşdur. Heydər Əliyevin gərgin əməyi sayəsində Azərbaycan həmin illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, xalça və digər istehsal növləri üzrə Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. 1970-80-ci illərdə sənayenin inkişafı sahəsində görülmüş işlər və yaradılmış infrastruktur Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra da ölkəmiz üçün çox əhəmiyyətli olmuşdur.

Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi birinci dönəmdə - 1969-1982-ci illərdə əldə olunan ən mühüm nailiyyətlərdən biri də respublikanın elektrik enerjisi ilə təminat səviyyəsinin artırılması, bu sahədə mövcud olan problemlərin aradan qaldırılmasıdır. Məhz, həmin illərdə Azərbaycanın hər kəndinə, hər evə elektrik xətti çəkildi. Əgər 1969- cu ildə Azərbaycan elektrik enerjisi idxal edən ölkə idisə, 1982-ci ildə artıq o, elektrik enerjisi ixrac edən respublikaya çevrildi, elektrik stansiyalarının sayı və gücü xeyli artırıldı.

XX əsrin 60- cı illərinədək iqtisadiyyatın ənənəvi sahəsi olan kənd təsərrüfatı sahəsində əsas göstəricilər üzrə Azərbaycan müttəfiq respublikalar arasında sonuncu yerlərdən birini tuturdu. Belə ki, kənd təsərrüfatında məhsuldarlıq aşağı idi, aqrar məsələlərin həllində elmi nailiyyətlərdən çox zəif istifadə edilirdi, bu sahə üzrə demək olar ki, yüksək ixtisaslı kadrlar hazırlanmırdı. Ulu öndərin uzaqgörən və müdrik siyasəti sayəsində Azərbaycan qısa zamanda keçmiş Sovet İttifaqında qabaqcıl kənd təsərrüfatı, o cümlədən pambıqçılıq və üzümçülük respublikasına çevrildi. 1976 -1980- ci illərdə kənd təsərrüfatı ümumi məhsulunun artımına görə Azərbaycan sabiq SSRİ-də 15 müttəfiq respublika arasında birinci yerə çıxdı. Heydər Əliyevin rəhbərliyi ilə o dövrdə ölkəmizdə aparılan sürətli inkişaf tikinti- quraşdırma, nəqliyyat, infrastruktur sahələrinə də təsirsiz ötüşmədi. Bu gün paytaxt Bakıda, Naxçıvan MR-də, eləcə də Azərbaycanın digər rayonlarında tikilən yüzlərlə yaşayış binası, iri istehsal kompleksləri, su anbarları, yaşıllıq və istirahət zonaları və s. məhz Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir. Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl sənaye və kənd təsərrüfatı respublikasına çevrilməklə yanaşı, elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə də müsbət nəticələr əldə etdi. Ulu öndər bilirdi ki, Azərbaycanın inkişafı onun iqtisadi qüdrətinin artması ilə yanaşı, elm və mədəniyyətin, ən əsası isə insan kapitalının, insan potensialının inkişafından asılıdır. Heydər Əliyevin səyi nəticəsində o dövrdə minlərlə azərbaycanlı gəncin keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaları üçün şərait yaradıldı. Müstəqillik dövründə həmin mütəxəssislərin bilik və bacarıqları ölkə iqtisadiyyatının yenidən bərpa olunmasında, xüsusilə əhəmiyyətli oldu. Azərbaycanın inkişaf tarixinin dinamikası bir daha təsdiq edir ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr əslində respublikamızı müstəqil dövlət quruculuğuna aparan yolun başlanğıcı idi. Ötən əsrin son onilliyində Azərbaycan müstəqilliyini yenidən bərpa etdi. Lakin müstəqilliyin ilk illərində ölkədə yaranmış siyasi böhran, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin zəbt olunması və bunun

nəticəsində bir milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi sosial-iqtisadi böhranı daha da dərinləşdirmiş və beləliklə, ölkə iqtisadiyyatı idarəolunmaz vəziyyətə düşmüşdü. Yeni dövrün tələblərinə uyğun iqtisadiyyatın qurulmaması, yerli və ittifaq miqyasında olan müəssisələr arasında mövcud əlaqələrin qırılması, ölkənin iqtisadi, siyasi, informasiya blokadasına alınması nəticəsində 1990-cı illərin əvvəllərində ÜDM-in, sənaye istehsalının, xarici ticarət dövriyyəsinin həcmi azalmış, inflyasiya idarəolunmaz səviyyəyə çatmışdı. İstehsal sahələrinin sıradan çıxması nəticəsində işsizlik səviyyəsi artmış, əhalinin pul gəliri azalmışdı. Azərbaycanın gələcək taleyinin müəyyən olunduğu belə bir ağır zamanda dahi şəxsiyyət, bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itirilmiş inamını özünə qaytarmaqla, ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. Xalqın iradəsi və təkidli tələbi ilə 1993- cü ildə siyasi hakimiyyətə qayıdan ulu öndər Azərbaycanı xaos və böhrandan qurtardı, vətəndaş müharibəsinin qarşısını aldı, atəşkəsə nail oldu, böyük xilaskar missiyasını yerinə yetirdi. Bu gün də tam əminliklə demək olar ki, əgər o vaxt ölkədə baş verən hadisələrə ümummilli liderin şəxsi müdaxiləsi, prinsipiallığı olmasaydı, Azərbaycan adlı dövlət dünya xəritəsində olmazdı.

Heydər Əliyevin hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu. Azərbaycan dövlətini labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün kompleks tədbirlər görməyə başladı. Ümummilli liderin rəhbərliyi ilə qısa müddət ərzində ölkədə bazar iqtisadiyyatının formalaşması məqsədilə qanunvericilik bazası yaradıldı, məqsədli dövlət proqramları qəbul edildi, institusional islahatlar aparıldı, mülkiyyət münasibətlərində əsaslı dəyişikliklər edilməsi üçün mühüm addımlar atıldı. Dahi siyasətçi Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Azərbaycanın gələcək inkişafına istiqamətlənmiş strategiyanın əsasını iqtisadiyyatın inkişafına, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi. Heydər Əliyevin başlatdığı irimiqyaslı iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata investisiyalar cəlb olundu, xalqın həyat səviyyəsi yaxşılaşdı. İslahatların uğurla aparılması üçün sovet dövründən qalmış qanunların müasirləşdirilməsi, habelə yeni qanunların qəbulu son dərəcə vacib idi. Qanunvericilik təşəbbüsü əsasında iqtisadiyyatın ayrı-ayrı sahələrini tənzimləyən qanunların Milli Məclisin müzakirəsinə göndərən Heydər Əliyev onların demokratik prinsiplərlə və aşkarlıq şəraitində müzakirəsini də vacib sayırdı. Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70- dən artıq qanun qəbul edilmiş, 100- dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir. Bu normativ-hüquqi sənədlərin başlıca məqsədini müstəqil Azərbaycan dövlətinin iqtisadi əsaslarının möhkəmləndirilməsi, bazar iqtisadiyyatının formalaşdırılması, dövlət idarəetməsinin təkmilləşdirilməsi, vətəndaşların sosial və iqtisadi hüquqlarının daha dolğun təmin edilməsi təşkil edirdi. Ümumilikdə isə 1993-2003-cü illərdə qəbul edilmiş 1715 qanun və qərardan 975-i ümummilli lider Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında parlamentə təqdim olunmuşdu.

Ümummilli liderin ölkə iqtisadiyyatının hərtərəfli inkişafı üçün neft amilindən məharətlə istifadə etməsi, 1994-cü ilin sentyabrında böyük təzyiqlərə baxmayaraq, "Əsrin müqaviləsi"nin imzalanmasına nail olması yüksək siyasi iradənin və qətiyyətin təntənəsi idi. Bu saziş Azərbaycanın qapılarını dünyanın üzünə açdı, bu sahədə yeni müqavilələrin imzalanmasını və ölkəyə investisiya qoyuluşunu təşviq etdi. Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını da qoydu. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalanması ilə ixrac marşrutlarının diversifikasiyasına nail olundu. Azərbaycanın enerji daşıyıcılarını dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi Heydər Əliyevin neft strategiyasının ən böyük uğurlarından biridir. Bu gün bütün dünya etiraf edir ki, Heydər Əliyevin uzaqgörənliyi, mübarizliyi olmasaydı, Bakı- Tibilisi- Ceyhan layihəsi də olmazdı. Azərbaycanın iqtisadi inkişafında yeni bir mərhələnin başlanğıcına təkan vermiş

və çox böyük siyasi maneələr dəf edilməklə reallaşdırılmış Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinə şübhə ilə yanaşanlara cavab olaraq Heydər Əliyev demişdir: "Bakı- Tbilisi- Ceyhan əsas ixrac neft boru kəməri var, olacaq və yaşayacaqdır. Bu, elə bir neft kəməridir ki, yüz il, bəlkə də ondan da çox yaşayacaqdır". Eyni zamanda, Azərbaycan qazının Qərb bazarına ixracının təmin olunması üçün ulu öndərin təşəbbüsü ilə Cənubi Qafqaz Boru kəmərinin inşasına başlanıldı. Ümummilli lider 1999-cu ildə neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondunun yaradılması ilə bağlı fərman imzaladı. Fəaliyyətinin əsasını Heydər Əliyevin "Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur" fəlsəfəsini təşkil edən Dövlət Neft Fondunun başlıca məramı neft və qaz hasilatından əldə olunan vəsaitlərin səmərəli idarə edilməsidir. Ulu öndərin müdrik qərarı ilə Dövlət Neft Fondundan ilk vəsait qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi. Hazırda beynəlxalq təşkilatlar tərəfindən fondun fəaliyyəti və bu sahədə şəffaflığın təmin edilməsi yüksək qiymətləndirilir.

Heydər Əliyev strategiyasına uyğun olaraq, neft-qaz sənayesi iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət sayəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlanıldı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. Ulu öndərin müdrik, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı iqtisadi siyasət nəticəsində neft-qaz sənayesi ilə yanaşı, elektrotexnika, maşınqayırma, kimya və digər sahələrin də inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirildi. Ümummilli liderin müəyyənləşdirdiyi sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biri infrastrukturun inkişaf etdirilməsi olmuşdur. Bu baxımdan Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəqliyyatın inkişafı siyasətinin mərkəzində ölkə ərazisində beynəlxalq və tranzit dəhliz və yolların, ölkənin regionlararası, şəhər və rayondaxili yol-nəqliyyat infrastrukturunun inkişafı, eləcə də milli nəqliyyat-yol sisteminin dünya kommunikasiya məkanına sürətli inteqrasiyası dururdu. Bu məqsədlə TRASEKA, Şimal-Cənub nəqliyyat dəhlizi, İNOGEYT proqramının həyata keçirilməsinə başlanıldı. Nəticədə Azərbaycan Xəzər regionunda əsas multimodal nəqliyyat qovşağına və beynəlxalq əhəmiyyətli neft-qaz tranziti ölkəsinə çevrildi. 1995-ci ildən etibarən ölkədə aparılan ardıcıl və sistemli iqtisadi islahatların ən mühüm istiqamətlərindən birini də dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması təşkil edirdi.

Kənd təsərrüfatının inkişafı sahəsində ulu öndərin başladığı işlər sonrakı illərdə də uğurla davam etdirilmiş, Prezident İlham Əliyevin aqrar sahəyə göstərdiyi böyük diqqət və qayğı sayəsində Azərbaycan öz ərzaq təhlükəsizliyini təmin edən ölkəyə çevrilmişdir. Ümummilli liderin ölkənin gələcək inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrdən biri də regionların tarazlı və davamlı inkişafının təmin edilməsi olmuşdur. Heydər Əliyev Azərbaycanın davamlı inkişafı baxımından regionların inkişafını və bölgələrdəki potensialdan səmərəli istifadəni vacib hesab edirdi. Bu baxımdan, 1995-2003-cü illər regionların sürətli sosial-iqtisadi inkişafına hazırlıq mərhələsi kimi dəyərləndirilir. Bazar münasibətlərinin geniş vüsət alması, hərtərəfli iqtisadi islahatların aparılması, özəlləşdirmə proqramlarının həyata keçirilməsi, milli sahibkarlar sinfinin formalaşması ilə regionların hazırkı inkişafına əlverişli zəmin yaradıldı. Heydər Əliyev strategiyası regionların sosial-iqtisadi inkişafına dair iki dövlət proqramının uğurlu icrasında da əhəmiyyətli olmuş, 2014-2018-ci illəri əhatə edən yeni dövlət proqramının icrasına zəmin yaratmışdır. Heydər Əliyevin balanslaşdırılmış xarici siyasəti sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, ölkəmiz Cənubi Qafqazın lokomotiv dövlətinə, regionda gerçəkləşdirilən bütün transmilli layihələrin təşəbbüskarına və fəal iştirakçısına çevrilmişdir. Ulu öndərin çoxsaylı xarici səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, uğurlu neft diplomatiyası, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə, beynəlxalq əlaqələrinin genişlənməsinə mühüm töhfələrini vermişdir. Heydər Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi nüfuzlu beynəlxalq institutlarla səmərəli əməkdaşlıq

yaradılmışdır. Heydər Əliyev strategiyasının həyata keçirilməsi sayəsində 1995- ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi - bərpa və dinamik inkişaf dövrü başlanmışdır. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 1,7 dəfə, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, sənaye məhsulunun həcmi 23,3 faiz, kənd təsərrüfatı istehsalı 53,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artmışdır. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard ABŞ dolları həcmində investisiya qoyulmuşdur. Ulu öndərin inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çevik, qətiyyətli və uzaqgörən iqtisadi siyasəti sayəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmişdir. Dövlət başçısının rəhbərliyi ilə dayanıqlı və davamlı inkişaf edən, dünyada mövqeyi möhkəmlənən, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz daha böyük uğurlara doğru inamla irəliləyir. Dövlət başçısının 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş, Heydər Əliyev ideyalarından güc alan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində mühüm rol oynamaqdadır. Beləliklə, siyasi və iqtisadi baxımdan sabit, davamlı və dayanıqlı inkişaf edən Azərbaycanın bugünkü nailiyyətləri Heydər Əliyev siyasətinin, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla, qətiyyətlə davam etdirilməsinin məntiqi nəticəsidir. Bu inkişaf kursu Azərbaycanı daha böyük zəfərlərə, möhtəşəm qələbələrə aparır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

## ƏDƏBİYYAT

1. Mehdiyev Ramiz. "Azərbaycan-2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Layihə. Bakı, 2013, 15s.
2. www.economy.gov.az-Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi
3. www.azstat.org-Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
4. www.socar.az

## РЕЗЮМЕ

**Ирада Багирова**

**СТРАТЕГИЯ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА ЯВЛЯЕТСЯ ОСНОВОЙ ВСЕСТОРОННЕГО РАЗВИТИИ АЗЕРБАЙДЖАНА**

В статье всесторонне анализируются стратегические программы и их результаты проводимые и внедряемые поэтапнно в жизнь гениальной личностью общенациональным лидером Гейдаром Алиевым как общем устойчивом и развитии так и экономическом развитии Азербайджана. Так-же говорится о достигнутых важныйщих успехах в период первого руководство общенационального лидера Азербайджана (1963-1982-го года) и второго его руководство (1993-2003-го года).

**Ключевые слова:** Стратегия Гейдара Алиева, промышленность, сельское хозяйство, сектор обслуживания, зарубежная торговая политика, экономическое безопастность, экономическая политика, инвестиция.

## SUMMARY

**Irada Bagirova**

**THE STRATEGY OF THE GREAT LEADER HEYDAR ALIYEV IS THE MAIN BASIS OF THE COMPREHENSIVE DEVELOPMENT OF AZERBAIJAN**

The article analyzes in detail strategical programs implemented by the national leader Heydar Aliyev and their results, also in the overall sustainable and economic development of the Republic of Azerbaijan. It also discusses the most important successes that were taken during the first (1969-1982) and second (1993-2003) years of national leader's leadership in Azerbaijan.

**Key words:** Heydar Aliyevs strategi, endustry, agriculture, service sektor, external trade policy, economic safety, economic policy, investment.

**ŞAHİN ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# AQRAR-SƏNAYE KOMPLEKSİNİN İNKİŞAFINDA NƏQLİYYAT SEKTORUNUN ROLU

*Məqalədə Naxçıvan Muxtar Respublikasında aqrar-sənaye kompleksinin nəqliyyat sektorunun rolu araşdırılmışdır. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, istehsal prosesinin davamçısı və tamamlayıcısı olan nəqliyyat ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm mövqeyə malikdir. Naxçıvanda yüklərin daşınmasında avtomobil və dəmir yol nəqliyatının mühüm yer tutduğu ortaya qoyulmuşdur.*

***Açar sözlər:*** *ərzaq təhlükəsizli, nəqliyyat sektorunun rolu, avtomobil nəqliyatı, dəmir yol nəqliyatı, yüklərin daşınması*

Nəqliyyat - insanların, yüklərin, informasiyaların və zəruri siqnalların bir yerdən başqa bir yerə daşınmasıdır. Bəşər tarixində ən vacib kəşflərdən biri olan nəqliyyat vasitələri ictimai istehsalın müəyyən vasitəsi kimi özünü göstərməklə, çox böyük əməli və xalq təsərrüfatı əhəmiyyəti kəsb edir. Nəqliyyat vasitələri, eləcədə onların hərəkəti üçün vacib yolların olması ayrı-ayrı tarixi dövrlərdə hər bir xalqın maddi mədəniyyətinin inkişaf səviyyəsini göstərən mühüm amildir. Nəqliyyat vasitələri ilə istehsal alətlərinin, əmək məhsullarının və insanların yerdəyişməsi həyata keçirilir. Nəqliyyat maddi istehsal sahəsidir. O sənayenin və kənd təsərrüfatının istehsal etdikləri məhsulları daşıyır, insanların hərəkətə olan tələbatını ödəyir.

Dövlətlərin yerləşdiyi məkandan asılı olmayaraq, ölkələr çalışır ki, özünün istehsal etdikləri sənaye və kənd təaərrüfatı məhsullarını daha səmərəli yollarla dünya bazarına çıxarsınlar və yüksək səviyyədə gəlir əldə etsinlər. Bu baxımdan nəqliyyatın müasir problemlərini dünya ölkələri ilə qarşılıqlı əməkdaşlıq fəaliyyəti olmadan həll etmək qeyri-mümükündür. Bu proses dünyanın bütün ölkələri ərazisində fəaliyyət göstərən nəqliyyatın hər bir sahəsindən səmərəli istifadə olunmağı tələb edir.

XX əsrin sonunda bütün dünya ölkələri üzrə ümumi yük dövrüyyəsinin 62%-ni dəniz nəqliyyatı, 16%-i dəmir yolu, 14%-i boru kəməri, 8%-i avtomobil, 3%-i isə daxili su yolları təşkil etmişdir. Ancaq bir məsələni qeyd edək ki, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində daşımaların strukturunda aparıcı mövqe avtomobil nəqliyyatına məxsusdur. Bunu Naxçıvan Muxtar Respublikası dövlət statistika idarəsinin hesabatında da açıq görmək mümkündür.

Bundal əlavə, araşdırmalar göstərir ki, daşınmış aqrar məhsulların ümumi həcmində avtomobil nəqliyyatı 93,4%, qalan nəqliyyat növləri isə 6,6%-lik paya malikdir. Ona görə də nəqliyyat dəhlizlərinin keçdiyi ərazilərdə emal müəssisələrinin yaradılması və bu məhsulların dəhliz boyunca bazarlara çıxarılması mümkün və səmərəlidir.

Araşdırmalardan məlum olur ki, muxtar respublikada nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan avtomobil nəqliyyatından sonra dəmir yol nəqliyyatıdır. Yüksək manevretmə qabiliyyəti, həm bərk örtüklü, həm də torpaq yollarda məhsulların bir məntəqədən digərinə qısa müddətdə çatdırılması bu nəqliyyat növünün əhəmiyyətini artırır. 1995-ci illə müqayisədə 2015-ci ildə muxtar respublikanın nəqliyyat sektorunda yük daşıması 25.1 dəfə, sərnişin daşıması isə 4.3 dəfə artmışdır. Respublika üzrə nəzər salaraq professor Əliyev.T.Ş qeyd edir ki, Azərbaycanda müasir dövrdə yük daşınmasında 40%-ə qədəri, sərnişin daşınmasında isə 25% i dəmir yol nəqliyyatının üzərinə düşür (3.).

Ölkəmizdə dəniz nəqliyyatının inkişafı nisbətən daha qədimdir və bu Xəzər dənizi ilə bağlıdır. Belə ki, hələ 1600 il bundan əvvəl Xəzər dənizində primitiv formada olsa da yükdaşımaların və insanların daşınmasının təşkili məlumdur. Müasir dövrdə Xəzər dənizində nəqliyyat sisteminin inkişaf etdirilməsi ölkəmizin nəqliyyat siyasətinin prioritet vəzifələrindən hesab olunur. Ancaq Naxçıvan Muxtar Respublikası dəniz kənarında yerləşmədiyi üçün yük daşınmasında dəniz nəqliyyatı mühüm yer tutmur.

Lakin XXI əsrdə elmi-texniki tərəqqinin sürətli inkişafı başqa sahələrdə olduğu kimi, nəqliyyatın müxtəlif sahələrinə də təsir etmişdir. Ən başlıcası isə iqtisadi inteqrasiyanın geniş vüsət aldığı bir şəraitdə istər sürət, istərsə də yük götürmə baxımından müasir həyatın tələblərinə cavab verə bilən müasir texnologiyanın prinsiplərinə əsaslanan maşın və avadanlıqlarının istehsalının həyata keçirilməsi əsas şərtlərdən hesab edilir.

Nəqliyyat sektorunda yük daşınması min ton

| Yük daşınması | | o cümlədən | | |
|---|---|---|---|---|
| İllər | Cəmi | dəmir yolu nəqliyyatı | hava nəqliyyatı | avtomobil nəqliyyatı |
| 2001 | 4597.5 | 5.2 | 6.3 | 4586 |
| 2002 | 4841.3 | 0 | 4.3 | 4837 |
| 2003 | 5,949.10 | 8.3 | 3.8 | 5937 |
| 2004 | 6200 | 9.6 | 5.1 | 6185.3 |
| 2005 | 7041.2 | 1.9 | 6.5 | 7032.8 |
| 2006 | 7505.2 | 21.2 | 11.6 | 7472.4 |
| 2007 | 8041.5 | 17.4 | 6.3 | 8017.8 |
| 2008 | 8702.1 | 16.8 | 5 | 8680.3 |
| 2009 | 9723 | 20 | 3.7 | 9699.3 |
| 2010 | 11152.7 | 16.3 | 2.7 | 11133.7 |
| 2011 | 12717.3 | 298.3 | 5.3 | 12413.7 |
| 2012 | 13952.4 | 323.9 | 5.7 | 13622.8 |
| 2013 | 15280.2 | 298.7 | 5.5 | 14976 |
| 2014 | 15564.1 | 94.6 | 5.3 | 15464.2 |
| 2015 | 15898.3 | 88.3 | 6.4 | 15803.6 |

Bir faktı da nəzərə almaq lazımdır ki, nəqliyyat yalnız sərnişin və yük daşımalarını həyata keçirmir, eyni zamanda, məhsuldar qüvvələrin inkişafında, təbii ehtiyatların və əmək resurslarının istehsal dövriyyəsinə operativ cəlb olunmasında, əhali məskunlaşmasında və məhsuldar qüvvələrin ərazi üzrə optimal yerləşdirilməsində mühüm rol oynayır. Dünya ölkələri arasında iqtisadi əlaqələrin səmərəliliyinin yüksəldilməsi və yük axınlarının əlverişli tənzimlənməsinin həyata keçirilməsi hər bir nəqliyyat sahəsində beynəlxalq normalara uyğun təkmilləşdirmə işlərinin aparılmasını tələb edir. Ölkələr yerləşdikləri coğrafi mövqedən asılı olmayaraq, çalışırlar ki, öz məhsullarını daha sərfəli yollarla dünya bazarlarına çıxarsınlar və daha çox səmərə əldə etsinlər. Məhz bu baxımdan beynəlxalq əhəmiyyətli nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan Respublikasının əlverişli nəqliyyat sisteminə malik olması dünyanın bir çox ölkələri ilə qarşılıqlı səmərəli iqtisadi əlaqələrin həyata keçirilməsinə münbit şərait yaradır (4).

Belə ki, bəzi aqrar məhsullarının əksəriyyətinin istifadə müddəti, saxlama və daşıma müddəti spesifik xüsusiyyətlərə malikdir ki, bu da məhsulun istehlakçılara çatdırılması amilinin əhəmiyyətini ifadə edir. Bu baxımdan da, istehsal prosesinin davamçısı və tamamlayıcısı olan nəqliyyat da ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm mövqeyə malikdir. Təbii ki, istər ölkə ərazisində müxtəlif coğrafi məkanlarda istehsal edilmiş yerli məhsulların, istərsə də idxal hesabına təmin edilən məhsulların lazımi bazarlara – istehlakçılara çatdırılması birbaşa nəqliyyat sisteminin vəzifəsidir. Bu isə, ərzaq təhlükəsizliyinin təmin edilməsində nəqliyyatın rolunu bir daha sübut edir (5).

Aydındır ki, müasir qloballaşma və inteqrasiya əsrində ölkənin milli maraqlarını qorumaq, iqtisadi və digər təhlükəsizliyini təmin etmək kimi məsələlər hər bir dövlətin qarşısında duran başlıca vəzifədir. Bu da ondan irəli gəlir ki, artıq qlobal iqtisadi mühitə yaxından inteqrasiya etmək,

beynəlxalq aləmdə cərəyan edən iqtisadi proseslərin fəal iştirakçısına çevrilmək, xarici bazarlara rəqabət qabiliyyətli yerli məhsullarla çıxmaq və s. hər bir milli təsərrüfatın davamlı və dinamik inkişafının zəruri şərtinə çevrilmişdir. Bütün bunlar isə, öz növbəsində, ümumilikdə ölkə həyatında xarici amillərin rolunun artdığını göstərir. Aydındır ki, təkrar istehsalın əsas təkanverici qüvvəsi istehsal edilmiş məhsulların satışıdır. O cümlədən də, kənd təsərrüfatının inkişafına təsir edən ən mühüm amillərdən biri də satış bazarlarının və məhsulun bazara çıxışının təşkilidir. Ona görə də bazar iqtisadiyyatı şəraitində istehsalın çoxsahəli inkişafında, məhsuldar qüvvələrin, daxili və xarici iqtisadi əlaqələrin formalaşmasında nəqliyyat amili mühüm əhəmiyyət kəsb etdiyi üçün öz aktuallığı ilə daim diqqət mərkəzində saxlanılmalıdır. Belə ki, ərzaq məhsullarının əksəriyyətinin istifadə müddəti, saxlama və daşıma müddəti spesifik xüsusiyyətlərə malikdir ki, bu da məhsulun istehlakçılara çatdırılması amilinin əhəmiyyətini ifadə edir. Bu baxımdan da, istehsal prosesinin davamçısı və tamamlayıcısı olan nəqliyyat da ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm mövqeyə malikdir. Təbii ki, istər ölkə ərazisində müxtəlif coğrafi məkanlarda istehsal edilmiş yerli məhsulların, istərsə də idxal hesabına təmin edilən məhsulların lazımi bazarlara – istehlakçılara çatdırılması birbaşa nəqliyyat sisteminin vəzifəsidir. Bu isə, ərzaq təhlükəsizliyinin təmin edilməsində nəqliyyatın rolunu bir daha sübut edir (1).

Nəqliyyat istehsal prosesinin təşkil formasında, istehsalla istehlak arasında, həmçinin iqtisadi rayonlar arasında məhsul mübadiləsində özünü daha qabarıq şəkildə büruzə verir. Lakin nəqliyyat özü-özlüyündə heç bir maddi məhsul istehsal etmir, daşınma prosesində səmərəsiz nəqliyyat xərclərini aradan qaldırmaqla, külli miqdarda iqtisadi sahələrdən gəlirin əldə olunmasına şərait yaratmış olur. Nəqliyyat vasitəsilə məhsulun bir regiondan başqa bir regiona, yaxud iqtisadi rayona daşınması mühüm proses olub, nəqliyyat işçilərinin əməyi tərəfindən yaranan yeni, digər gəlir hesabı ilə müəyyən olunur. Bu baxımdan daşınma prosesi zamanı nəqliyyatın səmərəliliyinin seçilməsi yük və sərnişin daşınma əməliyyatlarının nəqliyyat növləri arasında düzgün müəyyən olunması iqtisadi əlaqələrə təsir göstərən mühüm faktorlardan biri kimi qiymətləndirilir. İkinci iqtisadi əlaqələrin inkişafına təsir göstərən istehsal sahələrinin formalaşması üçün kifayət qədər təbii resurslara malik olmasıdır. İran və Türkiyə kimi dövlətlərlə qonşuluq mövqeyində olması Naxçıvanın iqtisadi əlaqələrinin inkişafında mühüm amil hesab edilir. Eyni zamanda daxili və xarici iqtisadi əlaqələrin inkişafı məqsədilə daşınma prosesində məhsulların nəqliyyat sahələri arasında optimal bölüşdürülmə variantlarının seçilməsi də mühüm amil kimi qiymətləndirilir.

Naxçıvan iqtisadi əlaqələrinin intensivləşməsi üçün ilk növbədə istehsal sahələri məqsədyönlü şəkildə inkişaf etdirilir. Ulu Öndər Heydər Əliyevi həmişə ən çox düşündürən fikir Naxçıvan MR-i blokada şəraitindən çıxarmaq, Bakı-Tblisi-Qars yolunun gələcəkdə Qars-İqdır-Naxçıvan dəmir yol şəbəkəsinə qoşulması və Naxçıvan MR-in gələcəkdə Türkiyə ərazisindən keçməklə sərnişin və yüklərin Avropaya çıxarılmasını təmin etməklə yanaşı, Avropaya inteqrasiya olunması və Naxçıvanda Azad İqtisadi zona yaradılması olub.

Boru nəqliyyatı da sənayenin inkişafına müsbət təsir göstərir. Azərbaycanın enerji əhəmiyyətli resursları ölkənin daxili tələbatlarını ödəməklə yanaşı, Avropanın bir sıra region ölkələrinin daxili tələbatını ödəmək imkanlarına malikdir. XX əsrin 50-ci illərində ilk dəfə olaraq Bakı-Tbilisi-Batumi neft kəmərinin inşa edilməsi Azərbaycanın xam neftinin Batumi şəhərində yerləşən neft emalı zavoduna nəql olunmasından başlanılır. Bundan sonra 1959-cu ildə isə Qaradağ-Ağstafa-Tbilisi kəməri istismara verilir. Azərbaycanın müstəqillik qazanması beynəlxalq əhəmiyyətli boru kəmər layihələrinin inkişafına təsiri daha da güclənirdi. Həmin beynəlxalq əhəmiyyətli boru kəmər layihələrinə Bakı Novorossiysk; Bakı-Tbilisi Ceyhan neft kəmərləri və Bakı-Tbilisi Ərzurum qaz kəmərləri aid edilir (7). Azərbaycanın enerji resurslarının dünya bazarına nəql olunmasında perspektivli layihələrdən olan Trans Adriatik boru kəməri (TAP), Trans Anadolu boru kəməri (TANAP), Cənubi Qafqaz boru kəməri Avropanın region ölkələrinin maye yanacaqla təmin olunmasında mühüm əhəmiyyət kəsb etmişdir (7).

Bu gün ölkəmizdə turizm sənayesi sürətlə inkişaf edir. Turizm sənayesinin inkişafı üçün ölkəmiz əlverişli şəraitə və iqtisadi-coğrafi mövqeyə malikdir, burada nəqliyyat sektorunun demək

olar ki, bütün növlərindən istifadə edilir (8). Bu baxımdan Naxçıvan Muxtar Respublikası da bu sahədən yəni turizm sənayesi sahəsindən kənarda qalmır. Muxtar respublikada rahat avtomobil yollarının çəkilməsi, beynəlxalq aeroportun yerləşməsi buraya gələn xarici qonaqlar üçün turizm yerlərinə ekskursiyalar təşkil etməyə imkan verir. Naxçıvandan Türkiyə Respublikasının bəzi şəhərlərinə hava nəqliyatının mövcud olması turizm sənayesinin də inkişafına müsbət təsir göstərir.

Yüklərin daşınmasına gəldikdə isə bunun üçün dövlətin tənzimlədiyi müyyən qanun və qaydalar mövcuddur. Bu şərtlərə nəzər yetirək:

Yüklərin bir yerdən başqa yerə daşınmasında asağıdakı əməliyyatlar aparılır:

1.Yüklərin daşınması üçün hazırlanması;

2.Yüklərin anbarda qablanma yerlərində çəkilmə sahəsində yığılıb qalmasına yol verilməməsi üçün tədbirlərin aparılması;

3.Yüklərin yüklənməsi, daşınması, magistral nəqliyyata verilməsi və yük sahibinə çatdırılması;

4.Magistral növ nəqliyyatlarda yüklərin yerləşdirilməsi.

Yüklərin daşınmasının şərtləri və qaydaları nəqliyyata dair əsasnamədə müəyyən edilmişdir. Məlum olduğu kimi, mallar (yüklər) müxtəlif olduğu kimi, nəqliyyat növləri də müxtəlifdir. Odur ki, malın xüsusiyyətinə uyğun nəqliyyat vasitəsindən istifadə edilir. Yüklər daşınmaq üçün elə nəqliyyata vurulur ki, təbii halı dəyişmədən alıcıya çatdırılsın. Gömrük orqanları məntəqəyə daxil olan malların qablanması vəziyyətini yoxladıqda onun üzərində nişanlanması pozulmamalı, yükün əsas göstəriciləri qabın üzərində olan nişanlanma ilə uyğun olmalıdır. Nişanlanmanın məqsədi yüklə sənədləşmə arasında əlaqə yaratmaqdır. Nişanlanmada (Markirovka) göndərmə məntəqəsinin adı, yeri və təyinat yerin adı və yeri, hər bir partiya yükdə yerin miqdarı, hər bir partiyasının çəkisi, malın növü və s. qeyd edilmişdir. Nişanələr yükün üzərinə və ya əlavə edilmiş yarlika yazılır. Yazılar aydın görünməlidir.

Yüklərin təyinat yerlərinə çatdırılması və qəbulu şərtləri:

Yüklərin daşınmasında əsas şərtlərdən birisi müqaviləyə uyğun olaraq, vaxtında çatdırılmasıdır. Çatdırılmanın 2 növü vardır:

1. Konteynerlə;
2. Adi yük maşını ilə.

Bunlardan əlavə, vaqonla, xırda həcmli konteynerlə.

Yüklər tez xarab olan, adi formalı yüklərə də bölünür. Odur ki, tez xarab olan yüklər üçün qatarın sürəti 550-600 km/gün, adi və iri yüklər üçün V=330 km/gün və xırda yük və konteyner üçün V=180 km/gün təyin edilir. Xırda yüklərin göndərilməsində onun rəsmiləşdirilməsinə əlavə 2 gün, konteynerlərin göndərilməsinə 1 gün (1000 km-dək məsafə üçün) və 1000 km-dən çox olduqda 2 gün vaxt verilir.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin hesabına 2018-ci ildə 19 min 606 manat vəsait daxil olub. Həmçinin bu dövrdə 84 min 930 kiloqram poçt-baqaj yükü daşınıb ki, bunun sayəsində cəmiyyətin hesabına 1274 manat vəsait daxil olub. 2018-ci ilin 6 ayında Culfa Lokomotiv Deposunda lokomotivlər 154 min 433 kilometr yürüş edib, 21 milyon 833 min ton yük lazım olan obyektə çatdırılıb. Plan-proqnoza uyğun 4,5 min ton yük vurulması və daşınması nəzərdə tutulduğu halda, faktiki olaraq 38 min 700 ton yük daşınıb. Bunun 20 min 520 tonu qum-çınqıl, 13 min 920 tonu daş məmulatı, 4 min 200 tonu travertin plitə, 60 tonu tikinti qumu olub ki, bu da nəzərdə tutulduğundan 8 dəfə artıqdır.

Ötən il istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttini rellaşdırmaqla Azərbaycan növbəti dəfə təsdiqlədi ki, regional və qlobal əhəmiyyətli layihələri uğurla həyata keçirir. Artıq bu dəmir yolu xətti ilə Naxçıvan Muxtar Respublikasına da yüklərin daşınmasına başlanılıb. 2018-ci il avqustun 8-də Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə daşınan yüklər qardaş Türkiyənin Qars şəhərində boşaldılaraq yük maşınları vasitəsi ilə Sədərək sərhəd-keçid məntəqəsindən keçməklə Naxçıvana gətirilib. Gətirilən ilk yük isə Naxçıvanın dəmir yolları təsərrüfatının yenilənməsində istifadə ediləcək ağac şpallardır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti

vasitəsi ilə daşımaların təşkili Naxçıvanın daha bir alternativ nəqliyyat dəhlizinə çıxışı deməkdir ki, bu da muxtar respublika üçün mühüm strateji əhəmiyyəti olan hadisədir (6).

Xatırladaq ki, Avropa ilə Asiyanı birləşdirən və dünyanın 100 böyük layihəsi siyahısına daxil olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası və ötən ildən işə salınması xüsusi strateji əhəmiyyət daşıyır. Çünki Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amildir. Ötən ilin oktyabrında dövlət başçılarının iştirakı ilə gerçəkləşən açılış mərasimində də qeyd olunduğu kimi, digər mühüm bir məsələ isə bu layihənin Naxçıvan Muxtar Respublikasına qədər uzanmasıdır. Gələcəkdə Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi də nəzərdə tutulur ki, bu da muxtar respublikanın nəqliyyat müstəqilliyinin təmin edilməsinə və Naxçıvanda istehsal olunan məhsulların xarici ölkələrə rahat daşınmasına səbəb olacaq.

Qeyd edək ki, ölkəmizin əsas hissəsi ilə Naxçıvanı birləşdirən dəmir yol xətləri işğalçı Ermənistan tərəfdən dağıdılsa da, 30 ilə yaxındır ki, blokada şəraitində yaşayan Naxçıvanda dəmir yollar qorunub saxlanılıb və inkişaf etdirilərək ən müasir səviyyəyə çatdırılıb. Hazırda muxtar respublika daxilində dəmir yollarından yük və sərnişin daşımalarında geniş istifadə edilir.

## ƏDƏBİYYAT


1. Aqrar sektorun dayanıqlı inkişafının təmin olunmasında nəqliyyat xidmətlərinin rolu http: economics.com.az/index.php/kitabxana/bizi/meqaleler/item/327-azhrar-sektorun-dayan-zhl-inkishaf nta emin-olunmas-nda-naezhliyyat khidmaetlaerinin-rolu.html
2. Абросимова Е. Юридические инициативы НПО России, Социоло-гический опрос. Москва: 2008
3. Əliyev T. Azərbaycanda nəqliyyat sektorunun müasir vəziyyəti və inkişaf potensialı // Azərbaycan İqtisadiyyat İnstitutunun “Elmi əsərlər”i, № 2, 2018, s.5-11
4. Əsədov A. Nəqliyyat sektorunun inkişafı daha da sürətlənəcək. Xalq qəzeti, 12 iyun 2017
5. Hüseynov S. Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf. Bakı, “Avropa” nəşriyyatı, 2013, 501 s.
6. Qasımov C. Naxçıvan Muxtar Respublikası iqtisadi artıma inamla davam edir. “Palitra” qəzeti, 25 iyul 2018
7. Məmmədov Z., Məmmədova G. Azərbaycanın enerji əhəmiyyətli resurslarının iqtisadi qiymətləndirilməsi // “Kooperasiya” elmi praktiki jurnal, №2 (45), 2017, s.48-52
8. Məmmədov X. Regional konseptual inkişaf: iqtisadi-ekoloji problemlər. Problemlər, konstruktiv aspektlər və tədqiqatın təcrübələri. Bakı, “Elm” nəşriyyatı, 376 s.


## РЕЗЮМЕ

**Шахин Алиев**

## РОЛЬ ТРАНСПОРТНОГО СЕКТОРА В РАЗВИТИИ АГРАРНО-ПРОМЫШЛЕННОГО КОМПЛЕКСА

В статье рассматривается роль транспортного сектора в развитии аграрно-промышленного комплекса Нахчыванской Автономной Республики. В результате проведенных исследований установлено, что транспортный сектор, являющийся продолжателем и дополняющим фактором процесса производства, занимает важную позицию в обеспечении безопосности продовольствия в стране. Обосновывается мысль, что в Нахчыване в перевозке грузов важное место занимают автомобильные и железнодорожные транспорты.

**Ключевые слова:** продовольственная безопасность, роль транспортного сектора, автомобильный транспорт, железнодорожный транспорт, грузоперевозки

**SUMMARY**

**Shahin Aliyev**

**THE ROLE OF THE TRANSPORT SECTOR IN THE DEVELOPMENT OF THE AGRARIAN-INDUSTRIAL COMPLEX**

The article studies the role of the transport sector in agrarian-industrial complexs of Nakhchivan Autonomous Republic. The results of the research show that the transport sector, which is the follower and the complement of the production process has an important position in ensuring food security in the country. The article also studies the important role of automobile and railway transpot in cargo transportation.

**Keywords:** food security, role of transport sector, road transport, railway transport, cargo transportation

**HƏSƏN ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*

# MÜASİR DÖVRDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AQRAR SAHƏNİN İQTİSADİ VASİTƏLƏRLƏ TƏNZİMLƏNMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

*Məqalədə əsas araşdırma obyekti kimi aqrar sahə, orada baş verən hadisə və proseslər seçilmişdir. Bu fəaliyyət sferası haqqında ümumi məlumatın verilməsi təşkilati, idarəetmə və digər komponentlərlə yanaşı, elmi surətdə təşkil olunmuş tənzimlənmə proseslərinin də icrasını nəzərdə tutur. Real vəziyyətin obyektiv qiymətləndirilməsi sahənin tarazlı təkamülünün və müvafiq transformativ proseslərin təcrübəyə tətbiqi üzrə vəziyyətin öyrənilməsinin bazasında mümkündür.*

*Tənzimləmə fəaliyyəti ümumilikdə ölkənin iqtisadi sisteminin, o cümlədən kənd təsərrüfatının inkişaf yönünün, sürətinin, dinamikasının müəyyən edilməsində mühüm rol oynayır. Müvafiq fəaliyyət özündə sahədənkənar, sahədaxili və subyektdaxili mexanizmlərdən və onlara uyğun vasitələrdən istifadəni nəzərdə tutur. Bu mexanizmlər məzmun etibarı ilə inzibati, təşkilati, substantiv, proqnozlaşdırıcı və digər xarakterə malikdirlər.*

***Açar sözlər:*** *aqrar sahə, aqrar islahatlar, tənzimləmə prosesi, tənzimləmə vasitələri, Naxçıvan regionu, Azərbaycan Respublikası*

Naxçıvan Muxtar Respublikasının aqrar sahəsi özünün spesifikliyi ilə seçilən sahədir. İl-ildən artan potensialı, istehsal olunan məhsul həcmi bu sahəyə daima xususi diqqətin ayrılmasından xəbər verir. Sahə üzrə aparılan işlərin öncül vəzifəsinin regionun ərzaq tələbatının daxili imkanlar hesabına maksimal mümkün həcmlərdə ödənilməsi bu sahəyə olan münasibətin aktuallığını, zəruriliyini təsdiqləyir. Müstəqillik dövrünə keçid muxtar respublikanın aqrar sektorunda bir sıra tənzimləyici addımların atılması ilə yadda qalmışdır. Ümumi ölkə miqyasında olduğu kimi, muxtar respublikada da aqrar islahatlara start verilməsi kənd təsərrüfatı sektorunda ciddi quruluş və sosial-iqtisadi dəyişikliklərlə nəticələnmişdir. Torpaqların, aqrotexnikanın, heyvanların dövlət müəssisələrinin tərkibindən alınaraq özəlləşdirilməsi bu sahədə mövcud olan problemlərin hüquqi tənzimləmə aspektində həlli nəticəsində mümkün olmuşdur.

Bazar münasibətlərinə keçid muxtar respublikada müvafiq mexanizmlərin bərqərar olmasında, perspektiv dövrdə onların transformasiyası və daim təkmilləşdirilməsində təzahür etmək imkanlarını qazandı. Aqrar sahədə özəl bölmənin formalaşması, sahibkarlıq hissinin yaranması, 90-ci illərin əvvəllərində mövcud olmuş geriləmənin qarşısının alınması, 1998-ci ildən etibarən ardıcıl, dinamik inkişafın mövcudluğu, ölkənin ərzaq tələbatında daxili istehsalın payının yüksəlməsi aparılan aqrar islahatların məntiqi nəticələri sırasında təzahür edir. Aparılan məqsədyönlü siyasət özünün nəticələrini haliyədə də ifadə etməkdədir. Naxçıvanda 2019-cu ildə nisbi ifadədə istehsal sahələri üzrə ən böyük artım templərinə (5.8 %) malik olan aqrar sektor istehsal olunan məhsul həcminin dəyər ifadəsinə görə 507 milyon manatı ötmüşdür. Bu dövrdə regionun öz vəsaitləri hesabına aktiv dövriyyəyə cəlb olunan əkin sahələri 200 hektar artırılmış, bir çox məhsul növlərinin istehsalında irəliləyişlərə nail olunmuşdur. Nəzərdən keçirilən dövrdə həmçinin;

- ✓ ət istehsalında 2,1%-lik, süd istehsalında 1,8%-lik müsbət dinamikanın qorunması;
- ✓ istehlakçıların ilboyu keyfiyyətli aqrar məhsullarla təminatı üçün 3 soyuducu anbarın, 3 istixananın istismara verilməsi;
- ✓ 4 heyvandarlıq təsərrüfatının yaradılması;
- ✓ 4552 cins balanın alınması;
- ✓ heyvandarlığa verilən güzəştli kreditlərin 6,2% artırılması;
- ✓ əkinçilikdə həyata keçirilən subsidiyalaşma proseslərinin mütəmadiliyinin təmin edilməsi (hər hektar hesabına ödənilən məbləğlər, yanacaq və sürtkü materiallarının dəyərinin bir hissəsinin

dövlət büdcəsi tərəfindən qarşılanması, suvarma sistemlərinin əldə olunması zamanı onların dəyərinin 40%-nin dövlət tərəfindən ödənilməsi və s.);

✓ aqrar sahə bazasında tamamilə regionun daxili tələbatını birbaşa və ya sənaye emalı vasitəsilə ödəyən, istehsal olunan ərzaq məhsulların sayının 107-yə çatdırılması və digər bu kimi göstəricilər müvafiq sahədə aparılan sistemli işlərdən xəbər verir.

Eyni zamanda bir faktı qeyd etmək yerinə düşər, bu məkanın əhalisinin 70%-ə qədəri kəndlərdə məskunlaşmışdır. Onu da yaddan çıxarmaq lazım deyil ki, 2016-cı ilin statistik nəticələrinə görə, muxtar respublikanın Ümumi Daxili Məhsul göstəricisində 16,6%-lik paya malik olan aqrar sahə yüzlərlə məhsul növünün istehsalı formasında əhalinin və emal sektorunun tələbatının ödənilməsində iştirak edir, digər sahələrin inkişafına istehlakçı formasında təsir göstərir. Bəhs olunanlar regionda aparılan və aparılması nəzərdə tutulan tənzimləmə proseslərinin aktuallığına diqqəti bir daha çəkir.

Müşahidələr göstərir ki, tənzimləmədə əlahiddə diqqət muxtar respublikada öndə olan aqrar sahə istiqamətlərinə verilməkdədir. Məsələn, köhnə proqramların müddətinin başa çatması ilə əlaqədar olaraq, 2016-cı ilin 8 fevralında qəbul olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”, 2016-ci ilin 26 noyabrında qəbul olunmuş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”, digər bu kimi davamlılığı ifadə edən və ya yeni proqramlar və müxtəlif səviyyəli hüquqi-normativ aktlar bu istiqamətlərin inkişafında əsaslı dönüş yaratmaq məqsədini güdür. Bəhs olunan məsələlərin hüquqi sənədləşdirmə və əsaslandırma baxımından hazırlanması və icrası plana uyğun şəkildə həyata keçirilməkdədir.

Sadalanan müsbət meyllərlə yanaşı eyni zamanda aqrar sahədə aparılan monitorinqlər fəaliyyətin genişləndirilməsi üçün ehtiyat mənbələrinin mövcudluğundan xəbər verir və tənzimləmə sahəsində bir sıra işlərin aparılması zəruriliyini gözlər önünə sərir. Deyilənlərin sistemli şəkildə ifadə olunması mövcud olan problemlərin kökünü, əsasən, aşağıdakılarda axtarmaq lazımdır:




Verilmiş təsnifatda qeyd olunan məsələlər aqrar sahə üzrə görülməli olan işlərin konturlarına aydınlıq gətirmiş olur. Sahəvi tənzimləmənin Naxçıvan regionunda tətbiqinin məqsədi bir tərəfdən ümumi sahəvi xarakter daşıyacağı halda, digər tərəfdən konkret fəaliyyət istiqamətlərini əhatə etməkdən ibarət olmalıdır. Göstərilən maddələrdən də aydın olur ki, aqrar istehsalda ekstensivliyin üstün mövqeyinin aradan qaldırılması, daha mütərəqqi intensiv addımların atılması öz zəruriliyini qorumaqdadır.

Beynəlxalq praktikada qəbul olunmuş, dünyanın aparıcı ölkələrində tətbiqini tapan "mövcud ərazidə daha məhsuldar sortların əkini" yaxud "hər baş hesabı ilə daha çox məhsul almaq" prinsipinə köklənmək istər muxtar respublikanın daxili tələbatının ödənilməsi, istərsə də regionun ixrac potensialının artırılmasında yeni istehsal imkanlarının əldə olunmasının zəruri zəminidir. Bu sahədə çoxtərəfli fəaliyyətin təmin olması da ön plana çəkilməlidir. Belə ki, respublikanın aqrar sahədə ixtisaslaşan elmi-tədqiqat institutları ilə daimi əlaqələrin formalaşdırılması, eksperimental təsərrüfatların nailiyyətlərindən istifadə bu sahədə öz nəticələrini vermiş olacaqdır. Digər tərəfdən "Aqrolizinq" xətti ilə gətirilən heyvanların, toxum və gübrələrin daha məhsuldar, inkişafa təsir edəcək sort və növlərinin muxtar respublikada tədarük olunması da bəhs olunan istiqamətdə vacib məsələlərdən hesab olunmalıdır. Bəllidir ki, Azərbaycan Respublikasında təşkil olunmuş "Aqrolizinq" MMC-nin mərkəzlərindən biri Naxçıvanda yerləşir və onun muxtar respublika daxilində artıq 3 inzibati rayonda törəmə müəssisələri mövcuddur. Bu müəssisənin əsas vəzifəsi regionda fəaliyyət göstərən kəndli sahibkarların texnikaya, müxtəlif texniki vasitələrə, gübrələrə, cins, yüksək məhsuldarlığı ilə seçilən və muxtar respublikaya iqliminə uyğunlaşa bilən bitki növlərinə və heyvanlara olan ehtiyacının imtiyazlı maliyyə şərtləri ilə ödənilməsidir.

Həmçinin xüsusi təyinata malik proqramların və digər icra təyinatlı tənzimləyici aktların (tərkibinin idarəetmə, maliyyə, kredit, hesablaşmalar, infrastruktur, məsləhət və s. istiqamətləri əhatə edən) qəbulu, bu sahədə nəzərdə tutulan işlərin icrası kənd təsərrüfatına öz müsbət təsirlərini göstərməkdədir. Bu istiqamətdə görüləcək ilk işlərdən biri aqrar sahibkarlar arasında zəruri maarifləndirmə işlərinin aparılması yolu ilə həyata keçiriləcək tənzimləmə xarakterli işlərin mahiyyətinin açıqlanmasıdır. Düşünürük ki, ümumi və sahəvi tənzimləməyə aid hüquqi sənədlərin, Dövlət Proqramlarının və ya aidiyyatı qərarların qəbulu məsələnin bir tərəfidir. Lakin onların sahibkarlıq subyektləri tərəfindən qəbul olunması, mənimsənilməsi və tələblərə uyğun icrası bu işlərin sistemli şəkildə təşkil olunması zərurətindən xəbər verir.

Təsərrüfatların fəaliyyətinə təsir edən amillərdən biri kimi sahibkarlara ibtidai iqtisadi bilik və bacarıqların aşılanmasıdır. Bu məsələyə kompleks yanaşma aşağıdakı problemlərin həllinə şərait yarada bilər:

1. subyektlər müstəqil surətdə öz fəaliyyətini iqtisadi cəhətdən qiymətləndirə bilər (maya dəyərinin hesablanması, gəlirlərin müəyyən edilməsi və s.);
2. maliyyə vəsaitlərinin istifadəsində optimallığı təmin edə bilər;
3. kredit ehtiyaclarını ödəmək üçün sənədləşmə fəaliyyətini həyata keçirmək imkanına malik ola bilər (biznes-planların hazırlanması və s.);
4. satış proseslərində müxtəlif üsullardan istifadə edə bilər (elektron ticarət imkanından istifadə, daimi müştərilərlə uzunmüddətli razılaşmaların əldə olunması, sifarişçilərlə fərdi qaydada "qapıda təslim" variantından istifadə və s. );
5. kənar subyektlərlə hesablaşmaları qanunauyğun, maliyyə tələblərinə müvafiq şəkildə apara bilər;
6. zəruri istehsal və digər ehtiyacların müəyyən edilməsi, bu əsasda subyektin təchizat məsələlərinə (cinsi, maliyyə və digər yönlərdən) aydınlıq gətirilməsi;
7. zərurət yarandıqda aqrar sahə mütəxəssislərindən zəruri məsləhətlər ala bilər (bunun üçün müraciət edəcəyi ünvanlar bəlli olmalıdır);
8. subyektdaxili kiçik həcmli istehsal və digər infrastruktur istiqamətlərini (saxlama anbarının, təsərrüfatdaxili kiçik emal sahələrinin yaradılması və s.) müstəqil qurmaq imkanına malik ola bilər və s.

Bəhs olunan məsələdə ikinci yol kimi təsərrüfatların müvafiq bilik və təcübəyə malik fərdi peşəkarların və ya aqrar sahə üzrə ixtisaslaşmış və kompleks xidmətləri göstərən subyektlərin xidmətlərindən istifadə etməsi (müddətli fərdi müqavilələrin bağlanması yolu ilə) göstərilə bilər.

Sahəvi tənzimləmə digər məsələlərlə yanaşı, sahibkarların rayonlar üzrə əlaqələndirmə şuralarının və birliklərinin yaradılması özünün əhəmiyyətini qorumaqdadır. Belə quruluşun fomalaşdırılması sahibkarlara imkan verəcək ki, eyni məhsul istehsalı ilə məşğul olan digər sahibkarlarla birbaşa ünsiyyət qurulsun, informasiya mübadiləsi mümkün olsun, istehsalda mütərəqqi üsullardan, texnologiyadan istifadə təcrübəsi yayılsın; maliyyə və digər məsələlərin qiymətləndirilməsində daha

səmərəli variantların tətbiqi mümkün olsun; infrastruktur imkanlarından istifadənin mümkün maksimallığına nail olunsun, bu sahədə olan bəzi məsələlərdə çatışmazlıqların aradan qaldırılmasında sahibkarların iştirakı təmin olunsun; rayonların ümumi ərzaq ehtiyacları nəzərə alınmaqla istehsal həcmlərində optimallıq qorunsun; sahibkarların fərdi problem və ehtiyacları dinlənilməklə yaranmış vəziyyətdən çıxış yollarının axtarılması birgə təmin edilsin və s. Bəhs olunan məsələdə həmin şura və ya birliklərin fəaliyyətinə aydınlıq gətirilməsi, onların fəaliyyət öhdəlikləri və səlahiyyətlərinin müəyyən edilməsi tənzimləyici addımların atılması xüsusiyyətləri ilə müəyyən edilməlidir.

Baxılan məsələlər sırasında sosial sahələrdə aparılan işlər də yaddan çıxarılmamalıdır. Burada kənd əhalisinin sağlamlığının qorunmasını, kənddə fəaliyyət göstərənlərin ixtisas artırma kurslarına cəlbi, onlar üçün müxəlif mədəni-məişət təyinatlı tədbirlərin təşkili kimi işlər öz əhəmiyyətini qorumaqdadır. Qeyd etmək yerinə düşər ki, muxtar respublikanın kəndlərində ibtidai səhiyyə ocaqlarının yaradılması prosesi artıq səkkiz ildir ki, davam etdirilməkdədir. Belə ki, regionun hər bir kəndində onun əhalisinin sayından asılı kənd mərkəzlərinin yaradılması çərçivəsində feldşer-mama məntəqələrinin və d. təyinatlı səhiyyə bölmələrinin yaradılması mərhələli şəkildə həyata keçirilməkdədir. Kəndli sahibkarların ixtisas artırma kurslarına cəlbi özünün kompleksliliyi ilə seçilməli və onların fəaliyyətini əhatə edən istiqamətləri əhatə etməlidir. Düşünürük ki, müvafiq fəaliyyət ya həmin rayonların icra hakimiyyətləri və ya kənd təsərrüfatı idarələri tərəfindən, yaxud da yuxarıda bəhs etdiyimiz Şuralar (Birliklər) tərəfindən təşkil oluna bilər. Aparılacaq işlərin əsas məqsədi kənddə formalaşan sahibkar sinfinin öz fəaliyyətində rastlaşdığı qeyri-müəyyənlik, məlumatsızlıq hallarının aradan qaldırılmasıdır. Kənd zəhmətkeşlərinin mədəni səviyyəsini artırmaq, onların həyatını rəngarəng etmək məqsədilə kənddə müxtəlif mədəni tədbirlərin (səyyari kinofilmlərin və teatr baxışlarının, konsertlərin və digər əyləncəli tədbirlərin) təşkili öz əhəmiyyətini qorumaqdadır. Bu baxımdan ilk növbədə yerli mədəniyyət və incəsənət kollektivlərinin tədbirlər planlarında müvafiq məsələlər öz əksini tapmalı, kənd yerlərində öncədən aparılacaq məlumatlandırma işləri təşkil olunmalıdır.

Məişət işləri çərçivəsində muxtar respublikanın kənd yaşayış mərkəzlərində sənaye emalı və gündəlik tələbat mallarının satışının təşkil olunması bu inzibati vahidlərin əhalinin digər sahələrin zəruri məhsullarına görə müraciət etmələri zamanı yaranan çətinliklərin qarşısını almaq, onların yaşa tərzini asanlaşdırmaq və bir qisim problemləri aradan qaldırmaq məqsədini güdür. Bununla belə bərqərar olan və perspektiv dövrdə yer ala biləcək ehtiyaclardan asılı olaraq, bu sahədə əlavə işlərin görülməsi də mümkündür.

Muxtar respublikada subsidiyalaşma siyasətinin sistemləşdirilməsi mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Bu məqsədlə regionun aqrar sektorunun problemləri müəyyən edilməli və onların maliyyə tutumuna aydınlıq gətirilməlidir. Aparılacaq müşahidələr və təhlillər əsasında subsidiyaların yönəldiləcəyi prioritet istiqamətlər müəyyən edilməlidir. Subsidiyaların optimal ölçülərinə aydınlıq gətirildikdən sonra onlardan istifadə edəcək vahidlər dəqiqləşdirilməli və illik subsidiya həcmləri smetalaşdırılmalıdır. Digər tərəfdən, haliyədə verilən subsidiyaların səmərəliliyinin artırılması da öz aktuallığını qorumaqdadır. Məsələn, bitkiçilik sahələri üzrə hər hektar əkinə ödənilən məbləğlər ölkə və muxtar respublika üzrə kifayət qədər böyük rəqəmləri təşkil edir. Belə olduqda sahibkar ancaq bitkilərin əkilməsi həcmlərində maraqlı olur. Həmin subsidiyaların əkin sahələrinin həcminə deyil, hasil edilmiş məhsul həcminə görə verilməsi sahibkarların istehsalda "maraqlı" olduqları dövrün uzadılmasına, daha çox məhsul istehsalına, məhsuldarlıq göstəricisinin artımına və son nəticədə isə daxili bazarda həmin məhsulların daha dolğun ödənilməsinə və ixrac imkanlarının genişlənməsinə gətirib çıxaracaqdır.

Naxçıvan Muxtar Respublikası coğrafi baxımdan bir neçə ölkə ilə həmsərhəddir. Onun ərazicə yerləşməsi reallıqlarından məharətlə istifadə etməklə aqrar sahə imkanlarının reallaşdırılması sahəsində çoxsaylı və rəngarəng işlərin icrası mümkündür. İstehsalın stimullaşdırılması baxımından atılan addımlardan biri kimi sərhədyanı ticarətin təşkili, aqrar məhsulların istehsalı və reallaşdırılması sahəsində bərqərar olmuş xarici təcrübədən qarşılıqlı istifadə hesab oluna bilər. Bu istiqamətdə

gömrük qaydalarına dəyişikliklərin edilməsi, ikitərəfli və çoxtərəfli məhsul keçidlərinin sadələşdirilməsi, "yaşıl dəhlizlərin" həqiqətən işlək, maneələr yaratmayacaq vəziyyətə gətirilməsi mühüm əhəmiyyət kəsb edir. Aqrar məhsulların reallaşdırılması istiqamətində regionda istirahət günləri çərçivəsində mütəmadi satış yarmarkalarının təşkili kənd təsərrüfatının inkişafı baxımından müsbət qiymətləndirilməlidir. Bununla belə iri məskunlaşma ərazilərində aqrar firma mağazalarının fəaliyyətinin təşkil edilməsi əhali istehlakının təzə, gündəlik yığılan məhsullarla ödənilməsində mühüm rol oynayacaqdır. Bu xidmət ya irihəcmli bir neçə təsərrüfatın, yaxud da hər hansı rayon istehsalçılarının eyni mağazanın imkanlarından birgə istifadəsi formasında təşkil oluna bilər.

Bütün dünyada öz aktuallığını qoruyan və ilk növbədə kənd təsərrüfatı sektoruna aidiyyatı ilə seçilən məsələlərdən biri də ekoloji təmiz məhsulların istehsalının sistemləşdirilməsi və nizamlanmasıdır. Bu baxımdan aparılan tənzimləmə siyasəti əsaslı elmi tədqiqatlara əsaslanmalı, özündə gübrə və digər vasitə və komponentlərdən istifadə həcmlərini dəqiq ifadə etməlidir. Torpağın keyfiyyətinin müəyyən edilməsi, onun məhsulverimi imkanlarının müxtəlif aqrar məhsullar üzrə dəqiqləşdirilməsi, normadan artıq istifadəsi istehlakçıların səhhətində müxtəlif xəstəliklərin yaranmasına yol açacaq komponentlərin tətbiqi şərtlərinin tənzimlənməsi son nəticədə istehlakın tərkibinin müəyyən edilməsi baxımından da zəruridir. Müşahidələr göstərir ki, xüsusilə də tərəvəzçilikdə belə hallarla hələ də rastlaşılmaqdadır. Buna aqrotexniki qaydaların digər istiqamətlərini əhatə edən digər nöqsanlar da əlavə olunmalıdır.

Muxtar respublikada iri aqrar subyektlərin yaradılması təcrübəsindən istifadə mərhələli şəkildə həyata keçirilməkdədir. Bu sahədə atılacaq tənzimləyici addımlar sırasında istifadəyə yararlı olmayan torpaqların aktiv istehsal dövriyyəsinə cəlbi formasında yeni təsərrüfatların yaradılması, yaxud artıq mövcud olan kiçik təsərrüfatların (payı bəlli qaydada) birləşdirilməsi formasında aparılacaq işlər aid edilə bilər. Belə addımlar istehsal olunan məhsulların maya dəyərinin azalmasına, kompleks xərclərin səviyyəsinin aşağı düşməsinə, təsərrüfatların maliyyə və digər imkanlarının artırılmasına gətirib çıxaracaqdır. Haqqında bəhs olunan və digər analoji məsələlər muxtar respublikada aqrar sahənin tənzimlənməsi baxımında çoxsaylı təkmilləşdirmə işlərinin görülməsinə, müvafiq təyinatlı addımların atılmasına ehtiyacın olduğunu göstərir. Bu baxımdan işlənilməli olan tənzimləmə proqramlarının daxili şərait və imkanlara əsaslanması, ifadə etməyə çalışdığımız və fikrimizcə, təkmilləşdirməyə ehtiyacı olan istiqamətlərin ardıcıllıq, sistemlilik şəraitində nəzərdən keçirilməsi və onlar üzrə işlərin görülməsi məqsədəuyğun hesab edilir.

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazar: konseptual əsaslar və inkişaf istiqamətləri. Bakı, AzTU-nun mətbəəsi, 2015, 301 s.
2. Abbasov İ.D. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı, Səda, 2011, 418 s.
3. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı, ADİU-nun mətbəəsi, 2007, 792 s
4. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı, Elm, 2006, 380 s.
5. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan, Əcəmi, 2016, 344 s.
6. Hüseynov X.A. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı. Naxçıvan, Əcəmi, 2016, 352 s.
7. İbrahimova N.H. Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili. Naxçıvan, Əcəmi, 2015, 184 s.
8. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və idarə edilməsi. Bakı, Nurlan, 2011, 272 s.
9. Minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının istehlak normaları. Azərbaycan Respublikası NK-nın 06.07.2014-cü tarixli 182 saylı qərarı
www.stat.gov.az/sourse/food_balances
10. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşdirmə siyasətinin konseptual

əsasları. Bakı, Avropa, 2013, 417 s.
11. Sərdarov T.Ə. Azərbaycan Respublikasında regionların sosial infrastrukturunun tənzimlənməsi problemləri. Bakı, Elm, 2010, 311 s.
12. Ефременко Н.В., Галицын Н.И. Государственное регулирование национальной экономики: реалии и проблемы. М: Аристей, 2013, 629 с.
13. Кузнецов В.В. Экономика сельского хозяйства. Саратов: Юность, 2007, 446 с.
14. Малыш М.Н. Государственное регулирование экономики. СПб: Наука, 2010, 499 с.
15. Оболенский В.П. Показатели эффективности и конкурентоспособности в сельском хозяйстве. Казань: Прогресс, 2015, 662 с.
16. Серова Е.С. Аграрные реформы в переходных экономиках: общие цели и различные траектории. Новосибирск: Экомир, 2009, 229 с.
17 www.statistika.nmr.az

## РЕЗЮМЕ

**Гасан Аббасов**

## ОСОБЕННОСТИ РЕГУЛИРОВАНИЯ АГРАРНОЙ ОТРАСЛИ ЭКОНОМИЧЕСКИМИ СРЕДСТВАМИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ НА СОВРЕМЕННОМ ЭТАПЕ

В статье основным объектом исследования выбрана аграрная отрасль, а также процессы, происходящие в этой сфере. Дача общей информации о деятельности в этой сфере наряду с организационными, управленческими и другими компонентами также подразумевает исполнение научнообоснованных регулировочных процессов. Объективное оценивание реального положения возможно на базе сбалансированного усовершенствования отрасли и применения на практике соответствующих трансформативных процессов.

Регулировочная деятельность играет важную роль в определении как общего состояния экономической системы страны, так и направлений, активности и динамики сельского хозяйства. Соответствующая деятельность воплощает в себе как внеотраслевые, внутриотраслевые и внутрисубъектные механизмы, так и использование восполняющих их средств. Эти механизмы в сущности обладают администрационным, организационным, субстанционным, прогнозировочным и другим характером.

**Ключевые слова:** аграрная отрасль, аграрные реформы, процессы регулирования, средства регулирования, Нахчыванский регион, Азербайджанская Республика

## SUMMARY

**Hasan Abbasov**

## FEATURES OF REGULATION OF THE AGRICULTURAL INDUSTRY BY ECONOMIC MEANS IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AT THE MODERN STAGE

In the article, the agricultural sector, as well as the processes occurring in this area, were selected as the main object of research. Giving general information about activities in this area, along with organizational, managerial and other components, also implies the implementation of scientifically based regulatory processes. An objective assessment of the real situation is possible on the basis of a balanced improvement of the industry and practical application of the corresponding transformative processes.

Regulatory activity plays an important role in determining both the general state of the country's economic system and the directions, activity and dynamics of agriculture. The corresponding activity embodies both extra-industry, intra-industry and intra-subject mechanisms, as well as the use of funds to supplement them. These mechanisms in essence have an administrative, organizational, substantive, forecasting and other character.

**Key words:** agricultural industry, agricultural reforms, regulatory processes, regulatory tools, Nakhchivan region, Azerbaijan Republic

**ÜLVİ BAXIŞLI**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SAHİBKARLIĞIN İNKİŞAFINDA DÖVLƏT DƏSTƏYİNİN ROLU VƏ ONUN NƏTİCƏLƏRİ

*Məqalədə müstəqillik əldə olunandan sonra muxtar respublikada həyata keçirilən sahibkarlıq fəaliyyətindən bəhs edilmişdir. Bu sahədə həyata keçirilən dövlət proqramları və reallaşdırılan layihələrin iqtisadi səmərəliliyinə toxunulmuşdur. Sahibkarlığın müasir bazar iqtisadiyyatının əsası olduğu və onun inkişafını təmin etmədən iqtisadi inkişafın mümkünsüzlüyü vurğulanmışdır.*

*Həmçinin məqalədə muxtar respublikada sahibkarlığın digər iqtisadiyyatın sahələri ilə qarşılıqlı əlaqə və asılılığından bəhs edilmişdir. Burada sahibkarlığa dövlət qayğısı və bu sahədə həyata keçirilən dovlət proqramlarının nəticələri statistik göstəricilərlə göstərilmiş, eyni zamanda müqayisəli təhlili verilmişdir*

***Açar sözlər**: Dövlət proqramı, sahibkarlıq, sənaye, iqtisadi artım, həyat səviyyəsi*

Muxtar respublikamızın müasir sosial-iqtisadi inkişafının əsas faktorları arasında sahibkarlıq fəaliyyəti mühüm yer tutur. Bu sahənin genişləndirilməsi və iqtisadiyyatın şaxələndirilməsi diqqət mərkəzindədir. Belə ki, sahibkarlığın daha da inkişaf etdirilməsi, onun rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verib və Naxçıvan Muxtar Respublikası ölkəmizdə investisiya cazibədarlığı baxımından liderdir. Qazanılmış müsbət təcrübə ilə cari ildə muxtar respublikamızda sahibkarlığa, xüsusilə də kiçik sahibkarlığa dövlət dəstəyi davam etdirilməkdədir.

Müasir iqtisadiyyatda qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi mühüm şərtlərdəndir. Muxtar respublikamızda müasir inkişaf mərhələsində sahibkarlıq fəaliyyətinin təşviq olunması, məhsulların ixrac imkanlarının genişləndirilməsi və yeni layihələr üçün kredit dəstəyinin verilməsi bu sahənin uğuru üçün vacib məsələlər kimi daim diqqətdə saxlanılır. Bu baxımdan muxtar respublikamızda iqtisadi inkişafın davamlılığının təmin edilməsi məqsədilə yeni sahibkarlıq sahələrinin yaradılması və onlara kredit dəstəyinin göstərilməsi davam etdirilir.

Sahibkarlığın inkişafı iqtisadi tərəqqinin əsas meyarlarındandır. Çünki istənilən bölgənin tərəqqisi sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. İllərdir, dünya təcrübəsi də göstərir ki, bazar iqtisadiyyatı şəraitində bu sahəni inkişaf etdirmədən heç bir tərəqqidən, yeniliklərin tətbiqindən, ümumilikdə isə hərtərəfli inkişafdan danışmaq mümkün deyil. Belə ki, insanların artan tələbatlarını ödəyə bilmək, mövcud resurslardan səmərəli istifadə etməklə əhalinin yaşayış səviyyəsini yüksəltmək müasir dövr iqtisadiyyatının əsas prioritetlərindəndir. Bu mənada, Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın əsas amillərindən olan sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, onun rəqabətqabiliyyətliliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən bütün tədbirlər regionun investisiya cazibədarlığının artırılmasında mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bazar münasibətləri istiqamətində inkişafı insanların işə olan münasibətini dəyişmiş, onların sahibkarlıqla bağlı maraqlarını daha da gücləndirmişdir. Artıq muxtar respublikada iqtisadiyyatın formalaşmasında özəl sektor, xüsusilə də kiçik və orta sahibkarlıq mühüm rol oynayır.

İqtisadiyyat sahəsində aparılan islahatlar muxtar respublikada bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar olmasına şərait yaratmış, investisiyalar, müasir texnologiyalar və idarəetmə təcrübəsi cəlb etməklə rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, yeni iş yerlərinin açılmasına və nəticə etibarilə xalqın maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

Sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə sahibkarlığın hüquqi bazası dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirilmişdir. İdarəetmənin və iqtisadiyyatın bütün sahələrində mühüm əhəmiyyətə malik qanunlar, proqramlar və fərmanlar qəbul edilmişdir. Sahibkarlıq

infrastrukturunun zəruri mexanizmləri yaradılmışdır. Sahibkarlara maliyyə, informasiya və məsləhət xidmətləri göstərən strukturlar formalaşmışdır. Sahibkarlığın inkişafı üçün zəruri baza formalaşdıran özəlləşdirmə prosesinin birinci mərhələsi başa çatmış, özəlləşdirmə sahəsində II Dövlət Proqramı qəbul edilmişdir. Bunun nəticəsində artıq iri və orta müəssisələrin səhmdar cəmiyyətlərə çevrilməsi və özəlləşdirilməsi növbəti həlledici mərhələyə daxil olmuşdur. Bu mərhələnin həyata keçirilməsində başlıca vəzifə səmərəli sahibkarlıq bölməsinin yaradılmasından ibarətdir.

Naxçıvanda mövcud olan təbii sərvətlərdən və istehsal-əmək ehtiyatlarından səmərəli istifadə ötən dövr ərzində sənaye və kənd təsərrüfatı sahələrində sərmayə qoyuluşlarının həcminin artmasına şərait yaradıb. Region əhalisinin tələbatlarının ödənilməsi, xüsusən də blokada şəraitində zəruri olan məhsulların istehsalı baxımından buradakı özəl sektor qarşısında ilk mərhələdə çox çətin həll edilə biləcək məsələlər idi. Lakin zaman keçdikcə bütün bunlar mərhələli şəkildə həll olunub. Bu mənada, muxtar respublikada sahibkarlıq potensialının formalaşdırılması həmişə dövlətin diqqət mərkəzində saxlanılıb. Dünya təcrübəsinə əsasən biznesə gedən yolda əldə olunan uğurlar təkcə bazarın tələbatı ilə deyil, həm də dövlət və sosial maraqların ödənilməsi ilə mümkündür. Başqa sözlə, sahibkar təkcə öz mənfəəti üçün deyil, həm də biznesi ilə digər insanlar üçün faydalı ola bilirsə, bu zaman o, işində uğur qazanacaqdır. Muxtar respublikamızda sahibkarlığın inkişaf yoluna nəzər saldıqda görürük ki, ötən dövr ərzində özəl sektorun üzərinə düşən vəzifələr, ümumən, bazar iqtisadiyyatı şəraitində mövcud olan dövlət-vətəndaş-sahibkar münasibətlərinin formalaşması ilə öz həllini tapıb. Bu bir daha sahibkarlığın cəmiyyətimizdəki artan nüfuzundan, onun daşıdığı məsuliyyətin ağırlığından xəbər verir. Əgər bir vaxtlar muxtar respublikamızda sahibkarlar yalnız kiçik həcmli işlərlə kifayətlənirdilərsə, indi onlar ən müxtəlif istehsal və kənd təsərrüfatı sahələrində, sağlamlıq, turizm, ticarət, digər xidmət sektorlarında genişhəcmli layihələr həyata keçirirlər.

Naxçıvan Muxtar Respublikasında sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötmüşdür. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur,bu məhsulların 126 növü ərzaq, 257 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Bu gün muxtar respublikada istər sənayenin, istərsə də kənd təsərrüfatının inkişafı sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait nəticəsində mümkün olmuşdur. Bir faktı qeyd etmək yerinə düşər ki, hazırda muxtar respublikada məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır. Sənaye sahəsində məhsul istehsalının 94 faizi, tikintidə görülən işlərin və nəqliyyat xidmətinin 78 faizi, rabitə xidmətinin 82 faizi, kənd təsərrüfatı, ticarət və ictimai-iaşə xidmətlərinin isə 100 faizi özəl bölmənin payına düşür ki, bu da çox yüksək göstəricilərdir. Sahibkarlığa dövlət dəstəyi və onun inkişafı əhalinin məşğulluq səviyyəsinə də əsaslı dəyişiklik yaratmışdır, təkcə 2018-ci ildə muxtar respublikada 2827 yeni iş yeri yaradılmışdır ki, onun da 2782-si və ya 98,4%-i daimi iş yerləridir.

İqtisadiyyatın sənayeləşməsini sürətləndirmək yolu ilə muxtar respublikanın güclü sənaye mərkəzinə çevrilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi öz nəticəsini verməkdədir. Ötən müddət ərzində Naxçıvan Muxtar Respublikasında rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, bunun nəticəsində yeni iş yerləri yaradılıb. Sənaye məhsulları istehsalının ilbəil sürətlə artması da bu sahədə nəzərəçarpan inkişafın əsas göstəricilərindən biri kimi dəyərləndirilir. İnkişafın mühüm göstəricisi olan ümumi daxili məhsulun (ÜDM) tərkibində sənayenin ilk yeri tutması da bunu təsdiq edir. Belə ki, muxtar respublikada 2018-ci ildə 2 milyard 773 milyon 20 min 500 manatlıq ÜDM istehsal olunub ki, onun da tərkibində ilk yeri sənaye sahəsi tutur. Həmin dövrdə sənaye üzrə 621 milyon 450 min manat dəyərində məhsul istehsal edilib. Bu da 2017-ci il ilə müqayisədə 1,6 faiz çoxdur. Onu da qeyd edək ki, hər bir nəfərə düşən ÜDM-in həcmi 2017-ci il ilə müqayisədə 1,9 faiz artaraq 6101 manatı ötüb. Bu, muxtar respublikanın hərtərəfli inkişafının nəticəsidir.

Bu tədbirlərin davamı olaraq qarışıq yem istehsalı, qaynaq çubuğu, kimyəvi tərkibli tikinti materialları istehsalı, plastik tara, tullantı yağların yenidən emalı və bərk sürtkü yağlarının, plastik səbət, xalça, yun və boyaq bitkilərinin tədarükü, Şahbuz rayonunun Badamlı qəsəbəsində "Gəmiqaya

Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni mineral su istehsalı sahəsi, heyvandarlıq, balıqçılıq, quşçuluq təsərrüfatları, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, soyuducu anbar və müxtəlif xidmətlər üzrə 20 sahənin yaradılması davam etdirilib. 2018-ci ildə muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 50 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 18 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilmişdir. Sənayenin inkişafı üçün bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2018-ci ildə 5 milyon 172 min manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 9,1 dəfə çoxdur.

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları da davamlı olaraq yaxşılaşdırılıb. 2018-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə, ümumilikdə, 30 milyon 760 min 400 manat məbləğində kreditlər verilib. Bu da bir il öncəki göstəricidən 2,3 dəfə çoxdur.

Muxtar respublikamızda iqtisadiyyatın ən vacib sahəsi olan kənd təsərrüfatında istehsalın və ixracın stimullaşdırılması, məhsulun rəqabətqabiliyyətliliyinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə dövlət dəstəyi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə imkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", 2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", həmçinin "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi muxtar respublika iqtisadiyyatını gücləndirib, kənd təsərrüfatının kompleks inkişafını təmin edib.

Əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması muxtar respublikada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açıb, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olub. Bundan başqa, yüksəkkeyfiyyətli süd və ət məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı da diqqət mərkəzində saxlanılır. Məhz bütün bunların nəticəsidir ki, təkcə 2018 ildə 480 milyon 21 min 200 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz çoxdur.

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaradıb, 2018-ci ildə 483 milyon 431 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2017-ci illə müqayisədə 5,1% artaraq 424 milyon 266 min 600 ABŞ dolları, 59 milyon 165 min ABŞ dollarını idxal təşkil etmiş və 365 milyon 101 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır

Bütün bunlar blokada şəraitində yaşayan muxtar respublikanın dayanıqlı iqtisadi inkişafının və tərəqqisinin əyani göstəriciləridir. Təbii ki, bu inkişafın və tərəqinin əsası muxtar respublika rəhbərliyi tərəfindən burada həyata keçirilən dövlət proqramlarının və iqtisadi islahatların vaxtında və yüksək dəqiqliklə reallaşdırılmasıdır.

## ƏDƏBİYYAT


1. Ə.Q. Əlirzayev "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi". Dərs vəsaiti. Bakı, 2010, 326 s
2. Qasımov C.Y., Ələsgərova F.Q. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik" dərslik. Naxçıvan, Əcəmi, 2017, 186 s.
3. Bağırov M.S., Mahmudov C.İ. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı problemləri və həlli yolları. Naxçıvan, Əcəmi, 2017, 257 s.

4. http://www.statistika.nmr.az
5. www.economy.nmr.gov.az

**РЕЗЮМЕ**

**Ульви Бахышлы**

**РОЛЬ ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ И РАЗВИТИЯ ПРЕДПРИНИМАТЕЛЬТВА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКА**

В статье говорится об осуществлении предпринимательской деятельности в автономной республике после обретения независимости. Здесь затронуты проводимые в жизнь в этой области государственные программы и экономическая эффективность реализованных проектов. Подчёркивается, что предпринимательство является основой современной рыночной экономики и без обеспечения его развития экономическое развитие невозможно.

Также в статье говорится о взаимной связи и зависимости предпринимательства от других отраслей экономики в автономной республике. Здесь показана государственная забота предпринимательству и статистическими показателями приведены результаты проводимых в жизнь государственных программ в этой отрасли, в то же время даны сравнительные анализы.

**Ключевые слова:** предпринимательство, Государственная Программа, промышленность, экономический рост, уровень жизни.

**SUMMARY**

**Ulvi Bakhıshlı**

**THE ROLE OF GOVERNMENT SUPPORT IN THE DEVELOPMENT OF OWNERSHIP IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AND ITS RESULTS**

The article mentions entrepreneurial activities that have been achieved in Nakhchivan Autonomous Republic after being independent. The state programs implemented in this area and the economic efficiency of the projects implemented have been mentioned. It is emphasized that entrepreneurship is the basis of modern market economy and economic growth is impossible without ensuring its development.

The article also mentions interaction and dependence of the entrepreneurship with other fields of economy in Nakhchivan Autonomous Republic. State care for entrepreneurship and results of state programs implemented in this area are indicated by statistical indicators, as well as its comparative analysis.

**Key words:** State program, entrepreneurship, industry, economic growth, life standart

**MƏDİNƏ ALLAHVERDİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*q_fil@hotmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN ROLU

*Xarici iqtisadi əlaqələr çox mühüm humanitar və siyasi əhəmiyyətə malikdir. Belə ki, ölkələr arasında yalnız sıx siyasi dialoq olduqda birbaşa iqtisadi əlaqələr yaranır. Ona görə də xarici iqtisadi əlaqələr dostluq əlaqələrinin nəticəsi kimi, həm də onun möhkəmləndirilməsinin əsas səbəblərindən biridir. Bu gün beynəlxalq aləmdə bir-biri ilə sıx dostluq əlaqələri olan ölkələrin xarici ticarət dövriyyəsindəki qabarıq rəqəmlər də bunu təsdiq edir. Ona görə də inkişaf etməkdə olan ölkələrdə həyata keçirilən xarici iqtisadi əlaqələr məhz bu istiqamətdə formalaşaraq onların dünya bazarındakı yerinin möhkəmləndirilməsinə yönəldilir.*

***Açar sözlər:*** *ÜDM, xarici iqtisadi əlaqələr, xarici ticarət dövriyyəsi, idxal, ixrac, dünya bazarı, istehsal müəssisələri, sənaye məhsulları, ixracyönümlü məhsul istehsal, prioritet*

Naxçıvanın sosial-iqtisadi göstəricilərinə nəzər salsaq, müstəqillik illərində sosial-iqtisadi sahədə makroiqtisadi göstəricilər hər il yüksələn xətlə davam edib. Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq 2018-ci ildə ümumi daxili məhsul istehsalı (ÜDM-nin) həcmi 2 milyard 773 milyon manatdan artıq olmuşdur ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə bir il öncəyə nisbətən 1,9 faiz artaraq 6101,3 manata çatmışdır. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27,4 faizlə sənaye tutmuş və maddi istehsalın payı 58,6 faiz təşkil etmişdir.

2017-ci illə müqayisədə 2018-ci ildə sənaye məhsulu 1,3 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,1 faiz, kənd təsərrüfatı məhsulu 4,4 faiz, nəqliyyat sektorunda yük daşınması 1,9 faiz, informasiya və rabitə xidmətləri 3,3 faiz, o cümlədən mobil rabitə xidməti 2 faiz artmışdır.

Qeyd edək ki, davamlı iqtisadi və sosial inkişafın daha bir mühüm göstəricisi xarici iqtisadi əlaqələrin inkişafıdır.

Xarici iqtisadi əlaqələrin inkişafı ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının beynəlxalq təsərrüfat miqyasında inteqrasiyasının sürətləndirilməsinin əsas şərtidir. Ölkələr iqtisadi inteqrasiya axınlarına qoşularaq bu yolla öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin ümumi rifah səviyyəsini artırmağa çalışırlar. Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum istifadə edilmədən, xarici iqtisadi əlaqələrin bütün formaları intensiv şəkildə genişləndirilmədən ölkə iqtisadiyyatının inkişafında əsaslı dönüş aparmaq mümkün deyildir. Dünya ölkələrindən heç biri öz inkişafını xarici ölkələrdən təcrid olunmuş şəkildə təmin edə bilmədiyinə görə öz aralarında beynəlxalq və regional səviyyədə iqtisadi əlaqələr yaratmağa çalışırlar.

Naxçıvan Muxtar Respublikasında müxtəlif mülkiyyət formalarının inkişafı, iqtisadiyyatın yüksək maddi-texniki bazaya malik olması, əmək bölgüsü və kooperasiyasının geniş vüsət alması və s. iqtisadiyatımızın beynəlxalq əməkdaşlıqda mövqeyinin daha da artmasına obyektiv zərurət yaradır.

Muxtar respublikada ixracın strukturunda qeyri-neft məhsullarının, o cümlədən ərzaq mallarının çəkisinin artması xarici ticarət-iqtisadi əlaqələrin genişlənməsinə öz müsbət təsirini göstərir. Məlumat üçün bildirək ki, son illər ölkəmizdə qeyri-neft sektorunun davamlı inkişafı ilə bağlı həyata keçirilən tədbirlər nəticəsində bu sahədə rəqabətqabiliyyətli məhsulların istehsalına xüsusi diqqət yetirilib. Artıq bu cür məhsullara dünya bazarlarında maraq getdikcə artır.

Başqa prizmadan baxsaq, xarici iqtisadi əlaqələr çox mühüm humanitar və siyasi əhəmiyyətə də malikdir. Belə ki, ölkələr arasında yalnız sıx siyasi dialoq olduqda birbaşa iqtisadi əlaqələr yaranır. Ona görə də xarici iqtisadi əlaqələr dostluq əlaqələrinin nəticəsi kimi, həm də onun

möhkəmləndirilməsinin əsas səbəblərindən biridir. Bu gün beynəlxalq aləmdə bir-biri ilə sıx dostluq əlaqələri olan ölkələrin xarici ticarət dövriyyəsindəki qabarıq rəqəmlər də bunu təsdiq edir. Ona görə də inkişaf etməkdə olan ölkələrdə həyata keçirilən xarici iqtisadi əlaqələr məhz bu istiqamətdə formalaşaraq onların dünya bazarındakı yerinin möhkəmləndirilməsinə yönəldilir. Ümumilikdə baxdıqda isə xarici iqtisadi əlaqələr ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının qlobal iqtisadi məkana inteqrasiyası yolunda əsas şərtdir. Bu baxımdan dünya ölkələri öz əhalisinin ümumi rifah halını yüksəltmək üçün beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum yararlanmağa, bunun üçün xarici iqtisadi əlaqələrin yaradılmasına çalışırlar. Eyni zamanda nəzərə alaq ki, qarşılıqlı mənfəət əsasında idxal-ixrac əməliyyatlarının aparılması beynəlxalq bazarın canlandırılmasına səbəb olur ki, bu da cəmiyyətin ümumi inkişafına öz töhfəsini verir.

Əvvəlcə onu qeyd etməliyik ki, hazırkı dövrdə istənilən dövlət üçün xarici iqtisadi əlaqələrin qurulması, ilk növbədə, həmin dövlətdən müstəqil siyasət yürüdülməsini tələb edir. Çünki qloballaşmış dünyada hər bir ölkənin beynəlxalq çərçivədə öz maraqları var. Bu maraqların təmin olunması isə o zaman mümkün olur ki, istənilən dövlət öz xalqının milli mənafeyi üçün qəti və müstəqil qərarlar qəbul etməyi bacarsın. Dolayısı ilə, yalnız müstəqil siyasət yürüdən, beynəlxalq əməkdaşlıqda etibarlı tərəfdaşa çevrilə bilən tərəflər bu və ya digər əlaqələrin qurulmasına öz töhfəsini verə bilərlər. Digər tərəfdən bu gün xarici iqtisadi əlaqələrin səviyyəsi ölkələrin iqtisadi gücünün və beynəlxalq aləmdəki nüfuzunun əsas göstəricilərindən biri hesab olunur. Bu nüfuz beynəlxalq arenada bir çox problemlərin həllində mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycanın beynəlxalq nüfuzu, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Azərbaycan dünyada, beynəlxalq arenada özünü etibarlı tərəfdaş kimi və etibarlı dost kimi təsdiq edə bilmişdir".

Naxçıvan Muxtar Respublikasında da xarici iqtisadi əlaqələrin inkişafı daim aktual olub. Bu sahədə ilk addımlar xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə atılıb. Belə ki, qonşu İran İslam və Türkiyə respublikaları ilə yaradılmış hərtərəfli əlaqələr iqtisadi sahədə də öz uğurlu nəticələrini göstərib. Xüsusilə muxtar respublikanın blokada vəziyyətinə salınması bir çox iqtisadi çətinliklərin yaranmasına vəsilə olub. Bu vəziyyətdən də çıxış yolu kimi adıçəkilən dövlətlərlə iqtisadi əlaqələrin qurulması böyük rol oynayıb. Doğrudur, bu iqtisadi əlaqələr ilk illərdə, əsasən, idxal məhsulları üzərində qurulsa da, sonrakı dövrlərdə muxtar respublikada milli iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər yerli məhsulların aparılan əməliyyatlarda daha çox paya sahib olması ilə nəticələnib. Son illərdə isə bu əlaqələr daha da inkişaf edərək özünün yeni mərhələsinə qədəm qoyub.

Muxtar respublikamızda son illər ixracyönümlü məhsul istehsalı prioritet məsələlərdən birinə çevrilmişdir. Belə ki, həyata keçirilən iqtisadi siyasətin nəticəsi olaraq muxtar respublikamızda 383 növdə məhsul istehsal olunur. Bu məhsulların 126 növü ərzaq, 257 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir.

Qeyd edək ki, hazırda muxtar respublikada 343 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Bununla yanaşı, Naxçıvandakı bir çox müəssisə artıq xarici bazarlarda özünəməxsus yer tutmağa başlamışdır.

Ötən dövrdə muxtar respublika iqtisadiyyatının dinamik inkişafı digər sahələrdə olduğu kimi, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə də öz təsirini göstərib. Belə ki, hazırda Türkiyə və İranla yanaşı, Rusiya, Gürcüstan, Ukrayna, Litva, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə də Naxçıvandan məhsullar ixrac olunur.

Artıq rəqabət indeksi göstəricisini ilbəil yaxşılaşdıran Naxçıvan MR-də xarici ticarət dövriyyəsinin tərkibində mühüm dəyişikliklər baş verib. Belə ki, ölkəmizdə yeni istehsal sahələrində buraxılan məhsullar daxili bazarda satılan analoji xarici malları tədricən sıxışdırıb çıxarıb, hətta bəzi hallarda ixraca da yönəldilib. Bu da son nəticədə daxili bazarın idxaldan asılılığının azaldılmasına imkan yaradır.

Belə ki, muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir.

İqtisadiyyatın şaxələndirilməsi və dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə də müsbət təsir göstərib. Bu baxımdan 2018-ci ilin ötən dövrünün nəticələri də diqqəti cəlb edir. Həmin dövrdə muxtar respublikada 344 milyon 334 min 800 Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınıb. Bunun da 306 milyon 639 min 400 ABŞ dollarını ixrac, 37 milyon 695 min 400 ABŞ dollarını isə idxal təşkil edib. Xarici ticarət üzrə 268 milyon 944 min ABŞ dolları həcmində müsbət saldo yaranıb. Bu gün doğma diyarımızda rəqabətqabiliyyətli, alıcı zövqünü oxşayan məhsullar istehsal edilir. Hazırda Naxçıvanda 350 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Aşağıdakı cədvəldə xarici ticarət əlaqələrinin dinamikası müqayisəli şəkildə göstərilmişdir.

**Xarici ticarət əlaqələrinin dinamikası**

**Min ABŞ dolları**

| İllər / Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|
| **Ticarət dövriyyəsi** | **511988,9** | **517427,2** | **512354,5** | **463244,8** | **459888,8** | **483431,6** |
| O cümlədən | 109573,3 | 108786,9 | 97933,9 | 44124,0 | 36568,8 | 59165,0 |
| ixrac | 402415,6 | 408640,3 | 414420,6 | 419120,8 | 423320,0 | 424266,6 |
| saldo | 292842,3 | 299853,4 | 316486,7 | 374996,8 | 386751,2 | 365101,6 |
| Əvvəlki ilə nisbətən faizlə | 101,1 | 99,0 | 90,4 | 99,3 | 105,1 | 101,1 |
| O cümlədən idxal | 99,3 | 90,0 | 45,1 | 82,9 | 161,8 | 99,3 |
| ixrac | 101,5 | 101,4 | 101,1 | 101,0 | 100,2 | 101,5 |

Mənbə: Naxçıvan Dövlət Statistika Komitəsi.

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaradıb, 2019-cu ilin yanvar-avqust aylarında 325 milyon 495 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb.

İstehsal olunan ixracyönümlü ərzaq məhsullarının keyfiyyəti də yüksəkdir. Müasir dünyada təbii məhsullara verilən üstünlük belə məhsulların xarici bazarlara çıxarılma imkanlarını artırır. Bu məqsədlə muxtar respublikada ilk dəfə olaraq məhsul ixracına dəstək üçün "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilib. Müəssisənin əsas vəzifəsi məhsulların respublika ərazisində satışının genişləndirilməsi, qablaşdırma, dizayn, markalanma və digər göstəricilərin yaxşılaşdırılması, xarici ölkələrə ixracın təşkil edilməsindən ibarətdir.

Bu gün ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara böyük dəstək verilir. Bu istiqamətdə həm ölkənin daxilində, həm də xaricdə mühüm iqtisadi tədbirlər, o cümlədən biznes forumlar, sərgilər, seminar və konfranslar keçirilir. Təkcə 2018-ci ilin ötən dövrü ərzində Almaniya, Rusiya, Türkiyə, İran, İraq, Küveyt, Gürcüstan, Pakistan, İtaliya, Latviya, Çin, Qazaxıstan, Çexiya və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrin nümayəndələri ilə keçirilmiş 8-i biznes-forum, 11-i sərgi, 1-i konqres olmaqla, ümumilikdə 20 beynəlxalq tədbirdə dövlət dəstəyi ilə muxtar respublikadan 123 sahibkarlıq subyektinin iştirakı təmin edilib. Bu tədbirlərin davamı kimi qarşılıqlı iqtisadi əlaqələrin inkişafı, ixrac və əməkdaşlıq imkanları məqsədilə 9 ölkənin rəsmi nümayəndə heyəti ilə 13 halda müxtəlif görüşlər keçirilib və fikir mübadilələri aparılıb.

Keçirilən beynəlxalq tədbirlər istər muxtar respublikanın biznes mühitinin və iqtisadi potensialının təbliği, istərsə də yerli sahibkarların işgüzar əlaqələrinin inkişafı baxımından

əhəmiyyətlidir. Xüsusilə xarici ölkələrdə təşkil edilən tədbirlər, eyni zamanda iqtisadiyyatın prioritet inkişaf istiqamətləri üzrə investisiya qoyuluşlarının həcminin artımında öz müsbət nəticələrini verməkdədir.

Qarşıda duran mühüm vəzifələrdən biri də ixracın həm məhsulların çeşidi, həm də coğrafiyası baxımından şaxələndirilməsidir. Bu məqsədlə "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi istiqamətində iş aparılır. Artıq muxtar respublika ixracatçıları xaricdə keçirilən sərgilərdə "Made in Azerbaijan" brendi altında vahid ölkə stendi ilə təmsil olunurlar. Bu çərçivədə cari ilin ötən dövrü ərzində Rusiyanın Həştərxan vilayətinə təşkil olunmuş ilk ixrac missiyasında muxtar respublikadan da nümayəndə heyəti iştirak edib və bu beynəlxalq sərgidə Naxçıvanda fəaliyyət göstərən "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin və Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin 22 çeşiddə mineral sularının nümayişi təmin olunub.

Muxtar respublika sahibkarları bu gün nəinki qonşu ölkələr, həmçinin dünyanın bir çox ölkəsi ilə yaxından əməkdaşlıq edirlər. "Ləzzət Qida Sənaye" MMC və "Gəmiqaya Mineral Sular" MMC Dubayda keçirilən ən nüfuzlu sərgilərdən biri olan "Gulfood-2018" sərgisində Naxçıvanın brend məhsullarından olan "Sirab", 3 növdə 19 çeşiddə "Badamlı" mineral suları nümayiş etdirib.

Növbəti ixrac missiyası 2018-ci il 24-26 oktyabr tarixlərdə İstanbulda təşkil olunmuşdur. Missiyaya qida, inşaat materialları, mebel istehsalı, turizm, yüngül və kimya sənayesi sahələrində fəaliyyət göstərən Azərbaycan şirkətləri ilə yanaşı, muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 20 nümayəndəsi daxil edilib. Missiya çərçivəsində "Badamlı Mineral Sular", "Şərur-3", "Savalan-S", "Ordubad Qənnadı Məmulatları" Məhdud Məsuliyyətli və Babək "Sirab" Açıq Səhmdar cəmiyyətlərinin nümayəndələri Türkiyədə qida, spirtli və spirtsiz içkilərin idxalı ilə məşğul olan TADCO Gida Pazarlama İç və Dış Ticarət LTD şirkətinin nümayəndəsi ilə ikitərəfli görüşlər keçirib, Naxçıvan məhsullarının Türkiyəyə ixracının genişləndirilməsinə dair müzakirələr aparılıb.

Muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və beynəlxalq tələblərə cavab verən laboratoriya fəaliyyət göstərir. İxrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar da məhz buradan təmin edilir. Belə ki, 2018-ci ilin ötən dövrü ərzində verilmiş 103 halda mənşə sertifikatları muxtar respublikada istehsal edilən məhsulların beynəlxalq tələblərə uyğun yoxlanılmasını təmin etməklə müəssisələrin xarici ölkələrə məhsul ixracını asanlaşdırıb. Aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də investisiyaların təşviqi ilə bağlı həyata keçirilən tədbirlərdir. İnvestisiya təşviqi sənədi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, eləcə də stimullaşdırılmasına nail olmaq məqsədi daşıyır. Xarici bazarlara çıxışın təmin edilməsində muxtar respublikada fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, onlara xarici bazarlara çıxış üçün müxtəlif dəstək mexanizmlərinin tətbiqi dairəsi genişlənir

Sahibkarların mütəmadi olaraq maarifləndirilməsi, onlara texniki və metodik dəstək göstərilməsi istiqamətində muxtar respublikanın İqtisadiyyat Nazirliyi tərəfindən mütəmadi seminar və təlimlər təşkil olunur. Məhsulların virtual məkanda təbliği, satışı şəbəkəsinin genişləndirilməsi, yeni məhsulların yaradılması, inkişaf etdirilməsi və digər bir çox sahədə lazımi dəstək göstərilir. Bu məqsədlə Naxçıvan Biznes Mərkəzində Beynəlxalq Ticarət Mərkəzinin (İTC) dəstəyi ilə Avropa İttifaqına məhsul ixracı imkanları, bazar tələbləri, müasir marketinq alətləri, beynəlxalq sərgilərdə iştirak qaydaları və daha yaxşı nəticələrin əldə edilməsi mövzularında təlim təşkil edilib.

İxracın artırılması üçün qarşıda duran əsas vəzifələr rəqabətqabiliyyətli və yüksəkkeyfiyyətli məhsul istehsalının təşviqinə, müəssisələrin mövcud potensialının inkişafına, məhsulların daha geniş məkanda təbliğinə və real sektorda dayanıqlı ixraca nail olmaqdan ibarətdir. Gələcəkdə bu istiqamətlərdə həyata keçirilən tədbirlər daha da gücləndiriləcəkdir.

Müasir dövrdə müxtəlif ölkələr xarici iqtisadi əlaqələrin mürəkkəb və çoxcəhətli sistemi ilə qarşılaşır və ondan maksimum istifadə etməyə cəhd edirlər. Hər bir ölkənin milli iqtisadiyyatı xarici iqtisadi əlaqələrin müxtəlif formaları ilə beynəlxalq iqtisadiyyata qoşulur, onun nailiyyətlərindən necə istifadə etməsindən asılı olaraq müəyyən səmərə götürə bilir. Bu öz-özünə baş verən proses

olmayıb, yalnız ölkələrin məqsədyönlü xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması və onun hüquqi tənzimlənməsi yolu ilə mümkün ola bilər. Xarici iqtisadi əlaqələrin mərkəzində isə xarici ticarət əlaqələri dayanır. Buna görə də xarici ticarət əlaqələrinin hüquqi təminat sistemi və onun həyata keçirilmə mexanizmləri bu gün xüsusi aktuallıq kəsb edir.

## ƏDƏBİYYAT

1. www.statistika.nmr.az-Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi
2. www.in.nakhchivan.az.-Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi
3. www serqqapisi.az
4. www.tpao.com
5. www.azstat.az
6. www nakhchivan.preslib.az
7. www.academia.edu

## РЕЗЮМЕ

**Мадина Аллахвердиева**

## РОЛЬ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Внешнеэкономические связи имеют большое гуманитарное и политическое значение. Так как, прямые экономические контакты возможны только при наличии сильного политического диалога между странами. Поэтому внешнеэкономические связи являются результатом дружеских отношений и одной из основных причин его укрепления. Яркие цифры во внешнеторговом обороте стран, имеющих тесные дружеские отношения на международной арене, подтверждают это сегодня. Поэтому внешнеэкономические связи в развивающихся странах формируются в этом направлении и направлены на укрепление их позиций на мировом рынке.

**Ключевые слова:** ВВП, внешнеэкономические связи, внешнеторговый цикл, импорт, экспорт, мировой рынок, промышленные предприятия, промышленные товары, экспортно-ориентированные товары, приоритет

## SUMMARY

**Madina Allahverdiyeva**

## THE ROLE OF FOREIGN ECONOMIC RELATIONS IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Foreign economic relations are of humanitarian and political significance. Thus,direct economic relations emergy when there are only political negotiations between countries. Therefore, foreign economic relations as a result of friendship relationship,are also one of the main causes of its consolidation. Nowadays, padded billsin foreign trade circlucation of the countries having close friendship relations with each other in the international universe confirm it as well. That is why,foreign economic relations carried out in developed countries are oriented to the fixations of its place in the world market namely forming in this directions.

**Key words:** GPD, foreign economic relations, foreign trade circulation, important, exportation, world market, production institutions, industrial production, priority.

## MÜNDƏRİCAT

### I BÖLMƏ. MÜHASİBAT UÇOTU, MALİYYƏ VƏ İQTİSADİ TƏHLİL


1. **Teymur Abbasov.** İqtisadi inkişafın Naxçıvan modeli və mühasibat uçotunun beynəlxalq standartlara keçməsinin zəruriliyi........ 3
2. **Mübariz Bağırov, Nigar Tağıyeva.** Bank sisteminin sabitliyinin təmin edilməsində anti-böhran tədbirlərin rolu........ 8
3. **Mübariz Bağırov, Orxan Bağırov.** Azərbaycanda iqtisadi diverifikasiyanın maliyyə səmərəliliyinin qiymətləndirilməsi........ 11
4. **Mehdi Bağırov.** Müasir mərhələdə “regional yenilənmələr – mühasibat uçotunun uyğunlaşdırılması” tandeminin problemləri və onların aradan qaldırılması yolları........ 15
5. **Nuriyyə İbrahimova, Bəhriyyə Abbasova.** Gəlirlər və xərclər müəssisənin maliyyə nəticələrinin formalaşmasının iqtisadi bazası kimi........ 20
6. **Kəmalə Təhməzbəyova.** Milli mühasibat uçotu standartlarının iqtisadi konsepsiyası........ 25
7. **İlham Hüseynov.** Müasir şəraitdə Naxçıvan regionunun inkişafında aqrar təmayüllü dövlət maliyyələşmələrinin rolu........ 28
8. **Abdulla Abdullayev.** Müasir iqtisadi şəraitdə mühasibat uçotunun aktual problemləri........ 33


### II BÖLMƏ. ÜMUMİ İQTİSADİYYAT


9. **Ağarza Rüstəmov, Əbdülhüseyn Zamanov.** Naxçıvan Muxtar Respublikasının ixrac potensialının müasir vəziyyəti və problemləri........ 37
10. **Zəhmət Şahverdiyev.** 1993-1995-ci illərdə Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafının təhlilinə dair........ 44
11. **Gülarə Rəhimova, Elşən Məmmədov.** Reqressiya tənliyinə əsasən proqnoz səhvinin müəyyən olunması........ 48
12. **Dilsuz Qasımov.** İqtisadi inkişafın “Naxçıvan möcüzəsi”........ 55
13. **Həvva Adıgözəlova.** İntellektual kapital idarəetmə obyekti kimi........ 58
14. **Mayisə Abbasova.** Naxçıvan Muxtar Respublikasında ərzaq resurslarının təhlükəsizliyi........ 62
15. **Məhsəti Əsgərova.** Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına yönəlmiş dövlət siyasətinin əsas istiqamətləri........ 65
16. **Bəhram Həsənov.** Naxçıvan Muxtar Respublikasında aqrar istehsalın mövcud vəziyyəti və inkişaf istiqamətləri........ 69
17. **Rauf Rəhimov.** Naxçıvan Muxtar Respublikasında ixrac potensialının artması düşünülmüş iqtisadi siyasətin nəticəsidir........ 73
18. **Səxavət Heydərli.** Müasir dövrdə respublikamızda ərzaq bazarının formalaşması və inkişaf xüsusiyyətləri........ 77
19. **İlkin Şəkərəlisoy.** Sahibkarlığın inkişafının regional problemləri........ 81
20. **Xatirə Qasımova.** Naxçıvan Muxtar Respublikasının su ehtiyatından istifadə edilməsinin səmərəliliyinin yüksəldilməsi yolları........ 85
21. **Amar Qasımov.** Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında kiçik və orta sahibkarlığın rolu........ 89


### III BÖLMƏ. SAHƏ İQTİSADİYYATI VƏ XARİCİ TİCARƏT


22. **Ceyhun Mahmudov.** Xarici iqtisadi əlaqələrin liberallaşdırılması şəraitində regional inkişaf və iqtisadi təhlükəsizliyin təmin edilməsi problemləri........ 93
23. **Müslüm Cabbarzadə.** “Startap Naxçıvan” hərəkatı: uğurlu innovasiyalar üçün səmərəli əməkdaşlıq modeli........ 98

**24. Əşrəf Ələkbərov.** Naxçıvan Muxtar Respublikasında ərzaq bazarının təkmilləşdirilməsinin əsas istiqamətləri ........ 101
**25. Nazim Əhmədov.** Azərbaycanda aqrar islahatların əsası ilk dəfə Naxçıvanda qoyulmuşdur ...... 106
**26. Mehriban İmanova.** Naxçıvan Muxtar Respublikasında sənayeləşmə siyasətinin yeni mərhələsi: Şərur sənaye məhəlləsi ........ 110
**27. Əli Həsənov, Ülviyyə İsgəndərova.** Babək rayon Cəhri bələdiyyəsinin aqroresurs potensialı və onun iqtisadi-coğrafi qiymətləndirilməsi ........ 115
**28. İradə Bağırova, Xəyal Heydərov.** Ulu öndər Heydər Əliyevin strategiyası Azərbaycanın hərtərəfli inkişafının əsas təməlidir ........ 120
**29. Şahin Əliyev.** Aqrar-sənaye kompleksinin inkişafında nəqliyyat sektorunun rolu ........ 125
**30. Həsən Abbasov.** Müasir dövrdə Naxçıvan Muxtar Respublikasında aqrar sahənin iqtisadi vasitələrlə tənzimlənməsinin xüsusiyyətləri ........ 131
**31. Ülvi Baxışlı.** Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafında dövlət dəstəyinin rolu və onun nəticələri ........ 137
**32. Mədinə Allahverdiyeva.** Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xarici iqtisadi əlaqələrin rolu ........ 141

Nəşriyyat direktoru: Samir Tarverdiyev
Mətbəə müdiri: Vidadi Kazımov
Aparıcı redaktor: Günel Məmmədova
Aparıcı redaktor: Sitarə Əlizadə
Aparıcı korrektor: Roza Abdullayeva

Yığılmağa verilib: 03. III. 2020
Çapa imzalanıb: 08. IV. 2020
Formatı: 60/90, 32/1, həcmi 9.1 ç/v
Sifariş № 36, sayı 100 nüsxə

NDU-nun "Qeyrət" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**Redaksiyanın ünvanı:** *7012. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti*

**Telefon**: (+994 036) 545-45-59
(+994 036) 544-08-61

**E-mail:** *elmi.hisse@mail.ru*